# Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası

# ATKE

IX cild

Bakı-2020

38.92+85,11(5 Aze)
A 88

İdeya müəllifi:
**İbrahimov Bəhram Məhəmməd oğlu**

Redaktor və nəşrə hazırlayan:
**Zərbalı Mirzə**

Redaksiya heyəti:
Allahverdiyev Zərbalı Mirzə oğlu (Zərbalı Mirzə),
Poluxov Nazim Şamil oğlu, Məmmədzadə Rauf İbadulla oğlu, Əhədov Adil Əhməd oğlu,
Şixalıyev İkram Əli oğlu, Ağayev Seyfəddin Cüleyxan oğlu, Alıyev Məzahir Şahniyar oğlu,
Camalov Əlvan Şahbaz oğlu, Məmmədov Yusif Xamməd oğlu.

**"Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" (ATKE) IX cild.**
Bakı, "Şərq-Qərb", 2020-ci il. 216 səh.

"Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" (ATKE) kitabının 9-cu cildində Azərbaycan məmləkətini kərpic-kərpic tikib abadlaşdıran memar və inşaatçılarımızın həyat və ömür yollarından qısa və lakonik dillə oxuculara məlumat verilir. Onların arasında memarı da var, inşaatçısı da, naziri də var, fəhləsi, bənnası da, hamının tanıdığı məhşurları da var, çox az adamın tanıdığı, lakin böyük işlər görən tanınmamışlar da var. Kitabı bu şəkildə tərtib etdik ki, müstəqil Azərbaycanımızın bu günkü qurucularını hamı tanısın və hörmət eləsin.

Kitabda həmçinin milli memarlıq tariximizin inciləri olan qədim və müasir arxitektura tikililərinin, həm də hələ layihə olan gələcək memarlıq nümunələrinin foto-şəkilləri də oxuculara təqdim olunur.

Əminik ki, geniş tikinti ictimaiyyəti üçün nəzərdə tutulan bu ensiklopediya inşaatçı və memarlarımızın stolüstü kitabına çevriləcəkdir.

# ÖN SÖZ

Bəşər tarixinin başlanğıcı ibtidai insanların yaşadığı təbii mağaralardan başlayır. İlk insanlar yarandığı vaxtdan onun əzəli düşüncəsi özünə dalqalanmaq üçün yer tapmaq olub və onu yararlı hala çevirməklə tikinti fəaliyyətinə başlamışdır. Azərbaycan ərazisində Böyük və Kiçik Qafqaz dağlarının ətəklərində, Talış dağlarında, Naxçıvan MR-da, Zəngilan, Kəlbəcər, Gədəbəy, Xanlar, Şamaxı və nəhayət, Füzuli rayonu ərazisində aşkar edilmiş Azıx mağarası buna misaldır.

Qobustanda aşkar edilmiş ən qədim yaşayış yerləri (mağaralar, müxtəlif primitiv sığınacaqlar və s.) ilə yanaşı, meqalit memarlıq abidələri – kromlexlər, menhirlər (çoban daşı), dolmenlər və siklop tikililəri geniş yayılıb. Hündür daşlardan quraşdırılmış bu qurğular el arasında "qalaça", yaxud "hörükdaş" adlanır.

Azərbaycan ərazisində e.ə. IX-VII əsrlərdə şəhərlər əmələ gəlib, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilib. VII əsrdən Azərbaycanda islam dininin yayılması ilə bağlı memarlığın da inkişaf yönü dəyişmişdir. Memarlıqda yeni tipli binaların – məscid, mədrəsə, türbə, karvansara və s. tikilməsi əsas xətt olmuşdur. XII-XIII əsrlərdə Azərbaycanda bir sıra möhtəşəm körpülər salınıb. XV-XVI əsrlərdə də Azərbaycan memarları başqa ölkələrdə də fəaliyyət göstərmiş, müxtəlif şəhərlərdə maraqlı sənətkarlıq örnəkləri yaratmışlar. XVII-XVIII əsrlərdə ticarətin inkişafı ilə bağlı, müxtəlif binaların tikintisi genişlənib.

Neft sənayesinin sürətli inkişaf etdiyi XIX-XX əsrlərin ayrıcında Azərbaycan memarlığında yeni təzahürlər müşahidə olunub. XIX əsrdə yaşayış binaları istisna olmaqla, ən xarakterik bina tipi ticarət binaları idi. Sovet dövrü Azərbaycan memarlığının ilk mərhələsi Bakı ətrafında fəhlə qəsəbələrinin (Binəqədi, Bakıxanov, Montin, Məmmədyarov) salınması ilə əlaqədar olub.

Müstəqillik qazanandan sonra da, Bakının ən görkəmli yerlərində gözəl memarlıq ansamblları yaradılmış, şəhərin simasını müəyyən edən müasir binalar, göydələnlər tikilmişdir.

Bu gün tikinti sözün əsil mənasında geniş əhatəli, mürəkkəb bir quruculuq sahəsidir. Ölkəmizdə inşaat işləri ilə məşğul olan, ölkə tikinti kompleksində və layihələndirmə sahəsində müstəsna əməyi olan, sözün əsil mənasında inşaatçı və memarların adlarını əbədiləşdirmək istəyimiz bu kitabın yazılmasına stimul verdi.

Ensiklopediyada ömür yollarına bələdçilik etdiyimiz inşaat mühəndislərinin, memar və layihəçilərin çoxu uzun illərdir ki, ölkə tikintisinin ayrı-ayrı bölmələrinə səriştə ilə

rəhbərlik etmiş insanlardır. Onlar öz ləyaqətləri, bacarıq və qabiliyyətləri ilə örnək olduqları kimi, həm də gənc inşaatçı və memar kadrların yetişdirilməsi naminə əllərindən gələni etmişlər və bu gün də xeyirxah missiyalarını davam etdirirlər. Onlar fərqli zaman kəsiklərində yaşayıb yaratsalar da, eyni məqsəd və amal naminə çalışmış və bu gün də çalışmaqdadırlar.

Dəyərli oxucularımıza təqdim etdiyimiz "Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" kitabının IX cildində də belə seçilən insanların şərəfli ömür yolu və qazandıqları uğurlar qısa və konkret olaraq qələmə alınmışdır. Onu da qeyd edək ki, bir çox obyektiv və subyektiv səbəblər üzündən kitabın əvvəlki 8 cildində tikinti kompleksində böyük xidmətləri olan məşhur və tanınmış inşaatçıların bəziləri haqqında heç bir məlumat əldə edə bilmədiyimiz üçün onlara yer verə bilməmişik. Arxiv materiallarında dəqiq tərcümeyi-halların, şəkillərin olmaması, bir sıra təşkilat və qurumların tamamilə ləğv edilməsi, bir sıra səhmdar cəmiyyətlərin rəhbərliyinin bu məsələyə biganə münasibət göstərməsi və s. səbəblər ucbatından adlarını tarixin daş yaddaşına yazmış çox sayda memar və inşaatçılar haqqında "Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" kitabının IX cildində də tam olaraq bəhs edə bilmədik. Ona görə də onlar haqqında kitabın sonrakı cildlərində bəhs edəcəyik.

Ancaq biz öz axtarış və tədqiqatlarımızı ardıcıllıqla davam etdirir, bir sıra qurumların, təşkilat və səhmdar cəmiyyətlərin rəhbərləri ilə danışıq aparır, vəfat etmiş dəyərli insanların ailə üzvləri və dost-tanışları ilə əlaqə yaradaraq doğma Azərbaycanımızın tikilib böyüməsində uzun zaman içərisində fədakar əmək nümayiş etdirmiş inşaatçı-mühəndislərimiz haqqında dolğun məlumatlar əldə etməyə çalışırıq. İnanırıq ki, yaxın gələcəkdə hörmətli oxucularımıza təqdim edəcəyimiz bu kitabın X cildində oxucularımızın hərtərəfli dəstəyi və köməyi ilə V.L.Pyatibrat. Ə.Ə.Əliyev, R.M.Abdullayev, R.Səlimzadə, M.B.Kabakov, F.Eyvazov, H.S.Şahsuvarov, R.Ağahüseynov, D.Qayıbov, M.N.Mərdanov, N.Ə.Məmmədov, N.Ə.Məmmədov, Ə.S.Həsənov, O.S.Əsədov, T.Məmmədov, M.Kasimov, Ş.Musayev, A.İ.Qulamov, S.Bədəlbəyli, O.M.Məmmədov, Ə.Q.Kərimov, Z.Ə.Mustafayev, K.Əliyarzadə, N.A.Sadıxov, Z.İ.Abdullayev, Dağkəsəmənski, R.İ.Rzayev, H.Rzayev, S.S.Sadıxov, X.M. Sadıxov, İ.Şaxverdiyev, Ş.Məmmədov, Z.Bənəniyarlı, M.Seyidov, M.Gözəlov, N.Z.Bekker, F.A.Qoltsman, D.Muğanlinski, A.Bədəlov, Q.M.Məmmədov, İ.R. Əfəndiyev, A.Qasımov, S. Hüseynov, Ə.R.Topçiyev, O. Zeynalov, O.Z.Hacıyev, O.M.Hüseynov, H.N. Həsənov və Azərbaycanımızın tikinti-quruculuq tarixində iz buraxmış digər yüzlərlə tanınmış inşaat korifeylərinin də həyat yolunu əbədiləşdirməyə nail olacağıq.

Çox istərdik ki, diqqətli oxucularımız vacib saydıqları və tikintidə əməyi olan ayrı-ayrı dəyərli insanlar-inşaat mühəndisləri haqqında bildikləri məlumatları bizə çatdırsınlar. Bunun üçün onlara əvvəlcədən minnətdarlığımızı bildirir və əlaqə telefonlarımızı xatırladırıq:

(050) 358 91 67
(077) 513 86 13

# A



**Abbasov Nadir Əhməd oğlu**

10 iyun 1954-cü ildə Şəki rayonunun Baş Zəyzit kəndində anadan olmuşdur. 1961-ci ildə Zəyzit kənd orta məktəbinin birinci sinfinə getmiş və 1971-ci ildə həmin orta məktəbin 10-cu sinfini müvəffəq qiymətlərlə bitirmişdir.

Nadir Abbasov 1971-ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə qəbul olunmuş və 1976-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsini "Sənaye və mülki tikinti" ixtisası üzrə bitirmişdir.

O, institutu bitirib təyinatla Bakı şəhərində yerləşən "Azərneftkimya" Layihə İnstitutunun inşaat bölməsində mühəndis vəzifəsində 1976-1978-ci illərdə çalışmış, ilk təcrübəsini qazanmışdır.

N.Ə. Abbasov 1978-ci ilin dekabrından Azərbaycan SSR Sənaye Tikinti Nazirliyinin 4 nömrəli trestinin 4 nömrəli İstehsalat Tikinti Dəstləşdirmə İdarəsində normalaşdırıcı vəzifəsinə işə qəbul olunmuş, daha sonra 4 nömrəli İstehsalat Tikinti Dəstləşdirmə İdarəsində usta (1980-1982), köməkçi istehsalat sahəsinin müdiri (1982-1988), baş mühəndis əvəzi (1988 avqust-oktyabr), baş mühəndis (1988-1991) vəzifələrində işləmişdir. Nadir Abbasovun Sənaye Tikinti Nazirliyinin 4 nömrəli trestinin 4 nömrəli İstehsalat Tikinti Dəstləşdirmə İdarəsində çalışdığı illər onun ölkə tikintisində kamil inşaatçı-mühəndis kimi yetişib formalaşdığı illərdir. Və artıq bu illərdə topladığı zəngin təcrübə və geniş praktiki biliklər sonrakı fəaliyyət illərində onun qolundan tutur, uğurlar qazanmasına yardımçı olur.

N.Ə. Abbasov 19 iyun 1991-ci il tarixdə Azərbaycan Dövlət Dəmir Yolu İdarəsinin "Azərdəmiryoltikinti" İstehsalat Birliyinin rəis müavini vəzifəsinə təyin olunur və burada 3 ay işlədikdən sonra "Azərdəmiryoltikinti" trestinin DBK və İH zavodunun direktoru vəzifəsinə təyin olunur və 1998-ci ilə kimi bu vəzfədə qüsursuz çalışır.

O, 1999-cu ilin yanvar ayında "Azərdəmiryoltikintiservis" İstehsalat Birliyinin 1 saylı İxtisaslaşdırılmış Müəssisəsinin rəisi təyin olunmuş və 2004-cü ilə kimi burada çox böyük uğurlara imza atmışdır.

Nadir Abbasov daha sonra "Yolnəqliyyatservis" Departamentinin Də-

mir Yolu Konstruksiyaları" MMC-nin 1 saylı İxtisaslaşdırılmış Müəssisəsinin rəisi (2004-2006), 66 saylı Yol İstismar Müəssisəsinin rəisi (2006-2008), "Azəriyolservis" ASC-nin 66 saylı Yol İstismar İdarəsinin rəisi (2008-2016) vəzifələrində çalışmışdır.

N.Ə. Abbasov 2016-cı ildən bu günə kimi "Azəravtoyol" ASC-nin, sonra isə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 4 saylı XTYİ MMC-nin direktoru vəzifəsində çalışır.

Nadir Abbasov çoxilik əmək fəaliyyəti illərində rəhbərlik etdiyi təşkilatlarda respublika əhəmiyyətli yüzlərlə yol layihələrinin həyata keçirilməsi üçün lazım olan dəmir beton məmulatlarının istehsalını yüksək səviyyədə nizamlamış və bu gün də öz fəaliyyətini uğurla davam etdirir.

Ailəlidir, üç övladı var. Oğlu Eldar ali təhsillidir və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində mühəndis vəzifəsində çalışır. Qızları Kəmalə və Sevda ailəlidirlər.

Nadir Abbasovun əməyi çalışdığı bütün nazirlik, baş idarə və təşkilatlarda hər zaman rəhbərik tərəfindən qiymətləndirlmiş, dəfələrlə pul mükafatları, qiymətli hədiyyələr almış, Fəxri Fərmanlarla təltif olunmuşdur.

N.Ə. Abbasov bu gün Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 4 saylı XTYİ MMC-nin direktoru kimi fəaliyyətini uğurla davam etdirir, respublika Prezidenti cənab İlham Əliyevin Sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsində ona tapşırlan bütün işlər bir qayda olaraq məsuliyyətlə və yüksək peşəkarlıqla icra olunur.



**Abdullayev Elmir Ramazan oğlu**

05.03.1950-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1967-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, 1972-ci ildə memarlıq fakultəsini müvəffəqiyyətlə bitirmişdir. Tələbə vaxtı çox aktiv, elmi işlərə meylli olmuş, Ümümittifaq tələbələrin elmi-tədqiqat işlərinə baxış üzrə SSRİ Təhsil Nazirliyinin diplomuna layiq görülmüşdür. 1972-ci ildə Bakı şəhərində yeni yaradılmış Tbilisi Zona Elmi-Tədqiqat və Eksperimental Layihə İnstitutun (ТбилЗНИИЭП) mühəndis vəzifəsinə işə qəbul olunmuşdur.

Burada kiçik elmi işçi vəzifəsində çalışaraq 1974-cü ildə Moskva şəhərində Mərkəzi Şəhərsalma Elmi-tədqiqat və Layihə İnstitutunın (ЦНИИП градостроительства) əyani şöbəsinin aspirantı və kiçik elmi işçisi vəzifəsində fəaliyyət göstərmişdir. 1979-cu ildə həmin institutda dissertasiya müdafiə edərək, memarlıq namizədi elmi dərəcəsinə layiq görülmüşdür. 1979-1980-ci illərdə "Azərkəndtikintilayihə" İnstitunun Rayon planlaşdırma şöbəsinin baş mütəxəssisi, baş memarı və rəis müavini vəzifəsində işləmişdir. 1980-ci ildə Azərbaycan Dövlət Tikinti Komitəsinə yüksək vəzifəyə irəli çəkilmiş və 1989-cu ilin ortalarına qədər Mülki-Yaşayış İdarəsinin rəisi vəzifəsində çalışaraq, Azərbaycan Respublikasının bir sıra rayonlarının-29 ərazinin rayon-planlaşdırma layihələri, həmçinin bir neçə mühüm layihələr üzərində işləmişdir. 1989-1994-cü illər "Azərdövlətbaşlayihə" İnstitutunda baş mühəndisin müavini, baş mütəxəssis, direktor müavini,

1994-1996-cı illərdə isə Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin Şəhərsalma və Məskunlaşma baş idarəsinin rəisi vəzifəsində çalışmışdır.

Bu illər ərzində Elmir müəllim AzİMETİ ilə sıx əlaqədə olmuşdur. Qeyd etmək lazımdır ki, E.Abdullayev ölkəmizdə şəhərsalma və məskunlaşma sahəsində ilk mütəxəssislərdən biri olmuşdur. 1996-cı ilin sonlarında o, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə yeni yaradılmış Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Agentliyə layihə və planlaşdırma üzrə menecer vəzifəsinə dəvət olunur və bu günə kimi burada uğurla fəaliyyət göstərir. Elmir Abdullayev, eyni zamanda, Memarlıq və İnşaat Universitetinin "Memarlıq layihələndirilməsi və şəhərsalma" kafedrasında pedaqoji fəaliyyətini davam etdirərək yeni cavan kadrların hazırlanmasında öz töhfəsini verir.

Elmir Ramazan oğlu Abdullayev özünü peşəkar mütəxəssis, savadlı, yüksək idarəçilik qabiliyyətinə, intellektə malik mühəndis-memar kimi göstərmişdir. O, dövlətinə, xalqına sədaqətlə xidmət edən, yüksək mənəvi əxlaqi keyfiyyətlərə malik ziyalı azərbaycanlıdır.



**Abdullayev Məhəmməd Abdulla oğlu**

1957-ci il dekabr ayının 17-də Azərbaycan Respublikası, Qax rayonunun İlisu kəndində anadan olmuşdur.

Uşaqlıq illərini doğma kəndində keçirmiş, 1965-ci ildə İlisu kənd orta məktəbində ibtidai təhsilinə başlamışdır. 1975-ci ildə həmin məktəbdə orta təhsilini başa vurmuşdur.

1975-ci ilin may ayından 1978-ci ilin iyul ayınadək hərbi xidmətdə olmuşdur.

1979-1984-cü illər ərzində Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Maliyyə və kredit fakültəsinə daxil olmuş və axşam şöbəsində təhsil almışdır.

1978-1980-ci illərdə əmək fəaliyyətinə "Bakı un zavodu"nda çilingər-usta kimi başlamışdır.

1980-1982-ci illərdə Tədarük Nazirliyinin Layihə-Smeta Bürosunda mühasib-iqtisadçı vəzifəsində işləmişdir.

1982-1989-cu illərdə həmin nazirliyin Məlumat Hesablama Mərkəzində iqtisadçı, mühəndis-proqramçı və şöbə müdiri kimi fəaliyyət göstərmişdir.

1989-1992-ci illər ərzində Bakı Taxıl Məhsulları Kombinatında iqtisadçı, baş mühasib, plan iqtisad şöbəsinin rəisi, direktor müavini vəzifələrində və "Dərnəgül" MMC-nin baş direktoru vəzifəsində fəaliyyətini davam etdirmişdir.

1992-1993-cü illərdə "Aqrar Sənaye Kompleksi İşçiləri Həmkarlar İttifaqı" Bakı şəhər komitəsində sədr vəzifəsində çalışmışdır.

1993-2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Material Ehtiyatları Komitəsində sədr müavini vəzifəsini yerinə yetirmişdir.

2006-2008-ci illəri əhatə edən dövrdə Asiya İnkişaf Bankının "Selə Qarşı Tədbirlər" Layihəsinin rəhbəri vəzifəsini icra etmişdir.

2008-2009-cu illərdə "Azərkörpü" ASC-də İqtisadi məsələlər üzrə sədr müavini vəzifəsində işləmişdir.

2009-2015-ci illərdə Dünya bankının "Milli Su Təchizati və Kanalizasiya Xidmətləri layihəsinin rəhbəri vəzifəsini icra etmişdir.

M.A. Abdullayev 2015-ci ildən bu günədək Avro-Asiya İnşaat Korporasiyası Evrascon ASC-də İqtisadi məsələlər üzrə sədr müavini vəzifəsində çalışır. O, şirkətdə işinin peşəkarı olan yüksək səviyyəli mütəxəssis, düzgünlüyü sevən dürüst və nəcib insan kimi tanınır və sevilir.

Eyni zamanda hər zaman öz üzərində çalışan Məhəmməd müəllim ona tapşırılan bütün işləri bir qayda olaraq yüksək peşəkarlıqla icra edir və əməyi şirkət rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir.

Mühim vəzifələrdə çalışdığı illər ərzində "Fəxri dövlət ehtiyatçısı", "Rusiya və Ukraynanın fəxri xilasedicisi" adlarına layiq görülmüş, çoxsaylı elmi məqalələrin və elmi əsərlərin müəllifi olmuşdur. Amerika, Rusiya və Ukrayna dövlətlərinin medalları, bir sıra dövlətlərin fəxri fərmanları, habelə respublikamızın bir sıra təltifləri ilə mükafatlandırılmışdır.

Ailəlidir, bir qızı, bir oğlu var.

Doğma vətəni və ailəsi ilə fəxr edən Məhəmməd Abdullayev bir təcrübəli iqtisadçı-mühəndis kimi bu gün zəngin bilik və bacarıqlarını gənc nəslə həvəslə öyrədir.



**Ağayeva Rəfiqə Abbas qızı**

1945-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1963-cü ildə 132 saylı orta məktəbi bitirərək, həmin il Azərbaycan Neft Kimya İnstitutuna daxil olmuş və 1968-ci ildə bitirmişdir. İnstitutu bitirdikdən sonra Sumqayıt və Bakı şəhərində bir neçə Elmi-Tədqiqat İnstitutlarında işləmişdir. 1982-1986-cı illər Ümumittifaq Su Problemləri Elmi-Tədqiqat İnstitutunun Bakı filialında kiçik elmi işçi vəzifəsində işləmişdir.

25 fevral 1986-cı ildən Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunda "Özüllər və bünövrələr" laboratoriyasında böyük mühəndis vəzifəsində çalışmışdır. 17 iyul 1987-ci ildən "Özüllər və bünövrələr" laboratoriyasında kiçik elmi işçi vəzifəsinə müsabiqə ilə təsdiq edilmişdir, 1995-1996-cı illərdə "İnşaat konstruksiyaları" laboratoriyasında böyük elmi işçi vəzifəsində çalışmışdır.

19 may 1988-ci ildə Moskvada E.E.Alekseyeviç adına Ümumittifaq Su Təsərrüfatı Elmi Tədqiqat İnstitutunda texnika elmləri namizədi alimlik dərəcəsi adını almaq üçün dissertasiya müdafiə etmiş və 14 dekabr 1988-ci ildə texnika elmləri namizədi diplomuna layiq görülmüşdür.

26 oktyabr 1994-cü ildə "Meliorasiya sistemlərinin tikintisi" ixtisası üzrə baş elmi işçi adına layiq görülmüşdür. Öz ixtisası üzrə 20-dən çox elmi məqalənin müəllifidir.

27 mart 1990-cı ildə Bakı şəhəri 26 Bakı Komissarları rayon sovetinin qərarına əsasən "Əmək veteranı" medalına layiq görülmüşdür. 18 iyul 1997-ci ildən təqaüdçüdür.

Rəfiqə xanımın əməyi çalışdığı bütün illərdə Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun rəhəbrliyi tərəfindən yüksək qiymətləndirilmiş, fəxri fərmanlarla, qiymətli hədiyyələrlə və pul mükafatları ilə təltif olunmuşdur.

Rəfiqə xanım əməksevərliyi, mehribanlığı, səmimiliyi ilə AzİMETİ-nin kollektivinin yaddaşında qalmışdır.



**Akimov**
**Kamil**
**Əlisoltan oğlu**

1927-ci il iyulun 11-də Sabirabad şəhərində sənətkar ailəsində anadan olub.

1947-ci ildə Bakı Neft Texnikumunu fərqlənmə diplomu ilə bitirdikdən sonra təhsilini Azərbaycan Sənaye İnstitutunda davam etdirib və eyni zamanda Neftayırma zavodunda operator köməkçisi kimi əmək fəaliyyətinə başlayıb. 1952-ci ildə ali təhsilini neft və qazın emalı üzrə mühəndis-texnoloq ixtisası ilə başa vurduqdan sonra zavodun ən məhsuldar qurğularından birinə rəis təyin edilib.

Kamil Akimov istehsalatda çalışmaqla yanaşı elmi axtarışlarını davam etdirib, neft emalı sənayesi sahəsində 30-a yaxın təklifin, 10-a yaxın ixtiranın müəllifi olub. Bu illər ərzində o, neftayırma sənayesi işçiləri, texnikum və institut tələbələri üçün dərsliyin və bir neçə kitabçanın çapdan çıxmasına nail olub.

O, 1962-ci ildə zavodun baş mühəndisinin müavini, 1963-cü ildə Azərbaycan KP MK, respublika Nazirlər Soveti yanında yeni təşkil olunmuş Partiya Dövlət Nəzarət Komitəsinin neft və kimya sənayesi şöbəsinə rəis müavini, 1964-cü ildə isə Ə.Qarayev adına neft emalı zavoduna direktor vəzifəsinə təyin edilib.

Kamil Akimov zavoda rəhbərlik etdiyi illərdə qurğuların yeni texnologiya əsasında təkmilləşdirilməsi, istismarı və təmiri işləri ilə məşğul olaraq, qısa müddətdə zavodun qabaqcıl sənaye müəssisələri sırasına çıxmasına nail olub. Məhz bu uğurlarına görə o, “Şərəf Nişanı” ordeninə, “Əməkdar Mühəndis” fəxri adına layiq görülüb və daha məsul vəzifələrə irəli sürülüb.

Kamil Akimov 1967-ci ildə Azərbaycan Respublikası neftayırma sənayesi nazirinin 1-ci müavini, 1970-ci ildə isə Azərbaycan Respublikası neftayırma sənayesi naziri təyin edilib. 1970-80-ci illərdə Ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə neftayırma zavodlarında aparılan yenidənqurma işlərində Kamil Akimovun xüsusi xidmətləri vardır. O dövrdə Azərbaycana yüksək məhsuldarlığa malik iki ELOU-AVT-6 qurğusu gətirilib, Bakı neftayırma zavodu yeni texnologiyaya əsaslanan katalitik riforminq qurğusu ilə təchiz edilib, neftayırma zavodları üçün möhkəm maddi-texniki baza yaradan yeni obyektlər tikilib istifadəyə verilib.

Kamil Akimov 1970-80-ci illərdə neft emalı sənayesində göstərdiyi xidmətlərə görə “Oktyabr inqilabı”, “Qırmızı Əmək Bayrağı” ordenləri, Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilib, 2 çağırış Ali Sovetin deputatı seçilib. O, millət vəkili olduğu illərdə həmişə xalq arasında olmuş, seçicilərinin arzu və təkliflərinin həyata keçirilməsi üçün çalışmışdır.

Kamil Akimov zəngin təcrübəsi, dəyərli məsləhətləri ilə təkcə Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də neft emalı sənayesinin inkişafına mühüm töhfələr verib. O, ayrı-ayrı illərdə İraqda və Kubada neft emalı zavodlarının yenidən qurulmasında sovet mühəndislərinin işinə birbaşa rəhbərlik edib, həmin ölkələrin fəxri fərmanları və yüksək mükafatlarına layiq görülüb.

Kamil Akimov ömrünün ahıl vaxtlarında da neft

emalı sənayesinə töhfələr verməkdə davam edib. SOCAR-ın "Ekol Mühəndislik Xidmətləri" Qapalı Səhmdar Cəmiyyətində baş direktorun məsləhətçisi kimi fəaliyyət göstərən görkəmli mühəndisin neft emalı prosesində formalaşan neftşlamın emalı və zərəsizləşdirilməsi, sənaye çirkab sularının təmizlənməsi texnologiylarının təkmilləşdirilməsinə dair verdiyi təkliflər uğurla həyata keçirilir. Kamil Akimov daim öz həyat və əmək təcrübəsini gənclərlə bölüşmüş, peşəkar mühəndis və texnoloq kadrlarının yetişdirilməsində mühüm rol oynamışdır.

Tanınmış ictimai xadim, Azərbaycan neft emalı sənayesinin təşkitalçılarından biri, Azərbaycanın əməkdar mühəndisi Akimov Kamil Əlisoltan oğlu 92 yaşında Bakıda vəfat edib.

Görkəmli mühəndis və ictimai xadim Kamil Akimovun undulmaz xatirəsi daim qəlblərdə yaşayacaq, onun neft emalı sənayesinə gətirdiyi yeniliklər bundan sonra da iqtisadiyyatımızın inkişafına töhfələr verməkdə davam edəcəkdir.

İllər bir-birini əvəz etdikcə onun Azərbaycan tarixindəki yeri və xidmətləri daha aydın görünəcək və öz layiqli qiymətini alacaqdır.



**Aşurov**
**Nazim**
**Əlibala oğlu**

24 avqust 1979-cu il tarixdə Bakı şəhərində anadan olmuşdur. 1996-2000-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Şəhərsalma və iqtisadiyyat" fakültəsində ali təhsil almışdır.

Nazim Aşurov 2008-ci ilin fevralında "Azəryolservis" ASC-yə işə qəbul olunmuş və 2014-cü ilə kimi burada müxtəlif vəzifələrdə çalışaraq böyük nailiyyətlər qazanmışdır.

Belə ki, o, 2008-ci ilin fevral-iyun aylarında "Azəryolservis" ASC-də briqadir vəzifəsində çalışaraq Zıx şossesində beton yolda tunellərin inşası işlərinə rəhbərlik etmişdir.

2008-ci ilin iyun ayından 2009-cu ilin dekabrına kimi beton konstruksiyalar üzrə briqadir vəzifəsində Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunda tunellərin, dəmir yollarının və dəmir yolu körpülərinin tikintisinə rəhbərlik etmişdir.

Nazim Aşurov daha sonra 2010-cu ilin mart-sentyabr aylarında "Azəryolservis" ASC-nin yol tikintisində iş icraçısı kimi Lökbatan qəsəbəsində dəmir yolu körpüsünün tikintisində, 2011-ci ilin yanvar-iyul aylarında Bakı şəhərində Çermet körpüsünün yenidən qurulmasında, 08.2011 - 06.2013-cü illərdə Bakı-Axalkalaki-Qars (Gürcüstan) beynəlxalq avtomobil yolunun tikintisində isə sahə rəisi kimi çalışmışdır.

O, həmçinin 06.2013 – 07.2014-cü illərdə "Azəryolservis" ASC-də iş icraçısı vəzifəsində bir sıra layihələrdə tikinti sahəsində gərgin əmək sərf etmiş, işgüzarlığı və bacarığı ilə seçilmişdir.

Nazim Aşurovun 2014-cü ildən sonrakı əmək fə-



aliyyəti "Evrascon" ASC ilə bağlıdır. Belə ki, o, 2014-cü ilin iyul-oktyabr aylarında Qazaxıstan Respublikasının Qızıl Orda şəhərində "Evrascon" ASC-nin Resi bölgəsindəki filialında Tikinti materiallarının keyfiyyətinə nəzarət şöbəsinin müdiri vəzifəsində çalışaraq Cənub-Qərb avtomobil yolunun İnkişafı Layihəsi: Qərbi Avropa-Qərbi Çin Beynəlxalq Tranzit Dəhlizi, cənub-qərb yolları layihəsi çərçivəsində inşaat işlərinə rəhbərlik etmişdir.

N.Ə. Aşurov 2014-cü ilin oktyabr ayından 2015-ci ilin yanvarına kimi "Evrascon" ASC-nin aparıcı mühəndisi vəzifəsində "Avtovağzal"-"Memar Əcəmi" metro stansiyasının tikinti sahəsində tunel tikintisinə rəhbərlik etmişdir.

O, 2015-ci ilin yanvarından 2017-ci ilin iyuluna kimi "Evrascon" ASC-nin Qazaxıstan Respublikasındakı filialının direktoru və Layihə rəhbəri kimi (Lot 15) Cənub-Qərb magistralının İnkişafı Layihəsi: Qərbi Avropa-Qərbi Çin Beynəlxalq Tranzit Dəhlizi "Rusiya Federasiyasının sərhədi (Samara)-Çımkent" avtomobil yolunun yenidən qurulması layihələrinə rəhbərlik etmiş, Layihə meneceri kimi (Lot 7) Jarkent (Xorqos) "Şərq-Qərb Yolları Beynəlxalq Tranzit Dəhlizinin İnkişafı Qərbi Avropa-Qərbi Çin dəhlizində körpülər və keçidlərin tikintisini həyata keçirmişdir.

N.Ə. Aşurov 2017-ci ilin iyulundan "Evrascon" ASC-nin layihə rəhbəri kimi Azərbaycan-Rusiya dövlət sərhədində Samur (AR) – Yaraq Qazmalar (RF) sərhəd keçid məntəqələrində Samur çay üzərində avtomobil yolu körpüsünün tikintisinə rəhbərlik etmiş və layihə uğurla başa çatdırılmışdır.

Nazim Aşrovun əməyi hər zaman çalışdğı bütün tikintilərdə nümunəvi işinə görə qiymətləndirilmişdir. Belə ki, o, 2011-ci ildə "Qərbi Avropa – Qərbi Çin" tikinti layihəsində iştirakına görə Qazaxıstan Respublikasının medalı ilə, 14 avqust 2019-cu il tarixli 51 nömrəli əmrlə "Azərbaycan Respublikası Sərhəd Mühafizəsinin 100 illiyi" medalı ilə təltif edilmişdir.

Nazim Aşurov Azərbaycan-Rusiya dövlət sərhədində Samur (AR) --Yaraq Qazmalar (RF)sərhəd keçid məntəqələrində Samur çayı üzərində avtomobil yolu körpüsünün inşasında fəal iştirakına görə Azərbaycan Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin Fəxri Fərmanı ilə təltif olumuşdur.

Ailəlidir, 3 övladı vardır.



**Aşurbəyli İqor**

Əslən azərbaycanlı olan İqor Aşurbəyli 1963-cü ilin sentyabrın 9-da Bakı şəhərində doğulub. Məşhur Aşurbəyovlar nəslindəndir. Nəslin kökündə Aşur xan Avşar dayanır. Nadir şah Əfşar da bu nəsildəndir. Təzəpir məscidini inşa etdirən Nabat xanım Aşurbəyova, neft sənayeçisi Teymur bəy Aşurbəyov, məşhur tarixçi Sara xanım Aşurbəyli bu nəslin nümayəndələridir.

İqor Aşurbəyli Texnika elmləri doktoru, Rusiya Hərb Elmləri Akademiyasının və A. Proxorov adına Mühəndis Elmləri Akademiyasının həqiqi üzvüdür. "Asqardia" adlanan kosmik dövlətin qurucusudur. Atası Rauf Aşurbəyli kimyaçı alimdir, AMEA Neft-Kimya Prosesləri İnstitutunda şöbə müdiri, anası Yelizaveta Rezanova Bakıdakı Kosmik Tədqiqatlar İnstitutunda mühəndis-metroloq vəzifə-

sində işləmişdir. İqor Aşurbəyli 1980-ci ildə bir sıra fənlərin ingilis dilində tədris olunduğu 27 nömrəli xüsusi orta məktəbi qızıl medalla, 1985-ci ildə isə Azərbaycan Sənaye İnstitutunu bitirib. Azərbaycanlı alim Rafiq Əliyevin aspirantı olub, 1992-ci ildə "D-Mərkəzləşdirilmiş sistemlərin qurulma prinsipləri" adlı namizədlik işini müdafiə edib. İqor Aşurbəyli Rusiya Hava Hücumundan Müdafiə Sistemləri Konserninin İdarədənkənar Ekspert Şurasının həmsədri, "Almaz-Antey" konstruktor bürosunun sabiq rəhbəri (2001-2011), Socium Holdinq İdarə Heyətinin prezidentidir. Onun elmi rəhbərliyi ilə "Favorit" zenit raket sisteminin ən yeni modifikasiyası yaradılıb, intensiv radiomüqavimət şəraitində digər hava hücumu vasitələrinin məhv edilməsi üçün nəzərdə tutulan "Triumf" zenit raket sistemi Rusiya Federasiyasının Silahlı Qüvvələrində istifadəyə verilib. 2011-ci ilədək İqor Aşurbəyli on il "Almaz-Antey" baş konstruktor bürosu sisteminə rəhbərlik edib. Onun direktoru olduğu "Almaz" korporasiyası müasir Rusiyanın havadan müdafiə sisteminin qalxanı sayılan S-300 və S-400 raketlərinin istehsalı ilə məşhurlaşıb.

İ. Aşurbəyli Rus pravoslav kilsəsinin 2-ci və 3-cü dərəcəli "Moskva knyazı müqəddəs Daniil" (2000, 2002, 2008), "Şərəf" (2007) ordenləri, "Georgi Jukov" (1995), "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi" (1995), "Rusiya Donanmasının 300 illiyi" (1996), "Moskvanın 850 illiyi" (1997) xatirə medalları ilə təltif olunub. Akademik V. Utkin adına qızıl medalın (2005), "SSRİ EA-nın akademiki A. A. Raspletin" gümüş medalının (2008) sahibidir. "Rusiya iqtisadiyyatının lideri" milli mükafatının (2004), akademik A. Proxorov adına mükafatın (2008), "İlin adamı" milli mükafatının (2009) və s. laureatıdır.

İ. Aşurbəyli 100-dən artıq elmi məqalənin, bir ensiklopediyanın, üç monoqrafiyanın müəllifidir. İqor Aşurbəyli 1983-cü ildə Viktoriya adlı xanımla ailə həyatı qurmuşdur. Oğlu Ruslan Moskva Aviasiya İnstitutunu bitirmişdir, "Sosium-A" holdinqin baş direktorudur.

## Azadlıq meydanı

Bakının ən böyük meydanı, SSRİ dövründə Lenin meydanı adlanırdı.



1952-ci ildə Bakının mərkəzində Hökumət Evinin tikintisindən sonra, meydanın salınmasına başlanıb. 1960-1970-ci illərdə salınmış meydanın qarşısında Leninin heykəli ucalırdı.

İlk dəfə 1988-ci ilin meydan hadisələri zamanı Lenin meydanı Azadlıq meydanı adlandırılmağa başladı. 20 yanvar hadisələrindən sonra isə meydanın yeni adı xalq tərəfindən birmənalı qəbul edildi. Daha sonra isə rəsmiləşdirildi. Meydanın qarşısında Hökumət evinin fasadında Leninin nəhəng heykəli aşırıldı. Bu gün onun yerində Azərbaycan bayrağı dalğalanır.

1988-ci il, noyabrın 17-də Bakının əsas meydanında Mərkəzi Komitənin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin mitinqi başlandı. Xalq hərəkatı Bakının ən böyük meydanına yüz minlərlə, hətta statistik məlumatlara görə milyonlarla insanın toplaşması ilə başladı.

# B

## BAKI DÖVLƏT LAYİHƏ İNSTİTUTU

Bakı Dövlət Layihə İnstitutu yarandığı gündən üzərinə düşən missiyanı tarixin bütün dövrlərində müvəffəqiyyətlə yerinə yetirmişdir. Lakin ötən əsrin 50-ci illərinin ortalarından başlayaraq bir dövrü xüsusilə qeyd etmək lazımdır. Bu dövrdə keçmiş Sovet İttifaqında bütün sahələrdə olduğu kimi, memarlıqda da "Stalin mərhələsinə" nöqtə qoyuldu.

Həmin dövrdə ölkəmizdə memarlıq sənətinin qorunub saxlandığı əsas mərkəz, ocaq isə Bakı Dövlət Layihə İnstitutu oldu. Burada ölkənin gələcək memarlıq həyatında öz sözünü deyən görkəmli memarlar nəsli formalaşdı. N.M.Hacıbəyov, T.Y.Şarinki, V.Şulgin, D.H.Seyidova, L.İ.Qonsiorovski, A.S.Surkin, B.İ.Ginzburq, F.İ.Rüstəmbəyova kimi simaların ardınca F.A.Quliyev, Ə.Novruzi, H.Y.Əmirxanov, Z.Ə.Məmmədov, O.M.Babayeva, F.Yüzbaşov və başqaları kimi ölkəmizin paytaxtı Bakı şəhərinin hazırkı simasının formalaşmasında əhəmiyyətli rol oynamış istedadlı memarlar nəsli yetişir.

Bu institutda fəaliyyət göstərmiş və bir çox mürəkkəb layihələrin həyata keçirilməsində əhəmiyyətli rol oynamış mühəndislər xüsusilə qeyd olunmalıdırlar. R.A.Əliyev, H.S.Şamilov, K.A.Kərimov, L.F.Sokolyar, Q.V.Subbotin, E.İ.Dudarov, V.A.Faynşteyn, N.İ.İsmayılov, E.M.Məmmədova, D.İ.Şapiro, B.E.Kotlyar,



*Bakı şəhərinin Baş planı, 1986-cı il*



*Abbas Abbas oğlu Ələsgərov*
*13 dekabr 1937-ci ildə Bakı şəhərində anadan olub. 1957-ci ildə orta məktəbi bitirib, 1963-cü ildə Azərbaycan Politexnik İnstitutunu bitirib. İnşaat sahəsində öz əmək fəaliyyətinə 1960-cı ildə Tikinti Nazirliyində başlayıb, daha sonra Azərbaycan Sənaye Tikintisi Nazirliyində davam etdirib. "Orqtexstroy" trestinin baş mühəndisi vəzifəsində təşkilatın tikinti və istehsal üzrə bütün işlərinə rəhbərlik edərək çoxlu sayda layihələri həyata keçirib.*

*1977-ci ildən ömrünün sonunadək rəhbər vəzifələrdə çalışıb: "AzDövlətLayihə" (institutun baş mühəndisinin müavini); Bakı Baş Tikinti idarəsinin Layihə-texnologiya institutu (direktor); "Bakıdövlətlayihə" institutu (institutun direktoru); Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (Komitənin sədri).*

*A.A.Ələsgərov "Bakıdövlətlayihə" institutunda işlədiyi dövrdə Günəşli, Qanlıgöl, Yeni Yasamal, Əhmədli, Sahil, Lökbatan, Badamdar yaşayış rayonlarının, həmçinin ÇXR səfirliyi, Xoreoqrafiya akademiyası binalarının və Milli Parkın Baş planının, Sərhəd qoşunlarının qulluqçuları üçün idman kompleksinin tikintisi üzrə layihə işlərinə rəhbərlik edib. Bakı şəhərinin 1986-2005-ci illər üçün Baş planının müəlliflərindən biridir. Abbas Abbas oğlu Ələsgərov Azərbaycanın əməkdar mühəndisi və əməkdar memarıdır. "Şöhrət", "Xalqlar Dostluğu", "Şərəf nişanı" ordenləri ilə təltif olunub.*

*18 fevral 2018-ci ildə Bakı şəhərində dünyasını dəyişib.*

A.İ.Stavitski, S.S.Vakulov, M.M.Kazımov, M.Yampolski, V.Y.Prijebilski kimi mühəndislər məhz Bakı Dövlət Layihə İnstitutunda peşəkar mütəxəssis kimi formalaşmış və sonrakı mühəndislər nəslinin nümayəndələri olan, bu gün də peşəkar layihəçilər kimi fəaliyyət göstərən F.H.Ağayeva, N.Ş.Poluxov, V.H.Həsənov, S.N.Nazarov, F.S.Aslanova, L.Ə.Həmzəyeva və başqaları kimi mütəxəssislərin formalaşmasında əhəmiyyətli rol oynamışdır.

**Tarixə nəzər**

O zaman qabaqcıl sovet şəhərsalanları tərəfindən Bakı şəhəri inkişafının baş planlarını işləyib hazırlamaq sahəsində öz miqyasına görə böyük işlər aparılırdı. Belə ki, 1924-cü ildən 1937-ci ilə qədər şəhərin Baş planının üç variantı işlənib hazırlandı. 1930-cu illərin ortaları Bakı memarlığında ciddi dəyişikliklər dövrü oldu. Azərbaycanın milli memarlıq irsnin planlı və dərindən öyrənilərək istifadə olunması dövrü



*"Bakıdövlətlayihə" İnstitutu. 1980-ci illər.*
*Abbas Ələsgərova Fəxri Fərman təqdim edilir.*

başladı. Milli memarlığın uğurlu inkişafına 1936-cı ildə ölkə memarlarının ilk peşəkar yaradıcılıq qurumu olan Azərbaycan Memarlar İttifaqının yaradılması da yeni bir təkan vermiş oldu.

Bakıda sovet hakimiyyətinin qurulmasından sonrakı ilk illərdə Azərbaycan sənaye institutunun nəzdində memarlıq-inşaat fakültəsi təşkil olunmuşdu. 30-cu illərə qədər bu fakültə artıq çoxlu memar və inşaatçı hazırlamışdı. Memarlıq-inşaat fakültəsinin ilk məzunları arasında sonralar məşhur memarlar kimi geniş tanınan Sadıx Dadaşov və Mikayıl Useynov da var idi. Bu memarların işlərində sovet dövrü Azərbaycan memarlığının bütün inkişaf yolu tam əksini tapmışdır. Onların birgə yaradıcılığının nəticəsi Bakını bəzəyən çoxlu möhtəşəm tikililər idi. "Bakıdövlətlayihə" institutu kollektivinin işləyib hazırladığı layihələr əsasında milyon kvadrat metrlərlə yaşayış sahəsi, uşaq məktəbəqədər müəssisəsi, təhsil, mədəniyyət, məişət, səhiyyə, ticarət, idman obyektləri tikilərək istismara verilmişdir.

1937-ci ildə institut yaranmağa imkan tapmamış İkinci dünya müharibəsi başladı və institutun onlarla əməkdaşı, memar və layihəçiləri ya cəbhəyə getdi, ya da müdafiə işlərinə cəlb olundu. İnstitut ağır müharibə şəraitində müdafiə tikililəri layihələndirməyə başladı.

Müharibədən sonrakı illərdə Sovet İttifaqının xalq təsərrüfatı və iqtisadiyyatı yenidən qurulmağa başlanarkən "Bakıdövlətlayihə" İnstitutunun yaradıcılıq diapazonu nəinki son dərəcə genişləndi, həm də daha böyük vüsət aldı.



*Bakı şəhəri, Milli Parkda "Mirvari" kafesi.*
*Memarlar A.A.Val, V.Şulqin, İ.Orlova-Stroqanova*



***Abram Semyonoviç Surkin***
***Layihənin baş mühəndisi***

*Əmək fəaliyyətinə 1959-cu ildə Bakı Dövlət Layihə İnstitutunda layihənin baş mühəndisi vəzifəsində başlyıb. Layihənin baş mühəndisi kimi bir çox məsuliyyətli layihələrə rəhbərlik edib və onları həyata keçirib. Yoldaş A.S.Surkin bir çox irihəcmli tikililərin layihələrinin müəllifidir. Azərbaycan SSR Neft-kimya Sənayesi Nazirliyinin, Bakı gömrük idarəsinin, Respublika prokurorluğunun, Bakı xoreoqrafiya akademiyasının inzibati binaları, Bakı metrosunun stansiyaları, XI Qızıl Ordu monumenti və s. A.S.Surkin 1982-ci ildə Azərbaycan SSR Dövlət Mükafatına, 1986-cı ildə isə "Azərbaycan SSR Əməkdar memarı" adına layiq görülüb. Respublika əhəmiyyətli təqaüdçü olaraq A.S.Surkin layihənin baş mühəndisi kimi işini davam etdirib. "Bakıdövlətlayihə"də işləyərkən intitutun ictimai həyatında aktiv iştirak edib.*



**Ofeliya Musa qızı Babayeva**

*1937-ci il sentyabr ayının 28-də Bakı şəhərində anadan olub. 1961-ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin Memarlıq şöbəsində diplom işini M.Useynovun rəhbərliyi altında "əla" qiymətlə müdafiə edib. Onun memarlıq fəaliyyəti çoxşaxəliliyi ilə səciyyələnir: sənaye obyektləri, yaşayış mikrorayonları, məktəblər, uşaq bağçaları, müalicə müəssisələri və sosial-məişət xidmətləri. 1961-1963-cü illərdə təyinat aldığı "Dövlətkimyalayihə" institutunda SSRİ-nin Kimya sənayesi üçün bir sıra layihələrin müəllifi kimi çalışıb. 1963-1965-ci illərdə Bakı şəhərində S.Dadaşov adına AzETİM və Quraşdırma institutunun eksperimental laboratoriyasında kiçik elmi işçi vəzifəsində çalışıb, seysmik rayonlarda yüksək mərtəbəli yaşayış evlərinin layihələndirilməsi işlərini yerinə yetirib və həmin layihələr yerli mətbuatda dərc edilib. 1965-ci ildə AzETİM və Quraşdırma institutunun yenidən qurulması ilə əlaqədar "Bakıdövlətlayihə" institutuna keçirilib. 1965-ci ildən "Bakıdövlətlayihə" institutunda Layihənin Baş memarı vəzifəsində çalışaraq bir sıra maraqlı layihələr tərtib edib. Memarlıq yaradıcılığının 16 ili ərzində dağılmış Qarayev adına zavodun sahəsi yaşıllığa çevrilib. Maraqlı layihələrdən Xəzər rayonu Şağan qəsəbəsində əlillər üçün 250 çarpayılıq sanatoriya kompleksi; Bakı Metropoliteninin inzibati binası və s.-dir.*

1930-cu illərin sonu – 1950-ci illər memarlıqda İosif Stalin dövrü idi. Müharibədən əvvəlki və müharibədən sonrakı ilk illərdə Bakının memarlıq təcrübəsində təsadüfən boş qalmış ərazilərin tikintiyə cəlb edilməsi təmayülü üstünlük təşkil edirdi. İnşa olunan obyektlərin çoxu şəhərin mərkəzi hissəsində cəmləşmişdi. Şəhərin bu hissəsində çoxlu sayda sakinlərin köçürülməsi zərurəti yarandığı üçün köhnə, keyfiyyətsiz tikililər sökülmürdü. Bu isə yeni tikintinin tənzimlənməsində çətinlik yaradırdı. Buna baxmayaraq, bir sıra iri şəhərsalma tədbirləri həyata keçirildi. Belə ki, 1950-ci illərdə Neftçilər prospektinin yenidənqurma layihəsi yerinə yetirildi. Elə o dövrdə Hüsü Hacıyev küçəsinin (indiki Azərbaycan prospekti) yenidən qurulması üzrə ciddi işlər görülürdü.

Bakı şəhərinin müharibədən sonrakı 1976-cı ilə qədər olan ilk baş planı 1952-1954-cü illərdə "Bakıdövlətlayihə" institutu tərəfindən işlənib hazırlandı. Plan respublika Nazirlər Sovetinin qərarı ilə 1958-ci ildə təsdiq olundu. V.M.İvanov, V.A.Aleksandrov, A.Q.Osipov-Stepanov, T.Y.Şarinski onun müəllifləri idi.

Bu plan şəhərin son strukturunu, onun ictimai və nəqliyyat magistrallarını sistemini, mərkəzlərini müəyyən etdi. Abşeron yarımadasının rayon planlaşması şəhərin baş planından dərhal sonra Bakı aqlomerasiyasında istehsal qüvvələrinin və əhalinin yerləşdirilməsi sistemini dəqiqləşdirdi. Bu sənədlərə uyğun olaraq, Abşeron yarımadasında yaşayış məntəqələrinin: Hövsan, Binə, Dübəndi, Zabrat, Maştağa, Xırdalan, Lökbatan, Sahil, Ələt, Mərdəkan, Şüvəlan, Buzovna, Pirşağı, Bilgəh və



*Bakı şəhəri, Milli Parkda uşaq kinoteatrı. 1952-ci il. Memar V.Şulqin*

Qobustanın baş planları işlənib hazırlandı. Bunlar dayaq tədqiqatları idi, sonrakı bütün sistem layihələri, ilk növbədə, mühəndis sistemlərinin, həmçinin bütün Abşeron regionu üçün ümumi olan tikililərin inkişaf sxemləri onlara əsaslanırdı.

1946-1950-ci illərdə "Bakıdövlətlayihə" sistemli olaraq növbəti planlaşma dövrü üçün yaşayış-mülki inşaat obyektlərinin yerləşdirilməsinin kompleks sxemlərini işləyib hazırlayırdı. Beləliklə, Abşeron yarımadası ərazisində tikintinin elmi cəhətdən əsaslandırılmış variantlar nəzərə alınmaqla yerləşdirilməsinin doqquz "sxem"i tərtib olundu. Bu sxemlər layihə orqanları üçün sərmayə qoyuluşlarını və əsaslı yaşayış evləri inşasının ərazi yerləşməsini, şəhər təsərrüfatının sosial və mühəndis sistemlərinin inkişafını müəyyənləşdirən özünəməxsus bir mənbə idi.

"Bakıdövlətlayihə" kollektivində bu dövrdə həll olunan iri şəhərsalma problemləri sırasına "Bütün növ şəhər sərnişin nəqliyyatı inkişafının kompleks nəqliyyat sxemi"ni (SSRİ Dövlət ekspertizası tərəfindən bəyənilmiş və sonra Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təsdiq olunmuşdur), "Şimali Abşeron kurort zonasının baş planı" I (respublikanın Nazirlər Soveti tərəfindən təsdiq olunmuşdur) və nəhayət, SSRİ Dövlət Plan Komitəsi və SSRİ Dövlət Mülki Tikinti İdarəsi tərəfindən bəyənilmiş və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təsdiq olunmuş "2005-ci ilə qədər Bakı şəhərinin baş planı" daxil edilə bilər.

"Bakıdövlətlayihə" İnstitutu əməkdaşlarının yerinə yetirdiyi əsas şəhərsalma işləri arasında Bakının bütün rayonlarının müfəssəl planlaşdırma layihələ-



*Dilarə Hidayət qızı Seyidova*

*Rəhbər vəzifələrdə olmaqla yanaşı 40 ildən artıq memarlıq fəaliyyəti müddətində Bakı şəhərinin tikintisində və abadlaşdırılmasında fəal iştirak edib. Təqaüdə çıxmasına baxmayaraq Layihənin Baş mühəndisi şöbəsinin rəhbəri kimi fəaliyyət göstərməyə davam edib. D.H.Seyidova institutun ictimai və partiya həyatında fəal iştirak edib. Yaxşı işinə görə "Şərəf nişanı" ordeni, "1941/1945-ci illərdə Böyük Vətən müharibəsində şərəfli əməyə görə", "Qafqazın qəhrəmancasına müdafiəsində iştirak", "Şərəfli əmək" medalları ilə, Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı, Bakı Sovetinin iki Fəxri fərmanı ilə təltif edilib. Ona "Azərbaycanın əməkdar inşaatçısı" fəxri adı verilib.*

*4 fevral 1989-cu ildə vəfat edib.*



*Dənizkənarı bulvarda vertolyot meydançası*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



*Əlibəy Nəzərəli oğlu Novruzi*

*8 noyabr 1942-ci ildə Bakı şəhərində anadan olub. 1965-ildə Moskva Memarlıq İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 1967-1969-cu illərdə elmi tədqiqatlar nəticəsində küləyin və memarlıq həcmlərinin qarşılıqlı əlaqəsi zamanı aerodinamik proseslərin mahiyyətini aşkara çıxarıb. Ə.Novruzi aerodinamika sahəsində perforasiyalaşdırılmış strukturların küləyi nizamlama xüsusiyyətlərini kəşf edib. Eyni zamanda o, küləyi nizamlayan yaşayış evləri və tamaşa zalının mexaniki qurğular olmadan havasının təbii surətdə təmizlənməsi sahəsində ixtiraların müəllifidir. Sautgempton universitetinin professoru Yan P.Kastro təcrübələr apararaq memar Ə.Novruzinin kəşf və ixtiralarının düzgünlüyünü etiraf edib. Fransada Ə.Novruzinin işləyib hazırladığı layihə üzrə 20 mərtəbəli eksperimental bina tikilib. "Memarlıq" qəzetinin baş məqaləsində (Moskva şəhəri, 1973-cü il, №12) Əlibəy Novruzi XX əsr aerodinamik memarlığının banisi adlandırılıb. Ə.Novruzi 1974, 1977 və 1985-ci illərdə Azərbaycan Memarlar İttifaqının mükafatına, 1978-ci ildə isə respublika Dövlət Mükafatına, 1991-ci ildə "Azərbaycan Respublikasının Əməkdar memarı" fəxri adına layiq görülüb. 1992-ci ildən Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının akademikidir. Ə.Novruzi 250-dən artıq memarlıq və şəhərsalma layihəsinin müəllifidir.*

*Hazırda "NOVCO Group" holdinqinin prezidentidir.*

rini, əsas şəhər ictimai və nəqliyyat magistrallarının planlaşma və tikinti layihələrini göstərmək lazımdır.

Müharibədən sonrakı illərdə indiki Hüseyn Cavid, İnşaatçılar, Nərimanov prospektlərinin, 28 May küçəsinin, Azərbaycan prospektinin, Bayıl və şimal-qərb Sallaqxana rayonlarının, T.Bəhramov adına stadiondan şimalda yerləşən böyük rayonun və başqalarının şəhərsalma əsası qoyulmuş, onların sonrakı tikintisinin miqyası müəyyənləşdirilmişdi. Həmçinin qeyd etmək lazımdır ki, yeni rayonlar birtipli layihələr əsasında formalaşarkən əsas magistrallar fərdi layihələr əsasında tikilirdi. Şəhərin ən müxtəlif yerlərində: Azərbaycan və Nərimanov prospektlərində, cənubi və şimali Sovet meydanları rayonunda, Bakıxanov, Murtuza Muxtarov küçələrində qızğın inşaat işləri başlanmışdı. Ayrı-ayrı boş ərazilər tikilir, köhnə evlər sökülür, Montin qəsəbəsində xəstəxana inşa edilir, Neftçilər prospektində tikinti layihələri yaradılır. Filarmoniya yanında bağ abad edilir, Müqtədir küçəsində yaşayış evi, Bayılda üstü örtülü bazar tikilirdi. V.İ.Lenin adına Respublika stadionunun, Moskva prospektində körpünün layihələndirilməsi və inşası o dövrün iri işlərindən idi.

50-ci illərin ortalarında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qəbul etdiyi "Gələcək sənayeləşdirmə, keyfiyyətin yaxşılaşdırılması və tikintinin dəyərinin aşağı salınması tədbirləri barədə" və "Layihələndirmə və inşaatda israfçılığın aradan qaldırılması barədə" qərarları kütləvi yaşayış evləri tikintisinin başlanğıcını



*Bakı şəhəri, "Turist" (sonrakı adı "Qarabağ") mehmanxanasının binası. Memar V.Şulqin, 1974-cü il (indi sökülüb)*

qoydu. Sovet adamlarının əksəriyyətini yaşayış evləri ilə təmin etmək və onlar üçün nisbətən rahat yaşayış-məişət şəraiti yaratmağa yönəldilmiş bu qərarlar kütləvi yaşayış evləri tikintisini simasız və maraqsız etdi. Yalnız memarlıq layihələrinin deyil, həm də inşaat işlərinin keyfiyyəti xeyli aşağı düşdü.

"Bakıdövlətlayihə" İnstitutu qarşısında ən qısa müddət ərzində yeni rayonlarda kompleks kütləvi tikintini təmin etmək üçün layihə-smeta sənədləri işləyib hazırlamaq vəzifəsi qoyuldu. Yalnız layihə təşkilatı strukturunun təkmilləşdirilməsi və fərdi layihələşmədən birtipli layihələrin kütləvi tətbiqinə keçməklə bu məsələni uğurla həll etmək olardı. "Bakıdövlətlayihə" kollektivi məhz bu yolla getdi. İnstitut istehsalat-texniki bazanın inkişafına və şöbələrin, memarlıq emalatxanalarının ixtisaslı kadrlarla möhkəmləndirilməsinə birinci dərəcəli diqqət yetirdi. Bu dövrdə "Bakıdövlətlayihə" şəhərətrafı ərazilərin və onun ayrı-ayrı hissələrinin planlaşdırılmasının bir çox yeni layihələrini işləyib hazırladı. Layihəçilərin kollektiv düşüncəsi yeni rayonlara, arası kəsilməyən tikinti məhəllələrinə yönəldi. Bakıda yeni yaşayış rayonlarında tikintini şəhəri əhatə edən yarımdairə boyunca boş ərazilərdə aparmaq qərara alındı. Boş ərazilərdə birinci mikrorayonun salınması 1957-1959-cu illərdə başladı. Əhali o vaxt tikilən birtipli yaşayış evlərini "xruşovka" adlandırırdı. Kommunal mənzillərdə yaşayan bir çox bakılı ailələrini çox qısa müddət ərzində nisbətən rahat yaşayış şəraiti ilə



*Faiq Hüseyn oğlu Yüzbaşov*
*25 iyun 1942-ci ildə anadan olub. 1964-1969-cu illərdə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsində oxuyub. 1968-1985-ci illərdə Bakı şəhər İcra Hakimiyyətinin Xüsusi layihə-smeta bürosunda işləyib. 1985-ci ildən 1991-ci ilədək "Bakıdövlətlayihə" institutunda 2 saylı emalatxananın rəhbəri vəzifəsində çalışıb. 1991-ci ildən özəl memarlıq praktikası ilə məşğuldur. 1992-ci ildən "Caspian Service" şirkətinin baş memarıdır. 1970-ci ildə şərəfli əməyinə görə SSRİ Ali Sovetinin medalı ilə təltif edilib. 2000-ci ildə "Azərbaycan Respublikasının Əməkdar memarı" fəxri adına layiq görülüb. Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvüdür.*



*Bakı dəniz vağzalı.*
*Memarlar A.A.Val, V.Şulqin, İ.Orlova-Stroqanova*



*Gülarə Firidun qızı İsmayılova*
*3 iyun 1956-cı ildə anadan olub. 1973-cü ildə Azərbaycan Politexnik İnstitutunun Memarlıq fakültəsinə daxil olub. 1978-ci ildə institutu bitirərək memar ixtisasına yiyələnib. 1984-1995-ci illərdə "Bakıdövlətlayihə" İnstitutunda 2 saylı emalatxanada layihənin baş memarı vəzifəsində çalışıb. Peşəkar fəaliyyəti dövründə (1978-ci ildən) bir çox layihələrin müəllifi olub, onların da bir hissəsi həyata keçirilib. Bunlar C.Cabbarlı adına metro stansiyası kompleksinin, Siyasi sənədlər arxivi (Y.Qədimovla birgə) binasının layihələri, Atatürk prospekti boyunca yaşayış evləri, Talassemiyalı və Daun sindromlu xəstələr üçün tibbi reabilitasiya mərkəzləri, Şəki şəhərində Olimpiya mərkəzi, "Bakılı" futbol klubunun stadionu, avtovağzal layihəsi, "ASAN" xidmətinin inzibati binasının layihəsi, "Dolçasaray", "Parkom", Nizami küçəsində "Konsul MTK" yaşayış evlərinin layihələri, Azərbaycan prospektində yaşayış evi, 1 mln. əhali üçün nəzərdə tutulan "Xazar aylends" adlı süni adalarda yeni şəhərin layihəsi və s.-dir G.F.İsmayılova 1981-ci ildən Azərbaycan Memarlar İttifaqının üzvü, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü, müxtəlif memarlıq müsabiqə və baxışlarının laureatıdır.*

təmin etmək mümkün oldu, çünki o illərdə respublikanın rayonlarından paytaxta kənd əhalisinin axını güclənmişdi. Tikintiyə yeni sənaye metodlarının tətbiqi hesabına nail olmaq mümkün oldu. Bakıda 1960-cı ildə Zaqafqaziyada ilk evtikməsi kombinatı tikildikdən sonra iripanelli evtikmə sürətlə inkişaf etməyə başladı. Sənaye evtikmə əsasında birtipli layihələrin geniş tətbiqinə başlandı.

Yeni ərazilərin mənimsənilməsi ilə eyni vaxtda "Bakıdövlətlayihə" İnstitutunun əməkdaşları artıq şəhərin tikilmiş hissəsində də layihələr işləyib hazırlayırdılar. Belə ki, "Bakı", "Turist", "Sport" mehmanxanaları layihələndirildi. Kiçik formalı həcmlər maraqlı və çeşidli həll olunurdu: dənizkənarı bulvarda tikililər – vertolyot meydançası, "Mirvari" kafesi, uşaq teatrı. İnstitut memarlarının planlarına görə bu dövrdə 2000 yerlik yaşıl yay teatrının tikilməsinə başlandı. Metronun "26 Bakı komissarları" (indi "Sahil") stansiyasının layihəsi işlənib hazırlandı. "9 Yanvar" bağçası və funikulyorun qarşısındakı meydança abadlaşdırıldı. 2500 nəfərlik V.İ.Lenin (indi Heydər Əliyev) adına saray və Bakı planetarisi layihələndirilirdi.

Bakı memarlığında yeni mərhələ 1960-1980-ci illərdə başladı. Beton, metal və şüşədən geniş istifadə olunması yeni inşaat materiallarının konstruksiya xüsusiyyətlərindən istifadəyə əsaslanan yeni memarlıq formalarının işlənib hazırlanmasına imkan yaratdı. Yeni yaşayış evlərində tikinti işləri o dövrdə artıq əsası qoyulmuş yaşayış rayonlarında, məsələn, "Səkkizinci kilometr" adlı ərazidə, eləcə də əsasən Bakı amfiteatrının cənub-şərq



*Bakı Gömrük İdarəsi binasının layihəsi.*
*Memar Abram Surkin*

hissəsində yerləşən yeni rayonlarda aparılırdı. Şəhərin bu yeni yaşayış massivi Əhmədli yaylasında yerləşən və öz növbəsində iki mikrorayondan - Əhmədli və Günəşlidən, həmçinin Zığ və Hövsan kəndlərinə yaxın cəmləşmiş rayonlardan ibarət idi.

Yeni şəhər ərazilərinin intensiv mənimsənilməsi ilə yanaşı, şəhərin tarixən formalaşmış mərkəzi hissəsində də tikinti gedirdi. "Bakıdövlətlayihə" İnstitutu kollektivinin Azərbaycan paytaxtının əsas meydanının - V.İ. Lenin adına (indi Azadlıq) meydanın tikinti layihəsi üzrə müsabiqədə iştirakı o illərin mühüm hadisəsi idi. Bu müsabiqədə birinci və ikinci yerlər "Azərdövlətlayihə" İnstitutunun memarları arasında bölüşdürüldü.

Bakı Dövlət Layihə İnstitutu xalqımızın yaratdığı digər maddi-mənəvi nümunələr kimi milli sərvətimizdir. Xüsusən müstəqillik qazandıqdan sonra qonşu dövlətlər və xalqların nailiyyətləri ilə tanış olduqca bu daha aydın dərk olunur. İnstitutun qorunub saxlanılmasında və bu günədək gəlib çıxmasında tarixin ən çətin və keşməkeşli dövründə ona rəhbərlik etmiş A.A.Ələsgərovun rolu xüsusi qeyd olunmalıdır. Ötən əsrin 80-ci illərinin əvvəlləri institut üçün uğurlu olmamış və tənəzzül dövrü yaşanmışdır. Məhz Abbas Ələsgərov instituta direktor təyin olunduqdan sonra əsaslı dəyişikliklər baş vermiş, islahatlar aparılmış, gənclərə dəstək verilmiş və müəssisə yenidən inkişaf etmişdir. Həmçinin ötən



*Bakı şəhəri, İçərişəhərdə ASE Baş redaksiyasının binası. 1980-ci il. Memar Zeynəb Quliyeva*



***Fərida Hüseynbala qızı Ağayeva***
*6 aprel 1939-cu ildə Bakı şəhərində anadan olub. 1947-1957-ci illərdə 151 saylı orta məktəbdə təhsil alıb. 1961-ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə daxil olaraq 1968-ci ildə institutu bitirib. Əmək fəaliyyətinə 1968-ci ildə "AzərDövlətLayihə" İnstitutunda başlayıb, 1980-ci ilə kimi orada çalışıb. İnstitutda işlədiyi dövrdə, 1973-cü ildə "Sosialist yarışının qalibi" fəxri nişanı ilə təltif edilib. 1974-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Əməkdə fərqlənmə" medalı ilə təltif edilib. F.H.Ağayeva 1980-ci ildən 2008-ci ilə qədər "Bakıdövlətlayihə" İnstitutunda çalışıb. 1990-cı ildə "Əmək veteranı" medalı ilə təltif olunub, 1997-ci ildə "Əmək veteranı", 2007-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar inşaatçısı" fəxri adlarına layiq görülüb. 2008-ci ildən "ELN" memarlıq-inşaat şirkətində konstruktor şöbəsinin rəisi vəzifəsində çalışır. F.H.Ağayeva Azərbaycan Respublikası Prezident Aparatının inzibati binasının, Ə.Ələkbərov, Ş.Qurbanov, S.Ələkbərov küçələrində, 8-ci mikrorayonda yaşayış evlərinin tikintisində iştirak edib.*



*Hafiz Yusif oğlu Əmirxanov*
*5 noyabr 1940-cı ildə Bakı şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1960-1963-cü illərdə sovet ordusunda xidmət edib. 1964-cü ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin Memarlıq şöbəsinə daxil olub. 1969-cu ildə həmin institutu bitirdikdən sonra memarlıq fəaliyyətinə başlayıb. O ildən bu zamana kimi yaradıcı memar kimi çalışır. 1972-1987-ci illərdə "Bakıdövlətlayihə" İnstitutunda baş memar vəzifəsindən şöbə rəisi vəzifəsinə kimi yüksəlib. Bu illərdə bir neçə layihələrlə bərabər "Gülüstan" şadlıq sarayının layihəsini işləyib və inşasında bilavasitə iştirak edib. 1987-ci ildə Dövlət Tikinti Komitəsinin sərəncamı ilə Sumqayıt şəhərində yeni təşkil edilmiş "Azərdövlətlayihə" institutunun filialına müdir təyin edilib. Məlum hadisələrdən sonra 1988-ci ildə Bakıya qayıdıb. 1989-cu ildən 2007-ci ilə kimi Azərbaycan Memarlar İttifaqında I vitse-prezident vəzifəsində çalışıb və tutduğu vəzifə ilə yanaşı yaradıcılıq fəaliyyətini davam etdirib. H.Əmirxanov eyni zamanda elm və təhsil sahəsində çalışıb, dosentdir. O, 1980-ci ildə Respublika Dövlət Mükafatı ilə təltif edilib. 1991-ci ildə mərhum akademik M.Useynovun təqdimatı ilə "Əməkdar memar" adına layiq görülüb, 2000-ci ildə isə "Şöhrət" ordeni ilə təltif olunub. Hazırda təqaüddədir. Təqaüddə olmasına baxmayaraq memar kimi fəal çalışır.*

əsrin 90-cı illərinin əvvəllərindəki mürəkkəb şəraitdə məhz o, institutu qoruyub saxlaya bilmiş, onun potensialını xilas etmişdir.

1980-cı illərdə layihə institutunda xüsusilə böyük dəyişikliklər baş verdi. Sənaye evtikməsinin inkişafı, inşaat işlərinin ildən-ilə artması, layihələrin keyfiyyətinə tələbatın böyüməsi yeni ciddi struktur dəyişiklikləri tələb edirdi. Bakı Dövlət Layihə İnstitutunda LBM-lər bürosu yaradıldı, sənaye evtikmə şöbəsi təşkil olundu, əsas göstəricilərin işlənib hazırlanması hesabına sənədlərin iqtisadi təhlili gücləndirildi, elmi-texniki nailiyyətlərin layihələrdə qeydiyyatı sistemi tətbiq olundu, inşaat materiallarının israfına sistematik nəzarət həyata keçirilirdi və nəhayət, norma nəzarəti qrupu yaradıldı. Şəhərsalmada yüksək manevretmə qabiliyyəti və plastikliyi təmin edən, tikinti sıxlığını 30 faiz artıran kompleks həcm-planlaşma elementləri əsasında sənaye yaşayış evlərinin yeni nəslinin işlənib hazırlandığını qeyd etmək lazımdır. Onun müəllifləri memarlar A.Q.Axundov, N.İ.Fərəczadə, T.Y.Şarinski; mühəndislər A.A.Ələsgərov və başqaları idi.

Bakı şəhərinin iqtisadiyyatına, onun yaşayış evləri tikintisinə və xidmət



*Bakı şəhəri, Azərbaycan SSR Prokurorluğunun xidməti binası. 1977-ci il. Memarlar A.Surkin, Q. Sadıqov*

infrastrukturuna sərmayə qoyuluşunun artması 70-ci illərin əvvəllərində tərtib olunmuş 2000-ci ilə qədər Bakı şəhərinin inkişafının Baş planını yenidən nəzərdən keçirmə zərurəti yaratdı. Bu iş "Bakıdövlətlayihə" institutunun kollektivi tərəfindən 1982-ci ildə gerçəkləşdirildi.

Bu dövrdə Bakı keçmiş Sovet İttifaqının ən iri, əhəmiyyətli sənaye və mədəni mərkəzlərindən biri idi. Ölkəmiz müstəqilliyini qazandığı zaman "Bakıdövlətlayihə" artıq iri layihə institutuna çevrilmişdi və Bakının planlaşması, tikilməsi ilə bağlı müxtəlif problemlərin həlli üzrə baş institut idi. Müəssisə kollektivinin Moskva, Leninqrad (indi Sankt-Peterburq), Kiyev, Daşkənd, Tbilisi, Kişinyov və başqa şəhərlərin layihə institutları ilə daimi yaradıcılıq əlaqələri və məhsuldar mübadiləsi yaranmışdı.

"Bakıdövlətlayihə" İnstitutunun kollektivi Daşkənddə, Mahaçqalada, Ulyanovskda, Koqalımda (Tümen vilayəti, Rusiya) obyektlərin layihələndirilməsinə qardaş köməyini əsirgəmirdi. Sovet dövründə bir sıra ümumittifaq və respublika müsabiqələrində "Bakıdövlətlayihə"nin müəllif kollektivlərinin layihələri yüksək mükafatlar qazanmışdı. Məsələn,"Bakı şəhərinin mərkəzinin planlaşma və inşa layihəsi" (1972, I mükafat); "Sumqayıt şəhərinin planlaşma və inşa layihəsi" (1979, I mükafat); "Bakının mərkəzi rayonunun dənizsahili hissəsinin planlaşma



*Bakı şəhəri, "Bakı" mehmanxanasının binası, 1970-ci il. (indi sökülüb) Memar H.Məcidov*



*Nazim Məmməd oğlu Hacıbəyov*
*8 fevral 1928-ci ildə Bakı şəhərində anadan olub. 1942-ci ildə memarlar ailəsi (atası Məmməd Hacıbəyov, anası Cahan Talışinskaya) Şimali Qafqaza repressiya olunub. Həmin il onlar Daşkənd şəhərinə, 1943-cü ildə isə Tbilisi şəhərinə köçürülərək 1945-ci ilə kimi orada yaşayıblar. İkinci Dünya müharibəsi bitdikdən sonra N.M.Hacıbəyovun ailəsi Bakı şəhərinə dönür. N.M.Hacıbəyov 1946-cı ildə Azərbaycan Sənaye İnstitutuna daxil olur. Amma 1949-cu ildə memarın ailəsi yenidən Daşkəndə sürgün olunur və o, memarlıq fakültəsini 1951-ci ildə orada bitirir. N.M.Hacıbəyov "Uzqosproyekt" layihə institutuna işə qəbul olunur. Memarın ailəsi 1966-cı ildə dağıdıcı Daşkənd zəlzələsindən sonra Bakıya qayıtmağa məcbur olur. N.M.Hacıbəyov doğma şəhərə qayıtdıqdan sonra "Azdövlətlayihə", "Sentrosoyuzproyekt", "Bakıdövlətlayihə" institutlarında baş memar vəzifəsindən başlayaraq institutun direktoru kimi yüksək vəzifələrdə çalışır. N.M.Hacıbəyova 1979-cu ilin dekabrında Azərbaycanın Əməkdar memarı adı verilib. 1982-ci ilin mayında N.M.Hacıbəyova Azərbaycanın Dövlət mükafatı təqdim olunub. 1983-1990-cı illərdə Azərbaycan Memarlar İttifaqı İdarə Heyəti sədrinin birinci müavini vəzifəsində çalışıb. 1988-ci ilin fevralında memarlıq və şəhərsalma sahəsində səmərəli əməyinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilib.*

*23 mart 2020-ci ildə vəfat edib.*



*Feyzulla Ağasəfər oğlu Quliyev 2 fevral 1940-cı ildə Salyan rayonunda anadan olub. 1964-cü ildə Azərbaycan Politexnik İnstitutunun Memarlıq fakültəsini bitirərərk memar ixtisasına yiyələnib. 1964-1968-ci illərdə Qazaxıstanın Karaqanda şəhərində memar. qrup rəhbəri, layihənin baş memarı, "Memarlıq-planlaşdırma" emalatxanasının rəhbəri olub. 1968-2005-ci illərdə "Bakıdövlətlayihə" İnstitutunda layihənin baş memarı və Bakı şəhərinin "Baş plan" emalatxanasının rəhbəri vəzifəsində işləyib. 1975-1990-cı illərdə daimi iş yeri sayılan "Bakıdövlətlayihə" İnstitutunda işləməklə bərabər indiki Azərbaycan Memarlıq və İnşaat Universitetində müəllim kimi çalışıb. 2005-ci ildən isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında dosent vəzifəsində çalışaraq tədrislə məşğul olur. 2008-ci ildən tədrislə yanaşı "Böyük Bakının Regional İnkişaf Planı" layihəsinə şəhər planlaşdırması üzrə məsləhətçi qismində cəlb olunub və burada uğurla çalışıb. Əməkdar memar F.A.Quliyev Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvü, Yaxın Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü, Bakı şəhərinin Baş planının (1986-2005-ci illər) müəllifidir. Hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında dosent vəzifəsində çalışır. Dövri elmi nəşrlərə məqalələr yazır, elmi konfranslarda çıxışlar edir, memarlıq və şəhərsalma üzrə dərsliklər hazırlayır.*

və inşa layihəsi" (I-II yerlər "Azərdövlətlayihə"nin müəllif kollektivi ilə bölüşdürülmüşdür); "Bakıda V.İ.Lenin adına meydanın planlaşma və inşa layihəsi (I-II yerlər "Azərdövlətlayihə"nin müəllif kollektivi ilə bölüşdürülüb).

"Bakıdövlətlayihə" kollektivi Sovet İttifaqının hələ mövcud olduğu 1985 və 1986-cı illərin sosializm yarışının yekunlarına görə birinci yeri tutmuşdur. İnstitut kollektivinə Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin, Azərbaycan Həmkarlar İttifaqları və LKGİ MK-nın keçici Qırmızı bayrağı verilmişdir. "Bakıdövlətlayihə"nin doqquz əməkdaşı Azərbaycanın Dövlət mükafatı, biri isə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. O illərdə institutda respublikanın 15 əməkdar memarı, əməkdar mühəndisi, əməkdar inşaatçısı, 7 Böyük Vətən müharibəsi veteranı, 100-dən çox əmək veteranı çalışmışdır.

Sovet imperiyasının tənəzzülü bütün ölkəni, o cümlədən də Bakını uzun müddətli qeyri-sabitliyə düçar etdi. 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində şəhərdə tikinti, demək olar ki, dayandı. Eyni zamanda Azərbaycanın planlı sosialist iqtisadiyyatından azad bazar iqtisadiyyatına keçidi onun inkişafının planlaşdırılması prosesinə təsir etdi. 1987-ci ildə təsdiq olunmuş "Bakının 2005-ci ilə qədər iqtisadi və sosial inkişafının Baş planı" şəhərin planlı iqtisadiyyat çərçivəsində inkişafını nəzərdə tutmuşdu. Təəssüf ki, keçid dövründə bu planın bir çox müddəaları pozuldu və onun həyata keçirilməsi mümkün olmadı.

Bu gün bizim qədim, ancaq daima yeniləşən şə-



*Bakı şəhərinin Baş planının müzakirəsi zamanı. 1980-ci illər*

hərimiz öz memarlıq tarixinin yeni dövrünü yaşayır. 1994-cü ildə Bakıda imzalanmış "Əsrin müqaviləsi" adlanan böyük neft razılaşması inkişafın müasir mərhələsinə yol açdı. Əlverişli investisiya iqlimi ölkədə müasir binaların inşası üçün geniş imkanlar yaratdı. Artıq bu gün şəhər memarlığı tikilməkdə olan hündür rahat yaşayış evləri, dünya standartları səviyyəsinə cavab verən mehmanxana kompleksləri, iri ticarət mərkəzləri, bank, işgüzar mərkəz binaları və s. ilə zənginləşir.

İnstitutun tarixində böyük fəxrlə və qürurla qeyd olunmalı işlər çoxdur və bu işlər Bakı şəhərinin böyük bir hissəsini əhatə edir. Belə ki, H.Əliyev adına Respublika sarayı, T.Bəhramov adına Respublika stadionu, Respublika xəstəxanası, Dənizkənarı Milli Park, onlarla məktəblər, uşaq bağçaları, xəstəxanalar, idman kompleksləri, milyonlarla kvadrat metr yaşayış sahələri layihələndirilmiş və inşa edilmişdir.

Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanan və 1986-2005-ci illəri əhatə edən sonuncu Baş plan 1987-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə təsdiq edilmişdir.

1990-2005-ci illərdə institutun mütəxəssisləri tərəfindən Bakı şəhəri, Xətai rayonu, Babək prospektindəki çoxmərtəbəli yaşayış evi, Bakıdakı dənizkənarı bulvarın bərpası və yenidən qurulması baş planı, Bakı şəhərində Çin Xalq Respublikası səfirliyinin binası, Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küçəsindəki 3 və 4 saylı yaşayış evləri, Bakı şəhəri Yasamal rayonu, M.Seyidov küçəsindəki 3141 saylı məhəl-



*Bakı şəhərinin Baş planının müzakirəsi zamanı. 1980-ci illər*



*Teodor Yakovleviç Şarinski*

*22 noyabr 1911-ci ildə anadan olub. Əmək fəaliyyətinə sıravi çertyojçu vəzifəsi ilə başlayıb. Sonra 1936-cı ildə Azərbaycan Dövlət Sənaye İnstitutunun (İndiki Azərbaycan Dövlət Neft Akademiyası) bitirib, mühəndis-memar kimi 1947-ci ildə "Baklayihə" (sonralar "Bakıdövlətşəhərlayihə") institutunun baş mühəndisi təyin edilib. İnstitutda hökm sürən yaradıcılıq mühitinin əsasını məhz o qoymuşdu və ömrünün axırına qədər burada baş mühəndis kimi çalışdı. T.Y.Şarinski İkinci dünya müharibəsinin iştirakçısı idi. T.Y.Şarinski Sovet İttifaqında şəhərin sosial orqanizm kimi inkişafının əsasında duran Baş planın əhəmiyyətini dərk edən ilk memarlardan idi. Bununla bağlı ideyalarını o, Bakının Baş planını işləyəndə həyata keçirdi. Bakı şəhərinin inkişafının Baş planlarının (1952, 1972, və 1986-cı illər), kurort zonasının Baş planının, Bakı şəhəri nəqliyyatının kompleks sxeminin (1979-cu il), 1970-80-ci illərdə bir sıra qəsəbələrin Baş planlarının, Əhmədli və Günəşli yaşayış rayonlarının tikiliş layihələrinin həyata keçirilməsi bilavasitə onun ideyası idi. T.Y.Şarinskinin rəhbərliyi altında dənizdəki Neft Daşlarında yaşayış evlərinin nadir layihəsi işlənib hazırlanmışdı. T.Y.Şarinski həm də pedaqoq idi. İstehsalat fəaliyyəti ilə yanaşı Azərbaycan Poltexnik İnstitutunun İnşaat fakültəsində şəhərsalmanın əsaslarından mühazirə oxuyur, diplom və kurs layihələrinə rəhbərlik edirdi. 18 may 1993-cü ildə Bakı şəhərində vəfat edib.*



*Vadim Sergeyeviç Şulgin*

*8 dekabr 1926-cı ildə Bakı şəhərində anadan olub. 1950-ci ildə Azərbaycan Sənaye İnstitutunun memarlıq-inşaat fakültəsini bitirib. V.S.Şulgin əmək fəaliyyətinə 26 sentyabr 1950-ci ildən "Bakımetrolayihə" İnstitutunda başlayıb. Ordu sıralarında xidmət göstərdikdən sonra əmək fəaliyyətini 1 oktyabr 1953-cü ildən "Bakıdövlayihə" İnstitutunda baş mühəndis vəzifəsində davam etdirib. Sonralar V.S.Şulgin "Bakıdövlayihə" institutunda qrup rəhbəri, layihələrin baş mühəndisi, baş memarı kimi çalışıb. O, Moskvada xidməti ezamiyyətdə olarkən 2 oktyabr 1974-cü ildə infarkt miokardı nəticəsində dünyasını dəyişib.*

lədə yüksək mərtəbəli yaşayış evi, Bakı şəhəri Nəsimi rayonu, Azadlıq prospekti 990-cı məhəllədə yüksək mərtəbəli yaşayış evinin layihəsi, Bakı şəhəri, Xətai rayonu, 1130-33-cü məhəllədə 844 yerlik məktəb, Bakı şəhəri Nəsimi rayonu, 747-ci məhəllədə çoxmərtəbəli yaşayış kompleksi, Bakı şəhəri Nəsimi rayonu, 747-ci məhəllədə C.Hacıbəyli və Plotnikov küçələrinin tinində yüksək mərtəbəli yaşayış evinin layihəsi, Bakı şəhəri Yasamal rayonu, B.Səfəroğlu küçəsi 13 saylı ünvanda ofis və yaşayış evlərinin işçi layihəsi, Bakı şəhəri Yasamal rayonu, C.Cabbarlı küçəsində 15 mərtəbəli ofis binası, Bakı şəhəri, Nəsimi rayonu, akademik H.Əliyev küçəsindəki 999-cu məhəllədə çoxmərtəbəli yaşayış evi, Bakı şəhəri,





*Bakı şəhərinin Baş planının müzakirəsi zamanı. 1980-ci illər*

Səbail rayonu, 706-cı məhəllənin Nizami küçəsi 96 saylı ünvanında çoxmərtəbəli yaşayış evi, AR Sərhəd qoşunları üçün Xətai rayonu, Babək prospekti 2316-cı məhəllədə idman kompleksi, Bakı şəhəri, Yasamal rayonu, H.Cavid prospektindəki 558-ci məhəllədə çoxmərtəbəli yaşayış evi, Bakı şəhəri Nəsimi rayonu, R.Behbudov küçəsi 66-68 saylı yüksəkmərtəbəli yaşayış evləri layihələndirilmiş və həyata vəsiqə almışdır.

Bu gün Bakı Dövlət Layihə İnstitutu öz tarixi ənənələrini məntiqi ardıcıllıqla və dövrümüzün reallıqları nəzərə alınmaqla davam etdirir. Yeni bacarıqlı, istedadlı və iddialı gənclərin instituta cəlb edilərək irəli çəkilməsi və təcrübəli mütəxəssislərin himayəsi altında yetişdirilməsi öz bəhrələrini verməkdədir.



Bakı şəhəri, Siyasi sənədlər arxivi.
Memar Y.Kadımov



Bakı şəhəri, "Gülüstan" şadlıq sarayı.
Memarlar H.Əmirxanov, N.Hacıbəyov



*Yuzef İslam oğlu Qədimov*
*7 yanvar 1928-ci ildə anadan olub. 1953-cü ildə Moskva Memarlıq İnstitutunu bitirib. "Azərdövlətlayihə" institutunda memar və layihənin baş memarı işləyib, 1984-1989-cu illərdə isə "Bakıdövlətşəhərlayihə" institutunun baş memarı kimi çalışıb. Y.Qədimov çoxlu obyektlər layihələndirib və inşa edib. Onların arasında H.Əliyev adına Konsert-idman kompleksinin, Aktyorlar Evinin, Bakı şəhəri Layihə institutları kompleksinin, keçmiş "Bakı Soveti" (indi "İçərişəhər") stansiyasının binalarını və s. göstərmək olar. O, eyni zamanda C.Cabbarlı, H.Cavid, N.Nərimanovun heykəllərinin, şairə X.Natəvanın Ağdamdakı qəbirüstü abidəsinin, Qazaxın Şıxlı kəndində M.V.Vidadinin, Şuşa şəhərində M.P.Vaqifin heykəllərinin müəllifi-memarıdır. Y.Qədimovun bütün işləri Ümumittifaq və respublika memarlıq baxışlarında yüksək qiymət alıb, diplomlara və fəxri fərmanlara layiq görülüb. Onun ən sanballı işləri ümummilli lider H.Əliyev tərəfindən nəzərdən keçirilib və nəzarətdə saxlanılıb. Memarın ayrı-ayrı əsərləri SSRİ və Azərbaycan Dövlət mükafatlarına irəli sürülüb. Y.Qədimov "Azərbaycanın Əməkdar mühəndisi" və "Azərbaycanın Əməkdar memarı" fəxri adlarına, "Şöhrət" ordeninə, Prezident təqaüdünə layiq görülüb. O, Şərq Ölkələri Memarlıq Akademiyasının üzvü idi. Y.Qədimov 12 yanvar 2012-ci ildə vəfat edib.*

## Yeni mərhələdə

Bakı Dövlət Layihə İnstitutu 2008-ci ildən yeni mərhələyə qədəm qoydu. Belə ki, cənab prezident İlham Əliyevin fərmanı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yaradıldı. Bakı Dövlət Layihə İnstitutu Bakı Şəhər İcra Hakimiyyətinin tabeçiliyindən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeçiliyinə keçirildi.

Bakı Dövlət Layihə İnstitutuna 25 il rəhbərlik etmiş Azərbaycanın əməkdar mühəndisi və əməkdar memarı, "Şöhrət", "Xalqlar dostluğu", "Şərəf nişanı" ordenlərinə layiq görülmüş Abbas Abbas oğlu Ələsgərov Prezidentin sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri təyin edildi.

Ə.Haqverdiyev, M.Seyidov, V.Plotnikov, İ.Qutqaşınlı küçələrində, Mətbuat prospektində və 9-cu mikrorayonda tikilmiş yüksək mərtəbəli monolit yaşayış evlərinin Bakı Dövlət Layihə İnstitutu tərəfindən layihələndirilməsinə, KOPE iripanelli evlərin yeni seriyasının müəllif kollektivinə, Günəşli, Qanlıgöl, Yeni Yasamal, Əhmədli, Sahil, Lökbatan, Badamdar ərazisində yaşayış rayonlarının, ÇXR səfirliyinin binası, Xoreoqrafiya məktəbi, Milli Parkın baş planı və Sərhəd qoşunları üçün İdman kompleksinin layihələndirmə işlərinə rəhbərlik etmiş A.A.Ələsgərovun Dövlət Şəhərsalma və Arxiektura Komitəsinin sədri təyin olunması və az müddət sonra ölkənin memarlıq ictimaiyyəti tərəfindən onun Azərbaycan Memarlar İttifaqının sədri seçilməsi həmin illər üçün çox əlamətdar hadisələr idi.

13 fevral 2008-ci ildə A.A.Ələsgərovun əmri ilə İlqar Aydın oğlu İsbatov Bakı Dövlət Layihə İnstitutunun direkoru təyin edildi.

Komitənin yaradılması və Bakının şəhərsalma və arxitektura problemləri ilə məşğul olan Baş Layihə İnstitutunun onun tabeçiliyinə verilməsi ilk növbədə dövlətin bu qurumlar qarşısında ölkəmizin növbəti mərhələdə inkişafı ilə əlaqədar olaraq qoyduğu böyük vəzifə və tapşırıqlarla əlaqədar idi. Bunlar ilk növbədə sözsüz ki, şəhərsalma layihələrinin hazırlanmasından ibarət idi.

Belə ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik qazanıldıqdan sonra baş verən hadisələr, torpaqlarımızın işğalı, qaçqın və köçkünlər, keçid dövrünün iqtisadi problemləri şəhərsalma məsələlərinə diqqəti arxa



***İlqar Aydın oğlu İsbatov***

*4 sentyabr 1964-cü ildə anadan olub. 1987-ci ildə Moskva Memarlıq İnstitutunun şəhərsalma fakültəsini bitirib. Bakı Dövlət Layihə İnstitutunun Bakı şəhərinin Baş planını işləyib hazırlayan emalatxanada işə başlayıb. Dəfələrlə respublika memarlıq müsabiqələrinin və "İlin ən yaxşı layihəsi" müsabiqəsinin qalibi olub. İ.İsbatov 1998-2001-ci illərdə Azərbaycan Dövlət Layihə İnstitutunda layihənin baş memarı kimi çalışıb. 2001-ci ildə "Feniks-AA" özəl şirkətini təsis edib, orada memarlıq layihələndirməsi işini davam etdirib. 13 fevral 2008-ci ildə İ.İsbatov Bakı Dövlət Layihə İnstitutuna direktor vəzifəsinə təyin edilib. Baki Dövlət Layihə İnstitutu 2009, 2010-cu illərin nəticələrinə görə MDB ölkələri arasında ən yaxşı layihə təşkilatı nominasiyasının qalibi olub, İlqar İsbatov isə 2011-ci ilin nəticələrinə görə ən yaxşı layihə təşkilatı rəhbəri adına layiq görülüb. İ.İsbatov 2010-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Tərəqqi" medalına, 2012-ci ildə "Azərbaycanın Əməkdar memarı" fəxri adına, 2017-ci ildə isə Prezidentin sərəncamına əsasən "Şöhrət" ordeninə layiq görülüb.*

*Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2019-cu il tarixli Sərəncamı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini təyin edilib.*



*Heydər İskəndər oğlu Bağırov*
*6 iyul 1985-ci ildə Bakı şəhərində anadan olub. 2007-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Mühəndis iqtisadiyyatı və idarə edilməsi" fakültəsi üzrə bakalavr pilləsini bitirib. 2013-cü ildə isə Azərbaycan Dövlət İqtisad Universitetinin MBA proqramı üzrə Magistraturasında "Biznesin təşkili" ixtisası üzrə təhsil alıb. 2007-2012-ci illərdə "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutunda mühəndis vəzifəsində çalışıb. 2012-ci ildən "Bakı Dövlət Layihə" institutunda işləyir. Hazırda Bakı Dövlət Layihə İnstitutunun direktor müavini vəzifəsində çalışır. 19 iyun 2019-cu ildən institut direktorunun vəzifəsini icra edir.*

plana keçirmişdi və uzun illər istər Bakı şəhəri, istərsə də digər rayonların baş planları hazırlanmamışdı.

Beləliklə, Bakı Dövlət Layihə İnstitutu qarşısında ilk növbədə şəhərsalma problemlərinin həlli ilə məşğul olmaq vəzifəsi qoyuldu. Qısa dövr ərzində gənc kadrlar bu işə cəlb edildi, ərazi diqqətlə öyrənilməyə başlanıldı, eyni zamanda müxtəlif kompüter proqramlarının mənimsənilməsi üçün təlimlər keçirildi, şəhərsalma layihələrinin hazırlanmasından ötrü tələb olunan ArcGİS proqramı mənimsənildi. Şəhərin mərkəzi hissəsinin ilk növbədə 1:500 miqyasında maketi hazırlandı və onun həcm-planlaşdırma strukturunun fasiləsiz monitorinqinin aparılmasına başlanıldı. 2009-cu ildə dövlət sifarişi ilə Bakı şəhərinin mərkəzi



*Elçin Azər oğlu Umudov*
*1984-cü ildə Qax rayonunda anadan olub. 2002-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının memarlıq və dizayn fakültəsinə daxil olub və 2006-cı ildə akademiyanı bitirib. 2007-ci ildən "Feniks-AA" MMC-də memar vəzifəsində işləyib. 2008-ci ildən bu günə qədər Bakı Dövlət Layihə İnstitutunda çalışır. Fəaliyyətə memar vəzifəsində başlayıb. Ondan sonra II memarlıq şöbəsinin rəisi vəzifəsində işləyib. Hazırda İnstitutun Baş mühəndisi vəzifəsində çalışır. Fəaliyyəti dövründə bir çox yaşayış və inzibati binaların layihələndirilməsində iştirak edib. Bunlardan Bakı metropoliteninin texnoloji korpusu, "28 May" metrostansiyasının yerüstü pavilyonu, Boks federasiyası üçün idman kompleksi, Mehmanxana və inzibati bina, Bakı şəhəri Yasamal rayonunda Xüsusi Dövlət Mühafizə xidmətinin müalicə-diaqnostika mərkəzi, Bakı şəhəri Xətai rayonu Yusif Səfərov küçəsində çoxmərtəbəli yaşayış binaları, Bakı şəhəri Səbail rayonu Neftçi Qurban Abbasov küçəsində çoxmərtəbəli yaşayış binaları və digər bu kimi layihələri misal göstərmək olar.*



*Bakı şəhərinin mərkəzi hissəsinin müfəssəl planlaşdırma layihəsi. 2010-2011-ci illər*



***Nazim Şamil oğlu Poluxov***
*1960-cı il martın 22-də Gürcüstan Respublikası Marneuli rayonunun Sadaxlı кəndində anadan olub. 1977-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun (indi AzMIU) İnşaat fakültəsinə qəbul olunub. 1982-ci ildə həmin institutda təhsilini başa vuraraq inşaatçı-mühəndis ixtisasına yiyələnib, 1982-ci ildə AzIMİ-ni bitirdikdən sonra göndərişlə Bakı Dövlət Layihə İnstitutunda mühəndis-konstruktor vəzifəsində işə başlayıb, 1982-1984-cü illərdə ordu sıralarında xidmət etdikdən sonra 21 dekabr 1994-cü il tarixinə qədər həmin institutda mühəndis, baş mühəndis, aparıcı mühəndis, qrup rəhbəri, emalatxananın baş konstruktoru vəzifələrində işləyib. 2006-cı ildə AzMİU-də "Dəmir-beton yatıq qabıqların kontur konstruksiyaların sərtliyindən asılı olaraq zəlzələyə davamlılığının tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib və texniki elmlər namizədi alimlik dərəcəsini alıb. 1 aprel 2008-ci ildən Bakı Dövlət Layihə İnstitutunun Baş konstruktoru işləyib. Hazırda Baş mütəxəssis – konstruktor vəzifəsində çalışır.*

hissəsinin müfəssəl planlaşdırma layihəsinin ərsəyə gətirilməsinə start verildi və paralel olaraq gələcək şəhərsalma layihələrinin hazırlanması üçün komandanın formalaşdırılması üçün ilk addımlar atıldı. Bu mərhələdə Ş.Eyvazov, T.Nağıyev, S.Nazarov, A. Məmmədova, A.Həsənova, N.Rəsulova kimi mütəxəssislərin əməyi xüsusilə qeyd edilməlidir.

Nəhayət, 2011-ci ildə layihə uğurla tamamlandı və müvafiq təşkilatlarla razılaşdırılaraq Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təhvil verildi. Ölkədə ilk dəfə şəhərsalma layihələrinin hazırlanmasında ArcGİS proqramı kimi qabaqcıl texnologiyadan istifadə olundu və ilk dəfə 1550 ha ərazidə Bakı şəhərinin mərkəzi hissəsinin müfəssəl planlaşdırma layihəsi hazırlandı, ilk də-



***Vahid Hüseyn oğlu Həsənov***
*6 iyun 1955-ci ildə Bakı şəhərində anadan olub. 1972-ci ildə Bakı şəhəri, 115 saylı orta məktəbi bitirib. 1972-ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin "İstilik qaz təchizatı və ventilyasiya" ixtisasına qəbul olunub və 1980-cı ildə institutu bitirib. 1972-ci ildən bu günə qədər Bakı Dövlət Layihə İnstitutunda çalışır. Vahid Hüseyn oğlu Həsənov Azərbaycan Respublikası Prezidentinin 9 noyabr 2007-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının Əməkdar mühəndisi" fəxri adı ilə təltif edilib. Hazırda Baş mütəxəssis – mühəndis vəzifəsində çalışır.*



*Bakı şəhəri, Hövsan qəsəbəsində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiya kompleksi. 2009-cu il*



***Könül Cəbrayıl qızı İsmayılova***
*1 yanvar 1981-ci ildə Bakı şəhərində anadan olub. 1988-1998-ci illərdə Nəsimi rayonu 54 saylı tam orta məktəbdə orta təhsil, 1998-2001-ci illərdə Azərbaycan Maliyyə-İqtisad Kollecinin Bank işi fakultəsində orta ixtisas təhsili, 2002-2006-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xarici dil fakultəsində ali təhsil alıb. 2012-ci ildə Bakı Dövlət Layihə İnstitutunda əmək fəaliyyətinə başlayıb, tərcüməçi, iqtisadçı, Planlaşdırma şöbəsinin rəisi vəzifələrində çalışıb. 12 yanvar 2018-ci il tarixindən etibarən Bakı Dövlət Layihə İnstitutunda Kadrlar üzrə baş mütəxəssis vəzifəsində çalışır.*

fə şəhərsalma reqlamenti tətbiq olundu. Bu ərazidə əhalinin sayının cüzi təbii artımı nəzərə alınmaqla adambaşına 25 kv.m mənzil fondu, 10 kv.m-dən artıq yaşıllıq sahəsi, hər 400 nəfərə 1000 avtomobil, yerüstü və yeraltı avtomobil dayanacaqları ilə tam təmin olunmaqla ərazilərin planlaşdırılması və rekonstruksiyası layihəsi hazırlandı.

Yeni nəqliyyat sxemində qovşaqlar və düyünlərdəki problemlər həll edildi, bir sıra cəsarətli tədbirlər nəzərdə tutuldu. Müfəssəl planlaşdırma layihəsi ilə yanaşı, bir sıra uğurlu mülki və yaşayış obyektləri layihələndirildi. Bunlar Yeni Yasamal, C.Quliyev, H.B.Zərdabi, M.İbrahimov küçələrindəki yaşayış evləri, FHN Akademiyasının Hovsan qəsəbəsindəki Təh-



***Stella Rafail qızı Sultanova***
*14 iyul 1971-ci ildə Bakı şəhərində anadan olub. 1995-ci ildə Bakı Dövlət Universitetini bitirib. 1988-ci ildən bu günə qədər Bakı Dövlət Layihə İnstitutunda çalışır. Dəftərxana müdiri, mühasib işləmişdir. Hazırda Baş mühasib vəzifəsində çalışır.*



*Bakı Metropoliteninin "28 May" stansiyasının yerüstü pavilyonu. 2012-ci il*



*Bakı şəhəri, Üzeyir Hacıbəyov, Rixard Zorge, Kövkəb Səfərəliyeva və Zərifə Əliyeva küçələrinin əhatə etdiyi ərazidə yüksəkmərtəbəli yaşayış binaları.*



**Cəlalət Hümbət qızı Orucova**

*6 iyun 1965-ci ildə anadan olub. 1982-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsinə daxil olaraq 1987-ci ildə fərqlənmə diplomu ilə institutu bitirib. 1987-ci ildən Bakı Dövlət Layihə İnstitutunda işləyir. C.H. Orucova fəaliyyəti dövründə memar. aparıcı memar. layihənin baş memarı və şöbə müdiri vəzifələrində çalışıb. Hazırda baş mütəxəssis-memar vəzifəsində çalışır. Bir çox yaşayış və inzibati binaların layihələndirilməsində iştirak edib.*

*Onun rəhbərliyi altında Bakı şəhəri, H.Zərdabi prospektində yaşayış evləri, "Azərbaycansuvenir" MMC-nin inzibati binasının yenidən qurulması, Azərbaycan Respublikasının Hollandiyada pavilyonu, Şəki şəhərində "Marxal" istirahət kompleksi, Bakı şəhəri, Xətai rayonunda Ukraynanın Azərbaycan Respublikasındakı Səfirlik kompleksi, Bakı şəhərində fransız liseyi, "Bakı Ağ Şəhər"də 7-8 mərtəbəli yaşayış binası, Bakı şəhəri, Pirallahı rayonu, Pirallahı qəsəbəsində Mərkəzi Park kompleksinin abadlaşdırılması və mərkəzdə yerləşən inzibati binalarının layihələri hazırlanıb.*

sil korpusu, A.M.Şərifzadə küçəsində Diaqnostika mərkəzi, Bakı Metrosunun texnoloji korpusu və yeni giriş pavilyonu, Qəbələ rayon İcra Hakimiyyətinin inzibati binası, Nizami küçəsində dördmərtəbəli ticarət mərkəzi, Neftçilər və İstiqlaliyyət küçələrində, Gənclik meydanında yerləşən yaşayış binalarının fasadlarının yenidən qurulması və s. uğurlu layihələrdir. Bu layihələrin hazırlanması zamanı Z.Məmmədov, Ə.Məmmədov, C.Orucova kimi təcrübəli memarların iştirakı ilə yanaşı E.Umudov, N.Əfəndiyeva, A.Umudova, E.Hacəliyev kimi gənc memarların istedadı üzə çıxdı və Bakı Dövlət Layihə İnstitutu şəhərimizi bəzəyən bir sıra uğurlu layihələrə imza ataraq öz şanlı ənənələrini bərpa etmiş oldu.

2011-ci ildə gənc memarlar N.Əfəndiyeva və E.Hacəliyevin iştirakı ilə Hollandiyanın Venlo şəhərində keçirilən Floriada sərgisi üçün hazırlanan Azər-



**Firuzə Səməd qızı Aslanova**

*26 iyul 1948-ci ildə anadan olub. 1955-1966-cı illərdə 134 saylı orta məktəbdə təhsil alıb. 1966-cı ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin "Su təchizatı və kanalizasiya" ixtisasına qəbul olunub. 1972-ci ildə institutu bitirib. 1967-ci ildən bu günə qədər "Bakıdövlətlayihə" İnstitutunda çalışır. "Bakıdövlətlayihə" İnstitutunda işləyərkən aşağıdakı layihə işlərində iştirak edib: Əhmədli qəsəbəsində mikrorayon; Yeni Yasamalda mikrorayon; Xoreoqrafiya məktəbi; Çin Xalq Respublikasının Səfirliyi; Badamdar qəsəbəsində yaşayış evləri; Azadlıq, Müşviq metro stansiyalarının abadlaşdırılması; Naxçıvan MR Fövqəladə Hallar Nazirliyinin inzibati binası; Respublika mehmanxanasının rekonstruksiyası; Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiya kompleksi; Cavanşir küçəsində yaşayış evi; Bakı şəhərinin mərkəzi hissəsinin yenidən qurulmasının müfəssəl planlaşdırma layihəsi və s.*



*Bakı şəhəri, Yasamal rayonu, 501-ci məhəllədə 20 saylı tam orta məktəbin binası. 2017-ci il*



***Larisa Əlimirzə qızı Həmzəyeva***
*11 oktyabr 1939-cu ildə Bakı şəhərində anadan olub. 1957-ci ildən 1961-ci ilə qədər "Leninskaya elektroset" müəssisəsində işləyib. 1962-ci ildə Bakı energetika texnikumunu bitirib. 1961-ci ildən 1995-ci ilə qədər "Azərdövlətsənayelayihə" institutunda işləyib. 1962-ci ildən 1968-ci ilə qədər Azərbaycan Neft və Kimya İnstitutunda təhsil alaraq mühəndis-elektrik ixtisasına yiyələnib. 1997-ci ildən 1999-cu ilə qədər "Azərneftlayihətikinti" layihə institutunda işləyib. 1999-cu ildən bu günə qədər "Bakıdövlətlayihə" İnstitutunda çalışır.*

*L.Həmzəyeva institutda işlədiyi dövrdə yüksək peşəkarlıqla aşağıdakı işləri yerinə yetirib: Azərbaycanda Çin Xalq Respublikasının səfirliyinin binası, "Azadlıq", "Müşfiq", "Avtovağzal" metro stansiyalarının, "Respublika" mehmanxanasının rekonstruksiyası, Fövqəladə Hallar Nazirliyi Akademiyasının kompleksi, Bakı Metropoliteninin texnoloji korpusunun işçi layihəsi, Bakının Yasamal rayonunda poliklinika və s.*

*L.Həmzəyeva 03 aprel 2020-ci ildə vəfat edib.*

baycan pavilyonu inşa edildi və böyük uğur qazandı.

Elə həmin 2011-ci ildə hazırlanmasına Azərbaycan hökumətinin iştirakı və Dünya Bankının krediti əsasında qərar verilən Böyük Bakının Regional İnkişaf Planının ərsəyə gətirilməsində Bakı Dövlət Layihə İnstitutu Baş koordinator seçildi. 2009, 2010-cu ilin yekunlarına görə Bakı Dövlət Layihə İnstitutu MDB ölkələrinin layihə təşkilatları arasında ən yaxşı layihə təşkilatı seçildi. 2011-ci ildə isə İnstitutun direktoru MDB ölkələri arasında ən yaxşı layihə təşkilatı rəhbəri adını qazandı.

Böyük Bakının Regional İnkişaf Planı (BBRİP) layihəsi Azərbaycan hökuməti ilə Dünya Bankı arasında 2007-ci ildə imzalanmış kredit sazişi və 2009-cu ildə bu sazişə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin cavabdeh qurum kimi təyin edilməsi haqqında əlavəyə əsasən hazırlanmış-



*Bakı şəhəri, Pirallahı rayonundakı Pirallahı qəsəbəsində RİH-nin inzibati binası*



***Sabir Nazaroviç Nazarov***
*24 oktyabr 1948-ci ildə Bakı şəhərində anadan olub. 1966-cı ildə orta məktəbi bitirərək Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun (indi Azərbaycan Texniki Universiteti) Texnologiya fakültəsinə qəbul olunub. 1972-ci ildə həmin fakültəni bitirib. Əmək fəaliyyətinə 28 sentyabr 1972-ci ildə "Bakıdövlayihə" İnstitutunda başlayıb. Mühəndis-texnoloq qismində bir sıra layihələrin işlənib hazırlanmasında iştirak edib. 1990-cı ildən mühəndis işləri şöbəsinin rəisi qismində "Bakıdövlətlayihə" institutunda layihələndirilmədə avtomatlaşdırılma sisteminin tətbiqi prosesində bilavasitə və fəal iştirak edib. H.Naxçıvani, V.Plotnikov küçələrində, Mətbuat, Azadlıq prospektlərində yerləşən yaşayış evlərinin, Dənizkənarı bulvarın ərazisində Milli parkın eskizinin, Bakı şəhərində ÇXR səfirliyinin, Prezident iqamətgahında qonaq evinin, "Sahil" metrosunun üstündə yerləşən yaşayış və ofis binalarının layihələrinin işlənib hazırlanmasında fəal iştirak edib. Bakı şəhərinin mərkəzi hissəsinin detal planlaşma layihəsinin qrafik və nümayiş materiallarının hazırlanmasında iştirak edib. Azərbaycan Prezidentinin 9 noyabr 2007-ci il tarixli sərəncamı ilə Sabir Nazaroviç Nazarova "Azərbaycanın Əməkdar mühəndisi" fəxri adı verilib.*



***Aynur Bəxtiyar qızı Umudova***

*1987-ci ildə Bakı şəhərində anadan olub. 2005-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının memarlıq və dizayn fakültəsinə daxil olaraq 2009-cu ildə akademiyanı bitirib. 2009-cu ildən bu günə qədər Bakı Dövlət Layihə İnstitutunda çalışır. Fəaliyyəti dövründə memar, aparıcı memar, layihənin baş memarı və II memarlıq şöbəsinin rəisi vəzifəsində çalışıb. Hazırda Planlaşdırma şöbəsinin rəisi vəzifəsində çalışır. Bir çox yaşayış və inzibati binaların layihələndirilməsində iştirak edib. Bu illərdə Bakı şəhəri Yasamal rayonunda İctimai televiziyanın çəkiliş pavilyonu, Naftalan şəhərində 280 yerlik uşaq bağçası, Şəki şəhərində "Marxal" istirahət kompleksi, Bakı şəhəri Nəsimi rayonu Azadlıq prospektində çoxmərtəbəli yaşayış binaları, Bakı şəhəri Nizami rayonu Elşən Süleymanov küçəsində çoxmərtəbəli yaşayış binası və Bakı şəhəri Nəsimi rayonu S.Rüstəm küçəsində çoxmərtəbəli yaşayış binalarının layihələndirilməsində memar və baş memar kimi iştirak edib.*

dır. Təqdim olunan Böyük Bakının Regional İnkişaf Planı 1:25000 miqyasında hazırlanmış, Bakı və Sumqayıt şəhərlərinin inzibati ərazilərinin, həmçinin Abşeron rayonunun bir hissəsinin daxil edildiyi 282 min hektardan artıq ərazini əhatə edən ərazi planlaşdırma sənədidir. BBRİP-in növbəti mərhələsi olan Məxsusi Bakının Ərazidən İstifadə və Zonalaşdırma Planı (Baş plan) isə 1:10000 miqyasında hazırlanmışdır. Baş plan Bakı şəhərinin əsasən mərkəz hissəsinin daxil edildiyi 33 min hektardan artıq ərazini əhatə edir.

Respublikanın tarixində ilk dəfə hazırlanan bu sənəddə Bakı şəhəri ilə yanaşı, regional inkişafa da diqqət ayrılmışdır. Burada əsasən bir neçə amil nəzərə alınıb, ilk növbədə planda çoxsektorlu yanaşma tətbiq olunub, yəni nəqliyyat, sosial həyat, demoqrafik vəziyyət və sair məsələlər nəzərə alınıb. Növbəti amil Bakının iqtisadi inkişafını irəli aparacaq amillərin nəzərə alınmasıdır. Eyni zamanda planın bir neçə müfəssəl inkişaf ssenarisi hazırlanıb. Kollektiv isə öz tarixi ənənələrini, nailiyyətlərini və missiyasını davam etdirərək daha böyük uğurlara imza atmaq, Bakı şəhərinin yenidənqurma, ti-



***Zülfüqar Əlif oğlu Məmmədov***

*30 yanvar 1941 -ci ildə Bərdə rayonunun Qılışlı kəndində müəllim ailəsində anadan olub. 1948-1958-ci illərdə Bərdə şəhərində 1 saylı orta məktəbi bitirib. 1961-1967-ci illərdə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin Memarlıq şöbəsində təhsil alıb və 1967-ci ildə ali təhsilini memar ixtisası üzrə başa vurub. İlk dəfə memar kimi fəaliyyətə "Bakıdövətlayihə" İnstitutunda başlayıb. Tez bir zamanda onun işgüzarlığı və bacarığı nəzərə alınaraq 1969-cu ildə o, baş memar vəzifəsinə, 1973-cü ildə isə qrup rəhbəri vəzifəsinə təyin edilib. Bir çox mülki və sosial obyektlərin müəllifidir. Z.Ə.Məmmədov 1974-cü ildən Azərbaycan Respublikası Memarlar İttifaqının üzvüdür. Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 9 noyabr 2007-ci ildə Respublikanınn Əməkdar memarı fəxri adı ilə təltif olunub. Z.Ə.Məmmədov 1 fevral 2008-ci ildən 8 avqust 2011-ci ilə kimi Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində şöbə müdiri vəzifəsində çalışıb. 8 avqust 2011-ci ildən 12 yanvar 2018-ci ilə kimi müxtəlif dövrlərdə "Bakıdövlətlayihə" İnstitutunda baş mühəndis və memarlıq şöbəsinin rəisi vəzifələrində çalışıb. Hazırda "Bakıdövlətlayihə" institutunda məsləhətçi kimi fəaliyyət göstərir.*



*Fərhad Abdı oğlu Qarayev*

*7 fevral 1986-cı ildə Bakı şəhərində anadan olub. 2003-cü ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Memarlıq fakültəsində oxuyub. 2008-2010-cu illərdə həmin Universitetin magistratura pilləsində təhsil alıb. 2010-cu ildə "İstanbul Çarşı Import Eksport LTD" Türkiyə şirkətində memar vəzifəsində, 2011-ci ildə Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunda elmi işçi vəzifəsində işləyib. 2012-ci ildən "Bakı Dövlət Layihə" İnstitutunda işləyir. F.A.Qarayev fəaliyyəti dövründə memar, aparıcı memar, layihənin baş memarı vəzifələrində çalışıb. Hazırda Bakı Dövlət Layihə İnstitutunda Memarlıq şöbəsi 1-də şöbə rəisi vəzifəsində çalışır. Bir sıra yaşayış və inzibati binaların layihələndirilməsində iştirak edib. Bunlardan Bakı şəhəri, Yasamal rayonu, Parlament prospektində tikintisi başa çatmış 20 saylı tam orta məktəb, hazırda tikintisi davam edən Bakı şəhəri, Neftçilər prospektində yerləşən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin inzibati binası, Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospektindəki 16 mərtəbəli yaşayış binalarını misal göstərmək olar.*

kinti və abadlaşdırma işlərinə yeni-yeni töhfələr vermək əzmindədir.

Bakı Dövlət Layihə İnstitutunun qazandığı nailiyyətlərdə İnstitutun baş mühəndisi E.Umudov və Memarlıq şöbəsinin rəisi F.Qarayevlə birlikdə çalışan istedadlı memarlarla yanaşı, institutun digər istehsalat şöbələrinin, həmçinin idarəetmə və təsərrüfat strukturunda çalışanların da əməyi böyükdür. İnstitutun Konstruksiya şöbəsinə M.Nəcəfov rəhbərlik edir. Texnika elmləri üzrə fəlsəfə doktoru Nazim Poluxov isə Bakı Dövlət Layihə İnstitutunun baş konstruktorudur. M.Nəcəfov və N.Poluxovun rəhbərliyi ilə istənilən layihədə binanın əsasını təşkil edən konstruksiyanın strukturu hazırlanır, hesablanır, cizgiləri işlənilir və nəhayət bina tikilərək həyata vəsiqə alır. Mühəndis işləri və smetalar şöbəsi isə nəinki institutda, həmçinin bütövlükdə ölkədə həmin ixtisaslar üzrə ən təcrübəli mütəxəssislərin işlədiyi kollektivdir. Bu şöbədə mühəndis bölmələrinin işlərinə baş mütəxəssis kimi əməkdar mühəndis V.H.Həsənov nəzarət edir. İnstitutda gənc mühəndislərlə yanaşı F.S.Aslanova, L.Ə.Həmzəyeva, S.S.Yüzbaşeva kimi mühəndis sistemləri üzrə



*Məmmədalı Ələsgər oğlu Nəcəfov*

*23 avqust 1980-ci ildə Ağdam rayonu Qərvənd kəndində anadan olub. 1986-cı ildə Şıxlar kənd orta məktəbinin 1-ci sinifinə gedib və məlum səbəblər üzündən 1997-ci ildə Ağdam rayonu 125 saylı köçkün orta məktəbini bitirib. 1997-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Sənaye və mülki tikinti fakültəsinə daxil olub. 1997-2001-ci illərdə Sənaye və mülki tikinti ixtisası üzrə bakalavr, 2001-2003-cü illərdə magistr dərəcəsi üzrə təhsil alıb. 2004-cü ildə "Bayva Cənub Enerji" MMC-də əməkhaqqı üzrə iqtisadçı kimi başlayıb. 2005-2010-cu illərdə "İmişli Regional Enerji Təchizatı" MMC-də İqtisadiyyat şöbəsinin rəisi vəzifəsində işləyib. 2010-cu ildən Azərbaycan Respublikasında qocaman layihə təşkilatlarından olan Bakı Dövlət Layihə İnistitutunda layihəçi konstruktor kimi əmək fəaliyyətinə başlayıb. Burada Azərbaycan Respublikasının Əməkdar memarı İlqar Isbatov, tanınmış konstruktor Nazim Poluxov və s. kimi peşəkar layihəçilərdən layihələndirmənin sirlərini öyrənib. Qısa müddətdə M.Ə.Nəcəfov çalışqanlığı və bacarığı ilə rəhbərliyin rəğbətini qazanıb, 2014-cü ildə konstruktorlar şöbəsinin rəisi vəzifəsinə təyin edilib. M.Ə.Nəcəfov layihəçi konstruktor kimi "Bakı Dövlət Layihə" İnstitutunda çoxlu sayda yüksək mərtəbəli yaşayış binalarının, qeyri-yaşayış obyektlərinin, təhsil müəssisələrinin və.s binaların konstruksiya, rekonstruksiya və yenidənqurma layihələrində yaxından iştirak edib.*



**Orxan Elbrus oğlu Cəfərli**
*20 aprel 1990-cı ildə Baki şəhərində anadan olub. 1996-2007-ci illərdə Bakı şəhəri 160 saylı orta məktəbdə təhsil alıb. 2011-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Sənaye və mülki tikinti ixtisası üzrə fərqlənmə diplomu ilə bakalavr, 2014-cü ildə isə eyni ixtisas üzrə fərqlənmə diplomu ilə magistr pilləsini bitirib. Əmək fəaliyyətinə 2011-ci ildə Bakı Dövlət Layihə İnstitutunda inşaat mühəndisi vəzifəsində başlayıb. Hazırda həmin layihə institutunun Konstruktorlar şöbəsində aparıcı mühəndis vəzifəsində çalışır. Layihə institutunda işlədiyi müddətdə çoxlu sayda sənaye və mülki binaların layihələndirilməsində iştirak edib.*

təcrübəli mütəxəssislər də çalışır. Əməkdar mühəndis Sabir Nazarovun rəhbərliyi altında tikintinin təşkili layihələri, layihə-smeta sənədləri və layihələrin texnoloji hissələri hazırlanır. Nəhayət, istehsalat mexanizminin nizamlı fəaliyyətində əməyi keçənlər qeyd olunarkən Bakı Dövlət Layihə İnstitutunun direktor müavini, hazırda institut direktoru vəzifəsini icra edən Heydər Bağırov və institutun baş meneceri Natavan Rəsulovanın adını xüsusi vurğulamaq lazımdır.

Bu gün Bakı Dövlət Layihə İnstitutu texniki cəhətdən ən yaxşı təmin olunmuş layihə təşkilatıdır və bu texnikadan istifadə edə bilən mütəxəssislərə malikdir. Bu, bir çox kompüter proqramlarını mükəmməl bilməklə yanaşı yüksək təşkilatçılıq qabiliyyətlərini



*Bakı şəhəri, Xətai rayonu, Nobel prospektindəki Fransız liseyi kompleksi. 2013-cü il*



**Natavan Nuşirəvan qızı Rəsulova**
*24 yanvar 1984-cü ildə Şirvan (keçmiş Əli Bayramlı) şəhərində anadan olub. Orta təhsilini Şirvan şəhər 11 saylı orta məktəbdə alıb. 1999-cu ildə Şirvan şəhər Pedoqoji Texnikumuna daxil olub. 2001-ci ildən təhsilini Bakı Məktəbəqədər Pedoqoji Texnikumunda davam etdirib. 2004-cü ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tikinti-iqtisad fakültəsinə daxil olub. 2008-ci ildə ali məktəbi bitirib və həmin ilin 21 iyulunda Bakı Dövlət Layihə İnstitutunun Mühəndis şöbəsində mühəndis vəzifəsinə işə qəbul olunub. 5 yanvar 2015-ci ildə Texniki-mühəndis şöbəsinin şöbə rəisi vəzifəsinə təyin olunub. Struktur dəyişikliyi ilə əlaqədar olaraq 12 oktyabr 2015-ci ildə Mühəndis işləri və smetalar şöbəsinə, 12 yanvar 2018-ci ildə isə Smetalar şöbəsinə şöbə rəisi təyin olunub. 11 mart 2019-cu ildə Bakı Dövlət Layihə İnstitutunun Baş meneceri vəzifəsinə təyinat alıb.*

nümayiş etdirən Nəsimi Sadıqovun fədakar əməyi sayəsində mümkün olmuşdur. İnstitutda ən əhəmiyyətli şöbələrdən biri də Planlaşdırma şöbəsidir. Bu şöbənin peşəkar əməkdaşları tərəfindən Böyük Bakının Regional İnkişaf Planı layihəsi üçün məlumat sənədləri toplanmış və Məxsusi Bakının Ərazidən İstifadə və Zonalaşdırma Planı işlənmişdir. Layihə işlərinə nəzarətin həyata keçirilməsində şöbə rəisi Aynur Umudovanın əməyi çox böyükdür. İşə yanaşmada məsuliyyət, tələbkarlıq və peşəkarlıq şöbə əməkdaşlarını səciyyələndirən əsas keyfiyyətlərdir. İnstitutun qocaman memarları, Əməkdar memar Zülfüqar Məmmədovun adı xüsusilə qeyd olunmalıdır. Sənətə münasibəti, peşəkarlığı ilə o, gənclərə nümunə olur, onları istiqamətləndirir.

Layihə institutunun kiçik (Sovet İttifaqının mövcud olduğu dövrlə müqayisədə) kollektivi bu gün Bakının simasının dəyişməsində böyük işlər yerinə yetirir. İnstitutda böyük nəslin memar nümayəndələri ilə yanaşı, gənc memarlar da işləyir və yaradırlar. Aparıcı dünya memarlıq studiya və institutları ilə birbaşa əlaqələr yaranır. “Bakıdövlətlayihə” İnstitutunun mütəxəssisləri dünyada keçirilən bütün memarlıq forum, görüş və sərgilərin daimi iştirakçılarıdırlar.

“Bakıdövlətlayihə” İnstitutunun mütəxəssisləri şəhərin quruculuq işlərində də yaxından iştirak edir. Bunlardan İstiqlaliyyət küçəsində bir sıra yaşayış evlərinin fasadlarının yenidən qurulması, 6 nömrəli məktəbin layihəsinin hazırlanması, Nizami küçəsində



*Bakı şəhəri, Səbail rayonu, 6 saylı ümumtəhsil məktəbinin binası. 2010-cu il*



*Bakı şəhəri, Səbail rayonu, Nizami küçəsində ticarət mərkəzi. 2010-cu il*

Ticarət mərkəzinin layihəsi, H.Zərdabi küçəsində və Nobel prospektində yaşayış komplekslərinin layihələndirilməsi işləri uğurla yekunlaşmış və həmin işlərin bir çoxu istifadəyə verilmişdir. Həmçinin Mətbuat prospektinin yenidən qurulmasında və bir sıra başqa yerlərdə – Qəbələ şəhərində İcra Hakimiyyətinin inzibati binasının layihələndirilməsində, Naftalan şəhərində müasir uşaq bağçasının və s. layihələndirilməsində institutun mütəxəssisləri yaxından iştirak edib.

Bundan başqa kollektiv dörd böyük layihəni işləyib. Onlardan biri Prezident Administrasiyasının sifarişi əsasında Şəki şəhərindəki "Marxal" İstirahət Kompleksinin layihəsidir. Buradakı abadlaşdırılmış ərazidə böyük mehmanxana kompleksi, kotteclər, idman kompleksi, əyləncə mərkəzləri vardır. Kompleks artıq istifadəyə verilmişdir. İkinci böyük layihə isə "Neftçi" MTK-nın sifarişi ilə Dövlət Neft Şirkətinin işçiləri üçün 1000-dən artıq mənzil olmaq şərtilə 5,4 hektarlıq ərazidə inşa olunacaq böyük yaşayış kompleksinin layihəsidir. Üçüncü layihə Yasamal rayonunda 2500 şagird yerlik 20 saylı məktəbin yeni tədris korpusudur. Burada müasir təhsilin tədrisi üçün bütün şərait nəzərdə tutulmuşdur. Dördüncü layihə Xətai rayonunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşları üçün 472 mənzildən ibarət 5 yüksəkmərtəbəli yaşayış evləri kompleksidir. Kompleksdə məktəbəqədər yaşlı uşaqlar üçün bağça və digər xidmətlər nəzərdə tutulmuşdur.

Bakı Dövlət Layihə İnstitutu uzun illərdir ki, ölkəmizdə əsas memarlıq məktəbi funksiyasını da yerinə yetirir. Belə ki, ölkəmizdə və onun sərhədlərindən kənar-



*Bakı şəhəri, Nəsimi rayonu, Zivərbəy Əhmədbəyov, İlqar İsmayılov, Cəlil Məmmədquluzadə və İbrahim Əbilov küçələrinin əhatə etdiyi ərazidə yüksəkmərtəbəli yaşayış binaları. 2018-ci il*



*Bakı şəhəri, Nəsimi rayonu, Ş.Əzizbəyov, S.Vurğun, Mərdanov qardaşları və S.Əsgərova küçələrinin əhatə etdiyi ərazidə yüksəkmərtəbəli yaşayış binaları.*

da hazırda fəaliyyət göstərən onlarla istedadlı peşəkar memar məhz Bakı Dövlət Layihə İnstitutunun yetirməsidir. Bakı Dövlət Layihə İnstitutunda formalaşmış peşəkar kollektivdə ənənələrə sadiqlik, ardıcıllıq, gəncliklə təcrübənin uğurlu vəhdəti sabaha ümidi artırır və yeni nailiyyətlərin qazanılacağından xəbər verir.

2008-ci ildən Bakı Dövlət Layihə İnstitutuna İlqar İsbatov rəhbərlik edir və son 11 ildə İnstitutda qazanılan uğurlar onun adı ilə bağlıdır.

İlqar Aydın oğlu İsbatov 4 sentyabr 1964-cü ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olub. 1971-ci ildə Bakı şəhəri Nizami rayonundakı 238 saylı orta ümumtəhsil məktəbinin birinci sinfinə gedib. 1981-ci ildə həmin məktəbi bitirərək Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsinə qəbul olunub. 1984-cü ildən təhsilini Moskva Memarlıq İnstitutunun Şəhərsalma fakültəsində davam etdirib. 1987-ci ildə Moskva Memarlıq İnstitutunu memarlıq ixtisası üzrə fərqlənmə diplomu ilə bitirərək memar peşəsinə yiyələnib.

İ.A.İsbatov 21 aprel 1987-ci ildə "Bakıdövlətlayihə" Layihə İnstitutunun Baş Plan emalatxanasında memar vəzifəsində əmək fəaliyyətinə başlayıb. 18 may 1987-ci il tarixindən 19 oktyabr 1988-ci il tarixinədək hərbi xidmətdə olub.

İ.A.İsbatov 1 noyabr 1988-ci ildən 30 oktyabr 1998-ci ilədək "Bakıdövlətlayihə" İnstitutunda memar, 5 noyabr 1998-ci ildən 17 iyul 2002-ci ilədək "Azərdövlətlayihə" DBLİ-də layihənin baş memarı vəzifəsində çalışıb. 17 iyul 2002-ci il tarixindən "Feniks-AA" MMC-də direktor vəzifəsində işləyib. 13 fevral 2008-ci ildə İ. İsbatov Bakı Dövlət Layihə İnstitutunun direktoru vəzifəsinə təyin edilib. Ailəlidir, iki övladı var.

İlqar İsbatov bir çox layihələrin hazırlanmasında bilavasitə iştirak edib. Neftçilər və İstiqlaliyyət küçələrindəki binaların fasadlarının yenidən qurulmasına, Yeni Yasamal, C. Quliyev, H.B.Zərdabi, M.İbrahimov küçələrindəki yaşayış komplekslərinin layihələndirilməsinə, FHN Akademiyasının təhsil korpusunun, Qəbələ İcra Hakimiyyətinin inzibati binasının, 132-134, 6 və 18 saylı məktəblərin, Nizami küçəsində ticarət mərkəzinin, yüksək mərtəbəli ofis binasının və s. layihələrin hazırlanmasına rəhbərlik edib və bunların müəllifi olub.

***

Sovetlər Birliyi dövründə keçirilən ümumittifaq müsabiqələrində "Bakıdövlətlayihə" İnstitutu şəhərsalma layihələri üzrə hər zaman qalib olub. Son dövrdə də İ.A.İsbatovun rəhbərliyi ilə kollektiv MDB ölkələri arasında keçirilən müsabiqələrdə "Ən yaxşı layihə institutu" diplomuna layiq görülüb. Bundan başqa "Bakıdövlətlayihə" İnstitutu istər MDB-də, istərsə



*Bakı şəhəri, Xətai rayonu, 1136-1137-ci məhəllə, Yusif Səfərov küçəsində yüksəkmərtəbəli yaşayış binaları. 2018-ci il*

respublikamızda keçirilən müsabiqələrdə dəfələrlə ən yaxşı şəhərsalma layihəsi müsabiqələrinin qalibi olub.

İ.A.İsbatov 2010-cu ildə "İnşaatçılar günü" ərəfəsində Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev cənablarının sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub. İlqar İsbatov 2012-ci ildə Azərbaycan Respublikasının Əməkdar memarı fəxri adını alıb. 2017-ci ildə isə Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev cənablarının sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunub.

Bakı Dövlət Layihə İnstitutu 2009, 2010-cu illərin nəticələrinə görə MDB ölkələri arasında ən yaxşı layihə təşkilatı nominasiyasının qalibi olub, İlqar İsbatov isə 2011-ci ilin nəticələrinə görə ən yaxşı layihə təşkilatı rəhbəri adına layiq görülüb. O, 2009-cu ildə başlanılan və 2011-ci ildə təhvil verilmiş Bakı şəhərinin mərkəzi hissəsinin müfəssəl planlaşdırma layihəsinin müəlliflərindən biri və layihənin baş memarı olub. Onun rəhbərliyi altında Böyük Bakının Regional İnkişaf Planı hazırlanıb.

Bundan başqa 2008-2016-cı illərdə Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 16 ünvanında inzibati bina, Bakı şəhərində 6 nömrəli məktəbin yenidən qurulması, Bakı şəhərində 18 nömrəli məktəbin idman zalının və fasadların yenidən qurulması layihəsi, Ba-




*Bakı şəhərinin Baş planı. 2015-2017-ci illər*

kı şəhəri Yasamal rayonu H.B. Zərdabi prospekti 74 ünvanında müasir tipli yeraltı 2 mərtəbəli avtomobil dayanacağı, Naftalan şəhərində 280 yerlik uşaq bağçası, Şəki şəhərində "Marxal" istirahət kompleksi, ARDNŞ-nin "Kompleks qazma işləri" trestinin inzibati binası, "Böyük Bakının Regional İnkişaf Planı" layihəsi, Ukraynanın Azərbaycan Respublikasındakı səfirlik kompleksi, Fransız liseyi, Bakı şəhəri, Biləcəri qəsəbəsi Bakı-Sumqayıt şosesi 5D ünvanında "Terminal" ticarət mərkəzi, Hollandiyada Azərbaycan Respublikasının sərgi pavilyonu, Bakı şəhəri, Səbail rayonu, Nizami küçəsində Ticarət mərkəzi, Xüsusi Dövlət Mühafizə Xidməti üçün Tibb mərkəzi, Heydər Əliyev prospektində yüksəkmərtəbəli inzibati bina, "Bakı Ağ şəhər"də BW-22-23-24-25 sahəsində 7-8 mərtəbəli yaşayış binası, "Çıraq" yaşayış kompleksi, Neft-Qaz emalı və Neft-Kimya kompleksinin (NQNK) sosial ərazisinin baş planı, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Pirallahı Rayon İcra hakimiyyətinin inzibati binası, Bakı şəhəri, Binəqədi rayonu, Moskva prospektində "Avtovağzal" metro stansiyasının yaxınlığında ictimai-iaşə obyektinin yenidən qurulması, Bakı şəhəri, Neftçilər prospekti 2 ünvanında "CBC"-nin inzibati və istehsalat binası, Bakı şəhərinin Yasamal rayonunda 20 nömrəli tam orta məktəb üçün yeni bina, Bakı şəhəri, Səbail rayonu, Bibiheybət qəsəbəsindən Bayıl massivinə çəkilmiş avtomobil yolunun kənarında yaşayış kompleksi, Yeni Azərbaycan Partiyasının inzibati binası, Ankara şəhərində Azərbaycan Res-



*Şəki şəhəri, "Marxal" istirahət kompleksi. 2013-cü il*

publikasının Səfirlik kompleksi, "Milan Expo 2015" üçün Azərbaycan pavilyonu, Heydər Əliyev prospektində yaşayış binaları, Nəsimi rayonu, A.Səhhət və C.Hacıbəyli küçələrinin kəsişməsində yüksəkmərtəbəli yaşayış binaları və sair layihələr İlqar İsbatovun rəhbərliyi ilə "Bakıdövlətlayihə" BDLİ-nin memarlar kollektivi tərəfindən işlənib hazırlanıb və tikilərək sifarişçilərə təhvil verilib.

Həmçinin Bakı şəhərinin Suraxanı, Nəsimi, Xətai, Nərimanov, Nizami, Yasamal, Səbail, Pirallahı, Xəzər rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 2016-cı il tarixli, 86 nömrəli Qərarının icrası ilə bağlı institutda bir sıra layihələr üzərində işlər davam etdirilib.

Həmçinin, Bakı şəhərinin Baş planının hazırlanması üzrə genişmiqyaslı işlərə dünyanın nüfuzlu şirkətlərindən olan "AS+P", "Boston Konsaltinq Qrup" şirkətləri cəlb edilib. Bu işdə Bakı Dövlət Layihə İnstitutu yerli partnyor olaraq öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Planın işlənilməsi üzrə işlərin 2020-ci ildə tamamlanması nəzərdə tutulub.



**Babaşov Məmmədqulu Əliqulu oğlu**

1939-cu ildə Sabirabad rayonunun Qaralar kəndində anadan olmuşdur. 1946-cı ildə orta məktəbə getmiş və 1963-cü ildə oranı bitirmişdir.

Məmmədqulu Babaşov 1963-cü ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə qəbul olunmuş və 1967-ci ildə bu ali təhsil ocağını Sənaye və mülki tikinti ixtisası üzrə tam kursu bitirərək inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir.

1967-ci ildən Məmmədqulu Babaşovun respublikamızın tikinti kompleksində fəaliyyət illəri başlayır. Belə ki, o, 1967-1980-ci illərdə Sabirabad rayonundakı 10 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstədə iş icraçısı vəzifəsində işləmiş və Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. 10 nömrəli SMD-də çalışdığı 10 ildən çox bir müddətdə Məmmədqulu müəllim tikinti sahəsində lazımlı təcrübə toplamış, özünü bacarıqlı bir inşaat mühəndisi kimi təsdiq etmişdir.

M.Ə. Babaşov daha sonra 1980-1993-cü illərdə Sabirabad rayonunda yerləşən "Kür Araz çaylarında Bəndatma İdarəsi"ndə sahə rəisi vəzifəsində çalışmışdır.

M.Ə. Babaşovun 1993-cü ildən sonrakı fəaliyyət illəri respublikamızın yol tikintisi ilə bağlı olmuşdur. Belə ki, Məmmədqulu Babaşov "Azəravtoyol" Dövlət Şirkətinin Sabirabad rayonundakı 40 nömrəli Yol İstismar İdarəsinin rəisi vəzifəsinə təyin olunmuş və 2000-ci ilə kimi rayonun tikinti quruculuq həyatında böyük uğur-



*Şirvan-Sabirabad avtomobil yolu...*

lara imza atmış, yol infrastrukturunun qurulmasında gərgin əmək sərf etmişdir.

M.Ə. Babaşov 2000-2003-cü illərdə Sabirabad rayonundakı 35 nömrəli Yol İstismar İdarəsində rəis müavini, 2003-2010-cu illərdə isə həmin idarənin rəisi vəzifəsində çalışaraq ona göstərilən böyük etimadı doğrultmuşdur.

İşlədiyti illərdə o, Sabirabad rayonun yol infrastrukturunun qurulmasında yaxından iştirak etmiş, ona tapşırılan bütün vəzifələri bir qayda olaraq yüksək məsuliyyətlə və keyfiyyətlə icra etmişdir. Qazı-Məmməd–Bəhramtəpə avtomobil yolunun, Şirvan–Sabirabad avtomobil yollarının və sair yolların təmir-tikinti işlərinə rəhbərlik etmişdir.

M.Ə. Babaşov həmçinin Sabirabad rayonu ərazisində yerləşən kənd yollarının təmir və tikintisində də yaxından iştirak etmişdir.

M.Ə. Babaşov 2010-cu ildən təqaüddədir. Məşhəd və Kərbəla ziyarətlərində olan Məmmədqulu Babaşov 2007-ci ildə Həcc ziyarətində olmuşdur.

Beş övladı, 11 nəvəsi və 1 nəticəsi olan Məmmədqulu müəllim bu gün asudə bir ömür yaşayır, bu Vətənə, xalqımıza şərəf və ləyaqətlə xidmət etdiyi üçün özünü xoşbəxt sayır.



**Babayev Vladimir Alekseyeviç**

1947-ci ildə Kiyev şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra 1970-ci ildə təyinatla “Azərdövlətlayihə” İnstitutunda mühəndis işləmişdir. Vladimir Babayev respublikanın aparıcı layihə təşkilatında çalışdığı 4 il ərzində böyük məktəb keçmiş, bağlandığı çətin və maraqlı sahənin bütün incəliklərini öyrənməyə çalışmışdır.

1974-1976-cı illərdə keçmiş SSRİ Dövlət Tikinti Komitəsinin Qafqaz üzrə şöbəsinin Bakı Dəmir-beton filialında böyük mühəndis, şöbə müdiri vəzifəsində çalışmışdır. "Azərdövlətlayihə" İnstitutunda topladığı təcrübə və praktiki biliklər burada çalışdığı zaman onun şöbə müdiri vəzifəsinəcən yüksəlməsinə zəmin yaratmışdır.

1976-1979-cu illərdə Moskva şəhərində Beton və Dəmir-beton Elmi Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır. 1980-ci ildə həmin İnstitutun Elmi Şurasında dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. Sonralar Bakı şəhərində Beton və Dəmir-beton Elmi-Tədqiqat laboratoriyasında bölmə müdiri və şöbə müdiri vəzifəsində çalışmışdır. 1984-cü ildə bu laboratoriya yeni yaranmış Azərbaycan İnşaat və Memarlıq Elmi-tədqiqat İnstitutunun tabeliyinə verilmişdir.

1985-1989-cu illər V.Babayev məşhur konstruktor Yaqub Abbas oğlu İsmayılovun dəmir-beton konstruksiyalar üzrə görülən elmi-tədqiqat işlərini davam etdirmişdir. Bu laboratoriyada baş elmi işçi A.M.Balagözov, kiçik elmi işçi R.S.Süleymanov, aparıcı mühəndis R.Q.Ağamalıyev, böyük mühəndis A.N.Qarayev, mühəndis N.Ə.Məlikova, böyük texniklər L.Bağırova və A.T.Əliyev çalışmışlar.

Burada çalışdığı illərdə Vladimir Babayev böyük uğurlara imza atmış, Azərbaycan İnşaat və Memarlıq Elmi- tədqiqat İnstitutunun rəhbərliyi tərəfindən əməyi yüksək qiymətləndirilmişdir.

O, sənətini sevən, nüfuzlu, işinin peşəkarı və yüksək məsuliyyət hissinə sahib əməkdaşlardan olmuşdur.



**Baxışov**
**Azər**
**Sirac oğlu**

1962-ci ilin yanvar ayının 1-də Ağdaş rayonunun Səkili kəndində ziyalı bir ailədə anadan olmuşdur. Atası Sirac müəllim kəndin və rayonun ən hörmətli müəllimlərindən olub, riyaziyyat fənninin tədrisi ilə məşğul olub, indi haqq dünyasındadır. Anası Roza xanım isə iqtisadçı olub. Hazırkı vaxtda təqaüddədir və yaxın günlərdə 80 illik yubileyini qeyd edəcəkdir. Bu ziyalı ailədə 4 qardaş və bir bacı böyüyüb başa çatıb, övladların hamısı ali təhsil alıb. Heç də təsadüfi deyil ki, Baxışovlar ailəsi rayonda ziyalılıar ailəsi kimi tanınır.

Azər Baxışov 1969-cu ildə öz kəndlərində orta məktəbin birinci sinfinə getmiş, 1979-cu ildə Şəkili kənd orta məktəbinin 10-cu sinfini müvəffəq qiymətlərlə bitirmişdir.

Azər Baxışov 1979-cu ildə, orta məktəbi bitirən il Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun (indiki Azərbaycan Memarlıq və İnşaat Universiteti) Sənaye və mülki tikinti fakültəsinin axşam şöbəsinə qəbul olunmuş və elə həmin ildə də ilk əmək fəaliyyətinə başlamışdır.

O, 1980-1982-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. 1982-ci ildə hərbi xidmətini başa vurduqdan sonra Bakı şəhərinə qayıtmış və həmin ilin sentyabrından AzİMİ-də təhsilini axşam şöbəsində davam etdirmişdir.

Azər Baxışov təhsilini axşam şöbəsndə davam etdirə-etdirə bir sıra tikinti təşkilatlarında və müəssisələrdə briqadir, usta, iş icraçısı və baş iş icraçısı vəzifələrində çalışaraq Bakı şəhərində bir sıra tikinti obyektlərinin tikintisi və təmirində, sənaye müəssisələrində ventilyasiya və havalandırma sistemlərinin quraşdırılmasında və sair tikinti-quruculuq işlərində yaxından iştirak etmiş, gələcək inşaatçı-mühəndis fəaliyyəti üçün çox qiymətli praktik təcrübə toplamağa müvəffəq olmuşdur.

Azər Baxışov Mənzil Fondlarının Tikinti Birliyində iş icraçısı və baş mühəndis vəzifələrində işlədiyi zaman Bakı şəhərinin mənzil fonduna daxil olan yüzlərlə yaşayış binasında mənzillərin təmir tikinti işlərinə rəhbərlik etmişdir.

O, 1989-ci ildən 2000-ci ilə qədər Bakı Şəhər İcra Hakimiyyətinin Baş Əsaslı Tikinti və Təmir İdarəsində Maarif və səhiyyə obyektlərinin tikintisi şöbəsinin müdiri vəzifəsində çalışmış, paytaxt Bakı şə-



*Respublika Vergilər Nazirliyinin inzibati binası*

hərinin 9-cu mikrorayon, Əhmədli, Günəşli, Qanlı Göl, Hövsan yaşayış massivlərində və eləcə də Bakı şəhərinin bir sıra digər ünvanlarında 100-lərlə maarif və səhiyyə obyektlərinin maliyyələşdirilməsi, planlaşdırılması və tikintilərinə nəzarət edilməsi funksiyalarını məsuliyyətlə və yüksək peşəkarlıqla yerinə yetirmiş və digər sosial obyektlərin tikintisində iştirak etmişdir.

Azər Baxışov hələ Bakı Şəhər İcra Hakimiyyətinin Baş Əsaslı Tikinti və



*M.F.Axundov adına dövlət kitabxanasının əsaslı təmiri*



*"İçərişəhər" dövlət memarlıq qoruğunda Mirzə Mansur küçəsi 52 ünvanında bərpa edilmiş memarlıq nümunəsi*

Təmir İdarəsində Maarif və səhiyyə obyektlərinin tikintisi şöbəsinin müdiri vəzifəsində çalışdığı illərdə özəl sektorda tikinti quruculuq işləri ilə maraqlanmış və 1997-ci ildə "Mostaz-97" Mənzil Tikinti Kooperativini təsis etmişdir. Və 2000-ci ildə Baş Əsaslı Tikinti və Təmir İdarəsindən ayrıldıqdan sonra o, kənin özəl sektoruna bağlamış, Bakı şəhərinin müxtəlif yerlərində bir neçə çoxmərtəbəli yaşayış evlərinin tikintisini həyata keçirmişdir.

Baxışov Azər Sirac oğlunun 2000-2002-ci illər arasında "Azərkəndtikinti" ASC-nin strukturuna daxil olan 2 nömrəli "Kəndtikinti" trestinin aparıcı mütəxəssisi kimi trest tərəfindən əsaslı təmir və yenidənqurma işləri aparılan Respublika Vergilər Nazirliyinin inzibati binasının və M.F.Axundov adına dövlət kitabxanasının əsaslı təmirində və Bakı şəhərində 2000-ci ilin noyabr ayının 25-də baş vermiş dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılmasında, "İçərişəhər" dövlət memarlıq qoruğunda aparılan tarixi memarlıq abidələrinin yenidən həyata qaytarılmasında və digər bu kimi məsul işlərdə böyük fəaliyyəti olmuşdur.

Azər Baxışov 2014-cü ildən Bakı şəhərində "RİSH" MTK-nın, 2017-ci ildən isə "R+N İnşaat" MTK-ını təsisçisi və baş direktorudur.

"RİCH" MTK-nın unikal Yasamal layihəsi ən yüksək yerdə, Musabəyov parkının arxasında (keçmiş "Sevil" kino-teatrının yerində) hündür ərazidə yerləşir. Ecazkar panoramik mənzərələrinə malik kompleksdə səssiz, sürətli liftlər, mərmər bloklar, geniş həyət, kamera və video nəzarəti ilə xüsusi təhlükəsizlik xidməti, ərazidə idman və oyun meydançalarının olması sakinlərin rahat və təhlükəsiz yaşayışını təmin edəcəkdir. Kompleksin birinci mərtəbəsində ticarət mərkəzi, idman zalı, fitness mərkəzi, sauna, SPA-salon, mağazalar və restoranlar yerləşəcəkdir.

RICH yaşayış kompleksinin şəhərin nisbətən yüksək hissəsində yerləşməsi bu ərazidə havanın daha təmiz olmasını və mənzillərdən şəhərə və dənizə daha gözəl mənzərənin açılmasını təmin edir. Monolit dəmir-beton karkasdan tikilmiş 9+ ballıq zəlzələyə davamlılığı olan kompleksdə olan mənzillər premium standartlarına uyğundur və "Avtomobilsiz həyət" konsepsiyasına uyğun olaraq üçmərtəbəli yeraltı dayanacağa malikdir.

Başlıca missiyası – həyata keçirdiyi layihələr ilə müştəri məmnunluğunu ən üstün səviyyəyə qaldırmaq, onların vaxtına və hüquqlarına hörmətlə yanaşaraq dostluq münasibətləri yaratmaq olan "R+N" İnşaat MTK-nın Bakı şəhəri, Seyid Əzim Şirvani 3 ünvanında, Xalqlar dostluğu və Əhmədli metro stansiyasına 250 metrlik məsafədə inşa etdiyi 16 mərtəbəli yaşayış kompleksi də öz unikallığı ilə seçilir. Kompleks sərhədçi idman kompleksinin arxasında yerləşir və ekoloji cəhətdən təmiz ərazidə inşa olunan kompleksin həm dənizə, həm də şəhərə mənzərəsi vardır.

"R+N" İnşaat MTK sakinlərin rahatlığını düşünərək kompleksdə ailəvi qayğısız həyat sürmək üçün hər cür şərait yaratmağa müvəffəq olmuşdur. Hündür tavanlar (döşəmədən döşəməyə 3,30 m.), dəniz mənzərəsi, eyvanlarda traplar, hər mənzildə eyvan, ehtiyat generatorlar sistemi, fasadların elitar üzlənməsi, təmiz hava, sakit ərazi, idman və sosial obyektlər, uşaqlar üçün əyləncə mərkəzləri və digər sosial xidmətlər sakinlərin həyatı-

nı daha asan və rəngarəng edəcəkdir. Yaşayış yerinin infrastruktura, avtobus dayanacağına, metro stansiyasına yaxın olması və şəhərin mərkəzi yerlərinə qısa müddətdə gedib-gəlmə imkanı hər bir insanın arzuladığı xəyaldır.









*"RİCH" MTK-nın unikal Yasamal layihəsindən görüntülər...*

Respublikamızın tanınmış inşaatçılarından D.M.Asanovun, L.İ.Abasovun, R.İ.Məmmədzadənin və digərlərinin Azər Baxışovun əməyinə verdiyi yüksək qiymət onun respublikamızın dəyərli inşaatçılarından biri olduğuna əyani sübutdur.

Rauf Məmmədzadənin dediklərindən: "Mən Azər







*"R+N" İnşaat MTK-nın Bakı şəhəri, Seyid Əzim Şirvani 3 ünvanında inşa etdiyi 16 mərtəbəli yaşayış kompleksindən görüntülər...*

müəllimin Bakı şəhərinin Yasamal rayonu ərazisində Mirəli Seyidov küçəsi 27 ünvanında, Bakı Dövlət Universitetinin yataqxanalar kompleksinin yanında, "Ovçular" Evinin arxasında inşa etdiyi ilk 17 mərtəbəli yaşayış binasını çox yaxşı xatırlayıram. Onun özəl sektorda olan bu ilk layihəsi Azər müəllimin gələcəkdə bu sahədə böyük uğurlar qazanacağına inam yaradırdı. Azər Baxışovun bu gün inşa etdiyi unikal Yasamal layihəsi – çoxmərtəbəli yaşayış binası, eləcə də Seyid Əzim Şirvani 3 ünvanında inşa etdiyi 16 mərtəbəli yaşayış kompleksi onun respublikanın tikinti kompleksində bacarıqlı inşaatçı-mühəndislərdən olduğunu sübut edir".

Azər Baxışov tikinti quruculuq fəaliyyəti ilə paralel olaraq həm də pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Belə ki, o, 2010-2015-ci illər arasında Azərbaycan Dövlət Neft Akademiyasında müəllim kimi çalışmış, "Sənaye müəssisələrində rəqabətədavamlılığın artırılması" ixtisası üzrə tələbələrə dərs demişdir.

O, 2014-cü ildə burada namizədlik disertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və iqtisad elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır.

Azər Baxışov Azərbaycan Dövlət Neft Akademiyasının tələbələri üçün tədris olunan "Biznes fəaliyyətində risklərin qiymətləndirilməsi" dərslik vəsaitinin müəllifidir.

O, çoxlu sayda beynəlxalq elmi konfranslarda və Simpoziumlarda iştirak etmiş, maraqlı məruzələrlə çıxış etmişdir. Azər müəllim 15-dən çox elmi məqalənin müəllifidir.

A.S. Baxışovun yetirmələri – dərs verdiyi tələbələri bu gün respublika iqtisadiyyatının əksər sahələrində aparıcı mütəxəssislər, rəhbərlər kimi çalışır və çağdaş iqtisadiyyatımızın bütün ağırlıqlarını çiyinlərində daşıyırlar.

Azər Baxışov ailəlidir, bir oğlu, bir qızı vardır. Həyat yoldaşı da ali təhsilli müəllimədir. Hər iki övladı ali təhsillidir və öz sahələrində uğurla çalışır, vətənə və dövlətə sədaqətlə xidmət edirlər.

Azər Baxışov daim kollektivlə sıx təmasdadır, yaşayış evlərinin tikintisinin bütün mərhələlərində tikintiyə nəzarəti şəxsən həyata keçirir, görülən işlərin mütəmadi olaraq hesabatını aparır, bütün sənədlərə şəxsən özü baxır, yoxlayır, iradlarını bildirir, səhvləri göstərib yerindəcə və dərhal həll edir. Azər müəllimin bu özünəməxsus iş üslubu kollektivin hər bir üzvünə yaradıcılıq stimulu verir, onları daha yaxşı işləməyə, yeni axtarışlara ruhlandırır.

A.S. Baxışov yüksək təşkilatçılıq keyfiyyətləri olan mühəndisdir, o, rəhbərlik etdiyi kollektivi qarşıya qoyulan tapşırıqların tez və keyfiyyətli həll olunması üçün asanca bir araya gətirməyi bacardığı kimi, hər bir işçisinə qayğı və diqqət göstərməyi də unutmur. Özünə və ətrafındakı insanlara qarşı çox diqqətcil və qayğıkeş, nəzakətli, mənəvi dəyərlərin daşıyıcısı, saf əqidəli, dövlətcil adam olan Azər Baxışovla ən mürəkkəb məsələləri müzakirə etmək mümkündür.

Tutduğu vəzifədən asılı olmayaraq o, çalışdığı bütün idarə və təşkilatlarıda ona göstərilən etimadı doğrultmuş, bütün tapşırıqları yüksək peşkarlıqla və məsuliyyətlə icra etmişdir. Ona görə də onun əməyi hər zaman yüksək qiymətləndirilmiş, çalışdığı kollektivlərdə nüfuzlu rəhbər kadrlardan biri kimi tanınmışdır.

Azər müəllim millətini sevən, torpağına qəlbən, ruhən bağlı olan bir insandır.

Azər Baxışovun ölkənin tikinti sektorunda həyata keçirəcəyi böyük işlər hələ qabaqdadır.



**Bayramov Elşən Vaqif oğlu**

09 sentyabr 1978-ci ildə Gürcüstan SSR-nin Dmanisi rayonunda anadan olmuşdur. 1985-ci ildə Dmanisi rayonunda 2 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olmuşdur. 1989-cu ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür. 1990-cı ildən Bakı şəhəri Xətai rayonu 269 saylı tam orta məktəbə getmiş və 1995-ci ildə həmin orta məktəbi müvəffəq qiymətlərlə bitirmişdir.

Hələ uşaqlıq illərindən yol inşaatına böyük marağı olduğu üçün, o orta məktəbi bitirdikdən sonra 1996-cı ildə Bakı Dövlət Universitetinin Geodeziya va kartoqrafiya fakültəsinə daxil olmuş və 2000-ci ildə eyni ixtisas uzrə təhsilini müvəffəqiyyətlə başa vurmuşdur.

Elşən Bayramov 2000-2002-ci illərdə Azərbaycan Ordusunda hərbi xidmətdə olmuşdur.

Əmək fəaliyyətinə 2002-ci ildə "Dəmirli Yol" təmir tikinti idarəsində usta peşəsində başlamışdır. Sonralar adıçəkilən müəssisədə briqadir vəzifəsinə irəli çəkilmiş, tikinti – quruculuq sahəsində gərəkli təcrübə toplamışdır.

E.V. Bayramov 2006 -cı ildən ölkənin ən aparıcı və iri müəssisələrindən olan "Akkord Sənaye Tikinti İnvesitisiya Korporasiyası" ASC-də iş icracısı kimi fəaliyyətini davam etdirmiş, işinə məsuliyyətlə və yüksək peşəkarlıqla yanaşması, özünü bacarıqlı inşaat mühəndisi kimi göstərməsi sayəsində kollektivin dərin rəğbətini qazanmış və Korporasiya rəhbərliyinin etimadını tam doğrultmuşdur.

Məhz bacarığı və peşəkarlığı nəticəsində bir sıra məsul vəzifələrə irəli çəkil-



*"Gənclik" metro stansiyasının yaxınlığında yerləşən "Qələbə" meydanında tunel kompleksinin tikintisindən görüntü..*

miş və müəssisə rəhbərliyi tərəfindən bir çox təşəkkürnamələrə, fəxri fərmanlara layiq görülmüşdür.

Onun rəhbərliyi altında Bakı şəhəri Nobel prospektinin tam yenidən qurulması, Yusif Səfərov küçəsinin yenidən qurulması və yol geyiminin yenilənməsi, Sumqayıt dairəvi yolunun tam inşası və asfalt işlərinin yerinə yetirilməsi, "Gənclik" metro stansiyasının yaxınlığında yerləşən "Qələbə" meydanında tunel kompleksinin tikintisi, Dərnəgül - Böyük Şor qəsəbəsi yolunda tunelin tikintisi yüksək məharətlə yerinə yetirilmişdir.





*Bakı şəhəri "Nobel" prospektinin tam yenidən qurulması...*

Şirkətlər qrupun tərkibində "Akkord Asfalt" MMC yarandıqdan sonra, Elşən Bayramov həmin müəssisənin Əsaslı tikinti şöbəsinin rəisi vəzifəsinə təyin edilmiş, burada çalışdığı müddətdə də ona göstərilən etimadı doğrultmuşdur.

E.V. Bayramov 2017-ci ildən "Elban Tikinti" MMC-ni təsis etmiş və hazırda şirkətin fəaliyyət dairəsinin genişləndirilməsi istiqamətində yeni layihələrə imza atmaq əzmindədir.

Ailəlidir, iki övladı var. O, övladlarını əməyə və Vətənə məhəbbət ruhunda böyüdür, onların layiqli vətəndaş kimi böyüməsi üçün bir valideyn kimi nə lazımsa edir.





*Yusif Səfərov küçəsinin yenidən qurulması və yol geyiminin yenilənməsi*





*Bu layihələrin hər birində Elşən Bayramovun əməyi vardır...*

# E



**Eminbəyli Təranə Zakir qızı**

1 may 1944-cü ildə Gəncə şəhərində anadan olmuşdur. 1961-ci ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş və 1967-ci ildə sənaye və mülki tikinti ixtisası üzrə bitirmişdir. İnstitutu bitirdikdən sonra 1967-1969-cu illər "Bakıbaştikinti" idarəsinin "Texniki-iqtisadi" laboratoriyasında mühəndis işləmişdir.

1969-1974-cü illərdə Dadaşov adına Tikinti Materialları Elmi Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır. Sonralar həmin institutun "Zəlzələyədavamlı tikililər" laboratoriyasına texnik və sonralar kiçik elmi işçi vəzifəsinə köçürülmüşdür.

1978-1984-cü illərdə Kuçerinko adına İnşaat Konstruksiyaları Mərkəzi Elmi-Tədqiqat İnstitutunun "Zəlzələyədavamlı tikililər" laboratoriyasında kiçik elmi işçi vəzifəsində işləmişdir.

1984-cü ildən Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunda kiçik elmi işçi vəzifəsində işləmişdir. Təranə Eminbəyli 20 ildən çox İnstitutda "Zəlzələyədavamlı tikililər" laboratoriyasında elmi işlə məşğul olmuşdur. Bu illər ərzində 15-dən çox elmi məqalələri dərc olunmuşdur. İnstitut kollektivi arasında sadə, təvazökar və mehriban bir insan kimi hörmət qazanmışdır.



**Eyxler Adolf Vilhelmoviç**

8 noyabr 1869-cu ildə anası Yelena-Yelizaveta Qovorkonun ata yurdunda, Rusiyanın Oryol şəhərində anadan olmuşdur. Atası Vilhelm Eduard Eyxler 1864-cü ildə Bakıya gəlmişdir. Böyük bacısı Vilhelmina-Yelizaveta 1866-cı ildə Bakıda, kiçik bacısı Viktoriya-Leontina 1870-ci ildə Suraxanıda anadan olmuşlar.

Atası Vilhelm Eduard məşhur kimya və farmasiya magistri sayılırdı. 1888-ci ildə Neft sənayeçiləri bir-

liyi kerosinin keyfiyyətinə nəzarət etməyi ona həvalə etmişdi. Təbiətsevər şəxs olan Vilhelm Eduard, demək olar ki, ancaq öz şəxsi vəsaitləri hesabına 1878-ci ildə Mixaylov (Qubernator) bağını abadlaşdırmışdı.

Vilhelm Eduard həm də yeni bitki növləri kəşf etmiş və alman botanika jurnalında onlar haqqında məqalələr yazmışdı. Alimlər həmin bitkiləri onun şərəfinə Tulipa Eichleri və Bulbucodium Eichleri adlandırmışdılar.

Onun oğlu Adolfun həyatında əmisi Karl Eduard böyük rol oynamışdır. Kar Eduardın Quberniya (indiki Nizami) küçəsində yerləşən apteki xalq arasında məşhur idi. Dindar adam olan Karl Eduard 1877-ci ildə Lüteran Cəmiyyətinin Kilsə şurasının üzvü seçilmişdir.

24 iyul 1907-ci ildə Adolf Eyxler katolik məzhəbə aid 24 yaşlı Lidiya-Eleonora Nagel ilə evlənir. 1908-ci ildə onların ilk uşağı- İren, 1910-cu ildə Korneliya dünyaya gəlir.

5 fevral 1911-ci il tarixində səhər saat 5-də Eyxlerlərin mənzilində atəş səsi eşidildi. Ertəsi gün bütün qəzetlər Adolf Eyxlerin intiharından yazır və özlərindən müxtəlif təfərrüatlar uydururdular. İntiharın motivləri daha sonra bəlli oldu. Adolf Eyxler çiçək xəstəliyindən əziyyət çəkirdi və əzablara dözməyərək intihar etmişdi. Həmin gün həyat yoldaşı və difteriya ilə xəstələnmiş uşaqlar Adolfun qaynatasıgildə idilər.

Onun ən yaxın rəisi mühəndis Məmməd Hacınski Eyxleri nümunəvi işçi kimi xarakterizə edərək demişdi ki, intiharın səbəblərini onun işgüzar fəaliyyətində axtarmaq yersizdir. Şəhərdə tikinti işləri aparan iri podratçı Hacı Qasımov deyirdi ki, 20 illik fəaliyyəti dövründə yüzlərlə memar və mühəndislə qarşılaşsa da, Adolf Eyxler kimi dürüst, hətta ifrat dürüst adamla qarşılaşmamışdı.

Adolf Eyxler şəhərin dağlıq hissəsində yerləşən lüteran qəbristanlığında dəfn edildi. 1928-ci ildə həmin qəbristanlıq ləğv edildi. İndi həmin yerdə türk məscidi yerləşir.

Peterburqda təhsil alan Adolf Eyxler XIX əsrin 90-cı illərindən memar kimi fəaliyyətə başlamışdır (1892-1911-ci illərdə sahə memarı). 1892-ci ilin əvvəlində o Suraxanı (indiki D.Əliyeva) küçəsində tikiləcək birmərtəbəli məktəbin binasını layihələşdirmişdir.

1896-cı ildə isə Eyxlerin layihəsi üzrə Kirxanın tikintisi başladı və tikinti 1899-cu ildə tamamlandı. Bu layihədən sonra Eyxler şəhər memarı kimi fəaliyyətə başladı: məktəblərin və yaşayış evlərinin tikintisi, sanitar tələblərə cavab verməyən karvansarayların bağlanması, zibilin yandırılmasına nəzarət və s.

1904-cü ildə Adolf Eyxler şəhərin mərkəzi hissəsinin ikinci sahəsinin memarı təyin edilir. 1908-ci ildə isə onu birinci sahəyə köçürüb 150 rubl da əmək haqqı təyin edirlər.

Xeyriyyə tədbirlərində fəal iştirak edən Adolf Eyxler 1904-cü ildə təmənnasız olaraq 2-ci Qanlı təpə (indiki A.Bünyatov) və Maqazin (indiki Süleyman Rüstəm) küçələrinin kəsişməsində yerləşəcək uşaq evinin layihəsini hazırlayır.

Adolf Eyxlerin Bakıda layihələşdirdiyi binalar:

- İkimərtəbəli yaşayış evi (1895-ci il) – İçərişəhər
- İkimərtəbəli yaşayış evi (1895-ci il) – Dəniz (indiki Bülbül prospekti) və Karantin (indiki Həzi Aslanov) küçələrinin kəsişməsində
- Birmərtəbəli ev (1895-ci il) – Telefon (indiki 28 may) küçəsi
- Yaşayış evləri və kirxa (1895-1897-ci illər) – Telefon (indiki 28 may) küçəsi 15 və 17

• Birmərtəbəli yaşayış evi (1895)-ci il – Merkuri (indiki Z.Əliyeva) və Birja (indiki Ü.Hacıbəyov) küçələrinin kəsişməsi

• İkimərtəbəli yaşayış evi (1896-cı il) – Suraxanı (indiki D.Əliyeva) küçəsi

• Haşımov məscidi və onun daş hasarı (1895-ci il) – Poçt (indiki Süleyman Tağızadə) küçəsi

• İkimərtəbəli yaşayış evi (1896-cı il) – Naqornaya (?) və Pozen (indiki Cəfərov qardaşları) küçələrinin kəsişməsi

• İkimərtəbəli yaşayış evi (1896-cı il) – Nijni Priyutksaya (indiki Süleyman Rəhimov) küçəsi

• İkimərtəbəli yaşayış evi (1896-cı il) – İçərişəhər

• Daş skamyalar (1896-cı il) – Praçeçnaya (indiki Mərdanov qardaşları) küçəsi

• Birmərtəbəli yaşayış evi (1896-cı il) – Spasskaya (indiki Zərgərpalan) küçəsi

• Birmərtəbəli yaşayış evi (1897-ci il) – Gimnaziya (indiki Tolstoy) küçəsi

• İkimərtəbəli yaşayış evi (1897-ci il) – Quba (indiki Zivərbəy Əhmədbəyov) küçəsi

• İkimərtəbəli yaşayış evi (1898-ci il) – Quberniya (indiki Nizami), Kolyubakin (indiki N.Rəfibəyli) və Spasskaya (indiki Zərgərpalan) küçələrinin kəsişməsi.

1909-cu ildə Bakı bulvarının salınması haqqında qərar qəbul edilərkən Adolf Eyxler təşkilati məsələlərdə yaxından iştirak edirdi. O zaman müsabiqə yolu ilə seçilmiş layihənin işlənilib həyata keçirilməsində mühəndis Kazimir Skureviçin və memar Adolf Eyxlerin də böyük zəhməti olmuşdur. Onların təklifi əsasında dəniz sahili ilə yeni salınmış Aleksandr küçəsinin (indiki Neftçilər prospekti) arasında yaşıllıq zolağının salınması nəzərdə tutulmuşdu.



İçərişəhər. Cümə məscidi və minarə...



İçərişəhər. Dərviş türbəsi



İçərişəhər. Bazar meydanı

# Ə



**Əhədov**
**Əhməd**
**Əsədulla oğlu**

1925-ci ildə Masallı rayonunda ruhani ailəsində anadan olmuşdur.

Orta məktəbi Masallı rayonunda bitirdikdən sonra Azərbaycan Dəmir Yolu İdarəsinin 13 saylı yol Distansiyasına fəhlə kimi işə qəbul olmuşdur. 1943-cü ildə Azərbaycan Dəmir Yolu Texnikumunun "Yol təsərrüfatı" fakültəsinə daxil olmuş və 1946-cu ildə oranı bitirmişdir. Texnikumu bitirdikdən sonra yol ustası kimi fəaliyyət göstərmişdir.

Əhməd Əhədov 1953-cü ildən 1960-cı ilə qədər iş icraçısı vəzifəsində çalışmışdır. Bu dövrdə özünü işgüzar, tələbkar işçi kimi göstərmişdir. Daha sonra təhsilini davam etdirmişdir.

O, 1964-cü ildə Rusiyanın Rostov şəhəri Dəmiryol İnstitutunun "Tikinti və sənaye" fakültəsinə daxil olmuş və 1970-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir.

Ə.Ə. Əhədov 1960-cı ildən 1970-ci ilə qədər sahə rəisi vəzifəsində çalışmışdır. Sahə rəisi vəzifəsində özünü bacarıqlı rəhbər və təşkilatçı kimi göstərdiyi üçün 1970-ci ildən Azərbaycan Dəmiryolu Mostopoezd-4 saylı idarəsinə rəis təyin edilmişdir. Bu keyfiyyətlərinə görə rəhbərliyin diqqətini cəlb etmiş, 1970-ci ildə idarə rəisi vəzifəsinə irəli çəkilmişdir. İdarə rəisi işlədiyi illərdə 70-ə yaxın dəmiryol körpüsü inşa etmişdir. İnşa etdiyi konstruksiyaların müxtəlifliyi, relyef nəzərə alınmaqla körpülərin dayanıqlığı, yaraşığı, möhkəmliyi bu dövr üçün də aktuallığını itirməmişdir. Əhməd Əhədov həmçinin Lənkəran-ray adlanan uzunluğu 320 pm olan qəzalı vəziyyətindəki körpünü təmir etmiş və sözügedən körpü bu günə qədər istismar olunmaqdadır.

O, Qamışlı-Astara mənzilinin 163 km, 158 km, 171 km yeni körpülərin tikintisində idarə kollektivi ilə birlikdə çalışmışdır.

İşinə məsuliyyətlə yanaşdığından Əhməd Əhədov dəfələrlə müxtəlif medallarla təltif edilmiş, dəfələrlə rayon və şəhər sovetlərinə deputat seçilmişdir.

O, 1954-cü ildə "Əmək əlaçısı" medalı ilə təltif olunmuşdur.

1961-ci ildə Astara şəhər Zəhmətkeş Deputatları Sovetinə deputat seçilmişdir.

1975-ci ildə Lənkəran Zəhmətkeş Deputatları Sovetinə deputat seçilmişdir.

1983-cü ildə keçmiş "SSRİ-nin Fəxri Dəmir-



*Əhməd Əhədov dostları ilə...*

yolçusu" adına layiq görülmüşdür.

Ələt-Atbulaq 427 km dəmir-beton dəmiryol körpüsü, 2 aşırımlı dəmir-beton Nəvai-Pirsaat 446 km körpüsü və digərləri Əhməd Əhədovun rəhbərliyi altında həyata keçirilmişdir.

Lənkəran rayonu ərazisində Xəzər dənizində suyun səviyəsinin qalxması nəticəsində çoxlu sayda evin, dəmir yolunun, torpaqların yuyulma təhlükəsi qarşısında qaldığı zaman Əhməd Əhədovun rəhbərlik etdiyi idarə tərəfindən ümumi uzunluğu 29 km 200 m olan bəndləmə işləri aparılaraq böyük yuyulmanın qarşısı alınmışdır.

Parlaq ağlı, aydın kamalı, tükənməz səbri ilə o, adi fəhləlikdən yüksələrək Lənkəranın ən hörmətli, tanınmış şəxsiyyətlərindən birinə çevrilmişdi.

O, həyatda nə qazanıbsa zəhməti, alın təri ilə əldə etmişdi. Öz sahəsinin peşəkarı idi, tapşırılan hər bir iş bir qayda olaraq tez və keyfiyyətlə icra olunurdu. O, hər zaman qabaqcıllar sırasında idi.

O, bütün əmək fəaliyyəti illərində ictimai fəallığı ilə seçilmiş və respublikanın inkişafı üçün əzmlə və yüksək peşəkarlıqla çalışmışdır və buna adekvat olaraq onun əməyi hər zaman rəhbərlik və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, o, ölkənin tikinti quruculuq yönümündəki çoxillik səmərəli fəaliyyətinə və qazandığı nailiyyətlərə görə çalışdığı bütün baş idarələrdə və müəssisələrdə dəfələrlə "Fəxri Fərmanı"larla, pul mükafatları və qiymətli hədiyyələrlə təltif olunmuşdur.

Əhməd Əhədov yüksək təşkilatçılıq keyfiyyətlərinə malik rəhbər idi, özünə və ətrafındakılara qarşı diqqətcil və qayğıkeş, nəzakətli, ciddi və mənəvi dəyərlərin daşıyıcısı, saf əqidəli insan idi.

Bu gün cəsarətlə demək olar ki, yüksək səviyyəli mütəxəssis və ciddi insan olan Əhməd Əhədov adını bacarıqlı tikinti müətəxəssisi və inşaat rəhbəri kimi



Azərbaycanın tikinti-quruculuq tarixinə əməlləriylə əbədi möhürləmişdir.

Əhməd Əhədov həm də böyük müəllim idi, hamı ondan öyrənməyə çalışırdı. Təsadüfi deyil ki, onun yetirmələri son illərdə respublika tikinti kompleksində aparıcı mütəxəssislər, rəhbərlər kimi müasir tikintimizin bütün ağırlıqlarını çiyinlərində ləyaqətlə daşıyırlar.

Tutduğu vəzifədən asılı olmayaraq o, hər zaman sözün əsil mənasında respublikamızın inşaatçıları üçün örnək bir insan olub.

Əhməd Əsədulla oğlu Əhədov 1992-ci ildə iyul ayının 3-də haqq dünyasına qovuşdu. Onun bütün mənalı həyatı, şərəfli ömür yolu hər zaman Azərbaycan dövlətinin maraqları ilə və xalqın xoş gün-güzəranı ilə sıx bağlı oldu.

Allah qəni-qəni rəhmət etsin!





*Bacarıqlı yol mühəndisi Əhməd Əhədovun rəhbərliyi altında respublikamızın bölgələrində inşa olunmuş müxtəlif konstruksiyalı körpülərin görüntüləri...*

**Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani** orta əsr Azərbaycan memarı. Naxçıvan-Marağa memarlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri olan Əhməd Naxçıvaninin dövrümüzə iki əsəri gəlib çatmışdır. Onlardan biri "Nüşabə qalası" kimi də tanınan Bərdə türbəsi (1322), digəri isə, Qudi xatunun şərəfinə inşa edilmiş, Qarabağlar türbə kompleksidir (XIV əsrin 30-cu illəri).

Qarabağlar türbəsinin şimal tərəfindəki baştağın tünd bənövşəyi rəngli kaşı yerliyi üzərində nəsx xətti ilə memar öz adını yazmışdır. Çoxrəngli kaşı ornamentlərin tətbiqi, kitabələrdən bəzək vasitəsi kimi istifadə edilməsi Əhməd Naxçıvaninin yaradıcılıq üslubu üçün səciyyəvidir. Ümumi quruluşunun fərdi cəhətləri ilə fərqlənən Axsadan baba türbəsinin (Bərdə şəhəri) də memarının Əhməd Naxçıvani olduğu güman edilir.





**Əhmədbəyov Zivər bəy Gəray bəy oğlu** 1873-cü ildə Şamaxı şəhərində doğulub. Orta təhsilini Şamaxıda almışdır. 1902-ci ildə Peterburq İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir . 1910-cu ildən Bakı şəhərində yaşayıb. 1902-1917-ci illərdə Z.Əhmədbəyov Bakı Quberniyasının İdarəsində, sonra isə Bakı şəhər idarəsində memar işləmişdir. Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra Bakı şəhərinin baş memarı olub.

1922-ci ilə kimi Bakı şəhərinin baş memarı olmuşdur. Şamaxıda Cümə məscidinin, İmam məscidinin, Bakıda Təzə Pir məscidinin, Göyçayda Əbülfəzlil Əbbas məscidinin (1898-1902), Əmircanda Murtuza Muxtarov məscidinin (1908) (məscidi Kərbəlayi Əhməd tikib) və Vladiqafqazda bir sıra yaşayış, məişət binaları onun layihəsilə tikilmişdir.

Əmircanda layihəsini verdiyi məscid isə Şərq memarlığının ən yaxşı incilərindən biri kimi UNESCO-nun tarixi abidələr siyahısına salınaraq qorunur.

Z.Əhmədbəyov öz layihələrində Qərbi Avropa və Şərq memarlıq ənənələrini böyük məharətlə birləşdirirdi. Bakıda Oftalmologiya institutunun binası və onun layihəsilə tikilən bir sıra yaşayış binaları bu gün qalmaqdadır.

1917-ci ildə Z.Əhmədbəyov "İslam mədəniyyət abidələrini qoruyan", 1919-cu ildə isə Şamaxıda mədəniyyət abidələrinin öyrənilməsi ilə məşğul olan "Yeni Şirvan" cəmiyyətlərini yaradır.

Zivərbəy Əhmədbəyov 1925-ci ildə Bakıda intihar edib. Çəmbərəkənd qəbiristanlığında dəfn edilmişdir.

26 may 2011-ci ildə Bakıda "Nizami" metro stansiyası qarşısında Zivər bəy Əhmədbəyovun heykəlinin və onun adını daşıyan parkın açılışı olub. Prezident İlham Əliyev mərasimdə iştirak edib.

Parkla üzbəüz bina Zivər bəy Əhmədbəyovun layihəsi əsasında inşa edilib.

rünüşə malikdir. O, həm Kərbəladakı məscidi, həm Məkkədəki Kəbə evini xatırladır. Tikili inşa edilərkən müsəlman Şərqinə məxsus geniş memarlıq nümunələrinə diqqət yetirilib.

Azərbaycan Prezidenti İlham Əliyev 25 may 2010-cu il tarixdə Bakı şəhərində yerləşən Əjdərbəy məscidinin bərpasi ilə əlaqədar tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin Ehtiyat Fondundan Əjdərbəy məscidində bərpa işlərinin tamamlanması üçün Bakı şəhər İcra Hakimiyyətinə vəsait ayrılsın.

Dövlət vəsaitləri hesabına aparılan və 2007-ci ilin aprel ayından başlayan təmir bərpa işlərinin ümumi sahəsi 4 min kvadratmetr olan məscidin həyatində ibadət üçün xüsusi sahə də ayrılıb. "Əndərun" adlanan həmin yerdə eyni vaxtda 1000-ə qədər insan ibadət edə biləcək. Bundan başqa, məscid-kompleksdə qurbangah, namaz zalı və daha bir neçə yardımçı otaqlar da tikilib. Alt mərtəbə isə dəstəmaz otağı üçün nəzərdə tutulub.



**Əkbərov Aydın Səməd oğlu**

1938-ci ilin 20 yanvar tarixində Lənkəran rayonunun Şağlaser kəndində anadan olmuşdur. Atası Səməd kişi 1913-cü ildə Lənkəran rayonunun Şağlaser kəndində anadan olub. Səməd kişinin ulu babası bəy nəslindəndir. O, Cənubi Azərbaycanın Nəmin şəhərində anadan olub və sonradan Lənkərana köçüb. Bu günkü Əkbərovlar nəsli Cənubi Azərbaycandakı Alxasovlar nəslinin davamçılarıdır. Çox kasıb bir ailənin övladı olan Səməd kişinin Həmid və Nəsir adlı iki qardaşı olub və qardaşlar hər üçü sonralar Böyük Vətən Müharibəsinin iştirakçısı olub və müharibə veteranı kimi rayonun hörmətli kişilərindən biri kimi tanınıblar.

Orta təhsilini Şağlaser kəndindəki məktəbdə alan Aydın Əkbərov sonra Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur.

Aydın Əkbərov ordu sıralarından tərxis olunduqdan sonra Bakı şəhərinə gəlmiş, burada Bakı Plan-Uçot Texnikumuna qəbul olunaraq mühasibat uçotu ixtisası üzrə orta-ixtisas təhsili almışdır. O, texnikumda təhsil aldığı illərdə doğma Şağlaser kəndindəki Lenin adına sovxozda mühasib vəzifəsində işə başlayıb, 1981-ci ildə S.Ağamalı oğlu adına Kirovabad Kənd Təsərrüfatı İnstitutunun (indiki Gəncə Kənd Təsərrüfatı Akademiyası) Mühasibat uçotu fakültəsinə qəbul olunduqdan sonra isə Lenin adına sovxozda baş mühasib vəzifəsinə qəbul olunmuş və uzun illər ərzində bu vəzifədə məsuliyyətlə çalışmışdır.

Aydın Əkbərov Şağlaser kəndindəki Lenin adına sovxozda mühasib vəzifəsində çalışdığı zaman Şağlaser kəndinin quruculuğuna, kəndin abadlaşdırılması, yolların təmiri, kənd camaatına xidmət edəcək sosial mədəni-məişət obyektlərinin tikintisinə xüsusi diqqət yetirmiş, bir çox layihələrin təşəbbüskarı olmuş və onların həyata keçirilməsi üçün bir baş mühasib kimi vəzifə səlahiyyətləri daxilində imkanlardan maksimum istifadə etmişdir.



*Bakı şəhərinin girişində Salyan şossesinin kənarında inşa olunmuş 5 mərtəbəli yaşayış evlərinin fasadlarının üzlük işləri Aydın Əkbərovun oğlu Fəqani Əkbərov tərəfindən həyata keçirilmişdir.*

Aydın Əkbərov ayrı-ayrı illərdə həm Lənkəranın, həm də qonşu rayonların kolxoz və sovxozlarında da baş mühasib vəzifələrində çalışmışdır. İşinin peşəkarı, kamil maliyyə mütəxəssisi olduğu üçün o dövrdə Aydın Əkbərov kimi mütəxəssislərə böyük ehtiyac var idi. Hansı kolxoz və sovxozda gerilik var idisə Aydın Əkbərovu dərhal o kolxoza baş mühasib göndərirdilər və təbii ki, qısa vaxt ərzində işlər qaydaya salınırdı. O, harda, hansı rayonda çalışıbsa orada kəndin tikinti quruculuq yönümü, abadlıq istiqaməti, yolların mövcud vəziyyəti onu maraqlandıran əsas işlər olub və o, baş mühasib olaraq rəhbərliyin diqqətini bu vacib məsələlərin həllinə yönəldib.

Təsadüfi deyil ki, cənub bölgəsində, Aydın müəllimin çalışdığı bütün rayonlarda onun adı dövrünün çox savadlı və nüfuzlu kişilərindən, qurucu insanlarından biri kimi hörmətlə anılır.

Aydın Əkbərov əmək fəaliyyəti illərində bütün bilik və bacarığını işlədiyi rayonun və kəndin abadlaşmasına və çiçəklənməsinə sərf etmişdir. Onun çoxillik baş müahisb fəaliyyəti dövründə göstərdiyi vətənpərvərlik duyğuları və quruculuq işi çalışdığı rayonların rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş, dəfələrlə fəxri fərmanlarla, pul mükafatları ilə və qiymətli hədiyyələrlə mükafatlandırılmış, medallarla təltif olunmuşdur.

Aydın Əkbərovun həyta yoldaşı Əkbərova Şəfiqə Saleh qızı 1 mart 1941-ci ildə anadan olub, evdar qadındır. Böyük bir ailənin yükünü uzun illər kövrək çiyinlərində mərdiklə daşıyan Şəfiqə ana hal-hazırda Şağlaser kəndində nəvəli, nəticəli xoşbəxt bir ömür yaşayır.

Aydın müəllimin ailəsinə rayonda riyaziyyatçılar ailəsi də deyirlər, çünki bu nəslin davamaçıları dəqiq elmlərə çox meyllidirlər. Ailədə yeddi övlad böyüyüb, başa çatıb, dörd qardaş, üç bacı. Aydın müəllimin 13 nəvəsi, 13 nəticəsi vardır. Oğlan nəvələrinin çoxu ali təhsilli mütəxəssislərdir və aralarında bu gün tikinti təşkilatlarında işləyən mühəndis də, bankda, FHN-in idarə və müəssisələrində çalışan mütəxəssislər də, müəllim, həkim işləyənləri də var.

Qurucu insan olan Aydın Əkbərovun ailəsində tkinti sahəsində çalışan mühəndislər də var. Oğlu Fəqani Əkbərov 1990-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsini sənaye və mülki tikinti ixtisası üzrə bitirərək inşaatçı-mühəndis ixtisası almış, 30 ildən çoxdur ki, respublikamızın tikinti-quruculuq sahəsində inşaat mühəndisi kimi çoxlu sayda layihələrin həyata keçirilməsi işlərinə rəhbərlik edib.

Fəqani Əkbərov ölkə tikintisində keçən fəaliyyət illərində tikinti quruculuq dövründə respublikamızın paytaxtında və bölgələrimizdə çoxlu sayda müxtəlif təyinatlı sosial obyektlərin, inzibati binaların, olimpiya idman komplekslərinin, məktəb, uşaq bağçası və xəstəxanaların, çoxlu sayda hündürmərtəbəli yaşayış binalarının tikintilərinə rəhbərlik etmişdir.

O, bu gün "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-də Tikinti direktorunun layihələr üzrə müavini kimi Akkord"un respublikamızda və onun hüdudlarından kənarda tikdiyi bütün layihələrin icrasına nəzarət edir və rəhbərliyin etimadını doğruldur.

Fəqani müəllimin oğlu Famid Əkbərzadə də inşaatçıdır, ata yolunun daavamçısıdır. Famid Azərbaycan Texniki Universitetini Kompüter mühəndisliyi ixtisası üzrə bitirib və hazırkı vaxtda Azərbaycan Memarlıq və İnşaat Universitetinin inşaat fakültəsində (qiyabi) ikinci ali təhsil alır, hazırkı vaxtda o da "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-də mühəndis vəzifəsində çalışır.

Fəqani müəllimin qızı Turanə Əzimova Lənkəran Dövlət Universitetinin kimya-biologiya fakültəsini bitirib, hazırda kimya müəllimi kimi gənc nəslin təlim-tərbiyəsində iştirak edir. Ailəlidir, Mələk və Nigar adında iki qızı var.

Fəqani müəllimin kiçik oğlu Elvin Əkbərzadə orta məktəbin 11-ci sinfində təhsil alır, dərs əlaçısıdır və gələcəkdə hüquqşünas olmaq arzusundadır.

Aydın Əkbərov 45 ildən çox bir dövrdə baş mühasib vəzifəsində çalışmışdır. Onun keçdiyi parlaq ömür yolu sözün əsil mənasında bu günün gəncləri üçün böyük bir məktəbdir. Respublikamızda iqtisadçı, maliyyə və mühasibat uçotu sahəsində gənc mütəxəssislərin yetişməsində Aydın müəllimin əməyi böyükdür. Vətəninə, torpağına, elinə-obasına, dövlətinə bağlı bir insan olan Aydın müəllim hər zaman öz təcrübəsini böyük səxavətlə ətrafında olan gənc iqtisadçılara, maliyyə, mühasibat işçilərinə həvəslə öyrətmiş və bundan qürur duymuşdur.

O, geniş dünyagörüşünə malik, əsl ziyalı və çox savadlı, mütaliəli insan olmuşdur.

Aydın Əkbərov 2019-cu ilin iyun ayının 15-ində haqq dünyasına qovuşdu. Bu gün onun ruhu şaddır ki, övladları və nəvələri ölkəmizin layiqli vətəndaşları kimi Vətənə və dövlətə öz sahələrində sədaqətlə xidmət etdiyi kimi, maliyyə və mühasibat uçotunun sirlərini öyrətdiyi onlarla mütəxəssislər respublikamızda iqtisadiyyatın əksər sahələrində çalışır və yeni-yeni uğurlara imza atırlar.



**Əlifov**
**Afər**
**Sabir oğlu**

1957-cı il oktyabr ayının 10-da Siyəzən şəhərində anadan olmuşdur. 1974-cü ildə Siyəzən şəhər 1 saylı orta məktəbi bitirərək Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə qəbul olunmuşdur. 1979-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu müvəffəqiyyətlə bitirərək sənaye və mülki tikinti ixtisasına yiyələnmişdir. 1979-cu ilin avqust ayından oktyabr ayına kimi gənc mütəxəssis kimi Qobustanda "Aznef-tikinti" trestində mühəndis kimi əmək fəaliyyətinə başlamışdır.

1979-cu ilin oktyabr ayından 1981-ci ilin iyun ayına kimi Sovet Ordusu sıralarında Rusiya Federasiyasının İrkutsk vilayətinin Çita şəhərində hərbi qulluqda olmuşdur.

1981-ci ilin iyun ayından dekabr ayının sonuna kimi Qobustanda "Aznef-tikinti" trestində mühəndis kimi əmək fəaliyyətini davam etdirmişdir. 1982-ci ilin yanvar ayından 1984-cü ilin oktyabr ayına kimi Azərbaycan İnşaat Mühəndisləri Universitetinin əyani aspiranturasında təhsilini davam etdirmişdir. 1984-cü ildə Leninqrad Politexnik Universitetində namizədlik disertasiyasını müdafiə edərək texniki elmlər namizədi alimlik dərəcəsi almışdır.

1985-2012-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin "İnşaat mexanikası" kafedrasında assistent, baş müəllim, dosent vəzifələrində çalışmışdır. Həmçinin 1998-2002-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin Magistratura şöbəsinin müdiri olmuşdur.

7 magistr və 6 namizədlik dissertasiyalarının elmi rəhbəri olmuşdur.

Paralel olaraq 2003-2007-ci illərdə "Akademikproje" MMC özəl layihə təşkilatının direktoru və konstruktoru kimi də fəaliyyət göstərmişdir. 2003-2010-cu illərdə isə "Bakı Tikinti və Şəhərin İnkişafı Şirkəti" özəl inşaat təşkilatının lahiyələndirmə ofisində konstruktor vəzifəsində çalışmışdır.

2012-ci ildən 2017-ci ilə kimi Türkiyədə Bartın Universitetinin İnşaat Mühəndisliyi bölümünün dosenti vəzifəsində çalışmışdır.

04.02.2018-ci ildən 09.09.2018-ci ilə kimi Bakı Mühəndislik Universitetində dosent vəzifəsini tutan Afər Əlifov 10.09.2018-ci il tarixindən bu günə kimi həmin universitetin Memarlıq və İnşaat fakültəsinin dekanı vəzifəsində çalışır.

Universitetlərin auditoryalarında "Statika" (bakalavr)," Dinamika" (bakalavr), "İnşaat Mexanikası" (bakalavr), "Dəmir-beton konstruksiyaları" (bakalavr), "Dəmir-beton konstruksiyaların gücləndirilməsi" (bakalavr), "Öncə gərginləşdirilmiş konstruksiyalar" (bakalavr), "Metal konsruksiyaları" (bakalavr), "Zəlzələyə davamlılıq" (bakalavr), "Əsas və özüllər" (bakalavr), "ArchiCAD" (bakalavr), "Sap2000" (bakalavr), "Qurğular dinamikası" (magistr), "Elastiklik nəzəriyyəsi" (magistr), "Plastiklik nəzəriyyəsi (magistr) fənlərini tədris edir.

Sürüngənlik, temperatur yüklənməsi, dayanlılığa, möhkəmliyə aid müxtəlif problemlərə həsr edilmiş 75-dən çox elmi məqalələri dərc edilmişdir.

Ailəlidir, bir oğlu var.



**Əliyev**
**Akif**
**Ələs oğlu**

25 avqust 1964-cü ildə Kəlbəcər rayonunun Sınıqkənd kəndində anadan olmuşdur. 1981-ci ildə kənd orta məktəbində 10 illik təhsilini başa vurmuşdur. 1982-1989-cu illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda ali təhsil alaraq memarlıq ixtisasına yiyələnmişdir.

Akif Əliyev əmək fəaliyyətinə 1992-ci ildə Sumqayıt şəhər evtikmə kombinatında başlamışdır. Sənət vərdişlərinə tez bir zamanda yiyələnmişdir. 1993-1994-cü illərdə Sumqayıt Şəhərsalma və memarlıq idarəsində Layihə şöbəsinin rəisi olmuşdur. 1994-cü ildə “Qobustan” layihə-istehsalat kooperativini yaratmış və 3 il burada rəhbərlik etmişdir. Sonralar (1997-2000-ci illərdə) “Teleseun” firmasını təsis edərək həmin firmanın direktoru olmuşdur. O, 2000-2004-cü illərdə layihə şöbəsinin rəisi kimi fəaliyyət göstərmişdir. Baş memarın müavini, Memarlıq və Tikintiyə Dövlət Nəzarəti şöbəsinin rəisi olmuş, 2004-2005-ci illərdə baş memar vəzifəsini icra etmişdir. Akif Əliyev bir müddət Arxitektura və dizayn emalatxanasının qrup rəhbəri olmuşdur.

İstedadlı memarın yüksək təşkilatçılıq qabiliyyəti diqqətdən kənarda qalmamışdır. Bacarıqlı, istedadlı, tələbkar və məsuliyyətli insan kimi tanınan Akif Əliyev 2005-ci ilin sentyabr ayından Abşeron rayon Memarlıq və tikinti şöbəsinin müdiri, rayonun baş memarı kimi səmərəli fəaliyyət göstərməkdədir. Baş memar olaraq yüksək təşkilatçılıq və rəhbərlik qabiliyyətləri ilə yanaşı istedadlı memarın zəngin təxəyyülü və təcrübəsi ayrı-ayrı yaşayış məskənlərinə gözəllik bəxş edən neçə-neçə yaşayış binalarının layihələndirilməsinə də imkan verib. Belə ki, 2006-2010-cu illərdə Xırdalan şəhərində inşa olunan Heydər Əliyev adına mədəniyyət və istirahət parkı, Abşeron rayon icra hakimiyyətinin inzibati binası (2009-2010-cu illər), Heydər Əliyev mərkəzi, Şahmat mərkəzi, Sumqayıt şəhərində 11 mərtəbəli yaşayış binası, Abşeron rayonu Məmmədli kəndində 960 yerlik tam orta məktəbin tikintisi onun layihəsi əsasında aparılmışdır. Masazır kəndində 8 binadan ibarət “Rahat nəfəs” yaşayış kompleksinin, Sumqayıt Dənizkənarı Bulvarının layihələrinin hazırlanmasında Akif Əliyevin xüsusi əməyi olmuşdur.

Akif Əliyevin uzun illər ərzində davam edən memarlıq fəaliyyətində qazandığı çoxsaylı uğurlarının əsasını onun həmişə yaradıcılıq axtarışlarında olması, məsuliyyətliliyi və əməksevərliyi təşkil edir. İstedadlı memar təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da bir sıra maraqlı layihələr həyata keçirmişdir. Bunlara misal olaraq deyək ki, Ümummilli lider Heydər Əliyevin Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində və Türkiyə Cümhuriyyətinin Bursa şəhərində ucaldılan abidə kompleksinin layihə müəllifi Akif Əliyevdir.

Uzun illər memarlıq sahəsində çalışan Akif Əliyevin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, 2012-ci ildə Azərbaycanın Əməkdar memarı fəxri adına layiq görülmüşdür.

Ailəlidir, 3 övladı var.



**Əliyev**
**Hacı**
**Əli oğlu**

mənalı və şərəfli yol keçmişdir. O, Bakı şəhərində Elektrorabitə texnikumunu bitirdikdən sonra 1935-ci ildə M. Əzizbəyov adına Texniki İnstituta daxil olur. Texnikum və institutda təhsil aldığı müddətdə istehsalatda radiotexnik, iş icraçısı kimi çalışmışdır. İnstitutu əla qiymətlərlə bitirdikdən sonra 1941-ci ildə qurğular üzrə Elmi-Tədqiqat İnstitutuna direktor müavini təyin edilir.

1943-cü ilin iyun ayında Azərbaycan SSR-nin Mənzil Kommunal Nazirliyinin baş idarəsinə baş mühəndis, sonradan Azərbaycan Respublikası Kommunist Partiyası Bakı şəhər komitəsində "Tikinti və şəhər təsərrüfatı" şöbəsində təlimatçı və şöbə müdirinin müavini vəzifəsində çalışmışdır.

İstehsalatda çalışan zamanlar Hacı Əli oğlu texniki elmlərə çox meyl göstərirdi. İstehsalatda yığdığı təcrübəyə əsasən Hacı müəllim 1950- ci ildə elmi dissertasiya müdafiə edərək "Texnika elmləri namizədi" diplomuna layiq görülür. 1956-cı ildə isə SSRİ Dövlət Atestasiya Komissiyası ona Baş Elmi işçi (dosent) elmi dərəcəsi verir.

1951-ci ildə Sumqayıt şəhərində " Zakpromstroy" trestində baş mühəndis və istehsalat müəssisələrinin direktoru olmuşdur. 1956-58-ci illərdə Kəndtikinti Nazirliyində Nazirin birinci müavini, sonradan Azərbaycan KP Sumqayıt şəhər Kommunist Partiyasının Birinci katibi seçilmişdir.

İki il keçəndən sonra Hacı müəllim Azərbaycan Respublikası Tikinti Nazirinin birinci müavini vəzifəsinə təyin edilmişdir.

Hacı Əliyev ötən əsrin 50-ci illərinin axırlarında Kənd Tikinti nazirinin müavini işlədiyi illərdə respublikanın bütün bölgələrində kənd tikinti obyektlərinin tikintilərinə rəhbərlik etmiş, Azərbaycanın şəhər və kəndlərinin abadlaşdırılmasında gərgin əmək sərf etmişdir. Azərbaycanın elə bir bölgəsi yoxdur ki, orda Hacı Əliyevin avtoqraf verdiyi obyektlər olmasın.

Həmçinin tikinti quruculuğa bağlı olan bir mütəxəssis, qurucu rəhbər kimi Hacı müəllim Azərbaycan KP Sumqayıt şəhər Partiya Komitəsinin birinci katibi işlədiyi illərdə, eləcə də Azərbaycan Respublikasının Tikinti nazirinin müavini olduğu illərdə də tikinti onun iş fəaliyyətinin əsas istiqaməti olmuş və böyük nailiyyətlərə imza atmışdır.

1962-ci ildə öz xahişi ilə elmi işə keçmişdir. Bu ildən başlayaraq Hacı müəllim öz həyatını elmlə bağlamışdır. 1962-78-ci illərdə S.Dadaşov adına Tikinti Materialları və Qurğuları Elmi-Tədqiqat İnstitutunda "Antiseysmik tikililər laboratoriyası"na rəhbərlik etmişdir. Bu illər ərzində Hacı müəllim savadlı, təcrübəli, idarəçilik qabiliyyətinə malik olan təşkilatçı kimi özünü göstərmişdir.

Heç də təsadüfi deyil ki, SSRİ Dövlət Tikinti Komitəsi tərəfindən V.Kuçerenko adına İnşaat Konstruksiyaları Mərkəzi Elmi-Tədqiqat İnstitutunun yeni yaradılmış laboratoriyasına rəhbərlik etmək Hacı müəllimə tapşırılmışdır. Hacı müəllimin rəhbərliyi altında bu laboratoriyada kiçik elmi işçi T.Z.Rəcəbova, mühəndis Z.M.Babayev,

B.N.Həsənov, R.N.Məmmədov, böyük texnik V.X.Hidayətov, L.P.Ankudinova çalışmışlar.

1984-cü ildə yuxarıda qeyd etdiyimiz fəaliyyətdə olan laboratoriyaların əsasında "Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu" təşkil ediləndən sonra Hacı müəllim 1987-ci ilin ortalarına qədər AzİMETİ-də fəal işləmiş və sonra təqaüdə çıxmışdır. Hacı Əli oğlu Əliyevin keçdiyi yol nümunədir və dövlətini sevən hər bir zəhmətkeş, vicdanlı insan üçün örnəkdir. Elmi fəaliyyəti dövründə Hacı müəllimin 100-ə qədər elmi məqaləsi və ixtiraları olmuşdur. O, "Zəlzələyədavamlı tikililər" üzrə Beynəlxalq və Avropa Assosiasiyalarının üzvü, Azərbaycan Bölməsinin sədri, Azərbaycan Dövlət Tikinti və Arxitektura Komitəsi Elmi-Texniki Şurasının Rəyasət Heyətinin üzvü, bölmə sədri, Respublika Nazirlər Sovetinin "Zəlzələyədavamlı tikililər" Komissiyasının üzvü olmuşdur.

Əmək fəaliyyəti zamanı Hacı Əli oğlu Əliyev tələbkar, zəhmətkeş, prinsipial, başladığı işi axıradək yerinə yetirən təvazökar və xeyirxah insan, peşəkar mühəndis və alim olmuşdur.



**Əliyev Tahir İdris oğlu**

15 aprel 1956-cı il tarixində Azərbaycan Respublikasının Ağdərə şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1963-cü ildə Ağdam şəhərindəki 1 nömrəli orta məktəbin birinci sinfinə getmiş və 1973-cü ildə həmin orta məktəbi müvəffəq qiymətlərlə bitirmişdir.

O, 1973-cü ilin oktyabr ayından 1974-cü ilin iyul ayınadək Sumqayıt şəhərindəki "Üzvi-Sintez" zavodunun 16 nömrəli sexində təmir üzrə 2-ci dərəcəli çilingər işləmişdir. O, daha sonra (1974 sentyabr – oktyabr) Ağdam Konserv zavodunda fəhlə işləmişdir.

Tahir Əliyev 1974-cü ilin oktyabr ayında ordu sıralarına xidmətə getmiş və 1976-cı ilin noyabr ayınadək hərbi xidmətdə olmuşdur. O, ordudan tərxis olunduqdan sonra yenidən Ağdam rayonuna qayıtmış və (1977-ci il fevral – may) Ağdam Metiz-Furnitur zavodunda 3-cü dərəcəli çilingər və Sumqayıt Tikinti Materialları Kombinatında (1977 iyun – 1978 noyabr) 3-cü dərəcəli çilingər vəzifəsində işləmişdir.

Tahir Əliyev artıq bu illərdə ali təhsil almaq barədə qəti qərara gəlmiş və 1978-ci ilin noyabr ayından 1979-cu ilin iyul ayınadək Belqorod Tikinti Materiallarının Texnologiyası İnstitutunun hazırlıq şöbəsində, 1979-cu ilin iyul ayından 1984-cü ilin oktyabr ayınadək həmin institutun əyani şöbəsində ali təhsil almışdır.

T.İ. Əliyev 1984-cü ildə ali təhsilli mütəxəssis kimi Vətənə qayıtmış və Sumqayıt Tikinti Materialları Kombinatında baş usta vəzifəsinə işə qəbul olunmuşdur. O, daha sonra burada sex rəisi və baş mühəndis kimi 1994-cü ilin iyun ayına kimi çalışmıdır.

T.İ. Əliyev 1994-cü ilin iyun ayından 1996-cı ilin yanvar ayınadək "Azərdəmiryoltikinti" Birliyinin 781 nömrəli Tikinti Quraşdırma Qatarında rəis müavini vəzifəsində, 1996-cı ilin yanvar – sentyabr aylarında isə rəis vəzifəsində çalışmışdır.

Tahir Əliyev 1996-1998-ci illərdə Ələt Kərpic

zavodunun direktoru olmuşdur.

T.İ. Əliyev 1998-ci ilin iyun ayından 2007-ci ilin aprel ayınadək Təyinatlı Vaqonların İstismarı Müəssisəsinin rəisi vəzifəsində işləmişdir. 2007-ci ilin iyun ayında Təyinatlı Vaqonların İstismarı Müəssisəsinin adı və fəaliyyət növü dəyişdirilərək "Azəryolservis" ASC-nin 89 nömrəli Yol İstismar Müəssisəsi adlandırılmış və Tahir Əliyev 2015-ci ilin aprelinədək "Azəryolservis" ASC-nin 89 nömrəli Yol İstismar Müəssisəsinin rəisi vəzifəsində işləmişdir.

T.İ. Əliyev 2015-ci ilin aprelindən "Azəryolservis" ASC-nin 65 nömrəli Yol İstismar Müəssisəsinin rəisi vəzifəsində işə başlamışdır. "Azəryolservis" ASC-nin 19. 08. 2015-ci il tarixli 10 saylı Qərarına əsasən 65 saylı YİM-in adı dəyişdirilərək 45 saylı Xüsusi Təyinatlı Yol İstismar İdarəsi adlandırılmış və Tahir Əliyev idarənin rəisi təyin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 826 nömrəli 09.03.2016-cı il tarixli Fərmanına əsasən "Azəryolservis" ASC-nin adı dəyişdirilərək "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti adlandırılmışdır. "Azəravtoyol" ASC-nin 72 saylı 08.07. 2016-cı il tarixli Qərarına əsasən 45 saylı XTYİİ-nin adı dəyişdirilərək "10 nömrəli Xüsusi Təyinatlı Yol İstismarı İdarəsi" MMC adlandırılmış və Tahir Əliyev həmin cəmiyyətin direktoru təyin olunmuşdur. O, bu günədək həmin cəmiyyətin direktorudur.

Azərbaycan Respublikası Prezidentinin 18.10. 2017-ci il tarixli 1638 nömrəli Fərmanına əsasən "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək Azərbaycan Avtomobil Yolları Dövlət Agenyliyi adlandırlmışdır.

Tahir Əliyev son illərdə çalışdığı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin cəmiyyətdə olan yüksək nüfuzunun daha da artırılması üçün rəhbərlik etdiyi kollektivlərin hər bir üzvünü tapşırılan vəzifələrin yüksək peşəkarlıq və məsuliyyət hissi ilə icra olunmasına səfərbər edə bilmiş və böyük uğurlara imza atmışdır.

Tahir Əliyevin əməyi çoxillik gərgin fəaliyyət illərində çalışdığı bütün idarə və müəssisələrdə rəhbərlik və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir.

T.İ. Əliyev 2002-ci ildə "Əla Yol İşçisi" – ilin ən yaxşı mütəxəssis yarışının qalibinin Diplomu ilə və Azərbaycan Dövlət Dəmir Yolu üzrə verilmiş 27 noyabr 2002-ci il tarixli 44 saylı əmrlə "Fəxri Dəmiryolçu" nişanı ilə təltif edilmişdir.

O, 2004-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Əliyev Tahir İdris oğlu Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 fevral 2016-cı il tarixli müvafiq Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Bu gün Tahir müəllim Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin böyük kollektivində bacarıqlı mütəxəssis kimi tanınır. İşlədiyi müddət ərzində özünü təşəbbüskar, təcrübəli mühəndis, yüksək təşkilatçı kimi göstərmiş Tahir Əliyev ünsiyyətdə nəzakətli, təvazökar və siyasi-ideoloji cəhətdən savadlı insan və təcrübəli direktor kimi o, öz işini daim layiqincə yerinə yetirir.

Dövlətinə, xalqına sədaqətlə xidmət etmək, doğma Azərbaycanımızın çiçəklənməsinə dayaq olmaq həmişə onun ən böyük arzusudur və o, bu gün də bu böyük amalla yaşayır, işləyir və böyük uğurlara imza atır.



**Əliyev Vasif Ayət oğlu**

27 yanvar 1981-ci ildə Azərbaycan Respublikasının Sabirabad rayonunda anadan olmuşdur. Orta təhsilini Sabirabad rayonunda almışdır.

O, 1998-ci ildə Azərbaycan İnşaat və Memarliq Universitetinin yol mühəndisliyi fakültəsinin əyani şöbəsinə qəbul olunmuş və 2002-ci ildə bu ali təhsil ocağını Yol mühəndisi ixtisası üzrə müvəffəq qiymətlərlə bitirmişdir.

Vasif Əliyev daha sonra - 2008-ci ildə Lvov Politexnik Universitetinə qəbul olunmuş, burada qiyabi təhsil alaraq 2013-cü ildə universiteteti inşaat mühəndisi ixtisası üzrə bitirmişdir.

Vasif Əliyev 2006-cı ilin may ayında "Azərkörpü" ASC-yə topoqraf vəzifəsinə işə qəbul olunmuş və 2012-ci ilə kimi bu səhmdar cəmiyyətində topoqraf, geodeziya mühəndisi və layihə mühəndisi vəzifələrində çalışmış, üzərinə düşən tapşırıqları məsuliyyətlə icra etmişdir. O, 2006-2007-ci illərdə Bakı-Rusiya Federasiyası Dövlət Sərhədində 1-ci dərəcəli yolun tikintisində topoqraf kimi çalışmışdır. 2007-ci ilin aprelindən isə geodeziya mühəndisi kimi Ukraynada həyata keçirilən Kiyev-Çop avtomobil yolunun (M-06) tikintisi layihələrinin icrasında iştirak etmişdir.

Məlumat üçün deyək ki, Kiyev-Çop magistralı (M-06) – vacib transavropa marşrutları ilə bağlı olan qərb istiqaməti üzrə (Macarıstanla sərhədədək) Ukrayna ərazisində beynəlxalq əhəmiyyətli avtomobil yoludur.

"EVRASCON" Korporasiyası tərəfindən həyata keçirilən bu layihəyə iki nəqliyyat qovşağının tikintisi, iki körpü və iki yol ötürücüsünün yenidən qurulması, həmçinin II dərəcəli avtomobil yolu (17,5 km) və I dərəcəli avtomobil yolunun (8,5 km) təmiri daxil idi. Birinci nəqliyyat qovşağında (magistralın 322-ci km-də) 2 yeni yol ötürücüsü, bir tunel, 8 eniş və su buraxıcı boruların tikintisi həyata keçirilmişdir. İkinci nəqliyyat qovşağında (yolun 348-ci km-də) bir yol ötürücüsü, 4 eniş və su buraxıcı borular tikilmişdir.

Vasif Əliyev 2009-2011-ci illərdə "EVRASCON" Korporasiyasının "Enerqomost qrup" şirkətində layihə mühəndisi olmuş, Rusiya Federasiyasının Tatarıstan vilayətinin Kazan şəhərində yol qovşağının tikintisində, çox vacib layihənin həyata keçirilməsində əzmkarlıq göstərmişdir.

Əliyev Vasif Ayət oğlu 2011-2012-ci illərdə Azərkörpu-Autoban UKRAYNA M-07 layihəsinin tikintisində geodeziya mühəndisi kimi üzərinə düşən tapşırıqların öhdəsindən layiqincə gəlmişdir.

Vasif Əliyev 2013-cü ilin mart-noyabr aylarında "Azvirt" MMC-nin geodeziya mühəndisi kimi "Serbia, E 763 Belqrad - Juzni Jadran magistral yolunun tikintisində vəzifəsində çalışmış, etimadı doğrultmuşdur.

Vasif Əliyev daha sonra – "İnterstroy" MMC-nin sahə mühəndisi kimi Sabirabad rayonunda su-kanalizasiya sistemlərinin tikintisində, 2015-2016-cı illərdə SOCAR Salyan Regional Qaz İstismarı İdarəsinin layihə mühəndisi kimi qaz xətlərinin çəkilişində, 2016-2017-ci illərdə isə "Astexnoservis" MMC-də topoqraf vəzifəsində

Azərbaycanın neft-kimya sənayesinin ən önəmli layihələrindən olan "SOCAR Polymer" zavodunun tikintisində iiştirak etmişdir. Məlumat üçün deyək ki, "SOCAR Polymer" şirkəti 16 iyul 2013-cü il tarixində ölkənin kimya sənayesinin inkişafının sürətləndirilməsi məqsədi ilə təsis edilmişdir. Şirkətin istehsalat obyektləri polipropilen (PP) və yüksək sıxlıqlı polietilen (YSPE) istehsal edən iki zavoddan ibarətdir. Həmin zavodlar Sumqayıt Kimya Sənaye Parkının (SKSP) ərazisində yerləşir. 184000 və 120000 ton illik istehsal gücünə malik olan PP və YSPE zavodları müvafiq olaraq 2018-ci ilin iyulunda və 2019-cu ilin fevralında istismara verilmişdir.

Vasif Əliyev 2017-2018-ci illərdə "Evrostroy" şirkətində Novosibirsk 1-ci dərəcəli yol tikintisində geodeziya mühəndisi vəzifəsində çalışmışdır.

2018-ci ildən bu günə kimi isə xəritə mühəndisi və geodeziya qrup rəhbəri vəzifəsində Gəncə LD-nun dəmir yolları inkişafı layihəsində çalışır.

Vasif Əliyev bütün təşkilatlarda hər zaman yüksək məsuliyyət hissi ilə çalışmış, verilən tapşırıqları vaxtında icra etmiş, özünü baçarıqlı inşaatçı-



*Ukrayna Respublkası, Kiyev-Cop avtomobil yolundan görüntülər...*

mühəndis, eyni zamanda yol mühəndisi kimi təsdiq edə bilmişdir. Məhz buna görə də o, işlədiyi tikinti qurumlarında rəhbərliyin fəxri fərmanlarını, pul mükafatlarını və qiymətli hədiyyələrini almışdır.

Vasif Əliyev subaydır. Azərbaycan Milli Ordusunun tərkibində artilleriya kəşfiyyatının baş kəşfiyyatçısı kimi 1 il











*Serbia, E 763 Belqrad–Juzni Jadran magistral yolunun tikintisindən görüntülər...*

9 ay hərbi xidmətdə olmuşdur, ehtiyatda olan kiçik çavuşdur.

O, Azərbaycan və rus dillərində sərbəst, türk və Ukrayna dillərində yaxşı, ingilis dilində isə zəif danışa bilir. Microcoft office, AutoCAD, Netcad, Credo kompüter proqramlarında mükəmməl işləməyi bacarır.

Vasif Əliyev hələ cavandır, onun ölkənin tikinti kompleksində görəcəyi böyük işlər qabaqdadır.





*Socar Polimer zavodundan görüntülər...*



**Əmiraslanova Rübabə İmran qızı**

1950-ci ilin mart ayının 5-də Gədəbəydə (atası Əmiraslanov İmran Abdulla oğlu əslən Gəncədən olsa da, dövlət orqanlarında, o zaman, Gədəbəydə çalışdığından) anadan olmuşdur.

R.İ Əmiraslanova 2 yaşında olarkən atasının işi ilə əlaqədar Bakıya köçməli olmuşlar. 1957-ci ildə Bakı şəhərində yerləşən 7 nömrəli orta məktəbin birinci sinfinə daxil olmuş və 1967-ci ildə həmin məktəbin onuncu sinfini müvəffəqiyyətlə başa vurmuşdur. Elə həmin il də, çox yüksək balla Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin "Sənaye və mülki tikinti" şöbəsinə daxil olmuşdur. 1967-ci ildə Böyük Oktyabr Sosialist İnqilabının 50 illik yubileyi ilə əlaqədar bu ixtisas üzrə instituta qəbul olan tələbələrin sayı azərbaycan dili üzrə 75 nəfərdən 150-yə (6 qrupun hər birində 25 nəfər tələbə olmaqla) qaldırılmışdır. Təhsildə qazandığı nailiyyətlərə (əlaçı tələbə) və institutun ictimai həyatındakı fəal işinə görə oxuduğu 217 "a" qrupunun starostası (qurup nümayəndəsi) seçilmişdir.

1969-cu ilin fevral ayında yuxarıda qeyd olunan 6 qrupun əlaçı və yaxşı oxuyan tələbələrindən (23 nəfər) yeni konstruktor qrupu yaradılmış və Rübabə xanım da öz təhsilini bu qrupda əlaçı tələbə kimi davam etdirmişdir.

Qeyd etmək yerinə düşərdi ki, əlaçı və ən yaxşı tələbələrdən təşkil olunmuş konstruktorlar qrupunun (qr. 287 "a") qrup nümayəndəsi respublikamızın tanınmış inşaatçılarından biri olan Rauf İbadulla oğlu Məmmədzadə olmuş və Rauf, Rübabə xanım, Səidə xanım (Səidə Firudin qızı Məmmədzadə – Rauf müəllimin həyat yoldaşı) üçü bir qrupda təhsil almışlar. Rübabə və Səidə xanım həm də orta məktəb illərinin on ilini eyni məktəb və eyni sinifdə başa vurmuşlar.

Ali məktəbi 1972-ci ildə fərqlənmə diplomu ilə başa vuran Rübabə xanım Əmiraslanova təyinatla "Azərdövlətsənayelayihə" İnstitutuna gəlir və demək olar ki, ömrünün bütün iş fəaliyyətini bu layihə institutu ilə bağlayır. 1972-2005-ci illər arasında "Azərdövlətsənayelayihə" İnstitutunda müxtəlif vəzifələrdə çalışan R.İ.Əmiraslanova 2005-2007-ci ildə öz ixtisası üzrə "Kənan" inşaat və ticarət kompaniyasında çalışmışdır.

Rübabə Əmiraslanova "Azərdövlətsənayelayihə" İnstitutunda çalışdığı illərdə rəhbərliyin bütün tapşırıqlarını bir qayda olaraq yüksək məsuliyyətlə icra etmiş, göstərilən etimadı doğrultmuş, yüzlərlə layihələrin hazırlanmasında fəal iştirak etmişdir. Bu gün Rübabə xanımın layihələndirilməsində iştirak etdiyi onlarla obyektlər respublikamızın müxtəlif bölgələrində ölkə vətəndaşlarının xidmətindədir.

Ümumiyyətlə, Rübabə xanımın əmək fəaliyyətinin əsas hissəsi – hardasa 33 illik böyük bir dövrü bu institutla bağlı olmuşdur və bu kollektivlə birlikdə böyük uğurlara imza atmışdır.

2007-ci ildən təqaüdə çıxan Rübabə xanım ana məhəbbəti qarşısında Bakını tərk etməli olmuş, anasının sağlamlıq durumu ilə əlaqədar ona qulluq göstərmək üçün Gəncəyə köçməli olmuşdur. Hal-hazırda Gəncə şəhərində yaşayır. Ailəlidir. Həyat yoldaşı Quliyev Araz ali savadlı həkimdir. İki oğlu var. Böyük oğlu Zaur rabitə kollecini bitirib. Kiçik oğlu Azər ali savadlı ekoloqdur.



**Əsədov Emil Məhərrəm oğlu**

24 dekabr 1981-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. İlk təhsilini 1988-1998-cu illərdə Bakı şəhəri, Xətai rayonu İlham Məmmədov adına 261 saylı orta məktəbdə almışdır. 1999-cu ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Avtomobil yollarının tikintisi və layihələndirilməsi" fakultəsinə daxil olmuşdur.

Universitetin son illəri, 2002-2003cü illərdə M-2 Ələt-Qazıməmməd avtomobil yolunun tikintisi layihəsində inspektor vəzifəsində ilk mühəndislik təcrübəsinə başlamış və yüksək bacarıq nümayiş etdirmişdir.

2003-cü ildə universiteti bitirərək həqiqi hərbi xidmətə yollanmışdır. 2004-cü ildə həqiqi hərbi xidməti-ni başa vurduqdan sonra "Azəryolservis" ASC-də yol mühəndisi vəzifəsində çalışmağa başlamışdır. Həmin dövrdə Almaniyanın "Kocks Consult GmbH" şirkətində Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun yenidən qurulması layihəsində topoqraf vəzifəsində çalışmış, öz bilik və təcrübələrini inkişaf etdirmişdir.

2006-2007-ci illərdə işini BƏƏ-nin "Panarab Consulting Engineers" şirkətində davam etdirmişdir. Bu şirkətdə o, Bakı Dolama yolunun tikintisində topoqraf kimi çalışmışdır.

2007-2015-ci illərdə Türkiyənin "Temelsu International Engineering Services" şirkətində bir neçə layihədə baş topoqraf kimi işini davam etdirmişdir. Həmin şirkətdə işlədiyi müddətdə 2009-cu ilədək Əzizbəyov dairəsi-Heydər Əliyev adına Beynəlxalq Hava Limanı yolunun genişləndirilməsi və yenidənqurulması layihəsində, 2009-2011-ci illərdə Heydər Əliyev adına Beynəlxalq Hava Limanı – Bilgəh yolunun yenidənqurulmasında, 2011-2013-cü illərdə Buzovna-Mərdəkan-Qala yolunun tikintisində, 2013-2015-ci illərdə isə "Bakı Ağ Şəhər" layihəsi və Xaqani Rüstəmov küçəsinin yenidən qurulmasında baş topoqraf vəzifəsində işləmişdir.

2015-ci ildən etibarən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində 4 saylı Layihə İdarəetmə Qrupunda mühəndis vəzifəsində çalışmağa başlamışdır.

Agentlikdə işlədiyi müddətdə M-3 Ələt-Astara avtomobil yolunun Masallıdan Cəlilabad yol qovşağı hissəsinin tikintisi, sonra M-5 Yevlax-Zaqatala-Gürcüstan respublikası ilə dövlət sərhəddi avtomobil yolunun yenidənqurulması, daha sonra M-3 Ələt-Astara avtomobil yolunun Masallı-Lənkəran hissəsinin tikintisində layihə rəhbəri vəzifəsində çalışmışdır.

Ailəlidir, 2 övladı var.



*M-3 Ələt-Astara avtomobil yolunun Masallı-Cəlilabad hissəsi*



**Əsədullayev Emil Vaqif oğlu**

1 noyabr 1980-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1987-ci ildə Bakı şəhəri, Səbail rayonu 49 saylı orta məktəbinə getmiş, 1997-cı ildə həmin orta məktəbi bitirmişdir. 1997-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Sənaye və Mülki Tikinti fakültəsinə daxil olmuş, 2001-ci ildə həmin universitetin bakalavr, 2003-cü ildə isə həmin universitetin magistratura pillələrində təhsilini fərqlənmə ilə tamamlamışdır.

Ali təhsilini başa vurduqdan sonra 2003 – 2004-cü illərdə "Az İzopoli" şirkətində konstruktor, 2004 -2006-cı illərdə "AzərTunelSuTikinti" şirkətində baş konstruktor vəzifələrində çalışmışdır.

2006-cı ildə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövləttikintilayihə" DLİ-da konstruktor olaraq fəaliyyətə başlamış, az sonra sektor müdiri, daha sonralar isə baş konstruktor kimi fəaliyyət göstərmişdir. Hal hazırda həmin institutun baş konstruktoru vəzifəsində çalışmaqdadır.

Peşə fəaliyyəti ərzində bir çox yaşayış, içtimai və sənaye binaları və qurğularının konstruksiyalarının layihələndirilməsində bilavasitə iştirak etmiş və baş konstruktor kimi layihələndirmə işlərinə rəhbərlik etmişdir. Layihələndimə fəaliyyəti ilə məşğul olduğu müddət ərzində Bakı ş. Xətai rayonu Aşıq Ələsgər küçəsi, Bakı ş. Binəqədi rayonu Azadlıq prospekti 204, Bakı ş. Xətai rayonu, M.Mehdizadə, İ.Orucova, S.Orucov küçəsi 1180-ci məhəllə, Bakı şəhəri Sahil qəsəbəsində "ELİT" yaşayış kompleksi və s. bir çox çoxmərtəbəli yaşayış binalarının, Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə Bakı, Gəncə şəhərlərində, Abşeron, Tərtər, Qazax, Kürdəmir, Bərdə və s. rayonlarda məcburi köçkün ailələri üçün yaşayış binalarından ibarət yeni yaşayış komplekslərinin, Bakı şəhərində Fövqəladə Hallar Nazirliyinin inzibati binasının, Gəncə şəhəri 520 yerlik Dövlət Dram Teatrı binasının, Mingəçevir şəhəri Bayraq muzeyi binasının, Qəbələ şəhərində Texniki-peşə məktəbi, Qəbələ şəhərində Hərbi Səfərbərlik Xidmətinin inzibati binasının, Xızı rayonu İcra hakimiyyətinin inzibati binasının, Xızı rayonunda Heydər Əliyev adına Gənclər mərkəzinin, Sabirabad rayonu Heydər Əliyev Mərkəzinin, Qəbələ beynəlxalq aeroportunun Terminal binasının, Qazaxstan Respublikası, Aktau şəhəri "Shipyard Aktau KEPPEL" Gəmiqayırma zavodunun Yığma sexi, Rəngləmə sexi, İnzibati binasının, Abşeron rayonu, Hökməli qəsəbəsində Qablaşdırma fabrikinin, Abşeron rayonu, Zirə qəsəbəsində süni daş materiallarının istehsal sexinin, Qaradağ rayonunda yerləşən "Norm Sement" zavodunun ərazisində 15000 m3-lik sement silosunun, Umbakı qəsəbəsində və Lənkəran şəhərində cəzaçəkmə müəssisələri və respublikanın bir çox şəhər və rayonlarında məktəb, uşaq baxçası, xəstəxana, yanacaqdoldurma məntəqələri və s. binaların layihələndirilməsində iştirak etmişdir.

Ailəlidir, iki qız övladı var.



**Əyyubov**
**Camal**
**Həysə oğlu**

1938-ci il fevral ayının 27-də Zaqatala rayonunun Aşağı Tala kəndində anadan olmuşdur.

Orta təhsilini tamamladıqdan sonra 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş və 1961-ci ildə həmin İnstitutun inşaat fakültəsini sənaye və mülki tikinti ixtisası üzrə bitirmişdir. İnstitutun 5-ci kursunda oxuyarkən mühəndis-konstruktor kimi "Azərdövlətlayihə"də işə başlamışdır.

1962-ci ildə Azərbaycan Dövlət Tikinti Komitəsinin sərəncamı ilə Azərbaycan İnşaat Materialları və Qurğuları Elmi-Tədqiqat İnstitutunda yeni təşkil edilən zəlzələyədavamlı inşaat laboratoriyasına kiçik elmi işçi vəzifəsinə keçirilmişdir. 1970-ci ildə "Zəlzələyədavamlı iripanelli binaların birləşmələrinin müqavimətlərinin və şəkildəyişdirmələrinin dinamik və statik yüklər təsirində incələnməsi" mövzusunda texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

C. Əyyubov Azərbaycan İnşaat Mühəndisləri Universitetində işlədiyi müddətdə 1985-1992-ci illərdə eyni zamanda Azərbaycan İnşaat və Memarlıq Elmi Tədqiqat İnstitutunun "Zəlzələyədavamlı inşaat" laboratoriyasının müdiri vəzifəsində işləmişdir.

1992-ci ildə Azərbaycan və Türkiyə Cümhuriyyətləri arasında ögrenci-ögretmen mübadiləsi kontraktına (sözləşməsinə) əsasən Türkiyə Cümhuriyyəti Atatürk Universitetinə (Ərzurum) ezam edilmişdir. 1992-1995-ci illərdə Türkiyənin Atatürk Universitetində dosent vəzifəsində işləmişdir.

Prof. Dr. Camal Əyyubovun Azərbaycan, Türk, Rus və İngilis dillərində dərc olunmuş 150 elmi əsəri və 7 kitabı vardır.

Elmi fəaliyyəti əsasən "Azərbaycan Respublikasında bina və mühəndislik qurğularında mühəndis seysmometrik xidmətin təşkili", "İripanelli binaların zəlzələyə davamlılığı", "Dəmir-beton karkas binaların statik və dinamik yüklər təsirindən davranışları", "Zəlzələyədavamlı kənd tikililərinin konstruksiyalarının hazırlanması, müqavimət və dayanıqlıqlarının incələnməsi", "Binaların seysmik izolyasiyası", "Bina ve mühendislik yapılarının daşıyıcı sistem güvenliğinin seysmik ve bina dinamik xarakteristikalarından asılı olaraq incelenmesi", "Yüksek bina perdelerinin konstruksiyasının hazırlanması ve eksperimental olarak incelenmesi", "Betonarme ve çelik taşıyıcı sistemli binaların dağıtıcı zelzeleler tesirinde davranışlarının incelenmesi", "Metal konstruksiyalarının optimal konstruksiyalarının hazırlanması və araşdırılması", "Gruntların seysmik xüsusiyetlerinin araştırılması", "Seysmik rayonlara ayırma ve mikro rayonlara ayırma haritalarının tertibi esaslarının hazırlanması" kimi mövzuların tədqiqinə həsr olunmuşdur.

Zəlzələyədavamlı inşaat və metal konstruksiyalarına aid 27 milli və beynəlxalq elmi konfrans və konqreslərdə türk, rus və ingilis dillərində tərtib olunmuş 36 məruzə ilə iştirak etmişdir. Mühəndis seysmologiyasına aid 2 Avropa və 1 Asiya konqresində məruzə ilə çıxış etmişdir. 25 yüksək lisans (magistratura) və doktorluq dissertasiya işinə rəhbərlik etmişdir.

Onun zəlzələyədavamlı inşaat və metal konstruksiyalarına aid elmi məqalələri və eləcə də bu sahəyə həsr olunmuş kitabları sahə üzrə çalışan cavan mütəxəssislər üçün əsil istinad olunası bir mənbədir.

C. Əyyubov 2008-2010-cu illərdə Türkmənistanda Amu-Dərya çayı üzərində 1400 m uzunluğunda polad yol körpüsünün layihəsinin tərtibi və inşaatında konsultant olmuşdur. Müxtəlif layihə bürosu və layihə institutlarında konsultant kimi fəaliyyətini davam edir. 1980-cı ildən Türkiyə və Azərbaycanın müxtəlif universitet və elmi təşkilatlarında elmi şura (bilim kurulu) üzvü kimi fəaliyyət göstərməkdə davam edir.

Prof. Dr. Camal Eyyubov 01.01.2013 ilindən Amerikanın "Mülkü İnşaat ve Memarlıq" (Civil Engineering and Architecture) jurnalının Redaksiya heyətinin (Editorial Board) üzvüdür, Türkiyənin "Yapı Dünyası" jurnalının Bilim Kurulu üzvüdür.

O, bu gün bir tanınmış alim kimi Azərbaycanı respublikamızdan kənarda layiqincə təmsil edir.

Bu xeyirxah, alicənab, zəhmətkeş və fədakar alimə daha yüksək zirvələrə ucalmasını arzu edirik.



**Əzizov Kamran Gülbala oğlu**

11 oktyabr 1982-ci ildə Saatlı rayonunun Seyidlər kəndində müəllim ailəsində anadan olmuşdur.

2000-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Sənaye və mülki tikinti fakültəsinə daxil olmuşdur. 2004-cü ildə hərbi xidmətə yollanmış və sərhəd qoşunlarında hərbi xidmətini başa vurduqdan sonra 2005-ci ildə Finlandiyanın "Finroad Consulting" şirkətində ilk mühəndis işinə başlamış, Tovuz dolama avtomobil yolunun layihələndirilməsi işində nailiyyətlər əldə etmişdir.

2007-ci ildə Almaniya Federativ Respublikasının "RRI Rhein Ruhr International" şirkətində Kürdəmir – Ucar avtomobil yolunun layihələndirilməsində işini davam etdirmişdir.

2008-ci ildən Almaniya Federativ Respublikasının "Kocks Consult GmbH" şirkətində Bakı–Şamaxı avtomobil yolunun layihələndirilməsində, 2009-cu ildən "Scott Wilson LTD" şirkətində Kürdəmir – Ucar avtomobil yolunun tikintisində smeta mühəndisi vəzifəsində, 2011-ci ildən Almaniya Federativ Respublikasının "Kocks Consult GmbH" şirkətində Ələt–Masallı avtomobil yolunun Salyan rayonu hissəsinin tikintisində smeta mühəndisi vəzifəsində işləmişdir.

2013-cü ildə İngiltərənin "Nippon KOEI UK" şirkətində Ələt – Astara avtomobil yolunun Lənkəran və Astara hissələri üzrə hər iki layihənin smeta mühəndisi vəzifəsində çalışmışdır. Bu illərdə göstərdiyi yüksək bacarıq və xidmətlərindən sonra 2015-ci ildə AAYDA-də 4 saylı Layihə İdarəetmə Qrupunun direktoru vəzifəsində çalışmışdır.

2016-cı ildə Agentliyin İnvestisiya İdarəsinin Layihələrin idarəedilməsi şöbəsinə rəis təyin olunmuşdur.

2018-ci ildə AAYDA-nin Texniki İdarəsinin Normativlər, Standartlar və Keyfiyyətin idarə olunması şöbəsinin rəisi vəzifəsinə təyin olunmuşdur. 2019-cu ildən isə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Texniki İdarəsinin rəisi vəzifəsinə təyin olunmuşdur.

Ailəlidir. 2 övladı var.

# H



**Hacıbababəyov**
**Qasım bəy**
**Hacıbaba bəy oğlu**

1812-ci ildə Şamaxı şəhərinin Sarıtorpaq məhəlləsində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra qəza məktəbində oxumuşdu. Atası və böyük qardaşı Səməd bəy kimi memar idi. 1848-ci ildən Şamaxı quberniya memarının köməkçisi, 1856-cı ildən quberniya memarı, 1868-ciilədək Bakı şəhərinin memarı, 1868-ci ildən 1874-cü ilədək Şamaxının memarı olmuşdur. 1874-cü ildə haqq dünyasına qovuşmuşdur.

Qasım bəy Hacıbababəyov əvvəl Şamaxının baş memarı idi. Zəlzələdən sonra Bakı quberniya mərkəzi olanda, o da Bakıya gəldi.

Onun tikdiyi binalar: Parapet bağı (Fəvvarələr bağı), Nizami muzeyi (1860), karvansaray kimi, "Araz" k/t-nı kompleksi, Sahil (1860-1861), Sisiyanov parkı (1860), Vorontsov küçəsi 1-də yaşayış binası (1870), Əyri (Krivaya) küçəsindəki yaşayış binaları (1870).


*Nizami muzeyi. Karvansara kimi*



**Hacıyev**
**Fərhad**
**Yusif oğlu**

25 may 1949-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1966-cı ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakultəsinə daxil olmuş və 1971-ci ildə memar ixtisası üzrə təhsilini başa vurmuşdur. 1971-ci ildə təyinatla Azərdövlətlayihə İnstitutuna göndərilir və bir memar kimi mənzil və mülki tikinti obyektərinin layihələndirilməsində iştirak edir.

1974-cü ildə Moskva şəhərinin Tədris Müəssisələrinin Eksperimental Layi-

həlәndirmə Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olur. Bu İnstitutun Elmi Şurasında "Məktəbəqədər binaların arxitekturası" mövzusunda dissertasiya müdafiə edərək, 1981-ci ildə memarlıq üzrə elmi dərəcə diplomuna layiq görülür.

Fərhad Hacıyevin bu problemə aid 20-dən çox elmi məqaləsi dərc olunmuşdur. 1984-1990-cı illər AzİMETİ-də "Binaların tipologiyası və memarlığı" laboratoriyasına rəhbərlik etmişdir.

1991-ci ildə Fərhad müəllim Azərbaycan Respublikası Mənzil-Kommunal Təsərrüfatı Nazirliyinin "Bakı mənzil-kommunal layihə" institunun Baş memarı, 1991-2002-ci illərdə Bakı İcra Hakimiyyətinin Xüsusi Layihə-Smeta Bürosunun direktoru vəzifələrində işləmişdir.

2003-2013-cü illərdə o, məsuliyyətli dövlət qulluğunda, Azərbaycan Respublikası Prezidenti Aparatının (indiki Prezident Administrasiyası) tikinti şöbəsində Baş məsləhətçi vəzifəsində işləmişdir.

2013-cü ildə əlilliklə bağlı təqaüdə çıxmışdır.

Fərhad Hacıyev həm də istedadlı memardır. O, 1982-ci ildən Azərbaycan Memarlar İttifaqının üzvüdür.



**Hacıyev Vaqif Sərdar oğlu**

15 aprel 1980-cı ildə Azərbaycan Respublikasının Ağdam rayonunda anadan olmuşdur.

1987-ci ildə orta məktəbə getmiş və 1998-ci ildə bitirərək Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Avtomobil yolları və aerodromların tikintisi" fakültəsinə daxil olmuşdur.

Universiteti bitirdikdən sonra hərbi xidmətdə qulluq etmiş və 2004-cü ildə "Texnomost" Layihə İstehsalat Müəssisəsində layihəçi-mühəndis vəzifəsində əmək fəaliyyətinə başlamışdır. Onun bir layihəçi-mühəndis kimi formalaşması məhz bu təşkilatla bağlıdır.

Hacıyev Vaqif Sərdar oğlu 2007-2015-ci illərdə bu müəssisənin Baş mühəndisi vəzifəsində çalışmışdır.

O, "Texnomost" Layihə İstehsalat Müəssisəsində baş mühəndis vəzifəsində çalışdığı illərdə "Vəlvələçay – Taxtakörpü" kanalının, "Taxtakörpü" Su Anbarının, "Taxtakörpü – Ceyranbatan" kanalının və bir sıra digər strateji obyektlərin layihələndirilməsində və tikintisində yaxından iştirak etmiş, rəhbərliyin etimadını doğrultmuşdur.

Vaqif Hacıyev 2015-ci ildən Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" ASC-nin idarə heyəti sədrinin müavini vəzifəsində fəaliyyət göstərir.

Vaqif Hacıyevin əməyi hər zaman "EVRASCON" ASC-nin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş, fəxri fərmanlarla və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

Ailəlidir, bir övladı vardır.



*"Vəlvələçay – Taxtakörpü" kanalı*



**Həsənov Hikmət Saladdin oğlu**

12 aprel 1967-ci ildə Qusar rayonunun Çiləgir kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1974-cü ildə Çiləgir kənd 8 illik məktəbinin birinci sinfinə getmiş və 1982-ci ildə bu məktəbi bitirərək orta təhsini Qusar şəhər 1 nömrəli orta məktəbində davam etdirmişdir.

Hikmət Həsənov 1984-cü ildə orta məktəbi bitirərək Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun inşaat fakültəsinə daxil olmuşdur. İnstitutda bir il təhsil aldıqdan sonra SSRİ Silahlı Qüvvələrinə hərbi xidmətə çağrılmış və 1985-1987-ci illər ərzində hərbi xidmətdə olmuşdur.

Hərbi xidmətini başa vurduqdan sonra Hikmət Həsənov 1987-1991-ci illərdə institutda təhsilini davam etdirmişdir. 1991-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa vuraraq təyinatla "Neft Daşları" NQÇİ-yə gənc mütəxəssis kimi göndərilmişdir. Əmək fəaliyyətinə NQÇİ-nin Əsaslı tikinti şöbəsinin mühəndisi vəzifəsi ilə başlamış, 1994-cü ildə bu şöbəyə rəis müavini vəzifəsinə təyin olunmuşdur.

Neft Daşlarında işlədiyi müddət ərzində neft və qaz sənayesinə aid bir sıra texnoloji mürəkkəb obyektlərin tikintisində və yenidən qurulmasında, istismar müddəti başa çatmaqda olan Neft Daşlarının bərpasında yaxından iştirak etmişdir. Burada işlədiyi müddət ərzində açıq dənizdə hidrotexniki qurğuların (estakada və platformaların), sualtı boru kəmərlərinin, neft-qaz çıxarma sahəsinə aid texnoloji obyektlərin, kompressor stansiyalarının tikintisi sahəsində böyük təcrübə toplamışdır.

Hikmət Həsənov 2005-ci ilin fevral ayında "Azneft" İB-nin İdarəetmə aparatının Stasionar platformaların tikintisi, istismarı, təmiri və korroziya ilə mübarizə üzrə istehsalat şöbəsinin rəis müavini vəzifəsinə təyin olunmuşdur.

2006-cı ilin mart ayında "Azərdənizneftinşaat" Trestinin baş mühəndisi vəzifəsinə təyin olunmuş və 2007-ci ilin aprel ayına kimi bu vəzifədə müvəffəqiyyətlə işləmişdir. 2007-ci ildə "Azərdənizneftinşaat" və "Xəzərdənizneftqaztikinti" trestlərinin bazasında yeni "Neftqaztikinti" tresti yaradılmış və o, yeni yaradılan bu trestin Hidrotexniki qurğuların tikintisi üzrə müdir müavini vəzifəsinə təyin olunmuşdur.

Dövlət Neft şirkətinin dəniz yataqlarında aparılan bütün mürəkkəb tikinti və təmir işləri qeyd olunan trest tərəfindən həyata keçirilirdi. H. Həsənov trestin



*Neft Daşlarında yeni Qaz Turbin elektrik stansiyasının tikintisi*

dəniz obyektləri üzrə tikintilərinə birbaşa rəhbərlik etmiş, bu müddət ərzində onlarla dəniz platformalarının, on kilometrlərlə estakadaların, yüz kilometrdən artıq sualtı boru kəmərlərinin, müxtəlif təyinatlı digər texnoloji obyektlərin tikintisində yaxından iştirak etmişdir.

Xarici firmaların iştirakı ilə birgə Neft Daşlarında Sıxıcı Kompressor stansiyası, Qaz-turbin elektrik stansiyası, "Günəşli" yatağı 4 saylı platformada Alçaq təzyili kompressor stansiyası və sair kimi unikal obyektlərin tikintisində öz əməyini əsirgəməmişdir.



*Neft Daşlarında yeni platformanın tikintisi*



*Neft Daşlarında 2 saylı sıxıcı kompressor stansiyasının genişləndirilməsi*



*Hövsan qəsəbəsində Qaz yığımı və separasiya qurğusunun tikintisi*

Respublikamız müstəillik əldə etdikdən sonra açıq dənizdə Dövlət Neft Şirkətinin öz gücünə tikintisi aparılmış "Ümid" yatağının 1 saylı platformasının tikilib istifadəyə verilməsi trestin böyük uğurlarından biri olmuşdur.

Hikmət Həsənov 2010-cu ilin oktyabr ayına kimi bu vəzifədə çalışmış və trestin baş mühəndisi vəzifəsinə təyin olunmuşdur. 2011-ci ilin iyun ayında "Neftqaztikinti" trestinin 7 saylı Tikinti Quraşdırma İdarəsinə rəis təyin olunmuş və 2013-cü ilin fevral ayına qədər bu vəzifədə işləmişdir.

Hikmət Həsənov 2013-cü ilin fevral ayında SOCAR-ın Qaz İxrac İdarəsinin (QİI) tikinti üzrə rəis müavini vəzifəsinə təyin olunmuşdur və hal-hazırda bu vəzifədə çalışır.

Burada işlədiyi müddətdə respublika ərazisində qazın nəqli və paylanması sisteminə xidmət göstərən 500 km-dən artıq yüksək təzyiqli müxtəlif diametrli magistral qaz kəmərlərinin, qaz paylayıcı stansiyaların, kompressor stansiyalarının tikintisi, yenidənqurulması və təmiri işlərinə rəhbərlik etmişdir.

Hikmət Həsənov əmək fəaliyyətindəki uğurlarına görə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 sentyabr tarixli 734 nömrəli Sərəncamı ilə "Tərəqqi" medalı ilə və SOCAR-ın fəxri fərmanı ilə təltif olunmuşdur.



*Neft Daşlarında yeni estakadanın tikintisi*



*"Qurban Abasov" kran gəmisi ilə yeni quraşdırılmış dayaq platforması*



*Neft Daşlarında yeni əvəzedici estakadanın tikintisi*



**Həsənov Sarvan İbrahim oğlu**

17 iyul 1959-cu il tarixində Qərbi Azərbaycanın Qaraqoyunlu dərəsinin Çaykənd kəndində (Ermənistan SSR Krasnoselsk rayonu, Çaykənd kəndi – SSRİ dönəmində) ziyalı bir ailədə anadan olmuşdur. Atası Həsənov İbrahim Bəkir oğlu dövrünün ali təhsilli ədəbiyyat müəllimi kimi 60 il kənd orta məktəbində çalışmış, kəndin bir neçə nəslinin orta təhsil almasında, böyük və müstəqil həyata hazırlanmasında səylər göstərmiş, gərgin əmək sərf etmişdir. "Respublikanın Əməkdar Müəllimi" fəxri adına layiq görülmüşdür. O, həm də şair idi. Şeirlərini İbrahim Həsənli imzası ilə yazan İbrahim müəllim 12 şeir kitabının müəllifi olub, 2008-ci ildə haqq dünyasına qovuşub.

Anası Həsənova Hilal Tanrıverdi qızı isə riyaziyyat müəllimi kimi uzun illər ərzində kənd orta məktəbində gənc nəslin təlim-tərbiyəsində böyük xidmət göstərmişdir. Həsənovlar ailəsində 8 övlad böyüyüb, beş qardaş, üç bacı. Ziyalı, nurlu bir ailənin övladları kimi onlar vətənə və dövlətə şərəf gətirən insanlar kimi böyümüş, soy köklərinə baş ucalığı gətirmişlər.

Sarvan Həsənov 1966-cı ildə kənd orta məktəbinin birinci sinfinə getmiş, 1976-cı ildə B. Əfəndiyev adına Çaykənd kənd orta məktəbini müvəffəq qiymətlərlə birtirmişdir.

O, ilk əmək fəaliyyətinə 1977-ci ildə "Xəzərneftdonanma" İdarəsində başlamış və 1978-ci ilin may ayına kimi burada çalışmış və ordu sıralarına hərbi xidmətə çağrıldığı üçün işdən azad olunmuşdur. 11 may 1978-ci ildən 16 iyun 1980-ci ilə kimi Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur.

O, 16 iyul 1980-ci ildə "Xəzərneftqazdonanma" İdarəsinə qayıtmış, 28 iyul 1981-ci ilə kimi burada işləmiş və Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna qəbul olunduğu üçün işdən azad olunmuşdur.

Sarvan Həsənov 1981-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna qəbul olunmuş və 1986-cı ildə institutu bitirərək təyinatla Azərbaycan Dəniz Neft İnşaat Trestinə gəlmiş və öz ixtisası üzrə işə başlamışdır.

O, burada çalışdığı zaman Lökbatan qəsəbəsinin şimali-şərqində dəniz neftçiləri üçün yaşayış binaları, məktəblər, uşaq bağçaları, xəstəxana komplekslərinin və digər bir sıra sosial mədəni məişət obyektlərinin tikintilərində cavabdeh şəxs qismində çalışmışdır. 1992-ci ilin 06 yanvar tarixində Lökbatan qəsəbəsində 288 nömrəli 1296 şagird yerlik məktəb kompleksini Dövlət Komissiyasına və şagirdlərə təhvil vermişdir. Hal-hazırda həmin məktəb Neftçi Qurbanın şərəfinə "Qurban Abasov adına tam orta məktəb" adlanır.

O, Qurban Abasov, Əhməd Zeynalov və Arif İsmayılov kimi dövrünün tanınmış inşaatçıları ilə çiyin-çiyinə işləmiş və bu, onun kamil inşaatçı kimi formalaşmağında əhəmiyyətli rol oynamışdır. O, işlədiyi bütün dövrlərdə hər zaman halal və vicdanlı əməyə üstünlük vermiş, dövlət malına xor baxmamış, övladlarını halallıqla böyütmüşdür.

Sarvan Həsənov 1994-cü ildə Xəzər dənizində suyun səviyyəsinin qalxması ilə əlaqədar Gəmi Təmiri

zavodunda və Zığ körpüsündə sahilbərkitmə işlərini yerinə yetirmişdir.

2007-2008-ci illərdə Neft Daşları NQÇİ-nin işçiləri üçün Qaraçuxur qəsəbəsində on iki bloklu 5 mərtəbəli yaşayış binasını, 2008-2009-cu illərdə 28 May NQÇİ-nin işçiləri üçün Məhəmməd Hadi küçəsində 9 mərtəbəli yaşayış binasının tikintilərini sahə rəisi vəzifəsində başa çatdırmışdır.

S.İ. Həsənov 2010-2011-ci illərdə Metal Konstruksiya zavodunun köçürülməsini və Zığ İstehsalat sahəsində yenidənqurma işlərini yerinə yetirmişdir. Həmçinin 2011-ci ildə Zığ İstehsalat sahəsində Dəmir Beton Zavodunun ərazisində müasir "Qazanxana" binasını və oksigen istehsal edən zavodun tikintisini tamamlamışdır.

S.İ. Həsənov daha sonra – 2012-ci ildə H.Z. Tağıyev adına NQÇİ-nin 3 və 4 saylı neft və qazçıxarma sahələri üçün məişət və istehsalat tikintilərini də maddi-məsul şəxs kimi başa çatdırmış, 2013-2014-cü illərdə "Dənizdə insan həyatının mühafizəsi üçün" təlim hovuzunun tikinti işlərini müvəffəqiyyətlə tamamlayaraq sifarişçiyə təhvil vermiş, 2014-2015-ci illərdə Neft Kəmərlərinin Quba rayonunun ərazisindən keçən hissəsinin "Sel və daşqın hallarından mühafizə tədbirləri" tikintisində çalışmış, 2015-2016-cı illərdə "Neftqaztikinti" trestinin Zığ sahəsində yeni inzibati binasının tikintisini müvəffəqiyyətlə başa çatdıraraq təhvil vermiş, 2016-2018-ci illərdə H. Əliyev adın Neft Emalı Zavodunun yenidənqurma işlərini vəzifə səaliyyətlərinə uyğun olaraq peşəkarlıqla icra etmişdir.

S.İ. Həsənov 2018-2019-cu illərdə "Dalma qurğularını təmiri və kirayəsi" müəssisəsinin yenidən qurulması işlərində sahə rəisinin müavini kimi vəzifəsini yerinə yetirmişdir.

Bu illərdə Sarvan Həsənov həmçinin neft sənayesinin müxtəlif obyektlərində, sosial və mülki tikintilərdə çalışmış, üzərinə düşən vəzifələri məsuliyyətlə icra etmiş, rəhbərliyin göstərdiyi böyük etimadı doğrulda bilmişdir.

Sarvan Həsənov hazırkı vaxtda "Neftqaztikinti" trestinin Tikintiyə nəzarət şöbəsinin mühəndisi kimi fəaliyyətini davam etdirir.

Sarvan Həsənov ailəlidir, üç oğlu, bir qızı, 8 nə-



*Qurban Abasov adına tam orta məktəb*



*Lökbatan qəsəbəsində neftçilər üçün 5 mərtəbəli yaşayış binası*

vəsi vardır. Həyat yoldaşı Südabə xanım tibb işçisidir. Bütün övladları ali təhsillidir. Böyük övladı – qızı Rüsxarə xanım Azərbaycan Pedaqoji Universitetini bitirib, müəllimə işləyir. Oğlu Rəşid Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini Ərəb dili ixtisası üzrə bitirmiş, ərəbşünas-tərcüməçidir. Oğlu Fərhad kompüter mühəndisidir. Kiçik oğlu İlkin isə hazırkı vaxtda Türkiyə Respublikasında Universitetdə ali təhsilini müvəffəqiyyətlə davam etdirir.

Sarvan Həsənov çalışdığı bütün illərdə özünü yaxşı mühəndis kimi göstərə bilmiş, məsuliyyəti və vicdanlı işi müqabilində əməyi hər zaman qiymətləndirilmiş, rəhbərlik tərəfindən ona dəfələrlə təşəkkürnamələr, pul mükfatları və fəxri fərmanlar verilmişdir. Onun işi bütün zamanlarda sifarişçi təşkilatları razı salmış və onlar trest rəhbərliyinə Sarvan Həsənovun nümunəvi işinə görə dəfələrlə təşəkkür məktubları göndərmişlər.

Sarvan Həsənov kollektivdə nüfuzlu işçilərdən sayılır. Onun tikinti kompleksində bundan sonra da böyük uğurlara imza atacağı şəksizdir.



*Xətai rayonunda inzibati bina*



*Qaraçuxur qəsəbəsində neftçilər üçün 5 mərtəbəli yaşayış binası*



**Hüseynov Hikmət Şahbaz oglu**

25 oktyabr 1967-ci il tarixdə Füzuli rayonunda ziyalı ailəsində anadan olmuşdur. Atası Şahbaz Hüseynov uzun illər Füzuli rayonunda müəllim, maarif şöbəsində metodik kabinetin və məktəbli istirahət mərkəzinin müdiri olmuşdur. Anası Solmaz xanım Hikmət uşaq yaşlarında olarkən dünyasını dəyişmiş, Hikmət nənəsinin himayəsində böyümüşdür.

Hikmət Hüseynov 1974-1984-cü illərdə Füzuli rayonundakı B. Sərdarov adına məktəbdə orta təhsil almışdır. Orta məktəbdə oxuduğu illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun nəzdində keçirilən riyaziyyat olimpiadasının qalibi olmuşdur.

Hikmət Hüseynov orta məktəbi əla qiymətlərlə başa vuraraq 1984-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun sənaye və mülki tikinti fakültəsinə eksperiment yolu ilə qəbul olunmuşdur.

O. 1986-1988-ci illərdə Sovet Ordusu sıralarında RSFSR-in Krım vilayətində hərbi xidmətdə olmuşdur. Yüksək idarəçilik qabiliyyətinə görə həmin dövrdə tikinti normaları üzrə hərbi şöbədə işləmişdir.

Hikmət Hüseynov 1991-ci ildə ali təhsilini başa vuraraq inşaatçı-mühəndis kimi əmək fəaliyyətinə başlamışdır. Əvvəlcə 4-cü dərəcəli dülgər, sonra isə istehsalat şöbəsində mühəndis kimi Bakı Təmir Tikinti Trestinin 6 nömrəli Tikinti İdarəsində çalışmışdır.

H.Ş. Hüseynov 1991-ci ilin axırlarında təmir tikinti idarəsinin texniki istehsalat şöbəsinin rəisi vəzifəsinə təyin olunmuş və 1993-cü ilə kimi bu tikinti qurumunda çalışaraq üzərinə düşən tapşırıqları məsuliyyətlə icra etmiş, etimadı doğrultmuşdur.

O, 1993-cü ildə köçürmə yolu ilə “Azərsənayetikinti” İstehsalat Birliyinin



*“28 May” metro stansiyasının rekonstruksiyası*

7 nömrəli trestinin 83 nömrəli tikinti idarəsinə texniki istehsalat şöbəsinin rəisi təyin olunmuşdur. Bu nüfuzlu tikinti birliyində iki il çalışdıqdan sonra 1995-ci ildə həmin idarənin baş mühəndisi təyin olunub və 2000-ci ilə kimi burada işləmişdir.

H.Ş. Hüseynov 2000-ci ildə Bakı şəhər İcra Hakimiyyətinin Mühəndis – Kommunikasiya Departamentinin İstilik İstismarı və Kanalizasiya İdarəsinin Texniki İstehsalat şəbəsinin rəisi vəzifəsinə təyin olunmuşdur.

Hikmət Hüseynov əmək fəaliyyəti illərində Kapital Bankın Binəqədi rayon şöbəsinin binasının tikintisi və təmiri, Kapital Bankın Yasamal rayon şöbəsinin binasının tikintisi, Bakıxanov qəsəbəsində yaşayış massivinin tikintisi, Qəbələ İstirahət Mərkəzinin tikintisi, Binəqədi rayonunda poliklinika binasının təmiri, Bakı şəhərində istilik sistemlərinin tikintisi və bərpası, Bakı şəhəri "28 May" metro stansiyasının rekonstruksiyası və digər bir sıra obyektlərin tikinti və təmirində yaxından iştirak etmiş, özünü savadlı və bacarqlı mühəndis kimi göstərmişdir.

H.Ş. Hüseynov ailəlidir, bir oglu, bir qızı var. Həyat yoldaşı Əzizə xanım Hüseynova Azərbaycan Xarici Dillər İnstitutunu bitirib, müəllimə işləyir. Qızı Lalə Hüseynzadə Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. Hazırkı vaxtda Türkiyə Respublikasında "Yıldız" Texniki Universitetində magistraturada təhsil alır. Oğlu Uğur Hüseynzadə isə Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsidir.

H.Ş. Hüseynov 29 avqust 2015-ci il tarixdə haqq dünyasına qovuşub.




*Bakı şəhərində istilik sistemləri üçün quraşıdırlmış qazanxana...*



**Hüseynov Teyyub Nuru oğlu**

08 avqust 1951-ci ildə Ağdam rayonunun Şıxbabalı kəndində anadan olmuşdur. 1958-ci ildə doğulduğu Şıxbabalı kəndində orta məktəbin birinci sinfinə getmiş və 1968-ci ildə həmin məktəbi müvəffəq qiymətlərlə bitirmişdir. Elə həmin ildə də Azərbaycan Politexnik İnstitutuna qəbul olunmuş və 1973-cü ildə bu nüfuzlu ali təhsil ocağını mühəndis-hidrotexnik ixtisası üzrə bitirmişdir.

Teyyub Hüseynov 1973-1977-ci illərdə Rusiya Federasiyasının Kuybışev vilayətində yerləşən "Kuybışevkanalsutikinti" Trestində ilk əmək fəaliyyətinə başlamış və burada ardıcıl olaraq mühəndis, iş ustası, iş icraçısı və sahə rəisi vəzifələrində çalışaraq bir peşəkar mühəndis kimi formalaşmışdır.

Teyyub müəllim 1977-ci ildə Azərbaycana qayıtmış və bundan sonrakı illərdə öz sahəsinin peşəkarı olan təcrübəli mühəndis kimi respublikamızın iqtisadiyyatının ayrı-ayrı sahələrində işləmiş və hər zaman üzərinə qoyulan məsuliyyət yükünü anlayaraq çalışmış, göstərilən etimadı doğrultmuşdur.

O, 1977-ci ilin may ayından 1980-ci ilin yanvarına kimi indiki Beyləqan rayonunda yeləşən "Milkanalsutikinti" trestinin 25 və 21 nömrəli idarələrində mühəndis, iş ustası, iş icraçısı və baş iş icraçısı vəzifələrində işləmişdir.

T.N. Hüseynov 1980-ci ilin may-dekabr aylarında Beyləqan rayonunda yerləşən 7 nömrəli Mexanikləşdirilmiş Səyyar Dəstənin baş mühəndisi vəzifəsində çalışmışdır.

Teyyub Hüseynov sonra – 1980-ci ilin yanvar ayından 1986-cı ilin oktyabr ayına kimi Ağdam rayonunda yerləşən 25 və 39 nömrəli SMD-lərdə iş ustası, iş icraçısı, baş iş icraçısı və baş mühəndis vəzifələrində,



*Ağdam rayonunda Olimpiya İdman Kompleksi...*

1986-cı ilin oktyabrından 1998-ci ilin iyul ayına kimi Ağdam rayonundakı 25 nömrəli SMD-nin rəisi vəzifəsində işləmiş, rayonun tikinti-quruculuq həyatında ad-san qazanmışdır.

T.N. Hüseynov 1998-ci ilin iyul ayından 2002-ci ilin yanvar ayına kimi “Xumar-98” firmasının direktoru vəzifəsində işləmişdir.

Teyyub müəllim daha sonra – 2002-ci ilin yanvar ayından 2015-ci ilin avqust ayına kimi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunda (MKSİF) texniki nəzarətçi və baş texniki nəzarətçi vəzifələrində çalışmışdır.

Teyyub Hüseynov 2019-cu ilin dekabrından MKSİF-də aparıcı texniki nəzarətçi vəzifəsində işləyir.

T.N. Hüseynov Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunda (MKSİF) baş texniki nəzarətçi vəzifəsində işlədiyi dövrlərdə Ağdam rayonunda məcburi köçkünlər üçün yeni qəsəbələrin – “Dördyol-1”, “Dördyol-2” qəsəbələrinin, İmamqulubəyli qəsəbə-







*Məcburi köçkünlər üçün salınan yeni yaşayış qəsəbələrinin və hündürmərtəbəli yaşayış evlərindən ibarət məhəllələrin görüntüləri...*

sinin, Bənövşələr və Baharlı qəsəbələrinin, Aşağı Qərvənd qəsəbəsinin və Ağdam Olimpiya İdman Komplekslərinin tikintilərinə rəhbərlik etmişdir.

Teyyub müəllim daha sonrakı illərdə Göranboy rayonunda dörd qəsəbənin, Bakı şəhərinin 8-ci mikrorayonunda yeni məhəllənin, Müşfiqabad qəsəbəsində, Yevlax və Mingəçevir şəhərlərində yeni məcburi köçkün qəsəbələrinin tikintilərinə rəhbərlik etmişdir.

Teyyub Hüseynovun əməyi işlədiyi bütün dövrlərdə rəhbərlik və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, o, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə Dağlıq Qarabağ





*Məcburi köçkün qəsəbələrindən görüntülər...*



*Bakı şəhəri, Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində 5 mərtəbəli yaşayış binası*

Muxtar Vilayətinin yaşayış məntəqələrinin sosial-iqtisadi inkişaf Proqramının yerinə yetirilməsində fərqləndiyinə görə "Fəxri Fərman"la təltif olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 aprel 2010-cu il tarixli 844 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının tikinti kompleksinin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Teyyub Hüseynov ailəlidr, üç övladı, yeddi nəvəsi var. Hər üç övladı ali təhsil alıb və kamil mütəxəssis kimi dövlətə və xalqa xidmət edirlər. Böyük oğlu Anar Mikrobiologiya elmlər namizədi, dossentdir. Elmlər Akademiyasında Labaratoriya müdiri vəzifəsində çalışır. Qızı Xumar Teyyub qızı həkm, kiçik oğlu Vüqar isə iqtisadçıdır.

Teyyub Hüseynov bu gün MKSİF-də aparıcı texniki nəzarətçi vəzifəsində çalışaraq öz zəngin çoxillik təcrübəsini gənclərə həvəslə öyrədir, onların kamil mütəxəssis kimi yetişmələri üçün köməyini əsirgəmir.

# X

**Xacə Cəmaləddin** – XII-XIII əsrlərdə yaşayıb yaratmış Naxçıvan memarlıq məktəbinin ilk yetirmələrindən biridir.

Onun adı Əlincəçay sahilində, el arasında "Şeyx Xorasan" adı ilə tanınan xanəgah kompleksinə daxil olan və özünün inşa etdiyi əsas türbənin kitabəsi əsasında aşkar olunmuş və elmi ictimaiyyətə və mədəniyyət tariximizə təqdim olunmuşdur.

Kitabədə memarın adının "hörmətli və alicənab" epitetləri ilə müşaiyət olunması onun məşhur və böyük nüfuza malik sənətkar olmasından xəbər verir. Bu fikri onun daşıdığı, orta əsrlər zamanı görkəmli şəxsiyyətlərin adına əlavə olunan "Xacə" titulu da təsdiq edir. Çünki həmin dövrdə "xacə" titulu hər bir adama deyil, görkəmli sənətkarlara, alimlərə, şairlərə, öz işinin incəliklərinə yaxından bələd olan sənətkarlara, hətta dövlət başçılarına verilirdi. Kitabənin son hissəsi ovulub töküldüyü, tarixlər isə adətən bu hissədə yazıldığı üçün tarix məhv olmuşdur.

Tədqiqatçılar türbəni memarlıq-konstruktiv quruluşuna və kitabəsinin xətt xüsusiyyətlərinə əsasən XII-XIII yüzilliklərə aid edirlər.

Xanəgah Memarlıq Kompleksi Culfa rayonunun Xanəgah kəndindən şimal-şərq tərəfdə yerləşir. Kompleks türbə, məscid və digər tikililərdən ibarətdir. Kitabəsindən məlum olur ki, kompleksin əsasını təşkil edən türbə Uluğ Qutluğ Ləlә bəyin əmrilə Xacə Cəmaləddin tərəfindən inşa edilmişdir. Türbə memarlıq quruluşuna görə XII əsrə aid edilir.

Türbənin daxilindəki qəbirdə XIV əsrdən etibarən Azərbaycanda geniş yayılan hürufilik təliminin banisi Fəzlullah Nəimi dəfn edilmişdir. Xanəgah kompleksinə bitişik, cənub tərəfdə inşa edilmiş türbə-məscidin kitabəsindən aydın olur ki, türbə-məscid Şeyx Hacı Ləlә Məlikin xatirəsinə Həvva Bədr Bikə xatının səyi ilə hicri təqvimi görə 901-ci ildə (1496-cı il) inşa olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə kompleks 2005-ci ildə bərpa olunmuş, 2016-cı ildə abidələrin ətrafında yenidənqurma işləri aparılmışdır.





**Xilaskar kilsəsi (Bakı)**

28 may küçəsində (keçmiş Telefonnaya) yerləşən lüteran kilsəsidir. Kilsə 1896-1899-cu illərdə Adolf Eyxlerin layihəsi əsasında neoqotika üslubunda inşa edilmişdir.

Kirxanın planında dartılmış düzbucaqlı formasında olan, dərin ajidonlu zal təqdim olunmuşdur. Təmiz divar fonunda qabarıq profillənmiş qotik tağ diqqətəlayiqdir. Ajido qübbə və yanlardakı tağşəkilli pəncərə yerləri ilə birgə zal interyerinin daxili fəzasının mərkəzi oxunu müəyyən edir. Kirxanın birqülləli şaquli kompozisiyası həyətin dərinliyindədir. Mütənasib proporsiyalar, inşaat qurğusunun əsas hissələrinin səlis bölümləri və qotik elementlərin dekoratic artıqlığına yol vermədən əldə olunmuş həcmi plastika binanı çox ifadəli edir. Ciddi, bir qədər irəli çıxan səciyyəvi pilonlar mərkəzi portalı daha çox nəzərə çatdırır. Portal dekorativ, dinamik frontonla tamamlanır.

1886-cı ildə Eyxlerin iştirakı ilə Suraxanskiy (hazırda Dilarə Əliyeva) küçəsində məktəb binası inşa edilir və müvəqqəti olaraq bu məktəb həm də ibadət evi kimi istifadə edilir. Elə həmin il memar İohann Edel tərəfindən ibadət evinin onşa planı hazırlanır, lakin, 13 fevral 1894-cü ildə ümumi yığıncaqda kilsə inşa edilməsi qərara alınır. Kilsənin inşası 24 yaşlı gənc memar, Karl Eyxlerin qardaşı oğlu Adolfa həvalə olunur. 6 mart 1894-cü ildə memar icma yığıncağının təsdiq etməsi üçün kirxa layihəsini təqdim edir, 14 mart 1896-cı ildə isə Rusiya İmperiyasının Daxili İşlər Nazirliyi layihəni təsdiqləyərək inşaata icazə verir.

21 mart 1896-cı ildə, bazar günü kilsənin təntənəli təməlqoyma mərasimi baş tutur. Təməlqoyma mərasimində Bakı qubernatoru Pavel Lileyev və bələdiyyə başçısı İretskiy də iştirak edirlər. Mərasimdə iştirak etmək üçün Emmanuel Nobel də Bakıya gəlir. Mərasimdə kilsənin adının Xilaskar kilsəsi olacağı elan edilir. Kilsə, Nobel qardaşları da daxil olmaqla dindarların ianələri əsasında inşa edilmiş və 70.000 rubla başa gəlmişdir.

24 iyun 1898-ci ildə çoxlu əhalinin iştiarkı ilə kirxa qülləsinə qızıl suyuna çəkilmiş, 13 pud ağırlığa malik xaç qaldırılır. Hazırlanması 15.000 rubla başa gəlmiş xaçın xərcləri lüteran icmasının sədri Lev de Burun qardaşı Bruno de Bur tərəfindən ödənmişdi. 1899-cu ildə kilsədə zınqırovlar və orqan quraşdırılmışdır. 4 fevral 1899-cu ildə kilsədə ilk orqan musiqisi eşidilmişdir. 14 mart 1899-cu ildə Alman-İsveç prixodunun Xilaskar Lüteran Kilsəsinin xeyir-dua mərasimi baş tutmuşdur. Mərasimdə mindən çox insan, o cümlədən, qubernator Vladimir Roqqe iştirak etmişdir.

23 aprel 1900-cü ildə kirxada ilk dini orqan konserti baş tutmuş, konsertdə İ.S.Baxın əsərləri səsləndirilmişdir. Sonradan bu cür konsertlər ənənəyə çevril-

miş və 1928-ci ilə kimi davam etdirilmişdir.

## SSRİ dövründə

1934-cü ildə kilsənin sökülməsinə qərar verilir. Azərbaycanın Yevangelik-Lüteran icması 1937-ci ilə kimi fəaliyyətini davam etdirmişdir. 1934-cü ildə sonuncu pastor Paul Hamberq kilsəni tərk etmişdir. Kilsə və ziyarətçilərin sonrakı taleyi uğrunda mübarizəni Kilsə Soveti davam etdirmişdir. 1936-cı ildə sovet üzvü Rudolf Vaqnerin təşəbbüsü ilə kilsə ziyarətçilərindən toplanmış ianələr hesabına Amaliya Andreyevna Karpenko xüsusi məktubla Moskvaya göndərilmişdir. Sovet hökuməti və birbaşa Stalinin adına yazılmış məktubda Bakıdakı alman kilsəsinin saxlanması və kilsə ziyarətçilərinin ömürlərinin sonuna kimi yoldaş Stalin üçün dua etmələrinə icazə verilməsini xahiş edirdilər. Bakıdakı digər mühüm məbədlərdən (Müqəddəs Bakirə Məryəm kostyolu, Aleksandr Nevski kafedralı, Müqəddəs Varfolomey kilsəsi, Müqəddəs Faddey və Varfolomey kilsəsi, Bibiheybət məscidi və sair) fərqli olaraq Xilaskar kilsəsi dağıdılmır. Lakin, 1 noyabr 1937-ci ildə icma aktivistləri pastor Paul Leopoldoviç Hamberq, Rudolf Rudolfoviç Vaqner, Kristian Kasparoviç Ditçül, Con Kristianoviç Vinter, İda Bernqardovna Temnikova, Mariya Avqustovna Fridrixzon, Amaliya Andreyevna Karpenko və Ditrix Kornelyeviç Tissen güllələnərək qətlə yetirilir.

Lakin, kilsənin sökülməsinin qarşısı alınır. Belə ki, 1934-cü ildə Sergey Kirovun qəfil öldürülməsindən sonra Sovet hökuməti təcili olaraq Bakıda ona heykəl ucaldılmasına qərar verir. Heykəlin ucaldılması işi Pinxos Sabsaya tapşırılır. Heykəltəraş əsər üzərində işin davam etdirilməsi üçün hündür tavanlı yerə ehtiyacı olduğunu bildirir və iş emelatxanası kimi ona kilsə binasının ayırılmasını xahiş edir. Buna görə də kilsənin sökülməsi təxirə salınır və bina iş emalatxanası kimi Sabsaya verilir. Sonrakı illərdə bina Nazirlər Kabinetinin qərarı ilə kamera və orqan musiqisi zalı adlandırılaraq Azərbaycan Dövlət Filarmoniyasının tabeliyinə verilir.

## Müasir dövrdə

15 mart 2010-cu ildə "Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalı binasının tarixi-memarlıq abidəsi və mədəniyyət ocağı kimi əhəmiyyətini nəzərə al"an Azərbaycan Prezidenti İlham Əliyev binanın bərpası haqqında sərəncam imzalayır. Restavrasiya işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 1 milyon manat vəsait ayırılır. Bir il ərzində davam edən restavrasiya işlərindən sonra 30 dekabr 2010-cu ildə Azərbaycan Prezidenti və Azərbaycanın birinci xanımı kilsə binasının açılışında iştirak edirlər. Azərbaycan mütəxəssisləri tərəfindən həyata keçirilmiş əsaslı təmir və bərpa işləri binanın özünəməxsus orijinal üslubunu, qədim tarixi memarlığını qorumaqla həyata keçirmişdir. Ənənəvi alman qotik memarlığının ən gözəl nümunələrindən olan binanın akustikasına xüsusi diqqət yetirilmişdir. Bundan əlavə, binada ilk dəfə havalandırma sistemi qurulmuş, xaricdən dəvət olunan mütəxəssislər orqanı bərpa etmişlər.



*İçərişəhər. Məhəmməd məscidi*



*İçərişəhər. Saray məscidi*



*İçərişəhər. Şirvanşahlar Sarayı kompleksi*

# İ



**İbrahimov İsmayıl Əli oğlu**

31 dekabr 1915-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur. M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirmişdir (Azərbaycan Dövlət Neft Akademiyası).

1968-ci ildə AMEA-nın müxbir üzvü, 1980-cı ildə həqiqi üzvü seçilmişdir.

İsmayıl Əli oğlu İbrahimov tərəfindən informasiya qıtlığı şəraitində iritonnajlı etilen istehsalının riyazi modelləri, optimal və operativ idarə edilməsi üsulları təklif olunmuşdur. Determinik və qeyri-səlis şəraitdə işləyən qeyri-stasionar reaktor kompleksinin operativ planlaşdırılmasının və optimal idarə edilməsinin riyazi modellər kompleksi işlənib hazırlanmışdır.

1983-cü ildə İ.Ə.İbrahimov bir qrup alim və mütəxəssislə birlikdə istehsalatın səmərəliliyini yüksəltmək üçün idarəetmə və informasiya sistemlərinin hazırlanması və tətbiqi adlı işinə görə elm və texnika sahəsində SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Görkəmli tədqiqatçı 200-dən artıq elmi əsərin, o cümlədən 20-dən artıq monoqrafiya, dərslik, elmi-metodiki və tarixi kitabların müəllifi olub.

1946-1997 illərdə Azərbaycan Dövlət Neft Akademiyasında (Azərbaycan Sənaye İnstitutu, Azərbaycan Neft və Kimya İnstitutu) baş laborant, baş müəllim, dosent, kafedra müdiri-professor, rektor (1960-1970,1978-1988) vəzifələrində çalışmışdır.

İbrahimov İsmayıl Əli oğlu 1970-1978-ci illədə Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini vəzifəsində çalışmışdır.

Təltif və mükafatları: "I dərəcəli Vətən Müharibəsi Ordeni" – 1945; 2 dəfə "II dərəcəli Vətən Müharibəsi Ordeni" – 1943, 1945; "Qafqazın müdafiəsinə görə" medal – 1945; "Oktyabr İnqilabı Ordeni" – 1971; Əməkdar Elm Xadimi – 1981; SSRİ Dövlət Mükafatı laureatı – 1982; 2 dəfə Lenin Ordeni – 1980, 1985; 3 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni – 1965, 1975, 1983; "Sosialist Əməyi Qəhrəmanı" – 1986; SSRİ Qaz Sənayesinin Fəxri işçisi; "Şərəf" ordeni – 2015.

Ölkə elminin inkişafında mühüm xidmətləri olan tanınmış alim, Azərbaycanın ilk informatiki, Əməkdar elm xadimi, SSRİ Dövlət mükafatı laureatı, akademik İsmayıl İbrahimov 15 iyul 2016-cı ildə gecə saatlarında 100 yaşında vəfat etmişdir. II Fəxri xiyabanda torpağa tapşırılmışdır.

**"İnterenerqo" müəssisəsi (1988-2020-ci illər)**

Dünyada ən xeyirxah işlərdən biri insanlara nur paylamaq, evlərə işıq verməkdir. Elektrik kəşf olunanandan, birinci elektrik lampası yanmağa başlayandan insanların həmişə olmasını istədiklərinin biri "elektrikdir". Keçən əsrdə Rusiya kimi bir dövlətin inkişaf etdirilməsinin ən əsas şərtlərindən biri bütün ölkənin elektrikləşdirilməsinə qərar verilməsi oldu. Sovetlər ölkəsində sənayeləşməni sürətlə həyata keçirmək üçün həm siyasi, həm də iqdisadi şüar "Kommunizm = Sovet hökümәti + bütün ölkənin elektrikləşdirilməsi" dövlətin əsas idarəetmə xəttini göstərdi. Həmin vaxtdan bir əsr keçməsinə baxmayaraq insanların gündəlik həyat varlığı üçün zəruri olan hava, su, yeməklə bərabər ən ehtiyacını duyduğu hər yerdə elektrik enerjisinin olmasıdır.

Həmin bu elektrik enerjisini insanlara çatdırmağa cəhd edən, lazımi ötürücü sistemləri layihələndirən və həmin sistemlərin quraşdırılmasını yerinə yetirən təşkilatlardan biri də "İnterenerqo" müəssisəsidir.

"İnterenerqo" müəssisəsi əsas fəaliyyət növü olaraq elektroenergetika obyektlərinin layihələndirilməsi və tikinti-quraşdırma işlərinin aparılması məqsədi ilə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq 1998-ci ildə təsis olunmuş və dövlət reyestrinə daxil edilmişdir. Mü-

**"İNTERENERQO" Müəssisəsinin Təşkilat Strukturu**



əssisənin əsas heyətini energetika sistemində daha öncəki illərdə (1988-1997) fəaliyyət göstərmiş "Enerjitikinti" elmi-istehsalat kooperativində çalışmış mühəndis-texniki işçilər təşkil etmişdir.

Yeni yaranmış müəssisə Sovet İttifaqı kimi bir dövlətin süqut etməsindən sonra müstəqillik əldə etmiş dövlətimiz – Azərbaycan Respublikasının energetika və tikinti sahəsində vüsət alan yenilikləri, dəyişən standartları nəzərə alaraq öz fəaliyyətini artan tələblər üzərində qurmuşdur. Hər bir işçidən tələb olunan birinci şərt xarakterindən asılı olmayaraq həvalə olunan hər bir işin qüvvədə olan standartlara və normalara uyğun keyfiyyətlə yerinə yetirilməsidir. Artıq "İnterenerqo" müəssisəsi lazımi İSO standartlarına malik olmaqla bərabər texniki işçilərin bir hissəsi dəqiq avadanlıqlarla işləmək üçün xarici firmalarda təlimlər keçmiş və müvafiq sertifikatlara malikdirlər.

"İnterenerqo" müəssisəsi, Avstriyanın Omicron və Baur firmaları ilə birlikdə öz stendləri ilə 2017-2018-ci illərdə Bakı şəhərində keçirilən Beynəlxalq Net və Qaz sərgisinin iştirakçısı olmuş, orada müasir elektrotexniki mobil laboratoriya və ən yüksək dünya standartlarına cavab verən geniş profilli sınaq-sazlama avadanlıqları nümayiş etdirilmişdir. Hətta sərginin rəhbərliyi tərəfindən "İnterenerqo" stendi quraşdırılmış guşə ən cox baxılan və ən cox elektrotexniki avadanlıqlarla maraqlanan seyrçi cəlb edən guşə kimi qeyd edilmişdir.

Keçən müddət ərzində müəssisənin fəaliyyət dairəsi genişləndirilmiş və kollektiv bir çox dövlət əhəmiyyətli energetikanın digər sahələri üzrə də bəzi texniki layihələrin müəllifi və digərlərinin quraşdırılmasının iştirakçısı olmuşdur.

Aşağıdakı cədvəllərdə "İnterenerqo" müəssisəsi tərəfindən 20 il ərzində yerinə yetirilən işlər, sifarişçi təşkilatlar və fəaliyyət növləri haqqında qısa məlumat verilir.

***Cədvəl 1.***

***1990-2000-ci illər ərzində yerinə yetirilən layihə işləri haqqında məlumat cədvəli***

| № | Layihə işlərinin ümumiləşdirilmiş adları | Ölçü vahidi | Sayı |
|---|---|---|---|
| *1* | *2* | *3* | *4* |
| 1. | Elektrik veriliş xətlərinin layihələndirilməsi: | | |
| | – 330-220 kV-luq elektrik veriliş xətləri üzrə | km | 2,0 |
| | – 110-35 kV-luq elektrik veriliş xətləri üzrə | -"- | 534,2 |
| | – 10 kV-luq elektrik veriliş xətləri üzrə | -"- | 310,0 |
| 2. | Kabel xətlərinin layihələndirilməsi: | | |
| | – 110 kV-luq kabel xətləri | -"- | 2x12,3 |
| | – 35-10 kV-luq kabel xətləri | -"- | 65,0 |
| 3. | Sistem təşkiledici və paylayıcı yarımstansiyaların layihələndirilməsi: | | |
| | – 330/110/10 kV-luq yarımstansiyalar üzrə | obyekt | 2,0 |
| | – 110/35/10 kV-luq yarımstansiyalar üzrə | -"- | 27,0 |
| | – 35/10 və 35/0,4 kV-luq yarımstansiyalar üzrə | -"- | 30,0 |

| | | | |
|---|---|---|---|
| | – 20/10 və 10/6 kV-luq yarımstansiyalar üzrə | -"- | 2,0 |
| | – 10/0,4 kV-luq transformator məntəqələri və komplekt transformator yarımstansiyaları üzrə | -"- | 44,0 |
| 4. | 35 və 110 kV-luq kabel-hava xətlərinin kecid məntəqələri | | 4 |
| 5. | Dizel stansiyaları (Bakı metropoliteni üçün) | | 2 |
| 6. | Bakı şəhərində "Yolların ağıllı idarəetmə sistemi"nin layihələndirilməsi | | 1 |
| 7. | TV sistemi üçün Mingəçevirdə ötürücü qüllənin layihələndirilməsi | | 1 |
| 8. | Azərbaycan Dəmir Yolları üzrə kontakt şəbəkələri və dartı yarımstansiyaları sisteminin layihələndirilməsi: | | |
| | – "Ləki-Qəbələ" elektrikləşdirilmiş dəmir yolu | km | 43,0 |
| | – "35/27,5/10 kV-luq "Qəbələ dartı" yarımstansiyası | YS | 1 |
| | – "Bakı-Böyük Kəsik" dəmir yolu boyu kontakt şəbəkəsinin yenidənqurulması | km | 729 |
| | – "Gəncə-Depo" 27,5 kV-luq kontakt şəbəkəsi və xarici elektrik təchizatı | obyekt | 1 |
| 9. | Tender sənədlərinin hazırlanması: | | |
| | – 330/230/10 və 330/110/10 kV-luq yarımstansiyalar üzrə | --"-- | 5 |
| | – 110/35/10kV-luq yarımstansiyalar və 110-35 kV-luq elektrik veriliş xətləri üzrə | --"-- | |

Cədvəldə göstərilən və sifarişçisi fərqli təşkilatlar olan bütün obyektlər tikilərək illərdir ki, respublikanın müxtəlif infrastruktur obyektlərini elektrik enerjisi ilə təmin edir.

***Cədvəl 2. Layihələndirmə obyektlərinin əsas sifarişçiləri***

| № | Sifarişçi təşkilatların adı | Layihələndirilən obyektlər | Obyektlərin gərginlik həddi, kV |
|---|---|---|---|
| *1* | *2* | *3* | *4* |
| | ***Azərbaycan Respublikası daxili əsas sifarişçilər*** | | |
| 1. | AR Fövqəladə Hallar Nazirliyi və nazirliyin tabeliyində olan layihə institutları | YS, EVX | 110,35,10 kV |
| 2. | AR Gənclər və İdman Nazirliyi | YS, EVX, KX | 10 və 0,4 kV |
| 3. | AR Mədəniyyət və Turizm Nazirliyi | YS | 110/10 kV |
| 4. | AR İqtisadiyyat Nazirliyi | YS, EVX, KX | 110/35/10 kV |
| 5. | AR Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu /MKSİF/ | YS, EVX, KX | 220, 110, 35 və 10 kV |
| 6. | "Azərsu" ASC | YS, EVX, KX | 110/35/10 kV |
| 7. | "AZAL" QSC | YS, EVX | |
| 8. | "Azərsun" Holding | YS, KX | 35,10 və 0,4 kV |
| 9. | "Gilan" MMC | YS, KX | 35,10 və 0,4 kV |
| 10. | "AzMeco" MMC | YS, KX | 35 kV |
| 11. | "Paşa Holdinq" | YS, EVX, KX | 35,10 və 0,4 kV |

| | | |
|---|---|---|
| | ***Xarici təşkilatlarla birgə layihələr və ya xarici sifarişçilər:*** | |
| 1. | "Betamont" – Sloveniya | Yolların intellektual idarə edilməsi sistemi |
| 2. | "ELKO Elektrik" – Türkiyə Cümhuriyyəti | Elektrik avadanlıqlarının layihələndidirilməsi |
| 3. | "Baran Çelik" – Türkiyə Cümhuriyyəti | Enerji təchizatı üçün metal konstruksiyaların layihələndidirilməsi |
| 4. | "GES" – Türkiyə Cümhuriyyəti | Rele mühafizəsi və avtomatika sisteminin layihələndirilməsi |
| 5. | "Meren Enerji" – Türkiyə Cümhuriyyəti | Rele mühafizəsi və avtomatika sisteminin layihələndirilməsi |
| 6. | ARDC – Əfqanıstan İslam Respublikası | 220/110 kV-luq "Herat" yarımstansiyasının layihələndirilməsi |

* YS – yarımstansiya, * KX – kabel xətti, * EVX – elektrik veriliş xətti (hava)

Layihələndirmə işləri ilə yanaşı "İnterenerqo" müəssisəsinin kollektivi tərəfindən 1998-ci ildən başlayaraq müxtəlif təyinatlı xalq təsərrüfatı obyektlərinin xarici elektrik təchizatı işləri yerinə yetirilmişdir. Fəaliyyətinin ilk illərində "İnterenerqo" müəssisəsi tərəfindən Bakı şəhərində yerləşən bir çox obyektlər, o cümlədən "Naxçıvan – Hyatt Regency" hotel kompleksinin, Rusiya Federasiyasının səfirliyi binasının, "Natəvan" iş mərkəzi binasının, Heydər Əliyev Fondu binasının, Binəqədi rayonunda "Nur-Çin" akkumulyator zavodunun, "Azərsun Marqarin-yağ" zavodunun və bir çox özəl obyektlərin adlarını sadalamaq olar.

Kollektivin yüksək ixtisasa sahib olmasına Azərbaycan Respublikası ərazisində yerinə yetirilən beynəlxalq layihələrdə iştirakı öz müsbət təsirini göstərmişdir. Belə ki;

• Azərbaycan və Cənubi Koreya Respublikalarının maliyyə dəstəyi ilə tikilən Bakı Gəmiqayırma zavodunda /Bakı Shipyard/ Finlandiyanın "VEO", Fransanın "Alstom" və Türkiyənin "GES" firmaları ilə birlikdə zavodun elektrik təchizatı sisteminin yerinə yetirilməsi (110/10 kV-luq baş yarımstansiya və zavod daxili 7 ədəd 10/0,4 kV-luq paylayıcı yarımstansiyaların quraşdırılması);

• İspaniyanın "Gemesa" firması ilə birlikdə Abşeron rayonunun Atyalı ərazisində alternativ enerji mənbəyi olan 4 ədəd 2000 kVA gücündə külək elektrik stansiyaları (KES) sisteminin tikintisi, 20 kV-luq qidalandırıcı kabel xəttinin çəkilişi, 20/10 kV-luq paylayıcı yarımstansiyanın quraşdırılması. Eyni zamanda yaxınlıqdakı "Caspian Fish" balıq, "Milla" süd məhsulları və "MDF" tikinti materialları zavodlarının, həmçinin "Aztexnika" MMC bazalarının enerji tələbatçıları həmin yarımstansiyaya qoşularaq alternativ enerji mənbəyindən qidalandırıldı.

• Fransanın "Alstom" və Türkiyənin "GES" firmasının iştirakı ilə birlikdə Qaradağ rayonu ərazisində tikilən NORM

– sement zavodunun 2x63 mVA gücündə, 110/6,3 kV gərginlikli yarımstansiyasının və 110 kV-luq EVX-KX keçid məntəqəsinin quraşdırılması;

• "DET AL" firmasının sifarişi ilə Gəncə Alüminium zavodunu qidalandıran 110 kV-luq elektrik veriliş xəttinin tikintisi;

• Türkiyənin "ELKO" və "GES" firmaları ilə birlikdə Heydər Əliyev adına Bakı Neft-ayırma zavodunun 110/6 kV-luq yarımstansiyasının yenidənqurulması və yarımstansiya avadanlıqlarının SKADA sistemi vasitəsi ilə izlənməsinin təmin olunması.

"İnterenerqo" müəssisəsi yarandığı zamandan etibarən respublikanın ən vacib sosial problemlərindən biri olan – erməni təcavüzü nəticəsində öz doğma yurdlarından çıxarılmış məcburi köçkün və qaçqınların rifah halını yaxşılaşdırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq olunmuş Dövlət Proqramı əsasında yeni salınan qəsəbələrin və məhəllələrin elektrik təchizatının layihələndirilməsi və tikinti-quraşdırma işlərinin yerinə yetirilməsində yaxından iştirak edir.

"İnterenerqo" müəssisəsi Biləsuvar rayonu ərazisində salınan 3000 ailəlik yeni qəsəbənin xarici elektrik təchizatının 330/110 kV-luq "İmişli" yarımstansiyasından 2 dövrəli 110 kV-luq elektrik veriliş xətləri vasitəsi ilə qidalandırılmaqla iki mərhələdə layihələndirilməsi, Ağdam rayonununda yeni salınan "Təzəkənd", "Baharlı" və "Bənövşələr" qəsəbələrinin xarici enerji təchizatının 330/110 kV-luq "Ağcabədi" yarımstansiyasından 2 dövrəli 110 kV-luq elektrik veriliş xətləri, yeni 110/10 kV-luq "Təzəkənd" yarımstansiyası və rayon üçün cox əhəmiyyətli yenidənqurulan "Xındırıstan" yarımstansiyası vasitəsi ilə yerinə yetirilməsi üçün kompleks layihə-axtarış işlərinin yerinə yetirilməsi, Füzuli rayonu ərazisində yeni salınan "Zobucuq", "Aran qala" və digər qəsəbələrin enerji təchizatının layihələndirilməsini mərhələlərlə yerinə yetirmişdir.

2014-cü ildən başlayaraq müəssisənin öz gücü ilə layihələndirmə işləri ilə yanaşı Dövlət Proqramı əsasında salınan aşağıdakı yeni qəsəbələrin xarici və sahədaxili enerji təchizatı işləri yerinə yetirilmiş, quraşdırılmış elektrotexniki avadanlıqların sınaq-sazlama işləri tamamlanmış, obyektlər işə buraxılaraq gərginlik altına qoyulmuş və istismar üçün sifarişçiyə təhvil verilmişdir:

• Ağdam rayonu, İmamqulubəyli kəndi ərazisində salınan 632 ailəlik 3 qəsəbənin enerji təchizatı məqsədi ilə 110 kV-luq "Xındırıstan" və 35 kV-luq "Quzanlı" yarımstansiyaları yenidən qurulmuş, yeni 35 kV-luq 2 dövrəli elektrik veriliş xətti çəkilmiş, yeni paylayıcı 35/10 kV-luq yarımstansiya və 13 ədəd 10/0,4 kV-luq komplekt transformator yarımstansiyası quraşdırılmış və qəsəbə daxili kabel xətləri vasitəsi ilə sosial obyektlər və evlər elektrik şəbəkəsinə qoşulmuşdur.

• Göygöl rayonu ərazisində salınan 600 ailəlik yeni qəsəbənin enerji təminatı məqsədi ilə mövcud "Hacıməlik" və "Əliuşağı" yarımstansiyalarının gücü artırılaraq yenidən qurulmuş, yeni 10 və 6 kV-luq elektrik veriliş xəttləri vasitəsi ilə yeni paylayıcı 6/10 kV-luq yarımstansiya və 23 ədəd 10/0,4 kV-luq komplekt transformator yarım-

stansiyası quraşdırılaraq qəsəbə daxili kabel xətləri vasitəsi ilə sosial obyektlər və evlər elektrik şəbəkəsinə qoşulmuşdur.

• Bərdə rayonu ərazisində, II mərhələdə 580 ailəlik yeni hündürmərtəbəli evlərdən ibarət məhəllənin elektrk təchizatı zamanı mövcud 35/10 kV-luq "Səməd Vurğun" və yeni 63 mVA transformator quraşdırılmaqla 110/35/10 kV-luq "Bərdə" yarımstansiyaları yenidən qurulmuş, yeni 35 kV-luq 2 dövrəli elektrik veriliş xətti çəkilmiş, 35/10 kV-luq qapalı paylayıcı yarımstansiya və 2 ədəd 10/0,4 kV-luq qapalı transformator məntəqəsi quraşdırılmış və qəsəbədaxili yeraltı kabel xətləri vasitəsi ilə sosial obyektlər və evlər elektrik şəbəkəsinə qoşulmuşdur.

• Füzuli rayonu ərazisində 400 ailəlik "Fin" qəsəbəsinin tikintisi zamanı mövcud 110 kV-luq "Əhmədbəyli" yarımstansiyası yenidən qurulmuş, yeni qəsəbəyə qədər 35 kV-luq 2 dövrəli və qəsəbədaxili 10 kV-luq elektrik veriliş xətləri çəkilmiş, 11 ədəd yeni 10/0,4 kV-luq komplekt transformator yarımstansiyası quraşdırılmış və qəsəbə daxili kabel xətləıi vasitəsi ilə sosial obyektlər və evlər elektrik şəbəkəsinə qoşulmuşdur.

• Zaqatala rayonu ərazisində 400 ailəlik hündürmərtəbəli evlərdən ibarət qəsəbənin elektrik təchizatı zamanı mövcud 35 kV-luq "Muxax" yarımstansiyası yenidən qurulmuş, yeni qəsəbəyə qədər 10 kV-luq 2 dövrəli 10 kV-luq elektrik veriliş xəttləri çəkilmiş və yeni 10/0,4 kV-luq komplekt transformator yarımstansiyası quraşdırılmışdır.

• Cəbrayıl rayonu ərazisində 2016-cı ildə işğaldan yeni azad olunmuş Cocuq Mərcanlı kəndi ərazisində 1-ci mərhələdə 50 evlik, 2-ci mərhələdə 100 evlik qəsəbənin tikilməsi və orada tez bir zamanda yaşayış üçün normal infrastruktur şəbəkəsini yaradan hər bir firmanın vətənpərvərlik borcu oldu. Bütün texniki və maliyyə çətinliklərinə baxmayaraq orada çalışan dörd müəssisə öz öhdəliklərinə düşən sahənin işlərini zamanında yerinə yetirdilər və respublikanın fərqli yerlərində müvəqqəti məskunlaşan məcburi köçkünlərin öz doğma yerlərinə qayıtmasında töhfələrini verdilər. Bu dördlərdən biri də – qəsəbənin elektrik təchizatı üzrə işləri yerinə yetirən "İnterenerqo" müəssisəsinin kollektivi oldu;

• Abşeron rayonunun Masazır qəsəbəsi ərazisində 300 evlik hündürmərtəbəli evlərdən ibarət məhəllənin elektrik təchizatı işləri;

• Bərdə şəhəri yaxınlığındakı yeni qəsəbənin istismara verilməsi ilə əlaqədar açılış mərasimində ölkə Prezidentınə Bərdə-Tərtər rayonları ərazisindəki köhnə binalarda müvəqqəti məskunlaşan məcburi köçkünlərin həyat tərzi haqqında məlumat verildıkdən sonra həmin an dayanmadan Tərtər rayonunda 1170 ailəlik hündürmərtəbəli evlərdən ibarət yeni qəsəbənin tikintisinə göstəriş verildi. Enerji təchizatı işlərinin yerinə yetirilməsi zamanı "İnterenerqo" müəssisəsi tərəfindən 110/35/10 kV-luq "Tərtər" yarımstansiyasının yenidənqurulması, yeni 35 kV-luq 2 dövrəli elektrik veriliş xəttinin və qəsəbədaxili 10 kV-luq kabel xətlərinin çəkilişi işləri tamamlanaraq yeni yaşayış məskəni elektrik şəbəkəsinə qoşuldu.

• Kürdəxanı kəndi ərazisində 800 ailəlik yeni qəsəbənin titktntisi za-

manı cox ağır yer şərtləri ilə Nardaran – Maştağa qəsəbələrı arasında 35 kV-luq, daha sonra yeni qəsəbəyədək və qəsəbədaxili 10 kV-luq kabel xətlərinin çəkilişi həyata keçirilmişdir.

• Abşeron rayonu ərazisində (Sumqayıt yaxınlığında) ilk mərhələdə 1000 ailəlik hündürmərtəbəli evlərdən ibarət qəsəbənin tikintisi zamanı baş qidalandırıcı yarımstansiya olan 110 kV-luq "Sulfanol" yarımstansiyasını yenidənqurulması həyata keçirilmiş və yeni qəsəbənin enerji sisteminə qoşulması təmin olunmuşdur.

• Ağcabədi rayonu, "Taxta Körpü" ərazisində 645 ailəlik 3 yeni qəsəbənin elektrik təchizatı mövcud 110/10 kV-luq "Taxta Körpü" yarımstansiyasında genişləndirmə işləri aparılaraq Vaqazin qəsəbəsində 35/10 kV-luq yarımstansiyanın, 11 ədəd komplekt transformator yarımstansiyasının, 10 kV-luq elektrik veriliş xətlərinin və qəsəbədaxili kabel şəkilişinin vasitəsi ilə yerinə yetirilmişdir.

• Füzuli rayonu ərazisində 95 ailəlik yeni qəsəbənin elektrık təchizatı yeni 10 kV-luq elektrik veriliş xətlərinin, qəsəbədaxili kabel çəkilişinin və 10/0,4 kV-luq transformator məntəqəsinin quraşdırılması vasitəsi ilə yerinə yetirilmişdir.

• Tikintisi başa catdırılmış bütün qəsəbələrin sahədaxılı küçə işıqlanması işləri yerinə yetirilmişdir.

2016-cı ildən başlayaraq "Paşa Holdinq" firmalarının sifarişi ilə kənd təsərrüfatı və əkinçilik sistemlərinin, həmçinin yeni tikilən mehmanxana və digər obyektlərin xarici elektrik təchizatı işləri yerinə yetirilmişdir:

• Samux rayonu ərazisində 3000 ha sahədə əkinçilik kompleksinin suvarma sisteminin elektrik təchizatı üçün 200 km-dən çox 35 və 0,4 kV-luq yeraltı kabel çəkilişi, bina daxilində 5 ədəd 35/0,4 kV-luq paylayıcı yarımstansiyaların və açıq sahələrdə 5 ədəd 35/0,4 kV-luq komplekt transformator yarımstansiyalarının quraşdırılması;

• Lənkəran şəhərindən Haftoni qəsəbəsinədək 10 kV-luq elektrik veriliş xəttinin çəkilişi və obyekt daxili yarımstansiyasının quraşdırılması ilə "Lənkəran-İstisu sağlamlıq istirahət mərkəzi"nin xarici elektrik təchizatı;

• Türkan və Zirə qəsəbələri ərazisində salınan zeytun bağlarının xarici elektrik təchizatı məqsədi ilə mövcud yarımstansiyalarda və elektrik veriliş xətlərində yenidənqurma işləri tamamlanaraq yeni 10/0,4 kV-luq komplekt transformator yarımstansiyaları quraşdırıldı və yeraltı kabel xətləri çəkildi;

• Sumqayıt şəhərində "Xəzri Rezidens" yaşayış kompleksinin elektrik təchizatı və s.

Son illər Azərbaycan Dəmir Yolları sistemlərinin yenidənqurulmağa başlaması ilə əlaqədar kontakt şəbəkələrnin qidalandırılması 3,3 kV-luq sabit cərəyandan 27,5 kV dəyişən cərəyana keçilməsi və Avropa dəmir yollarına interqrasiya edilməsi qərara alınmışdır. "İnterenerqo" müəssisəsi də bu böyük dövlət proqramının yerinə yetirilməsinə cəlb olunmuşdur. Müəssisə tərəfindən 2017-2018-ci illər ərzində Gəncə şəhərində tikilən yeni Depo stansiyasının elektrik təchizatı və kontakt şəbəkəsinin layihəsi, həmçinin yeni "Ləki-Qəbələ" birxətli dəmir yolu xəttinin elektrik təchizatı və kontakt şəbəkəsinin layihəsi yerinə yetirimişdir. Bu layihə çərçivəsində Qəbələ Hava Limanı yaxınlığın-

da yeni 35/27,5/10 kV-luq "Qəbələ dartı" yarımstansiyasının tikintisi və mövcud 110 kV-luq "Hacıallı" yarımstan-siyasının əsaslı yenidənqurulması işlərinin görülməsi əsaslandırılmışdır.

İndiki vaxtda isə müəssisənin kollektivi "Bakı-Böyük Kəsik" dəmir yolunun kontakt şəbəkəsinin layihələndirilməsi işlərini yerinə yetirir.

Enerji təchizatı obyektlərinin layihələndirilməsi və tikinti quraşdırma işlərinin aparılması üçün müəssisə təcrübəli mühəndis-texniki və fəhlə kollektivinə, texniki-istehsalat bazasına və lazımi maşın-mexanizm parkına malikdir. Obyektlərin sınaq sazlama işləri zamanı müəssisəyə məxsus olan və Azərbaycan Respublikası akkredatasiya sistemində qeydiyyata alınmış, öz dəqiqliyi və müasirliyi ilə fərqlənən və qabaqcıl Avropa firmalarının (Omicron, BAUR, Meqqer və s.) istehsalı olan mobil laboratoriya və yüksək keyfiyyətli sınaq cihazları vasitəsi ilə aparılır.

"İnterenerqo" müəssisəsinin fəxr etdiyi ən əsas amil bacarıqlı və müasir texniki bilik səviyyəsinə malik olan kollektivdir. İşlərin təşkilində və aparılmasında gənc mütəxəssislərə xeyli önəm verilir.

Müəssisəyə rəhbərlik bir zamanlar SSRİ təhsil sistemındə məşhur institutlardan biri olan Azərbaycan Neft və Kimya İnstitutunun məzunu və illər boyu ancaq energetika sahəsində çalışan Süleymanov Arif Tapdıq oğlu tərəfindən yerinə yetirilir. O, 1954-cü ildə Azərbaycan SSR, Kəlbəcər rayonunun Başlıbel kəndində anadan olmuş, kənd məktəbində orta təhsilini tamamlayaraq 1971-1977-ci illərdə Neft və Kimya İnstitutunun Energetika fakültəsinin "Elektrik stansiyalarının elektrik hissəsi" ixtisası üzrə ali təhsil almışdır.

SSRİ Energetika Nazirliyinin təyinatı ilə 1977-ci ildə Rusiya Federasiyasının "Çitaenerqo" Energetika İdarəsinin tabeliyində olan Moqoça istilik elektrik stansiyasının elektrik şəbəkəsində baş usta vəzifəsində istehsalat fəaliyyətinə başlamış, bir il müddətdən sonra rayon elektrik şəbəkəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

1979-1981-cu illərdə isə Sovet Ordusunun Hərbi Hava Qüvvələrindən Müdafiə Sisteminin çox əhəmiyyətli Kapustin-Yar qarnizonunda hərbi xidmət kecmiş və 1981-ci ildə "kapitan" hərbi rütbəsi almışdır.

1981-1984-cü illərdə o, Novosibirsk şəhərində yerləşən və Rusiya Federasiyasının dörd vilayətinin nəqliyyat bölməsində iri həcmlı tikinti-quraşdırma və sazlama işləri aparan "Zapsibtransstroy" trestində baş energetik vəzifəsində çalışmışdır.

A.Süleymanov 1984-cü ildə Vətənə qayıtmış və onun bundan sonrakı bütün fəaliyyəti respublikamızla bağlı olmuşdur. 1984-cü ildə Bakı şəhərində "Azərenerji" Baş Energetika İdarəsinin "Azərelektrikşəbəkətikinti" trestində texniki təhlükəsizlik mühəndisi vəzifəsinə işə qəbul olunmuş, daha sonra 1991-ci ilədək trestin istehsalat-texniki şöbəsinin rəis müavini, rəisi, trestin baş mütəxəssisi və 1991-ci ildən etibarən trest müdirinin müavini vəzifələrində çalışmışdır.

2000-ci ildə dövlət müəssisələrinin özəlləşdirilməsi proqramının həyata keçirilməsi ilə əlaqədar yeni təşkilati strukturların yaranmasından sonra trestin istehsalat bazasının bir hissəsi əsasında yeni bir müəssisə – "Azərelektrikşəbəkətikinti"

ASC yaradılmış və A.Süleymanov 2017-ci ildək ASC-nin İdarə Heyəti Sədrinin müavini vəzifəsində çalışmışdır. O, bu dövrdə səhmdar cəmiyyətin texniki və maliyyə siyasətinin müasir tələblərə uyğun yönəldilməsi, həmcinin cəmiyyətin xarici firmalarla münasibətlərinin tənzimlənməsi işlərinə rəhbərlik etmişdir. Bu dövrdə "Azərelektrikşəbəkətikinti" ASC tərəfindən respublikanın energetika sisteminin tərkib hissəsi olan coxsaylı dövlət əhəmiyyətli obyektlər quraşdırılaraq istismara verilmişdir. Həmin müddətdə "üçlük" – ASC İdarə heyətinin Sədri B.Babayev, ASC-nin baş mühəndisi V.Mürsəlov və A.Süleymanov şəxsində idarə olunan trest, daha sonra onun bazasında fəaliyyətini davam etdirən ASC Azərbaycanda elektroenergetika obyektlərinin tikintisi sahəsində böyük nailiyyətlərə sahib olaraq tək Azərbaycan Respublikası daxilində deyil, həmçinin qonşu dövlətlərdə də tanınmışdır.

A.Süleymanov 1988-ci ildə əsas işi ilə paralel olaraq "Enerjitikinti" elmi-istehsalat kooperativini təsis etmiş və kooperativin maliyyə-istehsalat fəaliyyətinə rəhbərlik etmişdir. Bu kooperativin yaradılmasının əsas səbəbi isə 1988-ci ildə Ermənistan Respublikası ərazisindən çıxarılmış soydaşlarımızın ailələrinin Xızı rayonun Altıağac ətrafındakı kəndlərdə məskunlaşdırılması və həmin kəndlərin elektrik təchizatının daha çevik layihələndirilməsi idi. Kooperativin fəaliyyətinə 1997-ci ildə xitam verildi.

Respublika daxili elektrotexniki obyektlərin layihələndirilməsinə artan tələbatı müasir tələbləblərlə qarşılaya bilən digər bir texniki struktura ehtiyacın hiss olunduğunu nəzərə alaraq 1998-ci ildə A. Süleymanovun rəhbərliyi ilə "İnterenerqo" müəssisəsi təsis edilmiş və bu günə kimi bu müəssisəyə bacarıqla rəhbərlik edərək ölkənin layihə-tikinti kompleksində böyük nailiyyətlərə imza atılmışdır.

O, həmçinin 1992-1993-cü illərdə Qarabağ müharibəsi zamanı Azərbaycan Respublikası Nizami rayon Könüllülər batalyonunun təşkil olunmasında yaxından iştirak etmiş və batalyonun ilk komandiri olmuşdur. Batalyon Azərbaycan Ordusu sıralarına qəbul olunduqdan sonra Müdafiə Nazirliyinin sərəncamı ilə digər hərbi hissədə xidmətdə olmuşdur. Dövlətlərarası atəşkəs razılaşması ilə əlaqədar müqavilənin imzalanmasından sonra könüllü hərbi xidmətdən təxris olunmuş və daha öncəki iş yerində fəaliyyətini davam etdirmişdir.

A.Süleymanov 1998-ci ildən sonrakı dövrdə bütün fəaliyyətini elektroenergetika və alternativ enerji obyektlərinin, yarımstansiyaların, elektrik veriliş xətlərinin, güc və fiber-optik kabellərin, yol işıqlanma sistemlərinin layihələndirilməsinə və tikinti-quraşdırma işlərinin aparılmasına rəhbərlik etməyə həsr etmişdir.

İstənilən bir insan üсün öz əməyinin bəhrəsini görmək şərəfli bir işdir. Bu təbirlə "İnterenerqo" müəssisəsində çalışan hər kəs vətənimizin bir çox guşələrində artıq istismarda olan obyektləri gördükdə "Zamanında bu obyekti biz layihələndirdik və ya bu obyektin tikinti-quraşdırma işlərini bizim kollektiv yerinə yetirdi" – deyə ən azından qürurlanır.

"İnterenerqo" müəssisəsi kollektivinin hər bir vətəndaşımıza ən ümdə arzusu: "Evləriniz nurla dolsun və işıqlarınız heç zaman sönməsin!".

## Bakı şəhəri ərazisində inzibati binaların xarici elektrik təchizatının yerinə yetirilməsi





*İzmir prospektində HYAT REGENCY – Naxçıvan mehmanxanası*



*Niyazi küçəsində Heydər Əliyev Fondunun binası*

*Tibilisi prospektində "Natavan" biznes mərkəzinin binası*

## Sumqayıt Kimya Sənaye parkının elektrik təchizatının layihələndirilməsi



*110/35/10 kV-luq 2x80 mVA gücündə GİS sistemli qapalı yarımstansiya*



*Yarımstansiyanın idarəetmə mərkəzi*




*110 kV-luq GİS sistemi*



*10/35/10 kV-luq güc transformatoru*

## Ağdam rayonu ərazisində məcburi köçkün ailələri üçün salınan yeni qəsəbələrin elektrik təchizatı



*İmamqulubəyli qəsəbəsi*



*Xındırıstan qəsəbəsində 110/35/10 kV-luq yarımstansiyanın yenidənqurulması*



*Yeni 35/10 kV-luq yarımstansiyanın tikintisi*



*Yeni 35 və 10 kV-luq elektrik veriliş xətləri*

## Füzuli rayonu ərazisində məcburi köçkünlər üçün salınan yeni qəsəbənin elektrik təchizatı



*110/35/10 kV-luq "Böyük Haramı" yarımstansiyasının yenidənqurulması*

## Alternativ enerji mənbələri obyektlərinin layihələndirilməsi və quraşdırılması



*Abşeron rayonu, Atyalı ərazisində külək elektik stansiyası (KES) və paylayıcı elektrik şəbəkələri*









## İşğaldan azad olunmuş ərazidə salınan yeni qəsəbələrin elektrik təchizatı



*Yeni salınan Cocuq Mərcanlı qəsəbəsi*





*Tikintinin 1-ci mərhələsində quraşdırılan 1000 kVA güçündə komplekt transformator məntəqəsi*



*Tikintinin 2-ci mərhələsində quraşdırılan qapalı yarımstansiya məntəqəsi*




*Lənkəran Resort Sağlamlıq Mərkəzinin xarici elektrik təchizatı*





*Bərdə şəhəri ərazisində məcburi köşkünlər üçün salınan yeni məhəllənin elektrik təchizatı*





*Samux rayonu ərazisində iri əkinçilik kompleksinin elektrik təchizatı*







*110/10-10 kV-luq qapalı "Şahdağ" yarımstansiyası*



*110/10-10 kV-luq "NORM" sement zavodunun YS-ı yanında EVX-KX-nə keçid məntəqəsi*



**İsa bəy Hacınskinin evi**

Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti, 103 ünvanında yerləşir.

Bina 1912-ci ildə tikilib. Zəngin Hacinskilərin şəhərdə bir neçə yerdə mülkləri vardı, məsələn, Bül-Bül prospekti, Füzuli küçəsi ünvanındakıları göstərmək olar. Bunlardan ən əzəmətlisi "Hacinskinin evi" kimi tanınan və Qız qalasının yaxınlığında yerləşən binadır. Bakı bulvarının salınmasında İsa bəy Hacinski çoxlu pul xərcləmişdi, ona görə də mülkünü məhz dəniz kənarında tikdirməyi qərara gəlir. İmarətin girəcəyində, iki tərəfdə mərmərdən yonulmuş aslan heykəlləri var idi. Təəssüf ki, 1918-ci il mart hadisələri zamanı bu aslan heykəlləri atılan düşmən qumbaralarından parça-parça olub. Hətta İsa bəy Hacinski bina tam hazır olduqdan sonra memara vəd etdiyi məbləğdən artıq pul verir, çünki bina onun çox xoşuna gəlir, memarın işindən razı qalır. Məbləğ o qədər böyük olur ki, həmin memar Almaniyanın Berlin şəhərində bu pullara bir imarət ucaldır.

1910-cu ildə Hacınski kinoproyektor gətizdirmişdi və mütəmadi olaraq orada yeni filmlərin nümayişini edirdi.

Binada bir sıra üslublara rast gəlmək olur, qotik, barokko, modern və sairə. Binanın üzərində bu gün də de Qollun adına vurulmuş memorial lövhəni görmək mümkündür.

**İsmailiyyə Sarayı**

Saray Musa Nağıyevin gənc yaşında vəfat etmiş oğlu İsmayıl Nağıyevin şərəfinə adlandırılmışdır.

İsmailiyyənin əsası tanınmış Azərbaycan milyonçusu Musa Nağıyev tərəfindən 1907-ci ildə qoyulub. Binanı dünyadan erkən köçən oğlu İsmayılın xatirəsinə tikdirib. Milyonçunun oğlu Ağa İsmayıl vərəm xəstəliyindən vəfat edir.

1905-ci ildə Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri Hacı Zeynalabdin Tağıyev Bakı Şəhər Dumasına rəsmi məktubla müraciət edərək cəmiyyət üçün qərargaha ehtiyac olduğunu bildirir. Ərizədə Xeyriyyə











Cəmiyyətinin binaya ehtiyacı olduğu əsaslandırılır. Ona görə də "Kaspi" qəzeti redaksiyası ilə (o dövrdə "Kaspi" qəzetinin redaksiyası indiki Sabir bağının yerində idi) Müsəlman qız məktəbi (indiki Əlyazmalar İnstitutu) arasındakı boş torpaq sahəsinin Xeyriyyə Cəmiyyətinə verilməsi xahiş olunur.

Bakı şəhər Duması 1 dekabr 1905-ci ildə keçirilən iclasında Xeyriyyə Cəmiyyətinin ərizəsinə baxır və müsbət qərar çıxarır. Torpaq sahəsi Xeyriyyə Cəmiyyətinin şəxsi mülkiyyətinə yox, Müsəlman Xeyriyyə Cəmiyyətinin Bakıda mövcud olduğu müddətə cəmiyyətin pulsuz istifadəsinə verilir. Lakin ayrılmış torpaq sahəsində bina tikmək məsələsi bir qədər ləngiyir. Bakı milyonçuları Novruz bayramı münasibəti ilə təşkil olunmuş ziyafət məclislərinin birində Ağamusa Nağıyevə təklif edirlər ki, oğulunun xatirəsini əbədiləşdirmək üçün Müsəlman Xeyriyyə Cəmiyyətinə bina tikdirsin. Yeni binanın layihəsini hazırlamaq mülki mühəndis İosif Ploşkoya həvalə olunur.

"İsmailiyyə" binasının tikintisi 1913-cü ildə başa çatır və memarlıq xüsusiyyətlərinə görə şəhərin ən əzəmətli binası kimi tanınır. M.Ə.Rəsulzadə sonralar Türkiyədə nəşr etdirdiyi "Azərbaycan Cumhuriyyəti" kitabında bu bina haqqında yazırdı: "Bəlkə də islam aləmində böylə bir məqsədlə yapılmış binaların əzəməti etibarilə birincisidir".

1918-ci ilin Mart hadisələri zamanı Bakıda nəzarəti ələ keçirən ermənilər şəhərin əhalisi ilə yanaşı binalarına da ziyan vurma-

ğa çalışırdılar. Bu zaman böyük zədə almış binalardan biri də İsmailiyyə sarayı olmuşdur. Saray əvvəlcə qarət edilmiş, daha sonra isə yandırılmışdı. Sarayda törədilən yanğın zamanı binaya dəyən zərərlə yanaşı, sarayda fəaliyyət göstərən qurumların, o cümlədən sarayın öz arxivi yanaraq məhv olmuşdu.

Binanın həyətə yarımsirkulyar çıxıntısında yerləşən mərkəzi giriş pilləkəni tamamilə uçmuşdur. Dəmir-beton pilləkənlər və tirlər onların üzərinə tökülmüş tavanın və yuxarı meydançanın dəmir tirlərinin ağırlığına davam gətirməmişdirdi. Salonların döşəməsinin tirləri hərarətdən əyilmişdir və döşəmənin düz səthi bütövlükdə çatlarla dolu dalğavarı görünüş ifadə edirdi.

Salonun, foyenin və pilləkənin yapma naxışlı kirəc bəzək işləmələri alovun hərarətindən və divar daşlarının alışmasından aralanmış və bəzi yerlərdə qopub düşmüşdü. Əsas korpusun divarlarının hər iki tərəfdən alovun hərarətinə məruz qalmış yerlərində – daşın keyfiyyətini o dərəcədə dəyişmişdir ki, artıq tikinti materialı kimi istifadə olunmaz hala gəlmişdi.

Bakının azad edilməsindən sonra Qafqaz İslam Ordusu İsmailiyyə sarayının qarşısında fəxri parad yürüşü həyata keçirmişdir.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra dağılmış İsmailiyyə sarayının yararsız olması səbəbiylə sökülməsinə qərar verilmişdir. Lakin yerli əhali bina qarşısına toplaşaraq, onun sökülməsinə imkan verməmiş və yalnız bundan sonra sarayın bərpa olunmasına başlanmışdır. Binada bərpa işlərini memar Vartan Sarkisov həyata keçirmişdir. Bərpa zamanı sarayın ümumi plan layihəsi olduğu kimi saxlansa da, fasadında bəzi dəyişiklərə yer verilmiş, vaxtilə Quran ayələri və hədislərin yer aldığı medalyonlarda beşguşəli qızılı ulduzlar yerləşdirilmişdir.

Yaxınlıqda Aleksandr Nevski kafedralının tikilməsindən sonra keçmiş Nikolayev küçəsində Cümə məscidinin inşa olunmasına icazə verilmir və bu gələcəkdə İsmailiyyə sarayının inşa olunacağı yerin boş qalmasına gətirib çıxarır.

Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbinin binası (1898-1901) planlaşdırılarkən, eyni vaxtda Qoslavski 1898-ci ildə məktəblə yanaşı inşa edilməsi planlaşdırılan bazar binasının layihəsini hazırlamışdı. Nikolayev küçəsinin prespektivini nəzərə alaraq sonradan bu ərazidə bazar tikilməsi planı təxirə salındı. Şəhər Duması belə hesab edirdi ki, mərkəzi magistral (XIX əsrin sonlarında indiki İstiqlaliyyət küçəsi mərkəzi magistral hesab edilirdi) ticarət sıralarının yeri deyildir. Lakin, həmin sahə on il ərzində Bakı milyonçusu Ağa Musa Nağıyevin sifarişi ilə oğlu İsmayılın (1875-1902) xatirəsinə orada Bakının ən gözəl saraylarından biri olan "İsmailiyyə" ictimai-xeyriyyə binası tikilənədək boş qaldı.

1890-cı illərin başlanğıcında Nikolayev küçəsinin nizamlanması layihəsi yerinə yetirildi. Bu küçə bütünlüklə Qubernatorun evi, Şəhər Duması və İdarəsi (indiki Bakı Şəhər İcra Hakimiyyətinin Binası), Realni Məktəb (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin binası), məscid və ticarət cərgələri kimi inzibati-ictimai idarələrə verildi. 1893-cü ildə Cümə məscidinin inşası üçün sahə hazırlanmasına başlanıldı. Məscidi fontanları və hovuzları olan parkda yerləşdirmək nəzərdə tutulmuşdu. Bakı müsəlmanları məscidin yaşıllıqlar, fontanlar və şəffaf sulu hovuzlar arasında gözəl mənzərəli memarlıq

mühitinin təmsil edildiyi İstanbul, Təbriz, İsfahan və başqa şərq şəhərlərindəki məşhur məscid nümunələrini təkrarlayan dini ansambl yaratmaq istəyirdilər.

Lakin, qonşu küçədə dəbdəbəli Aleksandr Nevski kafedralının tikilməsi Cümə məscinin tikilməsinə də öz təsirini göstərdi. Belə ki, planlaşdırılmış ərazidə məscidin inşa edilməsi Çar Rusiyası hakimiyyəti nümayəndələri tərəfindən qadağan edildi.


Memar İosif Ploşko

5 noyabr 1896-cı ildə Cümə məscidinin inşası üçün hazırlanmış yer Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbinin tikilməsi üçün verildi. Hazırda İsmailiyyə sarayının yerləşdiyi sahə küçənin quruluşunda şəhərsalma cəhətdən əlverişli idi, memarlıq planında mühüm yer tuturdu.

Sarayın memarlıq layihəsi artıq Bakıda tanınmış memarlardan biri olan mülki mühəndis İ. Ploşko tərəfindən 1901-1913-cü illərdə hazırlandı və tikildi. Bu binanın layihəsinə maraq o qədər böyük idi ki, onu şəhər köşklərində satmaq üçün yerli mətbuatda dərc etdirdilər. İlk təməl daşının qoyulması böyük kütlənin və Bakı milyonçuları H. Z. Tağıyev, Ş. Əsədullayev, M. Muxtarov, İ. Hacınski, Aşurbəyov və Dadaşov qardaşlarının iştirakı ilə 21 dekabr 1908-ci ildə təşkil edildi. Binanın inşa işləri isə 1913-cü ildə tamamlandı.

Ploşko tərəfindən hazırlanmış layihəyə görə rizalitlərin üstündə müxtəlif örtüklü günbəzləri olan yumru belvederlər yerləşdirilməli idi.

Venesiya qotikası üslubunda tikilmiş İsmailiyyə sarayının fasadı çox plastikdir və yaxşı işlənmişdir. Bina insanda yüksək hisslər, memarın ustalığına və daşçıların sənətinə heyranlıq yaradan ahəngdar bədii əsər, memarlıq simfoniyasıdır.

Fasadın memarlıq kompozisiyasının inkişafı şaquli xətt üzrə yan rizalitlər şəklində ardıcıl səciyyəvi xüsusiyyətə malikdir. İ. Ploşko öz yaradıcılığında bu üsula tez-tez müraciət etmişdir. Fasadın hədsiz dərəcədə plastik işlənməsi ona xüsusi gözəllik və rövnəq qatır. Burada təsadüfi memarlıq üsul və formaları müşahidə olunmur. Həcmli kütlələr fasadın ümumi memarlıq kompozisiyası ilə ahəng təşkil edən üfüqi və şaquli hissələrin itiliyi – bütün bunlar klassik qanunauyğunluğa əsaslanır.

Çatmatağların üstünlük təşkil etməsi binanı yerli mühitə daha da yaxınlaşdırır. Fasadın daxilində anaxronizm hiss olunmur. Gözəl rəsmlərlə bəzədilmiş həcmli çatmatağlardan ibarət birinci mərtəbə formaların monumentallığını yüngülləşdirən və onlara yeni motivlər qatan dayaq tirləri vasitəsiylə hissələrə bölünmüşdür. Sarayın əsas giriş qapısı memarlıq ünsür və detallarının möhtəşəm kompozisiyasını təşkil edir. Giriş tağı heykəl başlıqlı pilyastrlara söykənir. İ.Ploşko fasada plastik görkəm verməkdən ötrü daş üzərində dərin oymalardan istifadə etmişdir. O, bunu daş memarlığı sənərindən əxz etmişdi və əsərlərində ondan bədii ifadəlik əldə etmək üçün məharətlə istifadə edirdi. Tağlı timpan meyvə təsvirli naxışlarla bəzədilmişdir.

Qəsr daşına gəldikdə isə o, üzərində Roma dövrü kişisinin başı təsvir olunmuş bütöv daş blokdan mükəmməl şəkildə hazırlanmışdır.






Gözəl cizgilərə malik dalğalı saçlar, iri göz və düz burunlu enli alını örtür. Qalın dodaqlar, yaraşıqlı saqqalla birləşən bığlar gözlərini uzaqlara dikmiş cəsur döyüşçü obrazı yaradır. Onun heykəl formasında yonulmuş başı yaxınlıqdakı relyef elementləri ilə ahəng təşkil edir. Güclü cızılmış qaytanabənzər yarımdairə tağ ilə intibah dövrü motivlərini xatırladır.

İnqlabaqədərki dövrdə bütün memarlıq üslublarının çiçəkləndiyi bir vaxtda Bakı məhəllələrinin tikintisi prosesinin gedişində İ. Ploşkonun yaradıcılığı Şərq və Qərb motivləri ilə müşayiət olunmuşdur. Memar çatmatağların ritmini ardıcıl struktura çevirmək və onu plastik ünsürlərlə möhkəmləndirmək istəmişdir. Ona elə gəlirdi ki, İsmayılın xatirəsi memarlıq nöqteyi-nəzərindən layiqincə yad olunmamışdır. Buna görə də o, birinci mərtəbədə tağların arasında akant yarpaqlı, heraldik emblemli və taclı çələng formasında relyef formasında təsvir olunmuş iri dairəvi dekorativ motivlər yerləşmişdir. Ağa Musa Nağıyev əsilzadə ailəsindən olmasa da, sahib olduğu milyonlar ona bu cür üslub elementlərini tələb etməyə imkan vermişdi.

İkinci mərtəbəyə keçid üfüqi hissələrin geniş zolağı ilə müşayiət olunur. Bu, fasadın kompozisiya quruluşunda yeni bir səhifə açmağa imkan yaradır. Burada "Contarini delle Figure" sarayından bir hissə öz əksini tapmışdır. Venesiya saraylarında iti uclu çatmatağların kompozisiya üsulu dairəvi forma ilə əvəz olunur. İ. Ploşko arxasında binanın Böyük zalının (akt zalı) yerləşdiyi İsmailiyyənin ikinci mərtəbəsinin fasadında maraqlı memarlıq kompozisiyasından müvəffəqiyyətlə istifadə etmişdir.

Çox gözəl kapitellərə malik sütunların saxladığı güclü profil verilmiş altı tağ aşırımının ritmi fasadda xüsusi bədii ovqat yaradır. Onların arxasında isə məhəccər və qotik formalı pəncərə çərçivələri yer alır. Tağ sıralarının arxasında miqyaslı dairəvi formalar vahid ahəngdar struktur təçkil edərək memarlıq kompozisiyasında üstün mövqe tuturlar. Qotik motivlərin mənzərəli düzülüşü və yüksək plastikası çevrəsi aydın cızılaraq azca profil verilmiş dairəvi cizgilərə malik qotik məhəccərə yaxınlaşaraq xüsusi müstəqil məna kəsb edir.

Zəif ifadə olunmuş pərvazın altında siluet səciyyəli dekorativ elementlər özünəməxsus olaraq fəal təsir göstərirlər. Bütün pa-

rametrlərinə görə gözəl olan rizalitlər tağ sırasının əsas saxlayıcı elementi olaraq portal kompozisiyası rolunda çıxış edir. Rizalitin prespektiv çatma tağı memarlıq-dekorativ formada işlənmişdir. Tağın timpanına ümumi memarlıq repertuarında xüsusi mövqe tutan ornamental çiçək motivləri daxil edilmişdir. Memar İ. Ploşko fasadın həllində qaytan elementlərindən çox istifadə etmişdir. Bu element sütunların kapitelləri vasitəsilə bir-birindən ayrılan portal tağlarında da istifadə olunur, daha sonra isə bazaya kimi davam edir. Əsas prespektiv tağlar kapitel səviyyəsində pilyastrlara söykənir. Burada memarlıq detallarından ibarət tam bir dəstə formalaşmışdır.

Rizalitin portalı şaquli uzunsov formada qaytanvari sütunlara bənd edilərək xırda elementlərin axınına çevrilir, mərkəzi oxu isə İ. Ploşko əsas siluet motivlər rolunda çıxış edən piramida şəkilli frontonlarla tamamlayır. İ. Ploşko layihəyə görə və İsmailiyyə sarayının memarlıq kompozisiyasına uyğun olaraq rizalitlərin üstündə müxtəlif örtüklü günbəzləri olan yumru belvederlər yerləşdirilmişdir. Bina 1918-ci ildə ermənilər tərəfindən gülləbaran edildiyi və yandırıldığı zaman bunların dağıdılması haqqında dəqiq məlumat yoxdur. Lakin, bina həmin gülləbarandan ciddi ziyan çəkmişdir.

Bina düşünülmüş həcm-məkan həllinə malikdir. Birinci mərtəbədə korpusun eninə çıxışında uzun dördbucaqlı formada vestibül yerləşir, daha sonra iri ionik sütunları olan foye açılır, ondan sonra geniş mərkəzi üçmarşlı giriş pilləkəni gəlir. Foyenin künclərində qapalı ikimarşlı pilləkənlər yerləşir. Giriş pilləkənlərinə paralel olaraq xidməti otaqlar yerləşir.

İkinci mərtəbəyə giriş pilləkənləri ilə çıxış klassik qaydada "şəkillərlə" müşayiət olunur və ümumi həcm məkanında iştirak edir.

Binanın fasadı Venesiya qotikası üzrə tərtib olunsa da, interyerin üslub proqramı Avropa klassikasına daha yaxındır və bu ikinci mərtəbənin nəfis memarlıq həllində zalın üçölçülü ictimai foyesini əhatə edən biçimli korinf sütunlarında qabarıq şəkildə özünü göstərir. Zərif, aydın cizgilərə malik yaraşıqlı sütunları arasındakı düzbucaqlı məkanda memarlıq forma və üsullarının nəcibliyi açıq duyulur.




Burada qotikanın iti formalarının dinamikası memarlığın tamamilə fərqli təzahürləri ilə əvəz olunur. Proporsiyaların incəliyi və memarlıq element və detallarının cizgilərinin sərtliyi baxımından burada imperiya dövrü Romasının əks-sədası eşidilir. İ. Ploşko sarayın interyerində memarlıq sənətinin bədii incəlikləri baxımından öz istedadı qarşısında yeni imkanlar açmışdır.



**İzmaylov Şöhrət Yaqub oğlu**

30 dekabr 1950-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1973-cü ildə Azərbaycan Politexnik İnstitutunu mühəndis-inşaatçı ixtisası üzrə bitirmişdir. İnstitutu bitirdikdən sonra "Bakıbaştikinti" 3 saylı idarəsində inşaat ustası, iş icraçısı, 1975-1977-ci illərdə Elmi-Tədqiqat və Layihələndirmə Baş İnstitutunun Zaqafqaziya Kompleks Şöbəsində baş elmi işçi, 1977-1979-cu illərdə isə S.Dadaşov adına Elmi-Tədqiqat İnstitutunda böyük mühəndis vəzifəsində çalışmışdır.

1979-1983-cü illərdə Moskva şəhərində Beton və Dəmir-beton Elmi-Tədqiqat İnstitutunda aspiranturada təhsil almış, 16 may 1984-cü ildə həmin İnstitutun Elmi Şurasının qərarına əsasən Şöhrət İzmaylov texnika elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1984-2003-cü illərdə AzİMETİ-nin "İnşaat konstruksiyaları" laboratoriyasına rəhbərlik etmişdir. Laboratoriyaya rəhbərlik etdiyi müddət ərzində Şöhrət İzmaylov özünü peşəkar və təcrübəli mütəxəssis kimi göstərmişdir. Onun bilavasitə rəhbərliyi altında bir neçə elmi işlər aparılmış, elmi kadrların hazırlanmasında böyük işlər görülmüşdür. İnstitutun aparıcı sahələrinə rəhbərlik edən Nizami Yusifov, Rövşən Rzayev, Fəxrəddin Həbibov və digərləri Şöhrət İzmayılovun vaxtında aspiranturaya daxil olaraq öz həyatlarını elmə sərf etmişlər. Respublikamızda və onun paytaxtı Bakı şəhərində qəza vəziyyətli binaların yükdaşıyan konstruksiyalarının gücləndirilməsi və bərpası üzrə tədbirlərin hazırlanması daima İzmaylov Şöhrət Yaqub oğlunun diqqət mərkəzində olmuşdur. Hal-hazırda Şöhrət İzmaylov məşhur inşaatçı, konstruktor, tikinti kompleksinin korifeylərindən biri olan mərhum atası Yaqub Abbas oğlu İsmayılovun işini layiqincə davam etdirir.

# Q



**Qarayev**
**Əli**
**Ənvər oğlu**

04 dekabr 1962-ci ildə Bərdə rayonunun Məmmədli kəndində anadan olmuşdur. 1970-ci ildə Bərdə rayon Məmmədli kənd orta məktəbinin birinci sinfinə getmiş, 1980-ci ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir.

Əli Qarayev 1981-1983-cü illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur.

1984-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Sənaye və mülki tikinti fakültəsinin əyani şöbəsinə qəbul olunmuş, 1989-cu ildə həmin ali təhsil ocağını müvəffəqiyyətlə bitirmişdir.

1989-cu ildə təyinatla Azərbaycan Respublikası Kənd Tikinti Nazirliyinin 2 nömrəli trestinin tabeliyində olan 21 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstəsində iş ustası olaraq əmək fəaliyyətinə başlamışdır. 1990-cı ildə həmin idarədə iş icraçısı və bir müddət sonra baş iş icraçısı vəzifəsinə təyin olunmuşdur.

Əli Qarayev 1991-ci ildə Azərbaycan Respublikası Kənd Tikinti Nazirliyinin 26 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstəsinin baş mühəndisi vəzifəsinə təyin olunmuşdur.

1993-1997-ci illərdə isə 26 nömrəli SMD-nin rəisi vəzifəsində işləmişdir.

Əli Qarayevin 1998-ci ildən sonrakı fəaliyyət illəri özəl sektorla bağlı olmuşdur. Belə ki, o, özəl tikinti şirkətinin prezidenti olaraq respublikamızda və respublikamızın hüdudlarından kənarda inşa olu-





*Yerinə yetirilmiş fasad işlərindən görüntülər...*

nan yeni hündürmərtəbəli yaşayış binalarının fasad işlərinin yerinə yetirilməsi sahəsində ixtisaslaşmış və bu sahədə böyük uğurlar qazanmışdır.

Əli Qarayev ailəlidir, üç övladı, dörd nəvəsi vardır.



*Bakı şəhərində inşa olunmuş hündürmərtəbəli yaşayış evlərində yerinə yetirilmiş fasad işlərinin görüntüləri...*



**Qasımov Vüsal Əmmin oğlu**

18 yanvar 1967-ci ildə Cəlilabad şəhərində ziyalı ailəsində anadan olmuşdur. Atası Qasımov Əmmin Qurban oğlu 1935-ci ildə anadan olub, 41 il Cəlilabad SES-də həkim-epidomoloq vəzifəsində işləmiş, paralel olaraq Cəlilabad rayon "Üzümçü" futbol komandasının rəisi kimi çalışmışdır. 2004-cü ildə haqq dünyasına qovuşmuşdur. Anası Məmmədzadə Südabə Cəfər qızı 48 il Cəlilabad şəhər poliklinikasında tibb bacısı işləmişdir. 2012-ci ildə haqq dünyasına qovuşub.

Vüsal Qasımov orta təhsini 1974-1984-cü illərdə Cəlilabad şəhərindəli 2 və 1 nömrəli orta məktəblərdə almışdır. Orta məktəbdə oxuduğu illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun zonalar üzrə keçirdiyi riyaziyyat olimpiadasının qalibi olmuşdur. Bu illərdə keçirilmiş kimya fənni üzrə olimpiadalarda isə daha böyük müvəffəqiyyətlər əldə etmişdir: üç dəfə (1982-1984) Cəlilabad rayon olimpiadasının qalibi, bir dəfə (1982) respublika olimpiadasının 3-cüsü olmuş, bir dəfə isə (1983) respublika olimpiadasının qalibi adını bölüşmüşdür.

Vüsal Qasımov 1984-cü ildə orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun sənaye və mülki tikinti fakültəsinə eksperiment yolu ilə qəbul olunmuşdur.

Vüsal Əmmin oğlunun inşaatçı sənətini seçməsi isə Azərbaycan tikinti kompleksinin tanınmış inşaat rəhbərlərindən olan, dayısı Rauf Məmmədzadə ilə bağlıdır və Vüsal etiraf edir ki, orta məktəb illərində ondan həyat idealının kim olduğu soruşulanda hər zaman fəxrlə dayısı Rauf Məmmədzadənin adını çəkib. Və həyat elə gətirir ki, o, verdiyi sözü tutur və həm peşəsinin, həm dostlarının, həm də şəxsi xarakterinin vurğunu olduğu, təcrübəli, peşəkar və əsil insan – dayısı Rauf müəllimin sənətinin ardıcılı, davamçısı olur. Vüsal Qasımov bu gün də sənət seçimi ilə bağlı sual verilərsə yenə tərəddüd etmədən böyük qürurla və fəxrlə bu sənəti seçəcəyini deyir. İnşaatçı olmaq, Azərbaycanın nəhəng, korifey inşaatçıları ilə çiyin-çiyinə çalışmaq fəxr və qürurludur – deyir.

Vüsal Qasımov 1985-1987-ci illərdə Moskva şəhərində inşaat batalyonunda hərbi xidmətdə olmuşdur. Xidmət etdiyi müddətdə komandiri olduğu bölmə ilə birlikdə dəfələrlə Moskva Hərbi İnşaat Dairəsinin hərbi-inşaat işləri üzrə birincisi olmuşdur. O, Moskva şəhəri mühəndis ordu dairəsi tərəfindən "Əlaçı hərbi inşaatçı" və 1-ci dərəcəli hərbi idmançı nişanlarına layiq görülmüşdür.

Sonradan ali təhsilini davam etdirdiyi zaman Vüsal Qasımov AzİMİ-nin futbol komandasının tərkibində Azərbaycan çempionu olub. Həmçinin institut illərində 7 nömrəli Dəmir Beton zavodunda tələbə inşaat dəstəsinin tərkibində təcrübə keçmişdir.

Vüsal Qasımov 1991-ci ildə ali məktəbi fərqlənmə (qırmızı) diplomu ilə bitirmişdir.

Vüsal Qasımovun tələbəlik illərində bu peşəyə daha böyük məhəbbətlə bağlanmağının səbəbkarı da yenə dayısı Rauf Məmmədzadə olmuşdur. Təhsil gün-

lərinin birində, dərs zamanı, memarlıq elmləri doktoru, professor Niyazi Rzayev keçmiş tələbələrindən söz açarkən 1967-ci ildə instituta daxil olmuş tələbələrindən 287 "a" konstruktorlar qrupunun qrup nümayəndəsi olmuş Rauf Məmməd-





*Binəqədi rayon İcra Hakimiyyətinin inzibati binasından görüntülər...*

zadəni xüsusi olaraq qeyd edir. Niyazi müəllim belə tələbələri ilə fəxr etdiyini (R.İ. Məmmədzadə o zaman artıq "Azərkəndtikinti" İstehsalat Birliyinin rəis müavini vəzifəsində işləyirdi) deyir və onlara da belə yol seçməyi tövsiyyə edir. Bu zaman Vüsal Qasımov icazə alıb ayağa qalxaraq auditoriyaya Rauf Məmmədzadənin onun doğma dayısı olduğunu bəyan edir. Niyazi müəllim bu elandan məmnun qalaraq Vüsal Qasımovu lövhənin qarşısına dəvət edir və uzun-uzadı Rauf Məmmədzadə ilə bağlı xatirələrindən danışır. Bu hadisədən sonra Vüsal Qasımov taleyini bağladığı inşaatçı peşəsinə və sənətinə təkrarən "vurulur", bu xeyirxah sənətə sadiq qalacağını, bu sahədə uğurlar qazanacağına "and içir".

Vüsal müəllimin böyük qardaşı Vüqar Qasımov da inşaatçıdır. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirdikdən sonra tikinti mühəndisi, Peşə məktəbində müəllim və Məşğulluq İdarəsində mütəxəssis vəzifəsində işləmişdir. Hal-hazırda Cəlilabad şəhərində yaşayır və işləyir.

Vüsal Qasımov inşaatçı mühəndis kimi əmək fəaliyyətinə 1991-ci ilin 01 avqust tarixindən etibarən Azərbaycan Kənd Tikinti Nazirliyinin nəzdində olan Səyyar Mexanikləşdirilmiş Dəstədə inşaat ustası kimi başlamışdır.

Burada kiçik bir haşiyə çıxaq ki, işlədiyi təşkilatın rəhbəri Azərbaycanın Əməkdar Mühəndisi, təcrübəli mütəxəssis Sabir Axundov idi və Vüsal Qasımovun bir inşaatçı kimi formalaşmağında onun böyük rolu və əməyi olub.

Vüsal Qasımov bu təşkilatda sonra iş icraçısı və sahə rəisi vəzifələrində işləmişdir. O, bu zaman – 1991-1993-cü illərdə Çaylı kəndində 2 mərtəbəli xəstəxana, aptek və həkimlər üçün nəzərdə tutulmuş 2 mərtəbəli yaşayış evinin tikilib istifadəyə verilməsində yaxından iştirak etmişdir. Həmçinin 2 mərtəbəli orta məktəb binasının və məcburi köçkünlər üçün onlarla mənzillərin və sosial təyinatlı obyektlərin tikinti və təmirində çalışmış, Pirəküşkül qəsəbəsində hərbi şəhərcikdə hərbi





*Şəmkir şəhərində yerləşən Ticarət passajından görüntülər...*

obyektlərin rekonstruksiya və təmir işlərində əmək sərf etmişdir.

Həmin illərdə tikinti sahəsində fərqləndiyinə görə Vüsal Qasımov Milli Məclis tərəfindən tərifnamə almış və pul mükafatına layiq görülmüşdür. Eyni zamanda 1993-cü ildə "İnşaatçı" qəzetində Vüsal Qasımovun həyatı və tikintidə qazandığı əmək qələbələri barədə geniş məqalə dərc olunmuşdur.

Vüsal Qasımov daha sonra həmin təşkilatda dəmir beton qovşağının rəisi, tikinti-istehsalat şöbəsinin rəisi, 1994-cü ildən isə Tikinti İstehsalat Bazasının rəisi vəzifəsində çalışmışdır.

Sonrakı illərdə Vüsal Qasımov tərəfindən yerinə yetirilən tikinti obyektlərinin sayı qədərincə çoxdur. Onlardan – Bakı Teleradio şirkətinin binasının təmiri və rekonstruksiya işləri, Azərbaycan Uşaq Fondu və təşkilatının binasında təmir və rekonstruksiya işləri, "Şəfa" İdman Kompleksində təmir və rekonstruksiya işləri, AzTV qüllə daxilində təmir işləri, Babək prospektində Çin mütəxəssisləri tərəfindən inşa olunan yaşayış massivində tikinti işləri, Binəqədi rayon İcra Hakimiyyətinin inzibati binasının rekonstruksiya işləri, Bayıl qəsəbəsində İstirahət Parkında abadlıq işləri, Neftayırma zavodunun istirahət zonasında tikinti-təmir işləri, Ağcabədi rayonunda inzibati binada təmir işləri, Salyan Aqroparkının inzibati binasının təmir-tikinti işləri, Bakı şəhəri Atatürk İstirahət Parkında "Qızılgül" istirahət mərkəzinin tikinti və təmir işləri və digər çoxlu sayda obyektlər Vüsal Qasımovun bilavasitə iştirakı və rəhbərliyi ilə həyata keçirilmişdir.

V.Ə. Qasımov 2013-2014-cü illərdə "Nabukko Architecture and Construction" tikinti şirkətində baş mühəndis vəzifəsində işləmişdir. Bu zaman Şəmkir şəhərində yerləşən Ticarət Passajının (Tikinti ərazisi –



*Salyan rayon "Aqropark"ının inzibati binası*

35000 kv.m.) tikinisində və istifadəyə verilməsində yaxından iştirak etmişdir.

Vüsal Qasımov 2016-cı ildən bu günə kimi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində tikinti işləri üzrə məsləhətçi vəzifəsində çalışır. O, bu təşkilatda işlədiyi son 4 il ərzində cəzaçəkmə müəssisələrində və hərbi hissələrdə istilik-isitmə sistemlərinin çəkilişində və təmir işlərinin aparılmasında yaxından iştirak edir.

Azərbaycan muğamlarının və xalq mahnılarının vurğunu olan Vüsal Qasımovun hobbisi asudə vaxtlarda tar çalmaq, şahmat oynamaq və bədii qiraətlə məşğul olmaqdır.

Vüsal Qasımov ailəlidir, 3 övladı – 2 qızı, bir oğlu var. Həyat yoldaşı Aygün xanım Azərbaycan Rus dili və ədəbiyyatı İnstitutunu bitirib. Anasının adını daşıyan böyük qızı Südabə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin bakalavr və magistraturasını fərqlənmə diplomu ilə bitirib, ailəlidir. Qızı Günay orta məktəbin 11-ci sinif şagirdidir, rəssam olmaq arzusundadır. Oğlu, 5-ci sinif şagirdi Eminin arzusu isə "Dəyanət" Liseyinə qəbul olunmaq və orta təhsilini burada davam etdirməkdir.



*Nərimanov rayonunun Atatürk Parkında inşa olunmuş "Qızılgül" restoranının görünüşü...*



*Bakı şəhərində inşa olunmuş 1800 kub metrlik üzgüçülük hovuzu*



**Qasımova Zəkiyyə Əlibaba qızı**

17 dekabr 1963-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1971-ci ildə Bakı şəhəri Yasamal rayonu 31 saylı məktəbin 1-ci sinfinə getmiş,1981-ci ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir. 1983-cü ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun "Maşınqayırmanın avtomatlaşdırılması və kompleksli mexanikləşdirilməsi" ixtisasının axşam şöbəsinə daxil olmuş,1989-cu ildə həmin institutu mühəndis-elektromexanik ixtisası üzrə bitirmişdir.

1987-ci ildən ''Azərdövlətsənayelayihə'' İnstitutunun İVA şöbəsində texnik vəzifəsində çalışmış, 1989-cu ildə institutu bitirdikdən sonra mühəndis vəzifəsinə təyin edilmişdir.

2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövləttikintilayihə" Dövlət Layihə İnstitutunun Elektromexanika və Zəif cərəyanlar şöbəsinin Zəif axım və Avtomatika bölməsində aparıcı mütəxəssis vəzifəsində işləyir.

İşlədiyi illərdə institutun bütün layihələrində mühəndis kimi çıxış etmişdir.

Zəkiyyə Qasımova bu illər ərzində Hövsan qəsəbəsində FHN-nin Akademiya kompleksi, Səngəçal, Lənkəran, Masallı, Şirvan, Ağdam, Qəbələ şəhərlərində FHN-nin Mülki Müdafiə Alayı kompleksləri, Gəncə avtomobil zavodu, Bakı şəhərlərarası avtovağzalı, Müdafiə Sənayesi Nazirliyinin inzibati binası, Nazirliyin müxtəlif strukturları üzrə rayonlarda regional mərkəzlər, Hacıqabul, Zirə, Binə və digər rayonlarda Yanğından mühafizə depoları, Ağcabədi, Goranboy, Bərdə, Qazax, Tərtər, Kürdəmir rayonlarında, Gəncə şəhərində, Masazır qəsəbəsində və s. məcburi köçkünlər üçün qəsəbələr, Olimpiya idman kompleksləri, yüksək mərtəbəli yaşayış binaları, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İnzibati binası, Sumqayıt Kimya Sənaye istifadəsi üçün FFS polietilen kisələrinin istehsalat sahəsi, eləcə də respublika üzrə kinoteatr binalarının yenidənqurulması layihələrində yaxından iştirak etmişdir.

Zəkiyyə xanım hazırda ölkəmizin bütün şəhər, qəsəbə və kəndlərində müasir səhiyyə ocaqlarının, sənaye obyektlərinin, istehsalat binalarının zəif cərəyanlar və avtomatika hissəsinin layihələndirilməsi işini uğurla davam etdirir.



*Gəncə şəhərində 500 yerlik klub və musiqi məktəbi*



*Əhməd Rəcəbli küçəsində qeyri-yaşayış obyekti*



**Quliyev**
**Rafiq**
**Bəhmən oğlu**

06 dekabr 1950-ci ildə anadan olmuşdur. 01 sentyabr 1957-ci ildə Puşkin (indiki Biləsuvar şəhər) şəhər Nizami adına orta məktəbin birinci sinfinə getmişdir. 1967-ci ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir.

Orta məktəb illərini həyatının ən xoş illərindən hesab edir və məktəbin direktoru Cəlil Abışovu (böyük vətən müharibəsi iştirakçısıdır və SSRİ-nin əməkdar müəllimi fəxri adına layiq görülmüşdür), direktor müavini Zəhra Quliyevanı, müəllimlərdən Ərəstun Əməkovu, Əliqulu Həsənovu, Hacı Bağırovu, Nəcibə Hətəmovanı, Mehman Əhmədovu və başqalarını xoş xatirələrlə xatırlayır.

Quliyev Rafiq Bəhmən oğlunun oxuduğu Nizami adına orta məktəb azərbaycan və rus dilli bölmələr olmaqla beynəlmiləl məktəb funksiyasını yerinə yetirirdi. Tədris və təlim-tərbiyənin səviyyəsinə görə bu məktəb respublikanın ən qabaqcıl məktəblərindən biri sayılırdı. R.B.Quliyev ona dərs demiş müəllimlərini ehtiramla xatırlayır, onların qarşısında baş əyir və dünyasını dəyişənlərə Allahdan rəhmət diləyir.

R.B.Quliyev ali məktəbə qəbul olunmaq üçün sənədlərini 1967-ci ilin iyul ayında Azərbaycan Politexnik İnstitutuna verir. Avqust ayında verilmiş qəbul imtahanlarından yüksək bal toplayan Rafiq Quliyev həmin institutun inşaat fakültəsinin "Sənaye və mülki tikinti" ixtisası şöbəsinə daxil olur. 1967-1972-ci illər tələbəlik illərinin hər gününü müqəddəs və munis sayır. Unudulması mümkün olmayan, yaddaşına əbədi həkk olunmuş, acılı-şirinli o günləri yada salanda istər-istəməz duyğulanır, həyata daha möhkəm vurulur.

Tələbə Rafiqin yaddaşına həkk olunmuş müəllimlərindən biri, memarlıq fənnindən dərs demiş, Pirayyə xanım idi. Pirayyə xanımın yadda qalmasının əsas səbəbi onun mərhum şairimiz M.Müşfiq və onun həyat yoldaşı D.Axundzadə ilə yaxın rəfiqə olması olmuşdur. Maraqlısı bu idi ki, Pirayyə xanım şair Əli Nəzminin qızı idi və orta məktəbi bitirdikdən sonra Bakı Pedaqoji Texnikumunda Dilbər Axundzadə ilə bir qrupda ədəbiyyat fənnindən təhsil almışdılar. Elə texnikumda D.Axundzadə ilə dostlaşmış və yaxın rəfiqə olmuşdular.

Rafiq Quliyev 1974-cü ildə institutu müvəffəqiyyətlə başa vurub təyinatla SSRİ Müdafiə Nazirliyinin sərəncamına göndərilir. 1972-1974-cü illərdə orduda iki illik zabit kimi xidmətindən sonra vətənə qayıdır.

1974-1976-cı illərdə Kənd Tikinti Nazirliyinin Biləsuvarda yerləşən tikinti dəstəsində tikinti sahəsinin rəisi işləyir. Məktəb, yaşayış evləri və müxtəlif sosial yönümlü obyektlərin tikinti işlərini yerinə yetirir.

1976-1982-ci illər ərzində Biləsuvar şəhərində yerləşən Təmir-Tikinti Birliyinin sədri işləyir. Müxtəlif təyinatlı əsaslı tikinti, təmir, yenidənqurma, bərpa və abadlıq işlərinin yerinə yetirilməsi işlərinə bilavasitə rəhbərlik edir.

O, daha sonra, 1982-1985-ci illərdə Biləsuvar rayonunda tikintisi aparılan pambıq zavodunun tikinti direktoru işləyib.

1986-1991-ci illər ərzində Biləsuvar pambıq zavodunun direktoru olub.

1991-1996-cı illərdə Kənd Tikinti Nazirliyinin Dəvəçi şəhərində yerləşən 11 nömrəli "Kəndtikinti" trestinin müdiri işləyib. Məktəb, yaşayış evləri, müxtəlif təyinatlı sosial obyektlərin tikinti işlərini yerinə yetirib. Dəvəçi rayonunda inşa olunan süd zavodunun və dəyirman kombinatının tikintisi işlərinə bir başa rəhbərlik edib.

1996-1998-ci illərdə Bərdə pambıq zavodunun direktoru olub.

Rafiq Quliyev ölkə tikintisində çalışdığı uzun illər ərzində çalışdığı bütün idarə və təşkilatlarda etimadı doğrultmuş, baş idarə rəhbərləri tərəfindən fəxri fərmanlar, qiymətli hədiyyələr və pul mükafatları almışdır.

Sonrakı illərdə isə özəl sektorda Bakı və Moskva şəhərində müxtəlif vəzifələrdə çalışıb. Hal-hazırda Moskva şəhərində yaşayır.

İki oğlu (Rəşad və Kənan) və bir qızı (Leyla xanım) var. Hər üçü ailəlidir. Beş nəvəsi (Harun, Məhəmməd, Arzu, Fidan, Rəşid) var. Övladlarını və nəvələrini özünün böyük xəzinəsi və başının tacı hesab edir.

Həyat R.B.Quliyevi çox çətin sınaqlara çəksə də, o, bütün imtahanlardan qalib çıxıb.



**Quliyev Ramil Əli oğlu**

20 sentyabr 1979-cu ildə Ağcabədi rayonu Mirzəhaqverdili kəndində zəhmətkeş azərbaycanlı ailəsində anadan olmuşdur. 1986-cı ildə Qiyaməddinli kənd orta məktəbinə getmiş, 1996-cı ildə həmin orta məktəbi bitirmişdir. 1997-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Sənaye və Mülki Tikinti fakultəsinə daxil olmuşdur. 2001-ci ildə həmin universitetin bakalavr pilləsini bitirərək magistratura pilləsinə daxil olmuş, 2003-cü ildə magistratura pilləsini bitirmişdir.

Ramil Quliyev 2003-cü ildə Azərbaycan Respublikası Silahlı qüvvələri tərkibində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti Sərhəd qoşunlarının 2005 saylı hərbi hissəsində xidmətə getmişdir. 2004-cü ildə çavuş rütbəsində ehtiyata buraxılmışdır.

2005-2010-cu illərdə tikinti sahələrində sahə mühəndisi və tikintiyə nəzarət vəzifələrində çalışmışdır.

2010-2013-cü illər ərzində layihə firmasında layihəçi konstruktor kimi fəaliyyət göstərmişdir.

R.Ə Quliyev 2013-cü ildə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövləttikintilayihə" DLİ-na işə qəbul olmuş, mühəndis olaraq fəaliyyətə







başlamış, aparıcı mütəxəssis, şöbənin baş konstruktoru kimi fəaliyyət göstərmişdir. İşlədiyi müddətdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 12-ci ildönümü və Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramı günü münasibətilə xidmətdə fərqləndiyinə və əldə etdiyi nailiyyətlərə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Naziri Kəmaləddin Heydərov tərəfindən fəxri fərman, həmçinin 10 aprel "İnşaatçılar günü" peşə bayramı münasibətilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqı tərəfindən fəxri fərmanla təltif olunmuşdur.

Bu institutda işlədiyi müddət ərzində konstruktor layihəçi olaraq Xızı rayonunda Otel kompleksi, Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə Abşeron rayonu Masazır bələdiyyəsi ərazisində 758, Gəncə şəhəri ərazisində 1500, Qazax rayonu Qazaxbəyli bələdiyyəsi ərazisində 300 məcburi köçkün ailəsi üçün yaşayış binalarından ibarət yeni yaşayış məhəlləsinin konstruksiyalarının layihələndirilməsində iştirak etmişdir.

Bakı şəhəri, Xətai rayonu, M.Mehdizadə, İ.Orucova, S.Orucov küçəsi 1180-cı məhəllədə 6 ədəd 20 mərtəbəli yaşayış binalarının, həmçinin Bakı şəhəri Binəqədi rayonu, 3108-ci məhəllə, Əhməd Rəcəbli küçəsi 51k ünvanında Abdullayev Aslan Qulu oğluna məxsus 6 mərtəbəli qeyri yaşayış binasının, Pirallahı rayonu, Pirallahı qəsəbəsinin cənub-şərq hissəsində "Balıqyetişdirmə kompleksi" çərçivəsində açıq və qapalı tipli nərə balığı fermalarının layihələndirilməsində, Sumqayıt Kimya Sənaye parkı ərazisində Sənaye istifadəsi üçün FFS polietilen kisələrinin istehsalı zavodunun, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İnzibati binasının, Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon Şöbəsinin İnzibati binasının, Biləsuvar, Masallı, Lənkəran, Şəki, Quba, Qax, Ağstafa rayonları ərazisində orta məktəb binalarının və bir çox digər layihələrdə iştirak etmişdir.

R.Ə Quliyev 2019-cu ildə fevral ayında İsmayıllı rayonunda baş vermiş təbii fəlakət nəticəsində ziyan dəymiş yaşayış evlərinin bərpa layihələrində aktiv iştirak etmişdir.

Hal hazırda 1 saylı Memarlıq İnşaat şöbəsinin baş konstruktoru kimi çalışan R.Ə Quliyev Cəlilabad şəhərində 3 nömrəli 624 şagird yerlik tam orta məktəb binasının layihəsi üzərində çalışır.

Ailəlidir, bir oğlu və iki qızı var.



*İçərişəhər. Seyid Yəhya Murtuza məscidi*




*İçərişəhər. İkimərtəbəli karvansara*



*İçərişəhər. Qasım bəy hamamı*

# M



**Məhərrəmov Eldar Əmircan oglu**

02 mart 1950-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Böyük Məzrə kəndində anadan olmuş, 1967-ci ildə Böyük Məzrə kənd orta məktəbini bitirmişdir.

1967-ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə "Sənaye və mülki tikinti" ixtisası üzrə qəbul olmuşdur.

Təhsildə 1 il 6 ay ərzində qazandığı nailiyyətlərə görə 1969-cu ilin fevral ayında inşaat fakültəsində yaradılmış və əlaçı tələbələrdən ibarət olan, respublikanın tanınmış inşaatçısı Rauf Məmmədzadənin qrup nümayəndəsi olduğu konstruktorlar qrupuna keçirilmişdir.

Eldar Məhərrəmov 1972-ci ildə həmin institutun İnşaat fakültəsinin "Sənaye və mülki tikintilərin konstruktoru" ixtisasını bitirmişdir.

O zaman tələbələrin təyinatı dövlət sifarişi əsasında aparılırdı və qruplarda dövlətin nümayəndəsi qrup nümayəndəsi olduğundan təyinat yerləri tələbələr arasında bölünmək üçün dekanlıq tərəfindən ona həvalə olunurdu. 287 "a" qrupunun qrup nümayəndəsi Rauf Məmmədzadəyə təqdim olunmuş 23 yer içərisində 1 yer də Mingəçevir şəhərində yerləşən Politexnik Texnikumu olmuşdur. Eldarın böyük qardaşı Vidadi Məhərrəmov o zaman Mingəçevir şəhərində məsul vəzifədə çalışdığından Rauf Məmmədzadənin təşəbbüsü və Eldarın istəyi ilə onun təyinatı həmin texnikuma göndərilir. Beləliklə Eldar Məhərrəmov 1972-ci ilin sentyabr ayında təyinatla Mingəçevir Politexnik Texnikumuna göndərilmiş və 1993-cü ilədək həmin texnikumda müəllim işləmişdir.

Eldar Məhərrəmov 1993-cü ildə köçürmə yolu ilə Mingəçevir Politexnik İnstitutuna müəllim keçmişdir. 1995-ci ildən həmin institutda baş müəllim işləyir.

2015-ci ildən Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə Mingəçevir Dövlət Universiteti yaradılmışdır. Və hazırkı vaxtda da Eldar müəllim həmin Universitetdə baş müəllim işləyir.

Ailəlidir, bir qızı var. Qızı – həmin universitetin dosentidir, filologiya üzrə fəlsəfə doktorudur.

Həyat yoldaşı – Mingəçevir Mənzil İstismar İdarəsində əmək haqqı üzrə mühasib işləyir.

Üş nəvəsi var – hər üçu oglandır, məktəblidirlər.



**Məhərrəmov Məhərrəm Vəli oğlu**

26 iyun 1961-ci il tarixdə Qubadlı rayonunun Hal kəndində anadan olmuşdur. Orta təhsilini Hal kənd məktəbində almışdır.

O, 1979-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsinin "Sənaye və mülki tikinti" ixtisası üzrə axşam şöbəsinə qəbul olmuşdur. Axşam şöbəsində təhsil almaqla paralel Bakı Baş Tikinti İdarəsinin Hündür Mərtəbəli Binalar Tikintisi trestinin 5 nömrəli Tikinti İdarəsində fəhlə kimi ilk əmək fəaliyyətinə başlamışdır.

Məhərrəm Məhərrəmov 1979-cu ilin noyabr ayında Sovet Ordusu sıralarında əsgəri xidmətə çağrılmışdır. Hərbi xidmətini başa vurduqdan sonra Vətənə qayıdan gənc Məhərrəm ali təhsilini və Bakı Baş Tikinti İdarəsindəki işini davam etdirmişdir.

M.V. Məhərrəmov 1982-ci ildən BBTİ-nin Sənaye üsulu ilə Evtikmə İstehsalat Birliyinin 3 nömrəli Evtikmə Kombinatında fəaliyyətini davam etdirmişdir.

O, 1987-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsini bitirib inşaatçı-mühəndis ixtisasına yiyələndikdən sonra həmin kombinatda tikinti ustası və iş icraçısı vəzifələrində çalışmışdır.

Qeyd edək ki, Məhərrəm Məhərrəmovun Bakı Baş Tikinti İdarəsinin müəssisə və təşkilatlarında keçən 24 illik bir dövrü respublikamızda böyük quruculuq illərinə, paytaxt Bakı şəhərində kəskin mənzil probleminin həll edilməsi üçün ölkə rəhbərliyinin qəbul etdiyi "Növbə-86" və "Mənzil-2000" dövlət proqramlarının yerinə yetirilməsi üçün növbəli iş rejimi ilə çalışılan illərə təsadüf edir. O, bu gün həmin illəri xoş xatirələrlə yada salarkən, sevinir ki, həmin illərdə minlərlə Bakı sakininin mənzillə təmin olunmasında onun da əməyi vardır. Yeni Yasamal yaşayış massivində, Yeni Günəşlidə, Müşfiqabad qəsəbəsində, paytaxtın 7-ci mikrorayon ərazisində və digər bir sıra ünvanlarında Məhərrəm Məhərrəmovun iş icraçısı kimi 3 növbəli iş rejimində çalışdığı onlarla yaşayış evləri vardır və bu mənzillərdə bu gün paytaxt sakinləri firavan həyat sürür, oğul evləndirib, qız köçürürlər. Və gənc Məhərrəmin o illərdə qazandığı təcrübə sonrakı müstəqillik illərində onun qolundan tutdu, daha böyük uğurlar qazanması üçün stimul oldu.

M.V. Məhərrəmovun 2002-ci ildən sonrakı fəaliyyət illəri isə ölkənin tikinti quruculuq yönümündə aparıcı şirkətlərdən biri kimi nüfuz qazanmış, bacarıqlı tikinti rəhbəri Rəhim Sultanovun başçılıq etdiyi "Caspian Service" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə bağlıdır. Belə ki, o, 2002-ci ildə bu şirkətdə iş icraçısı kimi çalışmış, 2016-cı ildən bu günə kimi isə Cəmiyyətin baş mühəndisidir.

Şirkət barədə onu deyək ki, 2001-ci ildə yaranaraq Azərbaycan tikinti sənayesinin inkişafında özünəməxsus yeri olan "Caspian Service" şirkəti respublikamızın tikinti sektorunda fəaliyyət göstərən ən qabaqcıl özəl tikinti qurumlarındandır. Şirkət ilk gündən inşa etdyi binalarda klassik

üsluba üstünlük vermiş, əsrin əvvəllərində tikilən binaların bir növ davamı kimi Bakının mərkəzi hissələrində yaşayış binalarının tikintisinə start vermişdir. Şirkət elə ilk dövrdə özünün markasını yaratmağa müvəffəq olmuş və hazırda o, "Bakı memarlığı" adını daşıyır. Heyrətamiz gözəlliyi olan Gülbax daşından istifadə olunması isə üz fasadının əsl incəsənət əsərinə çevrilməsinə imkan yaratmışdır.

Məhərrəm Məhərrəmov 2002-2015-ci illərdə şirkətdə iş icraçısı olarkən paytaxtda onlarla yaşayış və ictimai binaların tikintisində əmək sərf etmişdir. Bunlardan – Teymur Elçin küçəsində 10 mərtəbəli Qonaq Evi kompleksi, M. Əlizadə küçəsində iki 17 mərtəbəli, bir 22 mərtəbəli yaşayış binaları, Bülbül prospekti 25 ünvanında 9 mərtəbəli yaşayış evi, Bülbül prospekti 44 ünvanında 19 mərtəbəli yaşayış binası, Üzeyir Hacıbəyli küçəsi və Bülbül prospektlərinin kəsişməsində 9 mərtəbəli əsil memarlıq nümunəsi olan yaşayış binalarını və s. qeyd etmək olar.

Məhərrəm Məhərrəmov bu gün şirkətin baş mühəndisi kimi paytaxtımızda bir sıra yaşayış binalarının və



*Bünyad Sərdarov küşəsi 14 ünvanında "Caspian Service" MMC inşaatçılarının əməyi ilə ucalan bu çoxmərtəbəli bina əsil memarlıq abidəsidir*




*Zivərbəy Əhmədbəyov küçəsi 10 ünvanında inşa olunmuş çoxmərtəbəli yaşayış binası*

inzibati binaların tikintilərinə bacarıqla rəhbərlik edir. Belə ki, hazırda şəhərin B. Sərdarov küçəsində 12 mərtəbəli yaşayış binasının və Həzi Aslanov küçəsindəki 12 mərtəbəli yaşayış binalarının tikintiləri davam etdirilir. Eyni zamanda C. Məmmədquluzadə və M. Əbilov küçələrinin kəsişməsində bir bloklu 12 mərtəbəli yaşayış binasında son tamamlama işləri gedir. Həmçinin Dövlət Təhlükəsizlik Xidmətinin inzibati binasının tikintisində də son tamamlama işləri aparılır. Eyni zamanda Qazaxstanın Aktau şəhərində, Rusiya Federasiyasında və Ukraynada yaşayış komplekslərinin tikintisində də şirkətin baş mühəndisi kimi iştirak edir.

M.V. Məhərrəmov ailəlidir, iki qızı, bir oğlu, üç nəvəsi var. Qızları ali təhsillidir, ailəlidirlər. Oğlu Yunus isə Bakıdakı 258 saylı orta məktəbin 7-ci sinif şagirdidir, dərs əlaçısıdır.

İşə prinsipal və özünəməxsus yanaşma tərzi ilə seçilən, hər bir layihəyə son dərəcə məsuliyyətli münasibət bəsləyən Məhərrəm Məhərrəmov şirkət rəhbərliyinin bütün tapşırıqlarını vaxtında və peşəkarlıqla icra edir və göstərilən etimadı doğruldur.



**Məmmədli Ramazan Yusif oğlu**

1912-ci ildə Masallı rayonunda kəndli ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1926-1930-cu illərdə Azərbaycan SSR Yerli Sənaye Texnikumunda təhsil almış, 1930-1931-ci illərdə "Bakı fəhləsi" adına zavodun tökmə sexində texnik vəzifəsində çalışmış, 1931-1937-ci illərdə ali təhsilini Tbilisi Sənaye İnstitutunda almışdır.

Ramazan Məmmədli 1937-1940-cı illərdə Stalin adına zavodda energetik, "Azneftmaş" trestində mühəndis-energetik, 1940-1945-ci illərdə L.Şmidt adına zavodda baş energetik vəzifələrində çalışmışdır.

O, 1945-1946-cı illərdə L.Şmidt adına zavodda direktor müavini olmuş, 1946-1947-ci illərdə isə L.Şmidt adına zavodda direktor vəzifəsini müvəqqəti icra etmişdir.

R.Y. Məmmədli daha sonra, 1947-1952-ci illərdə S.M.Kirov adına zavodun direktoru, 1952-1965-ci illərdə – 14 il ərzində L.Şmidt adına zavodun direktoru, 1965-1975-ci illərdə isə Azərbaycan SSR Yerli Sənaye Naziri vəzifələrində çalışmışdır. Bu illər ərzində 8 il – 1969-1975-ci illərdə unudulmaz Heydər Əliyevin rəhbərliyi altında çalışmışdır.

O, Azərbaycan KP Təftiş Komissiyasının üzvü olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışında demişdir:

"Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi."

05 mart 2001-ci ildə Ulu öndər Heydər Əliyevin Sərəncamı ilə, Azərbaycan torpağının yetirməsi, keçmiş Sovet İttifaqı və Azərbaycan Respublikasında neft, maşınqayırma və kimya sənayesinin inkişafında misilsiz xidmətləri olan N.K. Baybakovun 90 illiyi münasibəti ilə Moskva şəhərində Rusiya Federasiyasının dövlət xadimlərinin və hökumət üzvlərinin də iştirak etdiyi tədbirdə Baybakov şəxsən özü çıxışında qeyd etmişdir:

"Azərbaycan xalqının Böyük Vətən Müharibəsinin qalibiyyətində böyük rolu olmuşdur. Neftlə bərabər Bakıda fəaliyyət göstərən bütün maşınqayırma zavodları istehsal etdikləri məhsulları cəbhəyə göndərərək faşizm üzərində qələbəyə nail olmaqda səy göstərmişlər. Burada aparılan işlərin koordinasiyası böyük mühəndis Ramazan Yusif oğlu Məmmədli tərəfindən tənzimlənirdi."

Məmmədli Ramazan Yusif oğlu IV, V və VII çağırış (1955-1959-1967-ci illərdə) Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

O, müharibənin ən çətin dövründə L.Şmidt adına zavodda baş energetik vəzifəsində işlədiyi zaman "1941-1945-ci illərdə Qafqazın müdafiəsinə görə" medalı ilə, direktor müavini vəzifəsində işləyərkən isə "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Rəşadətli əməyə görə" medalı ilə təltif edilmişdir.

Ramazan Məmmədli SSRİ Ali Sovetinin 25 avqust 1971-ci il tarixli Fərmanı ilə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

O, texnika elmləri namizədi, Azərbaycan SSR-in Əməkdar Mühəndisi olmuşdur.

Onun ölkəmiz və xalqımız qarşısında böyük xidmətləri vardır. O, çox sadə, zəhmətkeş və işlədiyi müəssisələrdə işçilərin daima qayğısına qalan böyük vətənpərvər insan, işıqlı, nurlu bir ziyalı, ailəsinə bağlı insan, əvəzolunmaz şəxsiyyət idi.

Böyük Vətən Müharibəsinin ən çətin dövründə neft maşınqayırma sahəsində uzun illər çalışaraq respublikanın neft maşınqayırma müəssisələrinin ön cəbhəyə göndərmək üçün istehsal etdikləri məhsulların koordinasiyasını çox yüksək səviyyədə təşkil edən Ramazan Məmmədli sözün əsil mənasında arxa cəbhənin qəhrəmanlarından biri olmuşdur.

Ramazan Məmmədlinin 4 övladı olmuşdur. Onlar indiki Neft Akademiyasının məzunları olaraq ölkə iqtisadiyyatının müxtəlif sahələrində çalışmışlar.

Ramazan Məmmədlinin 9 nəvəsi, 11 nəticəsi vardır. Onların hamısı bu gün ali təhsilli mütəxəssislər kimi həm ölkəmizdə, həm də respublikamızın hüdudlarından kənarda iqtisadiyyatın müxtəlif sahələrində çalışaraq ölkəmizi şərəf və ləyaqətlə təmsil edirlər.



**Məmmədov Kirman Həsən oğlu**

26 fevral 1965-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1972-ci ildə orta məktəbin birinci sinfinə getmiş, 1980-ci ildə orta təhsilini Bakı şəhərində davam etdirmiş, 1982-ci ildə orta məktəbi bitirmişdir.

1982-ci ildə Azərbaycan Politexnik İnstitutunun metallurgiya fakültəsinə daxil olmuş, 1983-1985-ci illərdə Sovet ordusunda hərbi xidmət keçmiş, 1989-cu ildə institutu bitirib, Moskva şəhərində Bardin adına qara metallurgiya mərkəzi elmi tədqiqat institutunda aspirant kimi fəaliyyətə başlamışdır. 1994-cü ildə elmi fəaliyyətini yarımçıq qoyub, Moskva şəhərində biznes işinə başlamışdır.

Kirman Məmmədov 2006-cı ildən bu günə kimi sahibkarlıq fəaliyyətini Bakı şəhərində "Penetron" hidroizolyasiya materialları markasının rəsmi dileri kimi davam etdirir.

O, 2006-cı ildə respublikamıza qayıtdıqdan sonra səs izolyasoyası ilə maraqlanmağa başlamış və bu istiqamətdə axtarışlar apardığı vaxtda "Penetron -Rusiya" Şirkətlər Qrupunun Azərbaycanda öz nümayəndiliyini açmaq istəməsi



*Sea Breeze Resort*

barədə elanı görüb "Penetron" məhsulları ilə maraqlanıb. Və ilk tanışlıqdaca əmin olub ki, bu yeniliyin, "Penetron" izolyasiya məhsullarının Azərbaycana gətirilməsi çox vacibdir. O, bu materialların xarakteristikasını, tətbiqi sahələrini və istifadə qaydalarını öyrənir, sonra isə yavaş-yavaş təkliflər verməyə başlayır. 2007-ci ildə Bakı Metropoliteninin istismar olunan və tikilməkdə olan stansiyalarında ilk sınaqlarını keçirib müsbət nəticələr əldə etdikdən sonra respublikamızda daha iri və strateji əhəmiyyətli layihələr üçün təkliflər hazırlayır və beləcə işə başlayır.

"Penetron-Azərbaycan" MMC 21 yanvar 2008-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır.

"Penetron Azərbaycan" MMC şirkəti Kirman Məmmədovun rəhbərliyi altında son 12 il ərzində bir çox yerlərdə yüksək keyfiyyətli "Penetron" hidroizolyasiya sistemlərini tətbiq etmişdir. Tikinti şirkətləri ilə sıx əməkdaşlıq edərək tikinti işlərinə maneə yaradan qrunt sularının və su sızmalarının qarşısını almağa müvəffəq olmuş, həmçinin xüsusi villalarda, evlərdə, binalarda, metrolarda və s. kimi tikintilərdə su sızmaları qarşısı şirkətin mütəxəsisləri tərəfindən "Penetron" və digər qatqılar vasitəsi ilə alınmışdır.

Kirman Məmmədov 1997-ci ildə ailə həyatı qurub və iki övladı var.



*Pik Palace Sahdag oteli*




*Port Baku*



**Məmmədov Şahvələd Muğdat oğlu**

4 yanvar 1955-ci ildə Ağdaş şəhərində anadan olub. 1969-1973-cü illərdə Əzim Əzimzadə adına Rəssamlıq məktəbində təhsil alıb.

1974-1979-cu illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq şöbəsini bitirib. Memar kimi fəaliyyətə başladığı ilk dövrdən Şahvələd müəllim maraqlı layihələr müəllifi kimi tanınmağa başlayıb. Zəngin təxəyyülü, maraqlı memarlıq həlləri ilə seçilən memar çalışdığı müddət ərzində çoxsaylı maraqlı layihələr işləyərək həyata keçirməyə müvəffəq olub. Bunların sırasında Neft Daşlarında icra edilmiş metal-konstruksiya layihələri, eləcə də bu səpkidə olan hərbi şəhərciklər və s. vardır.

Sonrakı illərdə peşəkarlıq fəaliyyətini genişləndirən təcrübəli memar inşaat sahəsi ilə də məşğul olmaq qərarına gəlib. O, 1993-cü ildə "ESE" tikinti şirkətini təsis etmiş və inşaat fəaliyyətinə icazə verən lisenziya almışdır. Hazırda onun başçılıq etdiyi bu şirkət inşaat sahəsində səmərə ilə çalışmaqdadır.

Son 15 ildən çox bir dövrdə "ESE" MMC-nin respublikamızın tikinti-quruculuq yönümündə həyata keçirdiyi layihələr həm əhatə dairəsinə, həm də layihələrin yüksək peşəkar səviyyədə icra olunmasına görə seçilir.

Yarandığı vaxtdan bu günə kimi "ESE" tikinti şirkəti əsasən SOCAR-ın, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və digər təşkilatların sifarişləri ilə onlarla müxtəlif yönümlü sosial layihələri həyata keçirmişdir. SOCAR-ın sifarişi ilə Neft Daşlarında yataqxana, yeməkxana və digər sosial yönümlü layihələrin metal-konstruksiya işləri "ESE" MMC-nin mütəxəssisləri tərəfindən yerinə yetirilmiş işlərdəndir. Həmçinin Neft Daşlarında yığılıb sökülən və başqa yerdə yenidən quraşdırıla bilən bir sıra digər sosial layihələr də reallaşdırılmışdır.

Tikilən obyektlərdən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sifarişi ilə hərbi hissələrin tikintilərini, eləcə də Çəmşid Naxçıvanski adına Hərbi Liseyin təmir və tikintisini, 9 hektarlıq geniş ərazidə yaşıllıqların salınması və abadlıq, quruculuq işlərini xüsusi qeyd etmək olar. Qeyd edək ki, C.Naxçıvanski adına Hərbi Liseyin Silahlı Qüvvələr Günündə keçirilən açılışında Azərbaycan Prezidenti cənab İlham Əliyev iştirak etmişdir. Tikinti, təmir və yenidənqurma işlərinə 2018-ci ilin fevralından başlanmış Hərbi liseydə sahəsi 1800 kv.metr olan 3 mərtəbəli qərargah binası, 2 mərtəbəli 32 çarpayılıq tibb məntəqəsi, idman zalı, 4 mərtəbəli yataqxana korpusu tikilərək kursantların istifadəsinə verilmişdir. Həmçinin burada "ESE" tikinti şirkətinin inşaatçıları çox bənzərsiz dizayn və tərtibatla Heydər Əliyev muzeyi yaratmış, mövcud 3 mərtəbəli yataqxana kompleksi, klub binası və 2 mərtəbəli kursant yeməkxanası və digər yardımçı tikililər əsaslı təmir olunmuşdur.

"ESE" Məhdud Məsuliyyətli Cəmiyyəti həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi ilə Milli Hidrometeorologiya Departamentinin inzibati binasının cari tə-

mir işlərini, nazirliyin Sahələrarası Nəqliyyat və Kompleks Mexaniki Təminat İdarəsinin ərazisində yerləşən obyektlərin əsaslı təmiri işlərini, idarənin inzibati binasının cari təmiri işlərini, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binasının cari təmiri və inzibati binanın həyətində







abadlıq işlərini, Altıağac Milli Parkının Vəhşi Təbiətin Bərpası Mərkəzi və Reabilitasiya Klinikasının əsaslı təmirini, Xəzər Sahil Sularında Ekoloji Nəzarət və mühafizə mərkəzinin cari təmir işlərini yüksək peşəkarlıqla yerinə yetirmişlər.

"ESE" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları bu gün də Şahvələd Məmmədovun rəhbərliyi altında respublikamızın müxtəlif ünvanlarında tikinti-quruculuq fəaliyyətlərini uğurla davam etdirirlər.

Şəhvələd Məmmədov Azərbaycan Memarlar İttifaqının və Azərbaycan Rəssamlar İttifaqının üzvü, UNESCO-nun Rəssamlar Birliyinin həqiqi üzvüdür. Milli memarlıq sənətimizin inkişafındakı çoxillik səmərəli fəaliyyətinə görə o, Azərbaycan Memarlar İttifaqının Fəxri Fərmanına layiq görülüb.

Şəhvələd Məmmədov həmçinin Azərbaycan multikulturalizm modelini ölkə daxilində və xarici ölkələrdə ləyaqətlə təbliğ etdiyinə görə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən mükafatlandırılmışdır. Bundan başqa o, yaradıcı və səmərəli əməyinə

görə çoxlu sayda təşəkkürnamələr, qiymətli hədiyyələr və fəxri fərmanlarla mükafatlandırılmışdır.

### Azərbaycan Udi ocağı

Azərbaycanın tanınmış memarı Şəhvələd Məmmədov 2017-ci ilin əvvəlində Qəbələnin Nic kəndində öz qüvvəsi ilə "Azərbaycan Udi ocağı" adlı tarixi etnoqrafiya muzeyi və istirahət mərkəzi yaradıb və "Azərbaycan Udi ocağı" əsərini Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçirmiş və əsərin qeydiyyatı haqqında 11453 nömrəli Şəhadətnamə almışdır.

Təcrübəli azərbaycanlı memar və rəssamın həyata keçirdiyi bu məxsusi layihəsi – "Azərbaycan Udi ocağı" adlı tarixi etnoqrafik park Böyük Qafqazın cənub yamacının mənzərəli düzənliyində, Qəbələ rayonundakı Nic kəndinin Qocabəyli məhəlləsində yerləşir. Üç hektardan artıq ərazidə qərar tutmuş açıq səma altında bu park-muzey udi millətinin mədəniyyətini, ənənələrini, məişətini və yaşayış tərzini əks etdirən rəmzi etnoqrafik kənddir. Park muzey ekspozisiya şəklində bir neçə etnoqrafik sahələrə bölünür.

### XVII əsr tikilisi olan ev-muzey

Bu tikili XVII əsrin sonunda Nic kəndinin Qocabəyli məhəlləsi ərazisində çiy kərpicdən olan daş təməl üzərində taxtadan qurulmuş Udi evidir. Ev yataq otağı, tövbə və dualar otağı və sair hissələrdən ibarətdir. Otaqlarda udi ailəsinin məişətinə aid eksponatları (tikiş maşını arxasında əyləşən evdar qadın, bərbər, usta və s.) da







görmək mümkündür. Tövbə və dualar otağında isə udi millətinin dininə məxsus müxtəlif mərasim əşyaları mövcuddur.

Evin içində və həyətində Qafqaz albanlarının birbaşa varislərindən olan udilərin həyatına aid müxtəlif ev əşyaları, ev bəzəkləri, ənənəvi tikmələr, fotoşəkillər, sənədlər, kitablar, qədim paltar və geyimlər, mebel, ləvazimat, müxtəlif dizaynlı arabalar, təkərlər, kotanlar və digər eksponatlar mövcuddur. Muzeyin önəmli eksponatlarından biri, qədim ənənələrə malik Udilərə məxsus evin vizit kartı kimi görünən "Giriş darvazası"dır.

**Həyətyanı sahə**

300-dən çox fındıq ağacı və digər meyvə ağacları olan bağ, balıqla zəngin təbii göl, kiçik arxlı bulaq (kənd quyusu), şərab zirzəmisi, taxtadan qurulmuş istirahət guşələri, taxtadan olan çəllək tipli orijinal istirahət mini otaqları, çoxsaylı istirahət və qonaq evləri, XVII-XVIII əsri əks etdirən evlər və müxtəlif tikililər muzeyin yaradılması, tikililərin rekonstruksiyası və muzeyin ümumi kolleksiyasına daxil olan eksponatların təşkili Şahvələd Məmmədovun şəxsi təşəbbüsü, səyi və maddi dəstəyi nəticəsində əmələ gəlib.

**Digər tikililər**

Həyətyanı sahədə orijinal tikililərə malik çoxlu sayda qonaq evi vardır. Evlərin quruluşu və interyeri udilərin qonaqpərvərliyini əks etdirən müxtəlif əşyalarla zəngindir.



Ev eyvanından Böyük Qafqazın cənub yamacına, müasir kənd evlərinə və məhəllələrinə gözəl mənzərə açılır.

İstedadlı Azərbaycan memarının bu uğurlu layi-





həsi çoxmillətli ölkəmizdə etnoturizm sahəsində necə zəngin imkanların mövcud olduğunu bir daha əyani şəkildə nümayiş etdirməkdədir.











*İstedadlı Azərbaycan memarı Şəhvələd Məmmədovun bu uğurlu layihəsi çoxmillətli ölkəmizdə etnoturizm sahəsində necə zəngin imkanların mövcud olduğunu bir daha əyani şəkildə nümayiş etdirməkdədir.*



**Mənsimov Kamaləddin Məcid oğlu**

03 yanvar 1967-ci ildə Ağdərə rayonunun Çərəkdar kəndində anadan olmuşdur. 1973-1983-cü illərdə Tərtər şəhərindəki 1 nömrəli məktəbdə orta təhsil almışdır. 1983-1984-cü illərdə isə Tərtər şəhərində 47 nömrəli SMD-də fəhlə kimi çalışmışdır.

Kamaləddin Mənsimov 1984-1991-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsində Sənaye və mülki tikinti ixtisası üzrə ali təhsil almışdır. Təhsil aldığı müddətdə 1985-1987-ci illərdə SSRİ-nin Leninqrad hərbi dairəsində hərbi xidmətdə olmuşdur.

O, ilk ali təhsilini bitirdikdən sonra 1992-1993–cü illərdə İstanbul Universitetinin İqtisadiyyat fakültəsində Biznesin idarə olunması ixtisası üzrə təhsil almışdır.

Ailəlidir, 3 övladı var.

Əmək fəaliyyətinə 1994-cü ildə bizneslə başlamışdır. 2005-2009-cu illərdə tikinti şirkətlərində iş icraçısı və mühəndis kimi çalışmışdır.

Kamaləddin Mənsimov 2009-cu ildən etibarən isə "Nabucco Memarlıq və İnşaat" MMC-də təsisçi olaraq direktor vəzifəsində çalışır.

"Nabucco Architecture and Construction" – Azərbaycanın inşaat sahəsində lider mövqeyini tutur. 2009-cu ildə şirkət kollektivinin gücü ilə respublikanın şimalında Xudat şəhərində 2000 tonluq soyuducu inşa edilmişdir.

"Nabucco Architecture and Construction" MMC 2012-ci ildən "Lindab Buildings Astron" İsveç şirkəti ilə əməkdaşlığa başlamışdır.

Şirkət sənaye və kommersiya təyinatlı tam komplektli hermetik polad binaların layihələndirilməsi, istehsalı və qu-



*Şəmkir şəhərində "West Gate" Ticarət passajı, 19 bina*

raşdırılması istiqamətində fəaliyyət göstərir. Ticarət mərkəzləri, idman kompleksləri, avtosalonlar, parkinqlər, ofislər, otellər, klinikalar, məktəblər və uşaq bağçaları, manejlər, avia anqarlar, vaqon depolarının tikilməsi və sair xidmətlər şirkətin yerinə yetirdiyi işlər sırasındadır.

2018-ci ildən isə Rusiyanın "NeoPark" şirkəti ilə əməkdaşlığa başlanılıb. Şirkət çoxmərtəbəli avtomatik avtodayanacaq sistemləri layihəsini uğurla həyata keçirir.

Şirkət 2013-2020-ci illər arasında tikinti quruculuq yönümündə həyata keçirdiyi layihələrlə böyük uğurlar əldə etmişdir. Belə ki, 2013-cü ildə Şəmkir rayonunda "West Gate" Ticarət passajı, 19 bina və "Kazarma", 2014-cü ildə Sumqayıt şə-



*Bakı şəhərində Qafqazın ən böyük "Araz Logistic" mərkəzi*



*Şəmkir şəhərində Kazarma binası*



*Xızı şəhərində "Qafqaz Hotel" oteli*

hərində "Promsklad" Sənaye binası, 2016-cı ildə Xızıda "Qafqaz Hotel" oteli, 2017-ci ildə Lökbatan qəsəbəsində "KINGSMART" supermarketi, Qubada meyvə emalı zavodu, 2018-ci ildə Bakı şəhərində "Xonça" İstehsal binası, 2020-ci ildə"Araz Logistic" Qafqazın ən böyük logistik mərkəzi, Hövsan qəsəbəsində "KINGSMART" supermarketi və digər bir sıra sosial layihələr həyata keçirilib və sifarişçilərə təhvil verilmişdir.

Məhz bu uğurlarına görə "Nabucco Architecture and Construction " MMC 2017-ci ildə "Caspian Business Award" və "Economy and Business National Awards" şirkətləri tərəfindən mükafatlandırılıb.

2018-ci ildə isə Rusiyanın "Astron" şirkəti tərəfindən CERTİFİCATE əldə edilib. Həmçinin, 2013-2014-2018-ci illərdə Rusiyanın "Astron" şirkəti və "Azeri Business Award" şirkəti tərəfindən mükafatlandırılıb.

Bundan başqa şirkət 2018-ci ildə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyindən Lisenziya əldə etmişdir.

2019-cu ildən etibarən isə İSO 9001 : 2015-də Keyfiyyətin idarə olunması sistemi üzrə sertifikatlaşdırılıb.




*Lökbatan qəsəbəsində "KINGSMART" supermarketi*



*Qubada meyvə emalı zavodu*



**Musayev Maqbet Tərlan oğlu**

02 aprel 1953-cü ildə Azərbaycan Respublikasının Biləsuvar rayonunda anadan olmuşdur. 1970-ci ildə orta məktəbi bitirib elə həmin ildə də Azərbaycan Poltexnik İnstitutunun İnşaat fakültəsinə qəbul olunmuşdur. O, 1975-ci ildə həmin institutun İnşaat fakültəsini Sənaye və mülki tikinti ixtisası üzrə müvəffəq qiymətlərlə bitirərək inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir.

Maqbet Musayev 1975 – 1977-ci illərdə Sovet Ordusu sıralarında leytenant rütbəsində xidmət etməklə hərbi tikinti obyektlərinin tikintisində iş icraçısı və sahə rəisi vəzifələrində çalışmış, inşaat sahəsində təcrübə toplamışdır.

O, ordu sıralarından tərxis olunduqdan sonra Azərbaycana qayıtmış və Biləsuvar rayonunda Kommunal Müəssisələri Kombinatında mühəndis kimi işə başlamış, 1978-ci ilin avqust ayınacan burada işləmişdir.

Maqbet Tərlan oğlu 1978-ci ilin avqustundan 1983-cü ilin dekabrınadək Beyləqan Rayon Kolxozlararası Təmir Tikinti Birliyində əvvəlcə iş icraçısı, 1980-ci ildən isə baş mühəndis vəzifəsində işləmişdir.

M.T. Musayev daha sonra – 1984-cü ilin fevralından "Azərkəndtikinti" İstehsalat Birliyinin 33 saylı SMD-sində böyük iş icraçısı vəzifəsinə təyin olunmuş, 1987-ci ilin



oktyabrından 1992-ci ilin fevralınadək həmin tikinti idarəsinin baş mühəndisi vəzifəsində işləmişdir. O. 1992-ci ilin fevralında 33 saylı SMD-nin rəisi təyin olunmuş və 1996-cı ilin avqustunda müəssisənin ləğv olunması ilə əlaqədar olaraq rəis vəzifəsindən azad olunmuşdur.

M.T. Musayev 1997-ci ilin may ayında "Azəraqrartikinti" ASC-nin Biləsuvar Filialının rəisi vəzifəsinə təyin olunmuş və 2005-ci ilə kimi burada çalışaraq Biləsuvar rayonunda və respublikamızın bir sıra bölgələrində yaşayış evlərinin, qəsəbələrin və digər sosial təyinatlı obyektlərin tikintilərinə rəhbərlik etmişdir.







*Məktəb tikintilərindən görüntülər...*







*Bu sosial obyektlər Maqbet Musayevin çoxillik mühəndislik fəaliyyətinin bəhrələri olan tikililərdəndir.*

O, 2005-ci ildən 2004-cü ildən təsisçisi olduğu özəl tikinti şirkətinin, "Namiq Firması" MMC-nin, direktoru vəzifəsində çalışır.

M.T. Musayev istehsalatda çalışdığı 44 il ərzində respublikamızın bütün bölgələrində onlarla sosial və sənaye yönümlü obyektlərin tikintisini yüksək keyfiyyətlə və uğurla başa çatdırmışdır.

1992-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ailəlidir, üç övladı var. Oğlu iqtisadçı, iki qızı isə müəllimə işləyir. Həyat yoldaşı Ülkər Ağaverdi qızı evdar qadındır.

M.T. Musayev tikinti fəaliyyəti müddətində dövlət sifarişi ilə məktəb tikintisi, süd zavodu, pambıq istehsalı zavodu, qaçqın və məcburi köçkünlər üçün 157 fərdi yaşayış evi, 2 ədəd çoxmənzilli yaşayış evləri, son illərdə isə 10 ədəd modul tipli məktəb binalarının, o cümlədən digər çoxlu sayda sosial yönümlü obyektlərin inşasına rəhbərlik etmiş, böyük nailiyyətlərə imza atmışdır.

M.T. Musayev hazırkı vaxtda da tikinti-quruculuq fəaliyyətini uğurla davam etdirir.

# N



**Nağıyev**
**Ağa Musa**
**Hacı Nağı oğlu**
çox kasıb ailədə 1849-ci ildə anadan olub. Atası saman satmaqla məşğul idi. Qardaşı isə ömrünün sonuna qədər hamamçı olmuşdu.

Sonralar varlanan Musa Nağıyev var-dövlətdə Hacı Zeynalabdin Tağıyevdən geri qalmırdı. Hətta ondan zəngin idi. Axır vaxtlarda Tağıyevin tanxası beş-altı milyon, o da əmlak və əşyadan ibarət olduğu halda, Musa Nağıyevin var dövləti 10 milyonlarla qızıl pula çatmışdı. Tanınmış azərbaycanlı milyonçu, neft hasilatçısı, xeyriyyəçi kimi ad-san qazanmışdı.

Milyonçu Ağa Musa "əfsanəvi" bir şəxsiyyətə dönmüşdü. "Cəmiyyəti xeyriyyə" üçün şəhərin mərkəzində əzəmətli "İsmailiyyə" binasını ucaltmağına, bu mülkdən bir qədər yuxarıda Realni məktəbin inşasını öhdəsinə alıb yarımçıq qalmış üçüncü mərtəbəsinin xərcini ödəməsinə, şəhər kənarında keçmiş Semaşko, indiki Ağa Musa Nağıyev xəstəxanasını tikdirməyinə və Bakı su kəməri üçün xeyli pul verməyinə və digər çoxlu xeyriyyə işləri görməyinə baxmayaraq camaat tərəfindən xəsis adıyla damğalanmışdı.

Ağa Musa bəhayi məzhəbini qəbul etmişdi. Onun şərəfinə əzəmətli əfsanəvi "İsmailiyyə binası"nın əsas fasadında, lap yuxarıda Şeyx Bəhanın qranitdən böyük bir heykəlini qoydurmuşdu. Onun altında, girdə pəncərələrin birində isə vaxtsız vəfat etmiş oğlu Ağa İsmayılın kresloda oturmuş halda mərmərdən yonulmuş heykəli dururdu.

Ağa Musa cavanlıqda dalında palan biri üç qəpiyə, beş qəpiyə ona-buna şələ daşıyarmış. Zəhmət-əmək hesabına pul yığıb əvvəl Balaxanıda neft təbəqələri dayazda yerləşən, quyu qazdırmaq nisbətən asan olan yerdə balaca sahə aldı. Gecə gündüz quyu qazanların yanından çəkilmir, heç kimi bekar qalmağa, hədər vaxt itirməyə qoymurdu. Adətən xoş dillə onları işləməyə vadar edirdi. Yeri gələndə acıqlanarmış. Hər iki halda da fəhlələrə "atam-atam" deyə müraciət edirmiş.

Özü də fəhlələrlə bərabər ağır işlərdə işləyirdi. Nəhayət tale üzünə gülür, quyu fontan vurur, şələçi Musa dönüb olur Ağa Musa, milyonçu Ağa Musa Nağıyev. Özü də get-gedə bacarıqlı bir iqtisadçı olur. Sərvət artdıqca, tamah, hə-

vəs, ehtiras da artır, gecə-gündüz işləyir, iş artdıqca isə qüvvə, arzu da böyüyür. 1893-cü ildə qonşu Sabunçuda, Ramanada mədən salır. O zamanlar ən zəngin hesab edilən Bibiheybət dərəsində, Naftalan körfəzi sahilində mədən ələ keçirir. Qazılan quyuların hamısı güclü fontan vurur. İnsan tamahının hüdudu yoxdur. Çox keçmir ki, Ağa Musa Suraxanıda da mədən salır. Qaraşəhərdə xüsusi neftayırma zavodu tikdirir. Öz mədənlərində alınan neftdən başqa həm də kənar neftxudalar üçün neft təmizlətdirib haqqını alır. Mexaniki emalatxana düzəltdirir. Hər yerdən qara neft qızıla çevrilib bulaq kimi sandıqlarına axır.

XIX əsrin lap sonlarında Ağa Musa "Neftçıxarma firması" yaradır. Şəhərdə çoxlu mülk tikdirir və alır, yüzə qədər əzəmətli bina və neçə-neçə gəmi sahibi olur.



O, uzun müddət Bayır şəhərdə, Qasım bəy məscidinin arxasında Zərgərlər küçəsi ilə Gimnazist (Lev Tolstoy) küçəsinin tinində, ikimərtəbəli, səkili binada yaşayırdı. Evin tinindəki daş fənərə "səng fənər" deyirdilər. Daş fənərə qırmızı, yaşıl, abı, firuzəyi şüşələr salmışdılar. Axşamlar fənər əlvan işıqlarla yanırdı. Uşaqlar toplaşıb "səng fənər"ə heyran-heyran, maraqla tamaşa edərdilər.

Musa Nağıyevin yaşadığı ev hal hazırda Bakının mərkəzində yerləşir.

Ağa Musa təmtərağı, dəbdəbəni sevməzdi, şan-şöhrətdən məst olmazdı, artıq xərcdən, israfçılıqdan qaçardı. Məddahlığı səmimilikdən mahir psixoloq kimi ayırardı. Tərifi milçək vızıltısı hesab edirdi. Ağa Musa həmin evdə axıradək qalmadı, sonralar Hacı Zeynalabdin Tağıyevin təkidi ilə xanəndə Seyid Mirbabayevdən aldığı dəniz qırağında, Bağ küçəsindəki əzəmətli mülkə kirayənişin köçdü. Təbiətdə, cəmiyyətdə, eləcə də insanların özündə bəzən daban-dabana bir-birinə zidd cəhətlər, xüsusiyyətlər olur. Xəsislikdə ad çıxarmış Ağa Musa bəzən elə səxavət göstərirdi ki, hamı heyrətlənirdi.

İsaq Qaraxanov adlı bir dəllal hər həftə gəlib Ağa Musanın saqqalını qırxar, başını düzəldərdi. Dəllək bir dəfə yerə döşənmiş xalını göstərib, deyir ki, xozeyin, dövlətli adamsan, bu xalını bağışla mənə. Ağa Musadan görünməyən səxavət, işlər müdirinə tapşırır ki, bir belə xalı alıb, ustaya versin.

İbtidai təhsilini kənd mollaxanasında aldıqdan sonra 25 yaşınadək kənddə atasına kömək edir. 25 yaşına çatanda atası ölür. Öləndə atasının 300 manat borcu qalır. Ruhdan düşməyən Musa 200 manat da borc eləyib, özünə kiçik bir dükan açır. Beləliklə cibində bir qəpik olmadan 500 manat borcla müstəqil fəaliyyətə başlayır. İki ildən sonra borcunu qaytarır və parça alveri ilə məşğul olur. 5 ildən sonra 2 000 manat qənaət toplayır. Topladığı pula Qara şəhərdə əl ilə işləyən kiçik bir kerosin zavodu alır. Sonra neftli torpaq sahələri alaraq neft istehsalına başlayır. Xüsusilə Bibiheybətin mədənlərində bir-birinin dalınca vuran neft fontanları başqaları kimi onu da milyonçu edir. 1908-ci ildə onun şirkəti rekord miqdarda – 12 328 300 pud xam neft istehsal edir. Bu Azərbaycanın neft şirkətləri arasında ən yüksək göstəricidir.

Ağa Musa Nağıyev 1919-cu ilin mart ayında (70 yaşında) vəfat etmişdir.



**Nağıyev Balacan İsa oğlu**

30 noyabr 1954-cü ildə Lənkəran rayonunun Şovu kəndində anadan olmuşdur. 1960-cı ildə Şovu kənd ibtidai məktəbin birinci sinifinə getmiş, 1964-cü ildə 4-cü sinifi bitirdikdən sonra RVO kənd 8 illik məktəbinin 5-ci sinifinə getmiş, 1968-ci ildə oranı bitirdikdən sonra Kərgəlan kənd orta məktəbində təhsini davam etdirmiş və 1970-ci ildə orta məktəbi bitirmişdir.

Balacan Nağıyev 1970-ci ildə sənədlərini Ç.İldırım adına Politexnik İnstitutuna vermiş, lakin müsabiqədən keçmədiyinə görə sənədlərini Sumqayıt Politexnik Texnikumunun "Mülkü və Sənaye" tikintisi fakültəsinə verib daxil olmuşdur.

1973-cü ildə oranı bitirib təyinatla Sumqayıt şəhərində yerləşən 3 saylı Evtikmə Kombinatının 103 saylı tikinti idarəsinə gəlmiş və həmin ilin may ayında hərbi xidmətə çağırılmışdır.

1973-1976-cı illərdə hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra, 3 saylı ETK-nın 103 sayli tikinti idarəsində tikinti ustası kimi fəaliyyətə başlamışdır. 1977-ci ildə təhsilini davam etdirmək üçün sənədlərini Rostov Politexnik İnstitutunun qiyabi şöbəsinə vermiş və "Sənaye- mülkü tikinti" fakültəsinə daxil olmuş, 1983-cü ildə bu ali təhsil ocağını bitirmişdir.

1977-ci ildə əmək fəaliyyəti nəzərə alınaraq Balacan Nağıyevi iş icraçısı, 1978-ci ildən baş iş icraçısı (sahə rəisi) təyin edirlər. O, 1983-cü il mart ayına kimi 103 saylı tikinti idarəsində işləmişdir.

Balacan Nağıyev 1983-cü ildə Kənd Tikinti Nazirliyinin 2 saylı Trestinin 38 saylı Səyyar Mexanikləşdirmə Dəstəsində baş iş icraçısı (sahə rəisi) təyin olunmuş və Azərbaycan Respublikasında inşasına başlanan ən nəhəng tikinti obyektlərindən biri olan Siyəzən broyler fabrikasının tikintisində çalışmışdır. 1989-cu ildə işlərini bitirdikdən sonra Biləcəri qəsəbəsində hərbi çağırış məntəqəsində 5 mərtəbəli yataqxanaların tikinti kompleksinə sahə rəisi təyin olunmuşdur. O, vaxt 38 saylı SMD-nin adı dəyişilərək 21 saylı SMD olmuşdur. 1992-ci ilə kimi həmin tikinti təşkilatında calışmışdır. 1992-1994-cü illərdə həmin idarənin istehsalat şöbəsinin rəisi və baş mühasib vəzifələrini icra etmişdir. 1995-ci ildə 32 saylı təsərrüfat hesablı tikinti sahəsinə mühəndis vəzifəsinə təyin olunmuşdur. Sonralar həmin tikinti sahəsi özəlləşdirilmiş, 32 saylı Tikinti firması adlandırılmışdır. Balacan Nağıyev 2003-cü ilə kimi həmin firmanın baş mühəndisi vəzifəsində işləmişdir. İşlədiyi dövr ərzində bir sıra mühüm obyektlərin tikintisində calışmışdır.

Balacan Nağıyev 2003-cü ilin iyun ayından Şirkətin rəhbəri Şəmsəddin Aslanovun dəvəti ilə "SNT" İnşaat Şirkətinə gəlmiş və Texniki İstehsalat şöbəsinə rəis təyin olunmuşdur.

O, hal-hazırda bu şirkətdə 17 ildir ki, əmək fəaliyyətini davam etdirir. İşlədiyi illərdə bir çox dövlət əhəmiyyətli obyektlərin tikintisində iştirak etmiş və hazırda da iştirak edir və hələ uzun illər əmək fəaliyyətini davam etdirmək arzusundadır.

Balacan Nağıyev işlədiyi dövr ərzində öz bilik və təcrübəsini gənclərə həvəslə öyrətmiş və həm də özü hər zaman öyrənməyə çalışmışdır.

Ailəlidir, üç övladı var.



**Nəcəfli Məhəmməd Rəsul oğlu**

05 may 1963-cü ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Qaraqaya kəndində anadan olmuşdur.

Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. İxtisasca mühəndisdir. Ailəlidir, iki övladı var.

M.R.Nəcəfli 1992-1995-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində işə başlamışdır. 1995-2001-ci illər ərzində Azərbaycan Respublikası "Biyan" İstehsalat Birliyində müxtəlif vəzifələrdə çalışmışdır. Respublikada Biyançılığın inkişafında, məhsulun tədarük olunub, xarici ölkələrə satılmasında müstəsna xidmətləri olmuşdur.

O, 2003-2017-ci illərdə "Amal İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətini təsis etmiş və direktoru olmuşdur.

Məhəmməd Nəcəfli 2017-ci ildə "Alov İnşaat" MMC-ni təsis etmiş və hal-hazırda həmin cəmiyyətin direktorudur.

Məhəmməd Rəsul oğlu Nəcəfli tikinti sahəsində böyük təcürbəyə malik mühəndislərdəndir. Respublika ərazisində, eləcə də Bakı və Bakıətrafı qəsəbələrdə xeyli sayda fərdi yaşayış evlərinin, bir sra bankların, məktəblərin, uşaq baxçalarının, içtimai iaşə və ticarət obyektlərinin, villaların, bağ evlərinin, həyatyanı sahələrin, basseynlərin, stadionların, çarhovuzların, söhbətgahların və sair sosial obyektlərin layihələndirilməsini, tikintisini və təmirini həyata keçirmişdir.

Məhəmməd Nəcəfli həmçinin respublikada fəaliyyət göstərən bir sıra böyük firmaların layihələrində yaxından iştirak etmişdir.

O, işlədiyi müddət ərzində özünü təşəbbüskar, bilikli mühəndis, bacarıqlı təşkilatçı kimi göstərmişdir. O, öz sahəsində işin təşkilini yüksək peşəkar səviyyədə həyata keçirmiş, savadı və rəhbər mühəndislik keyfiyyətləri ilə yaratdığı müəssisədə normal iş tempinə nail olmuşdur.

"Alov İnşaat" MMC müxtəlif memarlıq və inşaat layihələrində əldə etdiyi təcrübənin nəticəsi olaraq, 2004-cü ildən korporativ fəaliyyətə başlamışdır. Şirkətin əsas fəaliyyət istiqaməti fərdi yaşayış evlərinin – villa və kotteclərin layihələndirilməsi, təmir, bərpa və yenidənqurma işləri, fərdi yaşayış evləri, villa və kottеclərin tikintisi, ticarət obyektləri və iş mərkəzlərinin tikintisi və interyer dizaynının aparılması sahəsində cəmlənmişdir. Bununla yanaşı ticarət və turizm obyektlərinin layihələndilirlməsi, tikilməsi və interyer dizaynı da şirkətin fəaliyyətlərində xüsusi yer tutur.

Hal-hazırda "Alov İnşaat" MMC hər cür layihə, təmir, tikinti və dizayn işlərinin öhdəsindən yüksək səviyyədə gəlir. Bu da "Alov İnşaat" MMC-nin tikinti sahəsində çoxillik iş təcrübəsi olan yüksək ixtisaslı və bacarıqlı mütəxəsislərdən təşkil olunması ilə mümkün olmuşdur.

Bəllidir ki, dünyada artan ehtiyaclar və inkişaf edən texnologiya ilə birlikdə insanlar daha modern, daha keyfiyyətli və daha gözəl evlər, iş yerləri, ticarət mərkəzləri və s. ilə təmin olunmaq istəyirlər. Buna görə də "Alov İnşaat" MMC sifarişçilərinə geniş imkanlar, əlverişli şərtlər yaradaraq işini bu istiqamətdə inkişaf etdirir. Bütün bunlara nail olmaq



üçün şirkət daim tikintinin müasir metodlarına, beynəlxalq standartlara yiyələnir və öz fəaliyyətində tətbiq edir. Məhz bunun nəticəsi olaraq “Alov İnşaat” MMC-nin layihələri bütün parametrlərinə görə öz orijinallığı ilə seçilir və müasir tələblərə cavab verir.

“Alov İnşaat” MMC-də zövqlü, fantaziyalı, bacarıqlı, işgüzar dizayner və memarlar qrupu fəaliyyət göstərir. Şirkətə fəaliyyət göstərdiyi sahələrdə rəqabət üstünlüyü verən əsas amil də onun sahib olduğu özünəməxsus və təkrarolunmaz yeniliyi ilə seçilən memarlıq uslubudur. Şirkət layihələrində milli ornamentlərlə modern memarlıq sənətinin bütün incəliklərini özündə cəmləşdirən üslubu ilə istehlakçı istək və arzularını birləşdirir.

Şirkət, eyni zamanda memarlıq və inşaat sahəsində baş verən bütün yenilikləri yaxından izləyərək, ortaya çıxan yeni özünə məxsus metod və texnologiyaları, istər layihələndirmə və istərsə də inşaat mərhələsində tətbiq edir.

Bu gün “Alov İnşaat” MMC yüksək keyfiyyətlə və qısa zamanda istənilən tikinti işlərini – binaların, evlərin, villaların, ticarət mərkəzlərinin, idman obyektlərinin, stadionların, ofislərin, ictimai - iaşə obyektlərinin, hovuzların və basseynlərin tikintilərini yüksək peşəkarlıqla yerinə yetirir.

“Alov İnşaat” MMC-nin fəaliyyətinin bir istiqaməti də köhnə binaların daxili və xarici hissələrinin bərpası, ətraf hissələrinin abadlaşdırılması və ümumi təmir işlərinin (santexnika, elektrik, kafel – metlax, divar kağızları, müxtəlif lepka və paduqalar, alçıban işləri (müxtəlif formada), döşəmə işləri (parket, laminat)) yerinə yetirilməsidir.

Şirkət həmçinin istənilən formada beton işlərinin yerinə yetirilməsi üzrə də ixtisaslaşıb. Özüllərin betonlanması, beton qəliblərin hazırlanması, beton pilləkənlər, kalonlar, rigellər, monolit beton qatlar yüksək peşəkar səviyyədə sifarişçiyə təqdim olnur.

Bu gün istənilən ölçü və dizaynda basseynlərin, çarhovuzların, hamamların (türk hamamı, fin hama-

mı və rus hamamı) tikinti və quraşdırılması, yerli və xarici profillərdən istənilən ölçü və formada plastik qapı və pəncərələrin, alminium qapı və pəncərələrin, duş kabinaların, alminium məhəccərlərin, pilləkənlərin, arakəsmələrin, vitraj pəncərələrin istehsalı və quraşdırılması, eyni zamanda dəmir qapılar, darvazalar, məhəccərlər və avtomatik dəmir qapılar, avtomatik dəmir darvazalar, dəmir çənlər, dəmir besetkalar, dəmir arakəsmələr, dəmir polkalar və sair dəmir işlərinin istehsalı və quraşdırılması, istənilən forma və ölçüdə mətbəx mebellərinin, şkafların, şkaf kupelərin, divarların mebellə üzlənməsi və sair işlərin istehsalı və quraşdırılması işləri "Alov İnşaat" MMC-nin yerinə yetirdiyi işlər sırasındadır.

Və təbii ki, "Alov İnşaat" MMC-nin son illərdə əldə etdiyi mailiyyətlər şirkətin direktoru Məhəmməd Rəsul oğlu Nəcəflinin yüksək idarəçilik keyfiyyətləri sayəsində mümkün olmuşdur.

O, işini bilən, qılıqlı və ünsiyyətcil insandır. İstənilən şəxslə və yaxud hansısa sifarişçi şirkətin rəhbəri ilə asanlıqla dil tapa bilir və iş birliyi qurmağa nail olur. İnsanlarla ünsiyyətdə







*"Alov İnşaat" MMC kollektivinin inşa etdiyi sosial obyektlərdən görüntülər...*

nəzakətli, təvazökar və siyasi-ideoloji cəhətdən savadlı insan kimi o, öz işini vicdanla və şərəflə yerinə yetirir.

Məhəmməd Nəcəfli həmişə savadlı, perspektivli yerli gənc kadrlara dayaq olur, bildiklərini, zəngin həyat və iş təcrübəsini onlarla bölüşür, şirkətdə professional kadr bazasının yaranmasına xüsusi önəm verir. Təsadüfi deyil ki, çalışdığı kollektiv onu sevir və hörmət edir. Şirkətin qazandığı uğurların əsasında da məhz kollektivdə



olan bu gözəl münasibət, xoş ab-hava başlıca faktordur və bunun nəticəsi kimi onların ölkə tikintisindəki çağdaş fəaliyyəti yüksələn xətt üzrə davam edir və respublikamızın tikilib abadlaşdırılmasına, iqtisadi yüksəlişinə daha çox töhfə verirlər.



*İçərişəhər. Keyqubad məscidi*



*İçərişəhər. Molla Əhməd məscidi*



*İçərişəhər. Multanı karvansarası*



*İçərişəhər. Hacı Banu hamamı*



*İçərişəhər. Qala divarları*

# P



**Paşayev**
**Rafiq**
**Xammət oglu**

01 mart 1945-ci ildə Qax rayonunun Qarabaldır kəndində anadan olub.

1951-1961-ci illərdə orta məktəbdə oxuyub. 1961-ci ildə Bakı Dəniz Yolları Məktəbinə daxil olub və 1962-1964-cü illərdə Xəzər Gəmiçiliyi İdarəsində matros kimi fəaliyyət göstərib.

1964-1969-cu illərdə Azərbaycan Neft və Kimya İnstitutunda ali təhsil almış və muhəndis-mexanik diplomu alıb təyinatla Mingəçevir Şəhər Texniki Rezin Məmulatları Zavoduna göndərilmişdir. Lakin tikintisi başa çatmayan zavodda yeni işə salınacaq sexlərin texnoloji cəhətdən işləri təmin edəcək xüsusi biliyə malik mütəxəssisləri olmadıgı üçün bu biliklərə sahiblənməsi və əsas sexlərin işə salınmasını təmin etmək məqsədilə Rafiq Paşayev 1969-1970-ci illər ərzində Rusiyanın Kursk və Sverdlovsk şəhərlərində və Belarusiyanın Moqilyov şəhərində xüsusi ixtisas kursları keçərək 1970-ci ilin sonunda geri qayıtmışdır.

Rafiq Paşayev 1970-ci ilin sonunda zavodun iqtisadi cəhətdən əsasını təşkil edən (70%) konveyer lenti sexini, sonra isə pazvari qayışlar sexini yüksək səviyyədə işə salaraq zavodun iqtisadi cəhətdən yuksəlişinə təkan vermişdir. O, bu illər ərzində 100-dən çox səmərələşdirici təklif irəli sürmüş və həyata keçirmişdir ki, nəticədə zavod çox böyük gəlir əldə etmişdir. Bu görülən işlərin nəticəsi olaraq Rafiq Paşayev 1974-cü ildə respublikanın əməkdar səmərələşdirici mühəndisi diplomu ilə mükafatlandırılmışdır.

1975-ci ildə onun təklifi ilə yeni Regenerat sexinin inşasına başlanılır və o, sexə rəis təyin edilir. Bu sexin əsas məqsədi respublikamızın bütün bölgələrindən istifadəsini başa vurmuş bütün növ şinlərin yıgılaraq bu sexə təhvil verilməsi və əsasən respublikada ekoloji tarazlığın qorunmasına töhfə vermək idi. Burada həmin könhə şinlər doğranaraq regenerasiya olunur və regenerat istehsal olunur ki, bu da rezin istehsalında xaricdən alınan kauçukun azaldılmasına səbəb olurdu. Yəni, util şinlərdən yeni məhsul alınırdı ki, bu da böyük iqtisadi səmərə demək idi.

1979-cu ildə zavoddakı durum Rafiq Paşayevi qane etmədiyi üçün o, Mingəçevir şəhərində inşa edilən Az.DRES-nın

tikintisində aparıcı rolu olan "Hidroxüsusitikinti" İdarəsində baş mexanik vəzifəsində fəaliyyətə başlayır. Bu idarənin əsas tikinti obyektləri Az.DRES, Sərsəng su anbarı, Arpaçay su anbarı, Viləşçay su anbarı və Az.DRES üçün su təminatını təmin edən Bozdagın altından çəkilən tunelin tikintisi idi. Bu idarədə Rafiq Paşayevin işgüzarlığı və işə münasibəti ozünü daha yaxşı göstərməyə başlayır.

Lakin 1981-ci ildə Texniki Rezin Məmulatları zavodunda işlərin yaxşı olmadığını nəzərə alaraq Mingəçevir Şəhər Partiya Komitəsi Rafiq Paşayevi partiya xətti ilə yenidən Texniki Rezin Məmulatları zavoduna qaytarmaq istəsə də, o, buna razılıq vermir, Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin 19 nömrəli Tikinti Quraşdırma İdarəsində (TQİ-19) baş mühəndis vəzifəsinə qəbul olunur.



*Mingəçevir şəhərində 10 saylı orta məktəb binası*



*Mingəçevir şəhərində 9 saylı orta məktəb binası*

Hələ 1978-ci ildə Mingəçevir şəhərində "Başkolxozsovxoztkinti" İdarəsinin Kənd Tikinti Kombinatı kimi fəaliyyət göstərməsi nəzərdə tutulmuş böyük bir Dəmir beton məmulatları zavodunun tikintisinə başlanılmış və nəzərə alınmışdı ki, bu zavodun tikintisi üçün nəzərdə tutulmuş sahədə bir poliqon yaradılsın və zavodun tikintisinə lazım olan dəmir-beton məmulatları bu poliqonda hazırlansın və zavodun tikintisi başa çatdırılsın. Ancaq 1982-ci ilə kimi zavodun tikintisi üçün lazım olan dəmir beton məmulatlarını təşkil olunmuş poliqonda istehsal edə bilmədikləri üçün zavodun tikintisi dayandırılmışdı. Rafiq Paşayevin bu işin öhdəsindən gələ biləcəyini nəzərə alan Baş idarənin rəhbərliyi onu nəzərdə tutulmuş zavoda direktor təyin etmiş və bütün işlərə rəhbərlik ona həvalə edilmişdir. Rafiq Paşayev direktor kimi fəaliyyətə başladıqdan 3 ay keçməmiş nəinki zavodun tikintisini lazım olan bütün növ dəmir beton məmulatları ilə təmin etmiş, eyni zamanda satış üçün respublikanın bütün bölgələrinə kənd təsərrüfatı yönümlü obyektlərin tikintisi üçün lazım olan dəmir beton mə-



*Mingəçevir Dəmir Beton Məmulatları filialının inzibati binası...*

mulatları istehsal etmiş və bu obyektləri dəmir beton məmulatları ilə təmin etmişdir. Sonrakı illərdə isə tikilən obyektlərin təyinatına uyğun istehsal olunan məhsulların nomenklaturası genişləndirilmişdir.

Rafiq müəllim məhsul istehsalını artırmaqla kifayətlənməmiş, əsas məqsədi yeni texnologiyanı tətbiq etməklə metal sərfini 2 dəfədən çox azaltmaq və keyfiyyəti daha da yüksəltmək olmuşdur. İstehsal olunan bütün örtük plitələri, rigellər və fermalar qabaqcadan gərginləşdirilmiş polad armatur çubuqlardan və kanatlardan istifadə olunmaqla istehsal olunurdu ki, bu da dəmir beton konstruksiyaların əsasını təşkil edən metalın sərfinin 2 dəfədən çox azalmasına gətirib çıxarırdı. Bu işlər böyük məsuliyyət tələb edirdi, çünki tətbiq olunan betonun lazımi möhkəmlik həddindən aşagı olması məhsulun qəlibdən çıxarıldığı andaca dağılmasına səbəb olardı.

Qeyd etmək lazımdır ki, zavodun fəaliyyəti və istehsal etdiyi məhsulların nomenklaturası zavodun, o zamankı, tabe olduğu baş idarəni qane etdiyindən onlar zavodda daha müasir məhsulların istehsalına, yeni texnoloji xətlərin istifadəyə verilməsinə, yeni texnikadan və səmərələşdirici təkliflərdən istifadə olunmasına elə də fikir vermirdilər. Zavod rəhbərliyi bunları həyata keçirməyə cəhd göstərsə də mütəxəssis çatışmazlığına görə çətinliklərlə üzləşirdilər.

1985-ci ildə respublikada aparılan islahatlar ilə əlaqədar "Dövlətaqrosənayetikinti" Birliyi yarandı ki, bir neçə tikinti nazirlik və baş idarələri birləşdirilərək bu quruma daxil edildi və struktur dəyişikliyi nəticəsində zavod yenidən yaradılmış 1 nömrəli "Aqrosənayetikintimaterialları" trestinin tabeliyinə verildi. Bu trestin rəhbərliyi dəmir beton





*Mingəçevir şəhər mərkəzi xəstəxanasından görüntülər...*

məmulatı istehsalı ilə uzun illər məşğul olduqları üçün və yeni yaradılmış birliyin inşa etdiyi obyektlər müxtəlif yönümlü və çoxşaxəli olduğundan Mingəçevir Dəmir Beton Məmulatları Zavodu tərəfindən istehsal olunan məhsullara dərhal dəyər verildi və zavodun istehsal sürəti daha da artırıldı və həmçinin kollektivin rəhbərliyində sabaha inam yarandı. Onlar daha məhsuldar işləməyə və yeni texnologiyanı daha çox tətbiq etməyə başladılar. Nəticədə çox miqdarda yeni məhsul növlərinin istehsalına başlanıldı. Respublika miqyaslı ən əhəmiyyətli tikinti obyektlərinin dəmir beton məmulatları ilə təminatı bu zavoda həvalə olunmağa başladı və zavodun istehsal gücü tez zamanda artaraq 100 min kub metrə yaxınlaşdı ki, o zaman belə inkişafı heç kim gözləmirdi.

Zavodun istehsal etdiyi məhsullar demək olar ki, republikanın bütün rayonlarında inşa olunan sənaye və kənd təsərrüfatı yönümlü obyektlərin, məktəblərin, yaşayış evlərinin, xəstəxanaların və digər sosial obyektlərin tikintisinə göndərilirdi. Zavod tərəfindən istehsal olunan 18 metrlik fermaların (Seriyası 1.463-3, markası ФБ 18 IV), 12 metrlik iki yamaclı dəmir beton balkaların (Seriyası 1.462-3, markası 2 БДР 12), 12 metrlik paralel kəmərli balkaların (Seriyası 1.462-1, markası IБО-12), 12 metrlik örtük plitələrinin (Seriyası 1.465-3 markası ПА IV 1,5x12), müxtəlif seriyalı və markalı sənaye binaları üçün sütun və rigellərin hazırlanması, elevator və dəyirman kombinatı obyektlərinin tikintisində tələb olunan dəmir beton elementlərinin hazırlanması (Seriya 3.702-1, markaları СОГ, СУГ, СПГ), elektrik xətlərinin çəkilməsində istifadə olunan 11 metrlik dəmir beton dayaqların istehsalı, kənd təsərrüfatı obyektləri üçün PC 18 və PC 21 markalı yarımçərçivələrin hazırlanması, müxtəlif ölçülü (Seriyası ИИС 13-2, markası СПТК) mərtəbəarası və örtük üçün boşluqlu panellərin, o cümlədən uzunluğu 8.9 m. , eni 1.2 m. (markası СПТК 89-12) və digər də-

mir beton məmulatlarının hazılanması deməк olar ki, inşaat kompleksində Rafiq Paşayevin kollektivinin yaratdığı böyük inqilab idi.

1989-cu ildə "Aqrosənayetikinti" Birliyi parçalandı və zavod yeni yaradılmış "Azəraqrartikinti" Dövlət Şirkətinin tabeliyinə verildi. Bu şirkətin inşa etdiyi obyektlərə müvafiq zavodun fəaliyyətində dəmir beton məmulatlarının istehsalı azaldı. Ancaq Mingəçevir şəhərində inşa edilən hər hansı obyektin dəmir-beton məmulatı ilə təmin edilməsi bu zavodun təminat planına daxil edilməsə də, zavodun bu şəhərdə yerləşdiyi nəzərə alınaraq 1983-cü ildən bu şəhərdə inşa edilən bütün obyektlər, məktəblər, xəstəxanalar və başqa tikinti obyektlərini tam mənasında bu zavod dəmir beton məmulatları ilə təmin etmişdir.

Çox təəssüflər olsun ki, 90-cı illərdə şəhərdəki müəssisələrin əksəriyyəti dağıdılaraq məhv edildi. Əksər zavod rəhbərləri bilə-bilə ki, həmin zavodların istehsal etdiyi məhsullar gələcəkdə xaricdən alınacaq, ancaq bu hallara göz yumdular. Lakin Rafiq Paşayev zavodu tam gücü ilə qoruyub saxlamağa nail oldu.

Hazırkı vaxtda isə zavod "Azəraqrartikinti" ASC-nin Mingəçevir Dəmir-Beton Məmulatları Filialı kimi fəaliyyətini davam etdirir. Son 15 ildən çox bir dövrdə Rafiq müəllim filialı dövlət sifarişi ilə bərabər şəxsi sifarişlər hesabına saxlaya bilir.

Rafiq Paşayev Qarabag ugrunda gedən müharibə zamanı həmişə əsgərlərimizin yanında olmuş, onların ailələrinin təminatında yardımçı olmuşdur. Bu muharibə zamanı zavod 7 şəhid verib və Rafiq müəllim bütün şəhid ailələrini zavodun daxili imkanları hesabına evlə təmin edib və bu gün bununla fəxr edir. Çünki heç bir şəhid ailəsi heç vaxt köməksiz qalmadı.

Qarabag müharibəsi zamanı Kəlbəcər və Ağdam rayonunun işgalından sonra bu rayonlardan 70 ailə, yəni 300-dən çox qaçqın bu zavodun inzibati binasında yerləşdirilib və



*Mingəçevir şəhər mərkəzi məscidi*




*Mingəçevir şəhər Texniki Humanitar Liseyi*



*Mingəçevir şəhərində Heydər Əliyev adına park*

bu günə kimi bu inzibati binada yaşamaqda davam edirlər. Rafiq müəllim sifarişlərin azaldığı indiki zamanda çətin də olsa bu qədər qaçqının yaşama şəraitinə köməklik göstərir.

...Rafiq Paşayev bu gün öz sahəsində qədərincə tanınıb və artıq respublika miqyasında kifayət qədər ad-san qazana bilmişdir. O, cəmiyyətdə nüfuz qazandığı kimi, rəhbərlik etdiyi kollektivdə də bir rəhbər kimi sevilir. Qeyd etmək lazımdır ki, onun səyi nəticəsində zavodda peşəkar, öz işinin öhdəsindən layiqincə gələn mühəndis-texniki kadr potensialı toplanmışdır. Çoxillik iş təcrübəsi, aşağıdan yuxarıyacan bütün vəzifə pillələrini ardıcıllıqla keçməsi, işə vicdanlı münasibəti və kollektivi eyni məqsəd naminə toplamaq bacarığı onun kollektivdə sevilməsinə və uğurlar qazanmasına zəmin yaratmışdır.

Kollektivdə hər bir işçinin hüquqları qorunur. İşçilərin sosial problemlərinin operativ həll olunması, onlara qayğı və diqqət göstərilməsi nümunəvi təşkil olunmuşdur.

Tikinti ona həyatda hər şey verib. Ümumi həyatda və tikinti ictimaiyyəti arasında nüfuz, hörmət və gözəl dostlar qazandırıb. Və şübhəsiz ki, normal yaşayış tərzini, gün-güzəranını da bu sənətlə qurub. Bu sənətdə özünü tapıb.

Rafiq müəllim hər zaman ünsiyyətdə olduğu, əlaqəli şəkildə işlədiyi kollektivlərin rəhbərləri tərəfindən bir insan və inşaat mühəndisi kimi yüksək qiymətləndirilib.

O, işini biləndir, həyatda nə qazanıbsa zəhməti, alın təri ilə əldə edib. Öz sahəsinin peşəkarıdır, tapşırılan hər bir iş bir qayda olaraq tez və keyfiyyətlə icra olunur. O, hər zaman qabaqcıllar sırasındadır.

O, bütün əmək fəaliyyəti illərində ictimai fəallığı ilə seçilmiş və respublikanın inkişafı üçün əzmlə çalışmış



*Mingəçevir Dəmir Beton Məmulatları filialının istehsal sahəsi...*

və bu gün də əvvəlki ampulasındadır. Onun əməyi hər zaman rəhbərlik və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, o, ölkənin tikinti quruculuq yönümündəki çoxillik səmərəli fəaliyyətinə və qazandığı nailiyyətlərə görə çalışdığı baş idarələrdə dəfələrlə "Fəxri Fərmanı"larla, pul mükafatları və qiymətli hədiyyələrlə təltif olunmuşdur.

Rafiq Paşayev yüksək təşkilatçılıq keyfiyyətlərinə malik rəhbərdir. Özünə və ətrafındakı insanlara qarşı çox diqqətcil və qayğıkeşdir, nəzakətli, ciddi və mənəvi dəyərlərin daşıyıcısı, saf əqidəli insandır.

Bu gün cəsarətlə demək olar ki, Rafiq Paşayev adını bacarıqlı tikinti mütəxəssisi və rəhbəri kimi Azərbaycanın tikinti-quruculuq tarixinə yazmış şəxsiyyətlərdəndir. O, yüksək səviyyəli mütəxəssis, ciddi insandır. Onunla ən mürəkkəb məsələləri müzakirə etmək mümkündür. O, ani və vaxtında düzgün qərarlar verə bilir.

Rafiq Paşayev həm də müəllimdir. Bu gün onun yetirmələri respublika tikinti kompleksinin bütün qollarında aparıcı mütəxəssislər, rəhbərlər kimi müasir inşaatımızın bütün ağırlıqlarını çiyinlərində daşıyırlar.

Sənətinin peşəkarı olan bütün savadlı adamlar öz sahəsində uğur qazanmağa çalışır və bu, təbii bir istəkdir, arzudur. Ancaq heç də hər kəs ona tapşırılan sahədə mənsub olduğu xalqın cəfakeşi ola bilmir. Məhz bu məqamda da Rafiq Paşayev çoxlarından fərqlənir. O, yaşadığı ömürlə, fəaliyyət göstərdiyi illərdə gördüyü işlərlə layiqli Azərbaycan vətəndaşı olduğunu sübut edə bilib və bu gün də yeni yeni uğurlara imza atmaqdadır.

Tutduğu vəzifədən asılı olmayaraq o, hər zaman sözün əsil mənasında respublikamızın inşaatçıları və eləcə də ölkənin bütün tikinti ictimaiyyəti üçün örnək bir insan olub və bu gün də belədir.

Rafiq müəllim millətini, torpağını sevən nurlu bir insandır. O, ilk baxışdan zəhmli, qaradinməz bir adam təəssüratı yaradır. Amma təmasda olarkən ilk anlardan bu fikrin tamamilə yanlış, onun isə əksinə, nə qədər sadə və səmimi olması insanı heyran edir. O, bu gün də bir böyük müəllim kimi öz çoxsaylı ardıcıllarına yol göstərir.

Onun bütün mənalı həyatı, şərəfli ömür yolu hər zaman Azərbaycan dövlətinin maraqları ilə və xalqın xoş gün-güzəranı ilə sıx bağlı olub.

O, daim yorulmadan çalışır, önə çıxır, sədaqətli insan olmağıyla seçilir. Vəzifə onu yox, o vəzifəni irəli aparır. Amma bütün bunlardan öncə o, istedadlı mühəndisdir və hansı vəzifəni daşımağından asılı olmayaraq, daim fərqlənir.

Rafiq müəllim bu gün çox nikbindir, optimistdir, Azərbaycanımızın uğurlu sabahına inanır və bunun üçün üzərinə düşən bütün vəzifələri bir rəhbər və vətəndaş kimi vicdanla və məsuliyyətlə yerinə yetirir.

Bu gün ölkəmiz yenidən qurulur, respublikamızın hər guşəsində nəhəng tikinti-quruculuq işləri aparılır. Cənab Prezidentimiz, möhtərəm İlham Əliyevin rəhbərliyi altında paytaxtımızda və bölgələrimizdə möhtəşəm tikinti-quruculuq işləri yerinə yetirilir. Gözlərimizin qarşısında yeni bir möhtəşəm Azərbaycan yaranır və inkişaf edir. Və... bu gün müstəqil Azərbaycanımızı tikib ucaldan inşaatçılar və inşaat kollektivləri arasında Rafiq Paşayev və onun kollektivi də var.

Əminik ki, hələ uzun illər Rafiq Paşayev mühəndisliyi bu vətən, bu xalq üçün böyük işlər görəcək, respublikamızın iqtisadi yüksəlişinə daha böyük töhfələr verəcəkdir.

# PENETRON AZƏRBAYCAN

Respublikamızda "Penetron" hidroizolyasiya sistemlərinin tətbiqi ilə "Penetron-Azərbaycan" MMC şirkəti məşğul olur. "Penetron-Azərbaycan" MMC 21 yanvar 2008-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydə alınmışdır. Şirkətin direktoru Kirman Həsən oğlu Məmmədovdur.

Şirkətin əsas fəaliyyəti yüksək keyfiyyətli "Penetron" hidroizolyasiya sistemlərini tətbiqi ilə məşğul olmaqdır. Qeyd edək ki, 2008-ci ildən "Penetron – Rusiya" şirkətlər qrupu Azərbaycandakı rəsmi diler kimi "Penetron Azərbaycan" MMC şirkətini seçmiş və "Penetron Azərbaycan" MMC şirkəti son 13 il ərzində bir çox yerlərdə yüksək keyfiyyətli "Penetron" hidroizolyasiya sistemlərini tətbiq etməyə, tikinti şirkətləri ilə sıx əməkdaşlıq edərək tikinti işlərinə maneə yaradan qrunt sularının və su sızmalarının qarşısını almağa müvəffəq olmuşlar. Bundan başqa xüsusi villalarda, evlərdə, binalarda, metrolarda və s. kimi tikintilərdə su sızmaları qarşısı şirkətin mütəxəsisləri tərəfindən "Penetron" və digər qatqılar vasitəsi ilə alınmışdır. Azərbaycanda analoqu olmayan "Penetron" hidroizolyasiya sistemləri hələ bir çox yaşayış yerlərimizi, tikililərimizi və qədim abidələrimizi qrunt sularının sızmasından və məhvindən qoruyacaqdır.

Beton + Penetron etibarlılıq və inam düsturudur.

Dəmir-beton konstruksiyalar istismar dövründə müxtəlif amillərin (su, dəniz suyu, kanalizasiya, sənaye tullantıları, atmosfer təzyiqi) təsirinə məruz qaldığı üçün inşaat zamanı hidroizolyasiya işlərinin əvvəlcədən düzgün şəkildə aparıl-



*"Caspian Waterfront" əyləncə mərkəzi*



*Pik-Palace Şahdağ hoteli*



*PORT BAKU TOWER*




*"Jalə" Biznes Mərkəzi*

ması vacib amillərdəndir. Onların düzgün hidroizolyasiya olunmaması konstruksiyanı müxtəlif amillərin təsirindən zədələyir və uzunömürlüyünü aşağı salır.

Buna görə də qurğuların layihələndirilməsi və inşası zamanı müxtəlif amillərin təsirindən qorumaq üçün və eləcə də suyun konstruksiyanın daxilinə keçərək onu müəyyən müddətdən sonra zədələməməsi üçün sukeçirməzliyini təmin etmək vacibdir.

Hidroizolyasiya işlərini həyata keçirən zaman isə qurğuları əsasən sudan, atmosfer təzyiqindən, ultrabənövşəyi şüalardan qorumaq üçün düzgün hidroizolyasiya materialının seçilməsi ən vacib şərtdir.

"PENETRON" tikilməkdə olan qurğularda istifadə olunduğu kimi, mövcud dəmir-beton qurğularda da tətbiq edilir.

"PENETRON" suyun istiqamətindən asılı olmayaraq betonun daxilinə nüfuz edərək ona unikal hidroizolyasiya keyfiyyəti qazandırır.

"PENETRON" hidroizolyasiya materiallarından istifadə edildikdə, beton konstruksiyanın kapilyar məsamələrinə hopur, konstruksiyanın dərinliyinə nüfuz etməklə, hidroizolyasiya qabiliyyətini daha da artırır. Qeyd edilən izolyasiya növü betonun daxilinə nüfuz edərək betonun tərkib hissəsinə çevrilir, betonun su keçirmə əmsalını 6-8 atm qaldırır və eyni zamanda möhkəmliyini 10 vahid artırır, betonda izolyasiya qatı yaratmır, yəni izolyasiya mexaniki zərbələrdən zədələnmir, o özü-özünü müalicə edir (0.4 mm-ə qədər olan çatlaqlar qeyri-iradi olaraq birləşir), bu növ izolyasiya betonun tərkib hissəsinə çevrildiyindən betonun ömrü qədər işlənir. Bu da suların, qrunt sularının betona keçməsinin qarşısını birdəfəlik almış olur.

Bu tipli materiallar dəmir beton konstruksiyalarda istifadə olunduğu zaman dəmir-beton konstruksiya müxtəlif təsirlərə qarşı tam davamlı olur və izolyasiya

işlərinə betonun ömrü qədər zəmanət verilir.

Bu izolyasiya növü yüksək sukeçirməməzlik, suyadayanıqlıq, fiziki-kimyəvi dayanıqlıq, suudmazlıq kimi keyfiyyət göstəriciləri ilə digər izolyasiya növlərindən fərqlənir. Belə hidroizolyasiya materialının tətbiqi inşaat konstruksiyaların sudan və digər təsirlərdən müdafiəsini təmin etməklə onların uzunömürlülüyünü artırır.

Artıq 13 ildir ki, respublikamızda "Penetron" məhsullarının tikintidə istifadəsi istiqamətində işlər aparılır və deyək ki, uzun bir yol qət edilmişdir. Ancaq bu istiqamətdəki fəaliyyətin qonşu respublikalardakı səviyyəyə çatdırılması üçün çox işlər görülməlidir.

Qeyd edək ki, inşaatçı və layihəçilərimiz yeniliyə o qədər də meylli deyillər. Hər hansı bir yeniliyi çox gec qəbul edirlər və bunun üçün uzun bir zamana, davamlı prosesə, əyani təbliğata ehtiyac vardır. Ona görə də şirkətin mütəxəssisləri inşaatçılarla, memarlarla, konstruktorlarla fərdi olaraq görüşlər, söhbətlər aparmaq və əyani şəkildə təbliğ etmək yolu ilə "Penetron" məhsullarının respublikada tanıtmağa çalışır.

"Penetron-Azərbaycan" MMC "Penetron" məhsullarını Rusiyanın Yekaterinburq şəhərində olan zavodundan idxal edir.



*Heydər Əliyev Mərkəzi*



*Bulvar Otel*

Bu gün respublikamızda inşa olunan yeraltı hidrotexniki qurğuların hamısında "Penetron" məhsullarını istifadəsinə ehtiyac vardır. Ancaq hələ də bunun kütləvi şəkildə istifadə olunmasına nail olmaq mümkün deyil.

Başqa bir vacib məqam barədə. Respublikamızda "Penetron" məhsulları kütləvi qaydada betona qatqı kimi yox, ancaq mövcud tikililərdə istifadə olunur. Ancaq çox yaxşı olardı ki, hidrotexniki qurğuların layihələndirilməsi zamanı "Penetron" məhsullarının betona qatqı kimi istifadə olunması qonşu Rusiyada və Qazaxstan Respublikasında olduğu kimi bizdə də layihələndirilmə zamanı nəzərdə tutulaydı.

Ancaq bunu xüsusi qeyd edək ki, artıq respublikamızda yeraltı hidrotexniki qurğular sahəsində ça-

lışan bir sıra şirkətlər vardır ki, onlar işlərinə çox məsuliyyətlə yanaşır və "Penetron-Azərbaycan" MMC ilə əməkdaşlıq etməkdə maraqlıdırlar.

"Penetron-Azərbaycan" MMC Azərbaycanda tikilən yeraltı hidriotexniki qurguların, eləcə də bütün strateji obyektlərin, yaşayış binalarının uzunömürlü olmasını təmin etmək üçün sifarişçilərə, layihəçi və memarlarımıza, inşaatçılarımıza müraciət edir ki, yeraltı qurğuların tikintisində "Penetron" məhsullarından istifadə etsinlər. Bu, gələcəyimiz üçün çox vacibdir. Çünki, yeraltı qrunt suları bütün tikililərin zirzəmi hissəsində yığılır və betonu zədələyir, binanın və qurğunun ömrü azalır, zirzəmi həşəratların yığıldığı və çoxaldığı məkana çevrilir, antisanitariya yaranır, insanlarımızın sağlamlığı üçün ciddi problemlər ortaya çıxır.

Göründüyü kimi bunlar hamısı bir-birinə bağlı məsələlərdir və kompleks şəklində öz həllini tapmalıdır. Bütün bu problemləri aidiyyəti dövlət qurumlarına çatdırmaq üçün yeni bir strukturun yaradılmasına ehtiyac vardır ki, bu struktura bütün aidiyyəti sahələrin mütəxəssisləri cəlb olunmalıdır.


*Quba rayonunda məktəb binası*

**"Penetron" izolyasiya məhsullarının tətbiqi qaydaları barədə...**

İlk növbədə beton səthini tozdan, çirkdən, neft məhsullarından, sement südündən, torkretdən, ştukatur layından, plitkadan, boyadan və "Penetron" sisteminin materiallarının fəal kimyəvi komponentlərinin keçməsinə mane olan bütün materiallardan təmizləmək lazımdır və bunu yüksək təzyiqli su qurğusunun köməyi ilə və ya başqa əlverişli mexaniki üsulla həyata keçirmək olar (məsələn, metallik saplı şotka ilə). Düz və cilalanmış səthləri zəif turşu məhlulu ilə təmizləyib bir saat ərzində su


*Sumqayıt şəhərində yağ istehsalı zavodu*

ilə yumaq lazımdır. Yüksək təzyiqli su qurğusunun istifadəsindən sonra üfüqi səthdə yaranan suyun çoxluğu xüsusi tozsoranın köməyi ilə götürülməlidir.

Səthin hazırlanmasından və "Penetron" materialının məhlulunu hazırladıqdan sonra məhlulu iki laya sintetik lifli fırça ilə və ya gərilmiş məhlul nasosu ilə işlənir. "Penetron" materialının birinci layını yaş betona işləyirlər. İkinci layı isə təzə layın üstünə vururlar. İkinci layın salınmasından əvvəl səthi sulamaq lazımdır.

"Penetron" məhsulları tam təhlükəsizdir, toksiki deyil, yanmır, partlamır, etiketdəki istehsal vaxtından 18 aya qədər saxlamaq mümkündür. Əgər tikintiyə başlamamısınızsa, betona "Penetron-Admiks" qatın. Əgər beton çat veribsə və oradan su axırsa, suyun axma istiqamətindən asılı olmayaraq çatları və deşikləri bağlamaq üçün "Penetron"-la yanaşı "Vaterplaq və Penekrit"-dən də istifadə edilməlidir. Bu məhsulların tətbiqi zamanı insanların sağlamlığı üçün hansısa təhlükə ola bilməz.

Bütün işləri rezin əlcəklərdə və eynəklə həyata keçirmək lazımdır. Çünki, məhsulun tərkibində portlandsement var, gözləri və





*Mingəçevir SES*

dərini zədələyə bilər. Qarışdırma zamanı dəriyə və ya gözə düşsə – tez su ilə yumaq lazımdır.

**"Penetron"-un tətbiqi sahələri haqqında...**

"Penetron" sisteminin materiallarının unikal xüsusiyyətləri M150 markasından aşağı olmayan bütün kateqoriyalı monolitli, yığımlı beton, dəmir-beton konstruksiyaların tikintidə hidroizolyasiyanın bərpa olunması və qurulması üçün istifadəsinə icazə verir.

"Penetron" sisteminin materiallarının effektiv istifadə edildiyi qurğulardan – Hidrotexniki qurğular – Rezervuarlar (açıq, yeraltı və s.), hovuzlar (açıq və bağlı növlü), quyular, doklar (gəmi təmir olan yer), su hövzələrində quraşdırılmış körpülər, təmizləyici qurğuların konstruksiyaları (aerotanklar, kollektorlar, nasoslu qurğular və s.), beton dambaları (torpaq bəndlər), bəndlər və s. Mülki tikinti obyektləri – bünövrələr (özül), zirzəmi sahələri, yeraltı qurğular (parkovkalar, qarajlar, keçidlər və s.), eyvanlar, istismarda olan və istismar

edilməyən damlar, lift şaxtaları, tərəvəz bunkerləri və s. Sənaye və aqrosənaye kompleksinin qurğuları – İstehsalat sahələri, qradiren (saxlama) hovuzları, anbarlar, tüstü boruları, şaxtalar, bunkerlər, beton qurğular, aşılmaz beton qurğuları və s. MM və FH obyektləri – sığınacaqlar, yanğın rezervuarları və s. Energetik kompleksinin obyektləri – NTT səbatlı hovuzlar, nasos stansiyaları, NTT anbarları, kanallar, yanacaq estakadaları, kabel tunelləri, radiasiyanın təsirinə məruz qalan beton qurğuları və s. Nəqliyyat infrastrukturunun obyektləri – Tunellər (avtomobil, dəmiryolu, piyada və s.), metropolitenlər, yolların və körpülərin elementləri və s. qeyd etmək olar.

Bir daha qeyd edək ki, "Penetron" betonun daxilinə nüfuz edərək betonun tərkib hissəsinə çevrilir, betonun su keçirmə əmsalını qaldırır və möhkəmliyini artırır ki, bu da suların, qrunt sularının betona keçməsinin qarşısını birdəfəlik almış olur.

**Su izolyasiyası barədə...**

Su izolyasiyası hidroizolyasiya olub, hər hansı bir obyekt və strukturun bütövlükdə və ya onun hər hansı bir hissəsinin suyun mənfi təsirlərindən qorunması deməkdir. Su izolyasiyası yaş mühitlərdə və sualtı obyektlərdə taxta, metal, kərpic və bu kimi bir çox materialların qorunması üçün geniş şəkildə istifadə olunur.

Su izolyasiyası strukturların, binaların zamanla suyun təsirindən aşınmasının, zərər görməsinin qarşısını almaqda son dərəcə önəmli rol oynayır və daha sağlam, dözümlü, uzun ömürlü və təhlükəsiz mühit yaradır. Xüsusilə, zəlzələ bölgələrində suyun yaratdığı aşınmalar binalar və ətrafdakı həyat üçün ciddi təhlükə yaratdığından bu ərazilərdə su izolyasiyasının önəmi daha da artır.



*Zaqatala, Talaçay körpüsü*

Su izolyasiyasının ən əhəmiyyətli xüsusiyyətlərindən biri ondan ibarətdir ki, su izolyasiyası nəm mühitdə yaranan və insan sağlamlığına böyük təhlükə yaradan bakteriya və bir çox mikroorqanizmlərin qarşısını alır.

Müasir dövrdə tikililərin iqtisadi cəhətləri, onlara çəkilən xərclər qarşılığında obyektlərin uzun ömürlü olması mühüm əhəmiyyət kəsb edir. Su izolyasiyasının tətbiq olunması tikililərin daha davamlı olmasına gətirib çıxarır. Araşdırmalar göstərir ki, su izolyasiyası binaların tikintisi üçün çəkilən xərclərin cəmi üç faizini təşkil edir. Bu da onu göstərir ki, kiçik xərclər qarşılığında binaların uzun ömürlülüyünün təmin olunmasında su izolyasiyasından istifadə son dərəcə effektiv üsuldur.

Terras və damlar, döşəmələr, divarlar, fasadlar su izolyasiyasının əsas tətbiq obyektləridir. Su izolyasiyası evlərin tikintisi zamanı tətbiq oluna bilir. Bununla yanaşı, tikintisində izolyasiyadan istifadə olunmamış evlərin zirzəmisində və digər hissələrində izolyasiya prosesinin sonradan tətbiq olunması da mümkündür.

"Penetron-Azərbaycan" MMC su izolyasiyasında standartlara uyğun, yüksək keyfiyyətli işlər təklif edir. Təlim görmüş və uzun müddətli iş təcrübəsinə malik mütəxəssislərdən ibarət peşəkar komanda istənilən tikilinin və ya strukturun su izolyasiyası işlərini həyata keçirmək qabiliyyətindədir.

Ötən dövr ərzində şirkətin mütəxəssisləri tərəfindən "Paşa İnşaat" MMC – Port Baku, Baku Palace, "Azərtunelmetrotikinti" ASC – "Nəsimi" və "Azadlıq" stansiyaları, "Avro-Asiya İnşaat Korporasiyası" ASC – Taxtakörpü-Ceyranbatan kanalı, "AS İnşaat N" şirkəti – Qaradağ Sement ASC, "Yeni Şəhər" yaşayış kompleksi, "Azərsu ASC" – Oğuz-Qəbələ-Bakı su kəməri, "Azərsun" – AKKİK, "Azimport" MMC – Yeni bulvar, "Azenco" ASC – Mingəçevir SES, "Körpü-Bina-Tikinti" MMC – Taxtakörpü-Ceyranbatan kanalı, yeraltı keçidlər, "Rövşən-Oğuz Group" – Qax Olimpiya Kompleksi, "Gilan İnşaat" MMC – Aq-



*Sumqayıt Karton fabriki*



*Ceyranbatan Su Təmizləyici Qurğusu*



*Taxtakörpü Ceyranbatan kanalından görüntülər...*

rokompleks Qəbələ, "Meytek Group" – Sağlam Qida, "Cengiz İnşaat" – Taxtakörpü-Ceyranbatan kanalı, DİA Holdinq – Heydər Əliyev Mərkəzi, Flame Tower, "General Construction" MMC – Qlobus Plaza obyektlərində "Penetron" hidroizolayasiya materiallarından istifadə olunmuş və yüksək nəticə əldə olunmuşdur.

Həmçinin "Penetron-Azərbaycan" MMC mütəxəssislərinin gücü ilə Talaçay körpüsü, Qəbələ "Aquapark" İstirahət kompleksi, Rixos Quba otel və İstirahət mərkəzi və çoxlu sayda yaşayış komplekslərinin tikintisində də izolyasiya işləri aparılmış və bütün işlər uğurla tamamlanmışdır.

Bundan əlavə olaraq fərdi tikililərin inşasında da "Penetron" hidroizolyasiya materialları uğurla istifadə olunmuşdur.

Deyək ki, "Penetron-Azərbaycan" MMC bu gün bu istiqamətdəki fəaliyyətini yüksək səviyyədə davam etdirir və əminik ki, "Penetron" hidroizolayasiya məhsulları Azərbaycanın tikinti sektorunda özünə getdikcə daha çox yer edəcək və bütün tikililərimizdə ondan maksimum istifadə olunacaqdır. Bu, hər şeydən öncə Azərbaycan vətəndaşlarının xoşbəxt və firavan, sağlam gələcəyi üçün çox vacidir və "Penetron-Azərbaycan" MMC kollektivi bu yolda üzərinə düşən bütün vəzifələri sonacan məsuliyyətlə yerinə yetirəcəkdir.

# R



**Rəsulov**
**Arif**
**Yunis oğlu**

09 may 1967-ci il tarixdə Qazax rayonunun Poylu stansiyasında anadan olub. 1974-1982-ci illərdə Poylu stansiyasındakı 8 illik məktəbdə təhsil alıb. 1982-ci ildən isə Qıraq Kəsəmən kənd orta məktəbində təhsilini davam etdirərək 1984-cü ildə oranı 4 fənn üzrə tərifnamə ilə bitirib.

Həmin ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Sənaye və Mülki tikinti fakültəsinə daxil olub. Dərin biliyi və institutun ictimai həyatında aktivliyi ilə fərqlənən Arif Rəsulov orada təhsil aldığı müddətdə həmin İnstitutun Elmi Şurasının üzvü olub.

Arif Rəsulov 1985-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. 1985-ci ildən 1987-ci ilədək hərbi xidmətdə olarkən Dəmiryolu Qoşunlarının tərkibində Baykal-Amur Magistralının tikintisində iştirak edib.

O, 1991-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirərək İnşaat mühəndisi ixtisasına yiyələnib.

O, 1990-cı ildə hələ Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Sənaye və Mülki tikinti fakültəsində təhsil alarkən Bakı Metropoliteninin Tunel qurğuları xidmətində tunel fəhləsi kimi işləməyə başlayıb. Tunel fəhləsi kimi fəaliyyətə başlayan Arif Rəsulovun yüksək iş bacarığı, istehsalatla bağlı mürəkkəb hallarda müsbət qərar qəbul etmək qabilliyəti onun xidməti pillələrlə sürətlə irəliləyərək tunel ustası, baş tunel ustası, distansiya rəisi, baş mühəndis kimi müxtəlif vəzifələrdə çalışaraq xidmət rəisi vəzifəsinədək yüksəlməsinə səbəb olub.

O, 1999-cu ildən istehsalatdan ayrılmamaqla təhsilini 9 il əvvəl bitirdiyi, indi artıq institut yox, Azərbaycan Memarlıq İnşaat Universiteti adlanan ali təhsil müəssisəsində davam etdirərək "Nəqliyyat tikintisi" fakültəsinin "Körpülər və nəqliyyat tunellərinin tikintisi" ixtisasına yiyələnib. Bununla da uzun müddət çalışdığı bu sahədə biliyini daha da möhkəmləndirib.

O, 2001-ci ildə xüsusi xidmətlərinə görə "Fəxri Dəmiryolçu" nişanı ilə təltif olunub.

Arif müəllim bilikli və səriştəli mütəxəssis kimi müntəzəm olaraq MDB ölkələrinə ezam olunaraq "Metro" Assosiasiyasının müşavirə və yığıncaqlarında Bakı Metropolitenini təmsil edib.





*Azərbaycan Prezidenti İlham Əliyev "28 May" metro stansiyasının II çıxışının açılışında...*

**BAKI METROPOLİTENİ XƏTLƏRİNİN KONSEPTUAL İNKİŞAF SXEMİ**




*Bakı Metropoliteninin konseptual inkişaf planı*



*"28 May" metro stansiyasının 2-ci çıxışı...*

Arif Rəsulov bir neçə kitab və məqalələrin müəllifidir, o cümlədən "Rusça-Azərbaycanca metropoliten terminləri lüğəti"nin və "Metropoliten tunelləri. Qurğuların istismarı və təmiri" kitabının müəlliflərindən biridir.



*Bakı Metropoliteninin yeni inzibati binası*



*Bakı Metropoliteninin yeni inzibati binası (gecə görüntüsü)*

O, Bakı Metropoliteni rəisinin əmri ilə 2004-cü ilin sentyabr ayının 16-dan Əsaslı Təmir xidmətinin rəisi vəzifəsinə keçirilib.

01.06.2007-ci il tarixində Tikilən Bakı Metropoliteni Müdiriyyətinin



*"28 May" stansiyasının 2-ci çıxışının interyeri*



*"Koroğlu" metro stansiyası rekonstruksiyadan sonra...*



*"Koroğlu" metro stansiyası*




*"İçərişəhər" metro stansiyasının giriş hissəsinin axşam görüntüsü...*

rəisi vəzifəsinə təyin olunub.

01.01. 2008-ci il tarixdən isə Bakı Metropoliteninin rəis müavini vəzifəsinə təyinat alıb.

Arif müəllim 2014-cü ilədək hər iki vəzifəni icra edib.

Məhz Arif Rəsulovun Tikilən Bakı Metropoliteni Müdiriyyərinin rəisi olduğu illərdə "Nəsimi", "Azadlıq prospekti" və "Dərnəgül" metro stansiyaları, "28 May" stansiyasının II çıxışı, Bakı Metropoliteninin Baş İdarəsinin inzibati binası tikilib istifadəyə verilmiş, "28 May", " İçərişəhər" və "Koroğlu" metro stansiyaları rekonstruksiya olunmuşdur. Bundan başqa həmin dövrdə Bakı Metropoliteninin konseptual inkişaf planı işlənmiş və respublika prezidenti tərəfindən təsdiq olunmuşdur.

Metropoliten tikintisi kompleksinin inkişafındakı xidmətlərinə görə Arif Rəsulov Azərbaycan Respublikası Prezidentinin 09 aprel 2010-cu il tarixli 844 saylı Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 07.11.2012-cil il tarixli sərəncamı ilə

Arif Yunis oğlu Rəsulova "Əməkdar Mühəndis" fəxri adı verilmişdir.

2014-cü ildən bəri İnşaat və logistika işləri ilə məşğul olan "RAYS GROUP" Şirkətinin rəhbəridir.

Ailəlidir, iki övladı var.



**Rəhimova Zəhra Şahsuvar qızı**

1944-cü ildə Qafan rayonu Açaxlu kəndində anadan olmuşdur. 1946-cı ildə ailəlikcə Bakı şəhərinə köçmüşdür.

1962-ci ildə 175 nömrəli orta məktəbi bitirdikdən sonra o, Azərbaycan Politexnik İnstitutuna qəbul olunmuşdur. Həmin ildə o, orta təhsil aldığı 175 nömrəli məktəbdə kimya kabinetində laborant vəzifəsində ilk əmək fəaliyyətinə başlamışdır.

Z.Rəhimova 1966-cı ildə “Bakıbaştikinti” İdarəsində ixtisası üzrə işləməyə başlamışdır. Belə ki, o, BBTİ-nin Normativ Tədqiqatlar Bürosunda əvvəlcə texnik, mühəndis, sonra isə baş mühəndis, rəis vəzifəsini icra edən, Əmək, əmək haqqı və kadr şöbəsinin rəis müavini, Əmək və əmək haqqı şöbəsinin rəisi vəzifələrində işləmişdir.

Zəhra xanım 1986-cı ildə “Bakıdövlətlayihə” İnstitutuna işə qəbul olunmuş və 1989-cu ilə kimi institutun texniki şöbəsində aparıcı mühəndis vəzifəsində çalışmışdır. 1986-cı ildə “Əməkdə fərqlənməyə görə” medalı ilə təltif olunmuşdur.

Zəhra Rəhimova 1989-cu ildən Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsində Əmək və əmək haqqı şöbəsinin rəis müavini vəzifəsində işə başlayıb və 2005-ci ilə kimi burada İqtisadiyyat və iqtisadi təhlil şöbəsində baş iqtisadçı, Smeta normaları və Qiymətqoyma şöbəsində rəis müavini, Smeta normaları və material sərfi şöbəsinin rəisi, Qiymətqoyma metodologiyası, tikintidə qiymət konyunkturası şöbəsinin rəisi, Tikintidə marketinq və qiymətqoymanın təkmilləşdirilməsi şöbəsinin rəisi, Qiymətqoyma və Smeta Normaları İdarəsinin rəisi və Qiymətqoyma və Smeta Normaları şöbəsinin müdiri vəzifələrində çalışmış, üzərinə düşən bütün tapşırıq və vəzifələri yüksək məsuliyyətlə icra etmişdir.

Zəhra xanım 30 noyabr 2005-ci il tarixdə dövlət qulluqçularının pensiya təminatı haqqında AR Qanununa əsasən təqaüdə çıxmışdır.

Zəhra xanım Rəhimova təqaüdə çıxdıqdan sonra 2006-cı ildə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Tikintidə Qiymətqoyma Mərkəzində mühəndis-iqtisadçı kimi əmək fəaliyyətinə başlamış, son illərdə isə baş mühasib vəzifəsində çalışmışdır.

Zəhra xanım 55 ilə yaxın böyük bir dövrü əhatə edən əmək fəaliyyəti illərində çalışdığı bütün təşkilatlarda – Bakı Baş Tikinti İdarəsində, Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsində, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyində çalışan bütün insanların yaddaşında silinməz iz salmışdır. O, həm işinin, sənətinin peşəkarı olan nümunəvi işçi kimi, həm gözəl insan kimi, həm də Azərbaycan qadınına xas olan bütün müsbət keyfiyyətləri özündə təcəssüm etdirən bir xanım kimi, ana kimi xüsusi hörmət və nüfuz qazanmış xanımlardan biri idi.

Hər kəslə öz dilində danışmağı bacaran, bütün problemlərin sülh yoluyla həllini istəyən və hər zaman məqbul həll yolunu tapan bu xanım bütün məsələlərdə həmişə obyektiv mövqeyi ilə seçilmişdir.

Zəhra Şahsuvar qızı Rəhimova 2020-ci ilin fevral ayının 10-u tarixində, 76 yaşında haqq dünyasına qovuşmuşdur.



**Rzayev Rövşən Ağarza oğlu**
15 yanvar 1961-ci ildə Şirvan (Əli-Bayramlı) şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Orta təhsilini aldıqdan sonra 1978-ci ildə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin "İnşaat" fakültəsinə daxil olaraq, 1983-cü ildə "Sənaye və mülki tikinti" ixtisasını bitirmiş, inşaatçı-mühəndis diplomunu almışdır.

Rövşən Rzayev ali təhsil aldıqdan sonra 1983-cü ildə təyinatla Litva Respublikasının "Litov enerjitikinti" trestinin Kaunas şəhərində yerləşən Quraşdırma idarəsində usta köməkçisi kimi əmək fəaliyyətinə başlamışdır. 1983-1985-ci illərdə ordu sıralarında qulluq etdikdən sonra əvvəlki iş yerinə qayıdaraq Kaunas Quraşdırma idarəsində usta, iş icraçısı və sahə rəisi vəzifələrdə çalışmışdır.

1988-ci ildə keçmiş Sovet İttifaqı tərəfindən Azərbaycanda (Nəvai kəndində) tikintisi aparılan Azərbaycan Atom Elektrik Stansiyasına SSRİ Enerji Nazirliyi tərəfindən göndərilmiş və Tikilməkdə olan Atom Elektrik Stansiyasının Müdiriyyəti İdarəsində mühəndis vəzifəsində çalışmışdır.

1989-cu ildə Rövşən Ağarza oğlu Azərbaycan Atom Elektrik Stansiyasının tikintisinin dayandırılması ilə əlaqədar Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutuna kiçik elmi işçi vəzifəsinə qəbul olunmuş və elmi tədqiqat işlərinə cəlb olunmuşdur.

1990-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda yeni yaradılan "Qurğuların sınağı və zəlzələyədavamlılığı" kafedrasına müəllim vəzifəsinə dəvət olunmuş və qurğuların zəlzələyədavamlığı və sınağı fənlərindən mühazirələr oxumuş, praktiki məşğələlər keçmişdir.

1991-ci ildə Moskva şəhərində Kuçerenko adına Mərkəzi İnşaat Konstruksiyaları İnstitutunun "Zəlzələyədavamlı bina və qurğular" laboratoriyasında təcrübə mübadiləsi keçmişdir. Təcrübə mübadiləsi zamanı yeni zəlzələ rəqslərini ölçən cihaz və avadanlıqlarla, bina və qurğuların zəlzələyədavamlığı sahəsində elmi yeniliklər, problemlərlə tanış olmuş və onların həll olunmasında yaxından iştirak etmişdir.

Elmi təcrübə topladıqdan sonra Rövşən Rzayev 1992-ci ildə Moskva şəhərində Kuçerenko adına Mərkəzi İnşaat Konstruksiyaları İnstitutunun Aspiranturasına qəbul olunur, 1996-cı ildə "Kinematik dayaqlar üzərində çoxmərtəbəli iripanelli binaların qeyri-stasionar modellərinin işlənilməsi və tədqiqi" mövzusunda namizədlik disertasiyasını müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Aspirantura təhsili zamanı R.A.Rzayev 1992-ci ildən başlayaraq Rusiyanın Buryatiya Respublikasının Selenginsk, Novokuznetsk, Zeya şəhərlərində "Kinematik kəmər seysmomüdafiə qurğulu 5-9 mərtəbəli kərpic və iripanelli eksperimental binaların zəlzələ yüklərinin təsirinə aparılan natura sınaqlarının", 1996-cı ildə Soçi şəhərinin Lazerevsk şəhərində mövcud 16 mərtəbəli yaşayış binasının zəlzələyədavamlılığının 1 bal artırılmasının həyata keçirilməsində yaxından iştirak etmişdir. Natura sınaqları zamanı qruntda binada real zəlzələ yükləri yaradılmış və bina konstruksiyalarında zəlzələ yüklərinin qiymətləri ölçülmüş, binaların zəlzələyədavamlığı qiymətləndirilmiş və onların kütləvi layihələndirilməsinə,

tikintisinə aid təkliflər, tövsiyələr layihə və tikinti təşkilatlarına verilmişdir.

Sevindirici haldır ki, R.A.Rzayevin dissertasiya işinin elmi praktik nəticələri Rusiya Federasiyasının yüksəkintensivli zəlzələ ərazilərində yeni layihələndirilən və mövcud bina və qurğuların zəlzələyədavamlılığının artırılmasında geniş istifadə olunmuşdur.

1996-cı ildə Rusiyada nəşr olunan "Sənaye və mülki tikinti" jurnalında texniki elmlər doktoru A.Kurzanov başda olmaqla bir neçə alimin "Soçi şəhərində 16 mərtəbəli mənzilin seysmomüdafiəsi" adlı məqaləsində vaxtilə Moskva şəhərində Kuçerenko adına Mərkəzi İnşaat Konstruksiyaları İnstitutunun aspiranturasında Rövşən müəllimin apardığı sınaqların elmi nəticələrindən istifadə edilməsi ilə əlaqədar rus alimi ona öz təşəkkürünü bildirmişdir.

1998-ci ildə R.A.Rzayev "Göy-göl" mehmanxanasının "Lukoyl-Bakı" ofis binasına rekonstruksiya layihəsinin həyata keçirilməsinə görə VI Beynəlxalq ən yaxşı memarlıq əsərlərinin baxış müsabiqəsinin laureatı olmuşdur.

R.A.Rzayev 1999, 2001 və 2003-cü illərdə Soçi şəhərində keçirilən "Zəlzələyədavamlı bina və qurğular" beynəlxalq konfransında elmi məqalələrlə çıxış etmişdir.

1998-2003-cü illərdə Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə "Bina və qurğuların aktiv seysmoizolə tədbirləri nəzərə alınmaqla layihələndirilməsi və gücləndirilməsinin yerli şəraitə uyğun işlənməsi və müvafiq tövsiyələrin hazırlanması" mövzusuna rəhbərlik etmiş, respublikada tikintiyə uyğun yeni "Kinematik kəmər seysmomüdafiə qurğusu" işlənilmiş və onun konstruksiyasına Azərbaycan Respublikası Standartlaşdırma, metrologiya və patent üzrə Dövlət Agentliyi tərəfindən 18.11.2003-cü ildə Dövlət Reyestrində qeydiyyatdan keçmiş "Zəlzələyədavamlı qurğunun özülü" İ 20030217 saylı patent verilmişdir. Kinematik kəmər seysmomüdafiə qurğusunun natura sınaqları aparılmış və onun nəticələrinə əsasən 2008-2010-cu illərdə bu dayaqlar üzərində 27 mərtəbəli binanın eksperimental layihəsi hazırlanmış və binada natura sınaqlarının aparılması metodları işlənilmişdir.

2011-2012-ci illərdə R.A.Rzayev "Polad konstruksiyalar", "Daş və armodaş konstruksiyalar", "Ağac konstruksiyalar" Tikinti Norma və Qaydaları normativ sənədlərinin azərbaycan və rus dillərində yeni redaksiyada hazırlanmasına rəhbərlik etmişdir.

1998-2006-cı illərdə MDB ölkələrinin keçirdiyi "Zəlzələyədavamlı tikililər və təbii fəlakətlərin qarşısının alınması" konfranslarında Azərbaycan Respublikasının nümayəndə heyətində olmuşdur. Azərbaycan və MDB ölkələrində dərc olunmuş 40-dan çox elmi məqalənin, bir ixtiranın və bir dərsliyin müəllifidir.

R.A.Rzayev Rusiya Federasiyasının Tomsk, Kislovodsk və Mahaçkala şəhərlərində tikilmiş yaşayış komplekslərinin baş konstruktoru olmuşdur.

Respublikada reallaşdırılmış bir çox dövlət əhəmiyyətli bina və qurğuların, obyektlərin layihələndirilməsinin və mühəndisi-müayinəsinin müəlliflərindən biridir. Buna misal olaraq, "Heydər Əliyev Fondu", "Avroviziya Mətbuat Xidməti" binalarını, "Bayraq meydanı" qurğularını, "Sumqayıt Texnologiyalar parkı", "Cənub Elektrik Stansiyası", "Füzuli Su Elektrik Stansiyası", "Gənc Tamaşaçılar Teatrı", "Azərbaycan Texniki Universiteti", "Gülüstan", "Prezident" sarayı binalarını və həmçinin İçəri şəhər Tarixi Memarlıq Qoruğu ərazisində yerləşən bir çox binaları göstərmək olar.

Azərbaycan Respublikası ərazisində tikilən çoxmərtəbəli unikal bina və qurğuların respublikada qüvvədə olan Normativ Sənədlərin tələblərinə müvafiq layihələndirilməsi üçün texniki şərtlərin işlənilməsi və bu binaların tikintisinin elmi-texniki istiqamətlərində müşayiət olunmasında laboratoriyada müəyyən işlər aparılır. Buna misal olaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 40 mərtəbəli, Azərbaycan Respublikası Mərkəzi Bankının 32 mərtəbəli, "Azərenerji" ASC-nin 31 mərtəbəli inzibati binalarını göstərmək olar.

R.A.Rzayev Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun Elmi Şurasının və Azərbaycan Memarlar İttifaqının üzvüdür. Rövşən müəllimin rəhbərliyi altında laboratoriya əməkdaşları aspirantura və magistr təhsillərini davam etdirirlər.

Hal-hazırda R.A.Rzayev "Zəlzələyədavamlı bina və qurğular" laboratoriyasına rəhbərlik edir. Laboratoriya zəlzələ zamanı alınmış məlumatları təhlil edərkən seysmiki qüvvələrin qurğulara təsiri nəzərə alınmaqla binaların hesablama üsullarının dəqiqiləşdirilməsində, inşaat konstruksiyalarının zəlzələyədavamlılığının yoxlanılmasında, mövcud qüvvədə olan normativ sənədlərin təkmilləşdirilməsi və başqa bu kimi nəzəri və praktiki məsələlərin həll olunmasında böyük işlər görmüşdür.

Laboratoriya müxtəlif təyinatlı çoxmərtəbəli hündür binalarda yerləşdirilən seysmometrik stansiyaların köməkliyi ilə zəlzələlərdə və güclü küləklərdə binaların vəziyyətini müşahidə etmiş və əldə olunan zəlzələ yazılışlarına onların dayanıqlığının artırılması istiqamətində tədqiqatlar aparmışdır.

Laboratoriyada respublika əhəmiyyətli tarixi memarlıq abidələrinin, digər bina və qurğuların mühəndisi-müayinəsi və bərpasının texniki həllərinin işlənilməsi, binaların gücləndirilməsi və layihələrinin işlənilməsi təsərrüfat hesabı ilə aparılır. Eyni zamanda şöbənin kollektivi tərəfindən respublikada mənzil tikintisinin inkişafını nəzərə alaraq "Çoxmərtəbəli hündür zəlzələyədavamlı dəmir-beton polad konstruksiyalı binaların səmərəli konstruktiv sxemlərinin seçilməsi, onların hesablama metodunun işlənilməsi və layihələndirilməsi üçün vəsaitin hazırlanması" mövzusu üzərində elmi-tədqiqat işləri aparılmışdır.

Hal-hazırda laboratoriyada bina və qurğuların seysmik təsirlərə qarşı dayanıqlığının artırılması məqsədilə rezin metal dayaq yastığının təkmilləşdirilmiş konstruksiyalarının tədqiqi və onun tikinti praktikasında tətbiqi üçün tövsiyələrin işlənilməsi istiqamətində elmi-tədqiqat işləri aparılır. Laboratoriya tərəfindən təklif olunan seysmomüdafiə qurğusunun əsas üstünlüklərindən biri də odur ki, bu qurğu konstruktiv xüsusiyyətinə görə çox sadədir və respublikanın tikinti sənayesinin təşkilatları onların istehsalını təşkil edə bilər. Seysmomüdafiə qurğusunun əsas üstünlüklərindən biri də onların baş vermiş zəlzələdən sonra zədələndiyi halda dəyişdirilib, yeniləri ilə əvəz olunmasıdır. Seysmomüdafiə qurğusu ilkin mərhələdə 2-9 mərtəbəli bina və qurğuların zəlzələyədavamlılığının təmin olunmasında istifadə oluna bilər. Rezin metal dayaq yastıq seysmomüdafiə qurğusu əsasən zəlzələ zamanı həyati əhəmiyyətli bina və qurğuların, xəstəxanaların, uşaq bağçalarının, tibbi əməliyyat otaqlarının, körpülərin tikintisində istifadə oluna bilər. Qurğunun tətbiqi yüksək intensivlikli zəlzələ ərazilərində tikintinin miqyasının təhlükəsizlik təmin olunmaqla artırılmasına imkan verər. Hal-hazırda rezin metal dayaq yastığı seysmomüdafiə qurğusunun natura sınaqlarının aparılması planlaşdırılır.

# S

**Samur çayı üzərində yeni körpü**

2019-cu ilin dekabrın 24-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası sərhədindən keçən Samur çayının üzərində tikilən yeni avtomobil körpüsü istifadəyə verildi.

Azərbaycan – Rusiya dövlət sərhədində "Samur" (Azərbaycan Respublikası) – "Yaraq Qazmalar" (Rusiya Federasiyası) sərhəd-keçid məntəqəsində yerləşən Samur çayı üzərindəki mövcud avtomobil yolu körpüsü 1957-ci ildə inşa edilmişdir. Körpü 60 ildən artıq bir dövr ərzində istismar olunduğundan texniki vəziyyəti, yük götürmə qabiliyyəti, en və hündürlük qabarit ölçüləri bu günün tələblərinə cavab vermirdi. Mövcud körpünün yenidən qurulması və yeni körpünün inşası mövzusu, Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisinin ikitərəfli parlamentlərarası komissiyasının, İqtisadi əməkdaşlıq haqqında Hökumətlərarası Komisssiyanın iclaslarında, eləcə də iki ölkənin dövlət başçıları və nəqliyyat nazirləri arasında keçirilmiş görüşlərdə dəfələrlə müzakirə edilsə də, iki ölkə arasında dövlət sərhədi xəttinin delimitasiyası prosesinin başa çatdırılmaması ilə əlaqədar olaraq bu məsələ qeyri-müəyyən müddətə təxirə salınmışdır.

2009-cu ilin iyun ayının 29-da "Azərbaycan Res-



publikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyasının başa çatdırılmasının və Samur çayının su ehtiyatlarının bölüşdürülməsinin əsas prinsipləri haqqında" Birgə Bəyanatın imzalanmasından sonra mövcud körpünün yenidən qurulması və ya təmiri və yeni körpünün inşası məsələsinə yenidən baxılmışdır.

Nazirlər Kabinetinin 2012-ci il 06 iyun tarixli, 17/2601-22/26/12/31 nömrəli tapşırığına əsasən Saziş layihəsi dövlətdaxili prosedurlardan keçirilmiş və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 19 yanvar tarixli, 373 nömrəli Fərmanına müvafiq olaraq, "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında "Azərbaycan-Rusiya dövlət sərhədində "Samur" (Azərbaycan Respublikası) – "Yaraq Qazmalar" (Rusiya Federasiyası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərindən avtomobil körpüsünün tikintisi haqqında" 13 avqust 2013-cü il tarixli Saziş imzalanmışdır.

"Azərbaycan-Rusiya dövlət sərhədində "Samur" (Azərbaycan Respublikası) – "Yaraq Qazmalar" (Rusiya Federasiyası) sərhəd-keçid məntəqəsi ərazisində Samur çayı üzərində körpü keçidinin tikintisi" layihəsi "Azəryolservis" ASC (hazırkı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi) ilə bağlanmış 2013-cü il 27 sentyabr tarixli 09/92 nömrəli müqaviləyə əsasən "Gidrotransproyekt Elmi-tədqiqat Mərkəzi" MMC tərəfindən hazırlanmışdır.

Körpünün açılış mərasimində Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayev, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərləri, baş podratçı "Evrascon" ASC-nin rəhbərləri, Quba, Qusar və Xaçmaz rayonlarının icra hakimiyyətlərinin rəhbərləri, Rusiya tərəfdən isə bu ölkənin İqtisadi İnkişaf naziri Maksim Oreşkin, Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Vladimir Vasilyev, Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov və başqaları iştirak edirdi.

Açılış mərasimində Azərbaycan və Rusiya arasındakı uzunmüddətli dostluq və əməkdaşlıq münasibətlərindən danışıldı, həyata keçirilən infrastruktur layihələrinin bu əlaqələrin daha da genişləndirilməsi baxımından mühüm rolu qeyd edildi və Samur çayı üzərində yerləşən avtomobil körpüsünün açılışını ölkələrimiz arasında olan dostluq və qonşuluq münasibətlərinin rəmzi adlandırıldı. Qeyd olundu ki, bu körpü təkcə Samur çayının iki sahilini birləşdirmir, həm də xalqlarımızı birləşdirir.

Yeni körpü beynəlxalq layihələrin həyata keçirilməsi üçün daha geniş imkanlar yaradır. Yeni körpünün sərhədyanı rayonlarda yaşayan insanların əlaqələrinin daha da sıxlaşmasına imkan verəcək, bu körpü ticarət əməliyyatlarının genişlənməsinə də səbəb olacaqdır.

Yeni körpü Şimal-Cənub nəqliyyat dəhlizinin vacib komponentidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən siyasət nəticəsində ölkədə bütün sahələrdə, o cümlədən nəqliyyat sektorunda davamlı inkişaf müşahidə olunur. Azərbaycan bir sıra beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsində fəal iştirak edir. Rusiya tərəfi ilə birgə Samur çayı üzərində körpünün qurulması da Azərbaycanın reallaşdırdığı infrastruktur layihələrindən biridir.

İnşaat işlərinin xərclərinin 50 faizi Azərbaycan, 50 faizi isə Rusiya hökuməti tərəfindən ödənilib. Müasir standartlara cavab ve-





*Samur çayı üzərində yeni körpünün açılışından görüntülər...*

rən yeni körpü 1957-ci ildə inşa olunmuş köhnə tikilini əvəzləyir. İki zolaqdan ibarət körpünün uzunluğu 325,3 metr, eni 17,3 metrdir.

“Gidrotransproyekt Elmi-tədqiqat Mərkəzi” MMC tərəfindən hazırlanmış tikinti layihəsinin həyata keçirilməsində Layihənin baş mühəndisi Əliyev Qulam Nadir oğlunun, həmçinin baş podratçı təşkilatın – “Evrascon” ASC-nin Layihə rəhbəri Aşurov Nazim Əlibala oğlunun əməyi xüsusi qeyd olunmalıdır. Həmçinin Avtomobil yolu körpüsünün tikintisində “Evrascon” şirkətinin 200 nəfərədək işçisi çalışmışdır.

Tikintiyə texniki nəzarəti Rusiyanın “Dortexnokontrol” MMC şirkəti həyata keçirmişdir.

Fəaliyyət müddəti ərzində “Evrascon” ASC həm Azərbaycanda, həm də ölkə xaricində müxtəlif obyektlərin tikintisi sahəsində böyük təcrübə qazanmışdır. Bu gün “Evrascon” ASC ölkədə genişmiqyaslı tikinti işlərində bilavasitə iştirak edən ən böyük şirkətlərdən biridir.

Şirkətə 1994-cü ildən Əfəndi Hacımurad oğlu İsmiyev rəhbərlik edir. Hazırkı vaxtda da ölkə tikintisində son 25 il ərzində həyata keçirdiyi tikinti işləri ilə kamil mühəndis və rəhbər kimi tanınan, gənc inşaatçı-mühəndis kadrlarının püxtələşməsində böyük rolu olan ustad müəllim, Azərbaycan Respublikasının Əməkdar Mühəndisi və Dağıstan Respublikasının əməkdar inşaatcısı Əfəndi İsmiyev “Evrascon” ASC-nin Direktorlar Şurasının sədridir. Bu illər ərzində Əfəndi müəllimin rəhbərliyi altında strateji əhəmiyyət kəsb edən yüzlərlə layihələr həyata vəsiqə qazanmışdır.

“Evrascon” ASC-nin son illərin strateji əhəmiyyət kəsb edən böyük layihələrindən – Ələt-Astara avtomobil yolunun 50 km uzunluğunda hissəsinin və bu hissədə Kür çayı üzərindən körpünün tikintisi (Salyan şəhəri); M6 Hacıqabul-Horadiz avtomobil yolunda Kür çayı üzərindən körpünün tikintisi (Şirvan şəhəri); Araz çayının yeni qolunun tikintisi, Bakı, Sumqayıt şəhərləri və Abşeron yarımadasının su təchizatı üçün strateji əhə-



miyyət kəsb edən Samur-Abşeron kanalı suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində "Taxtakörpü" su anbarının, uzunluğu 30 km olan "Vəlvələçay-Taxtakörpü" kanalının və uzunluğu 110 km olan "Taxtakörpü-Ceyranbatan" kanalının tikintiləri; Tovuzçay bəndinin tikintisi; Poylu stansiyasında Kür çayı üzərindən dəmir yolu körpü keçidinin tikintisi; Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının 1-ci hissəsinin tikintisi; "Avtovağzal-Memar Əcəmi-2" keçid tunelinin qolunun tikintisi və Bakı metropoliteninin "Əcəmi-2" stansiyası üçün "qruntda divar" üsulu ilə divarların tikintisi; Kazan şəhərində (Rusiya) "Leninskaya" bəndinin bir hissəsinin yenidən qurulması və Kazanka çayı üzərində körpünün tikintisi; M-07 Kiyev-Kovel-Yaqodin avtomobil yolunun km 30+600 – km 64+000 hissəsinin əsaslı təmiri, M-06 Kiyev-Çop (Ukraynanın Kiyev vilayəti) avtomobil yolunun 21 km-də müxtəlif səviyyəli nəqliyyat qovşağının tikintisi; "RF sərhədi (Samaraya) – Şımkent" (Qazaxstan) respublika əhəmiyyətli avtomobil yolunun km 2231-674 və km 1807-1837 hissələrinin yenidən qurulması; "20 Yanvar" metro stansiyası rayonunda böyük yolötürücünün, metronun "Koroğlu" stansiyası rayonunda, Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişdiyi yerdə nəhəng yol qovşağının tikintisi; Bakı şəhərinin H. Seyidbəyli küçəsində böyük yaşayış kompleksi, Pirallahı adası ilə Abşeron yarımadasını birləşdirən uzunluğu 710, eni isə 14 metr olan yeni körpü və sair tikintiləri qeyd etmək olar.

Hazırkı vaxtda Əfəndi İsmiyevin rəhbərliyi altında "Evrascon" ASC-nin inşaatçıları respublikamızın ərazisində və onun hüdudlarından kənarda bir sıra infrastruktur layihələri üzərində işlərini uğurla davam etdirirlər. Samur çayı üzərində yeni körpünün istifadəyə verilməsi "Evrascon" ASC kollektivinin növbəti uğurudur.

Xatırladaq ki, körpünün tikintisinə 2018-ci il fevralın 14-də başlanılıb və layihəyə uyğun olaraq iki ildən az müddətdə inşası başa çatdırılaraq istifadəyə verilib.



**Süleymanov Rasim Axun oğlu**

8 avqust 1960-cı ildə Quba rayonunun II Nügədi kəndində fəhlə ailəsində doğulmuşdur. Atası sürücü, anası evdar qadın olmuşdur. Süleymanovlar ailəsindəki altı oğlan və iki qız övladın ortancılı olan Rasim uşaqlıqdan zəhmətə alışıb və məktəbdə əla qiymətlərlə oxumuşdur. Doğma kəndlərindəki orta məktəbin 8-ci sinfini fərqlənmə attestatı ilə bitirdikdən sonra sənədlərini Sumqayıt Politexnik Texnikumuna verib və bu orta-ixtisas məktəbinin İnşaatçı bölümünə qəbul olunmuşdur. Həmin təhsil müəssisəsini də fərqlənmə diplomu ilə bitirdikdən sonra Rasim Süleymanov hərbi xidmətə yollanmışdır. Hərbi xidmətdən döndükdən sonra 1982-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun (indi Azərbaycan Memarlıq və İnşaat Universiteti) axşam şöbəsinə qəbul edilmişdir. Ali məktəbdə təhsil alan zaman 2 saylı Tikinti trestində iş ustası kimi çalışmışdır. İnstitutu uğurla bitirdikdən sonra bir müddət istehsalatda işləmişdir. 2006-cı ildə “Arxitektura və dizayn” MMC layihə şöbəsində Rasim Süleymanov müxtəlif layihələr üzərində çalışan memar və dizaynerlər qrupu ilə müştərək fəaliyyət göstərərək bu sahədə çoxsaylı layihələr hazırlayırlar. Ötən müddət ərzində həmin qrup tərəfindən Sumqayıt şəhərində, Abşeron rayonunda və digər rayonlarda xeyli sayda çoxmərtəbəli yaşayış binalarının, sənaye və ictimai obyektlərin layihələri yüksək səviyyədə işlənmişdir. Həmin binaların əksəriyyəti artıq inşa edilib və hazırda öz təyinatı üzrə uğurla istismar olunmaqdadır.

Son illərdə Sumqayıt bulvarında yerləşən bir sıra layihələrin, o cümlədən Bayraq meydanı, Bayraq muzeyi və Muğam mərkəzinin layihələri təcrübəli inşaatçı-mühəndis və konstruktor Rasim Süleymanovun layihə qrupunun rəhbəri olduğu bu memarlıq və dizayn studiyası tərəfindən işlənərək şəhərə töhfə edilmişdir. Sumqayıtda illərlə yaşayacaq həmin binalar öz müəlliflərinə və onların rəhbərinə daim qürur və şərəf gətirəcəkdir.

Ailəlidir. Ailəsi həyat yoldaşı Bəsirə xanım, oğlanları Ramin və Sahib, qızı İlahədən ibarətdir. Oğlanları Ramin və Sahib atalarının yolunu davam etdirərək inşaatçı-mühəndis sənətini seçiblər, qızı İlahə isə Dövlət Rəssamlıq Akademiyasının tələbəsidir. İki nəvəsi var – Məryəm və Elvin. Allah saxlasın.



*Sumqayıt bulvarında Bayraq meydanı, Bayraq muzeyi və Muğam mərkəzi*



**Sultanov Fuad Aydın oğlu**

22 sentyabr 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1983-cü ildə Azərbaycan İnşaat Mühəndislər İnstitutunu bitirmiş, inşaatçı mühəndisdir. Eyni zamanda 1980-ci ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun iki illik (ingilis dili) kursunu bitirmişdir. Politexnik İnstitutunu bitirdikdən sonra 1983-cü ilin sentyabrından noyabrına qədər SSRİ Dövlət Tikinti Komitəsinin Beton və Dəmir-beton Elmi-Tədqiqat İnstitutunun Bakı laboratoriyasında mühəndis işləmişdir.

1983-1985-ci illər hərbi qulluqda olmuşdur. Hərbi qulluqdan sonra 1985-ci ildə Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun "İnşaat konstruksiyaları" laboratoriyasına kiçik elmi işçi vəzifəsinə götürülür.1989-cu ildə Azərbaycan Hidrotexnik və Meliorasiya Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olur. Qazaxıstan Dövlət Memarlıq İnşaat Akademiyasının 22 may 1992-ci il Elmi Çurasının qərarına əsasən texnika elmləri namizədi diplomuna layiq görülür. Sonralar, 1995-ci ilin iyuluna qədər AzİMETİ-də "İnşaat konstruksiyaları" laboratoriyasında böyük elmi işçi vəzifəsində işləyib. F.A.Sultanov daima öz peşə səviyyəsini təkmilləşdirən, nəzəri və təcrübi nəticələri yüksək səriştə və bacarıqla ümumiləşdirən bir elmi işçi kimi yadda qalmışdır. Üç xarici dildə sərbəst nitq və tərcümə bacarığına malikdir.

# Ş



**Şamilov Hüseyn Süleyman oğlu**

1922-ci il fevral ayının 18-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəb təhsilini Bakı şəhərində almışdır. Orta məktəbi bitirdikdən sonra cəbhəyə getmişdir. Böyük Vətən müharibəsi veteranı idi, döyüş medalları ilə təltif olunmuşdur. Müharibədən sonra təhsilini davam etdirmişdir. 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun inşaat fakültəsində təhsilini tamamlayaraq mülkü və sənaye tikinti ixtisasına yiyələnmişdir.

1952-ci il yanvar ayının 10-dan “Bakıdövlətlayihə” İnstitutunda sıravi texnik vəzifəsində əmək fəaliyyətinə başlamışdır. 1952-1988-ci illərdə “Bakıdövlətlayihə” İnstitutda mühəndis, böyük mühəndis, aparıcı mühəndis, layihənin baş mühəndisi, konstruktor qrupunun rəhbəri, 1 saylı emalatxananın baş konstruktoru və emalatxana rəisinin müavini vəzifələrində işləmişdir.

1988-cı ildən 1997-ci ilədək “Bakıdövlətlayihə” İnstitutunun Texniki şöbəsinin nəzdində fəaliyyət göstərən Müəllif nəzarəti qrupunun rəhbəri olmuşdur.

Bakı şəhərində mikrorayonların tikinti layihələrinin, yaşayış evlərinin və ictimai binaların layihələlərinin hazırlanmasında fəal iştirak etmişdir. “Bakıdövlətlayihə” İnstitutunda yerinə yeririlmiş layihələrin düzgün tikintisinin aparılmasına nəzarət etməkdə gənclərə örnək olmuşdur.

H.S. Şamilov “Bakıdövlətlayihə” İnstitutunun ictimai həyatında da fəal iştirak etmiş, kommunist partiyasının üzvü olmuş, dəfələrlə partiya təşkilatının büro üzvü seçilmiş, institut həmkarlar komitəsinin sədri olmuşdur.

2 sentyabr 1997-ci ildə öz xahişi ilə işdən azad olmuşdur.

H.S.Şamilov 2018-ci ildə vəfat etmişdir.



*Bakı şəhərində mikrorayonların tikinti layihələrinin, yaşayış evlərinin və ictimai binaların layihələndirilməsində Hüseyn Şamilovun böyük əməyi olmuşdur.*



**Şərifov**
**Uğurlu**
**Lətif oğlu**

20 sentyabr 1969-cu ildə Gürcüstan Respublikasının Zalqa rayonunun Tecisi (Culuxlu) kəndində anadan olmuşdur.

1987-1994-cü illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda "Avtomobil yolları və təyyarə limanlarının tikintisi" ixtisası üzrə ali təhsil almış və keçmiş SSRİ-nin Almaniya Demokratik Respublikası ərazisindəki qoşunlarında hərbi xidmətdə olmuşdur.

1994-2018-ci illərdə "Azərsənayetikinti" Dövlət Şirkəti, Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi, "Trialeti" QSC, "AKKORD" ASC və "EVRASCON" ASC – də müxtəlif vəzifələrdə işləmişdir.

Əsas əmək fəaliyyəti nəqliyyat-infrastruktur (avtomobil yolları) tikintisi, inşaat materiallarının istehsalı, ağır inşaat texnikaları, güc avadanlıqları və yük avtomobillərindən ibarət texniki parkın təşkili və idarə olunması, həmçinin beynəlxalq daşımaçılıq və logistika xidməti göstərməkdən ibarət olmuşdur.

Uğurlu Şərifov son illərdə Kiyev-Çop/Ukrayna, Samtredi-Groqoleti/Gürcüstan, Bakı-Astara və Gəncə dolama yolunun, "Gənclik" dairəsi Meydanındakı körpü-tunel kompleksinin, paytaxtın giriş qapısında – Bayılda, 20-ci Sahə adlanan hissədə Su İdman Sarayının avtodayanacaq hissəsinin inşasında, həmçinin, "DİA Holdinq" şirkəti ilə subpodrat müqaviləsi əsasında Şahdağ qış-yay turizm kompleksinin, "Alov Qüllələri"nin tikintisində rəhbər vəzifələrdə çalışaraq inşaatçı mühəndis və istehsalatçı bacarığını göstərmiş, üzərinə düşən bütün vəzifə və tapşırıqları bir qayda olaraq yüksək məsuliyyətlə və professional səviyyədə icra etmişdir.

"Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-də İnfrastruktur Tikinti Departamentinin rəhbəri işlədiyi zaman Ziya Bunyadov prospektindəki tunelin tikintisində iştirak etmişdir.

Uğurlu Şərifov nəqliyyat, sənaye və istehsalat işində də çalışaraq, "Azərsənayetikinti" Dövlət Şirkətində, Nəqliyyat Nazirliyində, "Akkord STİK" ASC-nin və "EVRASCON" ASC – nin istehsalat, maşın-mexanizm və nəqliyyat sahələrində rəhbər vəzifələrdə çalışmışdır.

Hal-hazırda Uğurlu müəllim təsisçisi olduğu "AZBİLDİNQ QRUP" MMC-nin direktoru və "Soydaş" İctimai Birliyinin həmtəsisçisi və İdarə Heyətinin üzvüdür.



*"Şahdağ" yay-qış turizm kompleksi*



*Bakıda "Qələbə meydanı" müxtəlif səviyyəli tunel tipli yol qovşağı layihəsi çərçivəsində inşa edilən tuneldən görüntülər...*

U.L. Şərifov ailəlidir, 2 övladı var, heç bir siyasi partiyanın üzvü deyil.

Uğurlu Şərifov 09 Fevral 2020-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 34 saylı Xətai 2-ci seçki dairəsindən deputatlığa namizəd olmuşdur.

Uğurlu Şərifovun təsisçisi və İdarə Heyətinin üzvü olduğu “Soydaş” İctimai Birliyinin əsas fəaliyyət istiqaməti dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın sosial, mədəni, təhsil və digər sahələrdə yaranan problemlərinin ictimailəşdirilməsi və həllinə dəstək olmaqdan ibarətdir.

Eyni soydan olan və dünyanın müxtəlif ölkələrində yaşayan Azərbaycan türklərinin ideyaca özündə birləşməsi “Soydaş” İctimai Birliyinin əsas prioritet



*Bakı–Astara avtomobil yolu*



*Samtredi-Groqoleti/Gürcüstan avtomobil yolu*



*Ziya Bünyadov prospektində avtomobil tuneli*

istiqamətlərindəndir. Həmçinin, dünyaya səpələnmiş soydaşlarımızla onların yeganə milli-müstəqil dövləti olan Azərbaycan Respublikası arasında hər cür əlaqələrin möhkəmlənməsi, Azərbaycanın beynəlxlaq siyasi-iqtisadi sahədə nüfuzunun daha da artması, yaşadıqları ölkələrdə "milli azlıqlar" statusuna düşən soydaşlarımızın isə vətəndaşı olduğu ölkələrdə daha inamlı yaşayıb fəaliyyət göstərə bilmələri "Soydaş" İctimai Birliyinin qarşıya qoyduğu vəzifələrdəndir.

Uğurlu Şərifov 25 ildir ki, tikinti və tikintiyə aid sənaye-nəqliyyat sahəsində fəaliyyət göstərir. Bu illərdə tikintisində çalışdığı və rəhbərlik elədiyi bütün obyektləri ən böyük qazancı və ömrünə yazılmış ən uğurlu səhifələr hesab edir.



*Heydər Əliyev Mərkəzi*



*Alov Qüllələri...*



*Su İdmanı Sarayının avtodayanacaq hissəsinin inşası*





*Gəncəçayın sol sahilində, Gəncənin tarixi mərkəzində yerləşən, XVII əsrdə Arran memarlıq üslubunda inşa edilmiş Şah Abbas məscidi və ya Gəncə Cümə məscidi*

# V



**Vəliyev Asan Vəli oglu**

31 yanvar 1968-ci ildə Gürcüstan Respublikası Saqareco rayonu ərazisində yerləşən Qaracöp mahalının Ləmbəli kəndində anadan olmuşdur.

1985-ci ildə Ləmbəli kənd orta məktəbini bitirdikdən sonra Bakı şəhərinin Nərimanov rayonunda yerləşən "Azərelektroterm" Elmi İstehsalat Birliyinin (İndiki "Baku Stell Kompany" MMC) nəzdində fəaliyyət göstərən 86 nömrəli Texniki peşə məktəbinə qəbul olmuşdur. 1986-cı ildə texniki peşə məktəbini bitirərək istehsalatda yığıcı cilingər peşəsinə sahib olmuşdur və ilk iş yeri kimi "Azərelektroterm" EİB-nin 6 nömrəli sexində yığıcı cilingər kimi fəaliyyətə başlamışdır.

1986-cı ildə hərbi xidmətə yollanmışdır. 1988-ci ildə hərbi xidməti başa vurduqdan sonra 1989-cu ildə C. İldırım adına (İndiki Azərbaycan Texniki Universiteti) Azərbaycan Politexnik İnsitutunun Avtomatika və Hesablama texnikası fakültəsinə qəbul olmuşdur. Oxudugu dövrdə tələbə gənclər təşkilatının bütün tədbirlərində fəal iştirak etmişdir.







İnsitutu bitirdikdən sonra "Azərelektroterm" EİB-də (İndiki Baku Steel Kompany MMC) usta vəzifəsində işə başlamışdır. İşlədiyi muddətdə bir cox aparıcı vəzifələrdə calışmış, usta, baş usta və sex rəisi vəzifəsinədək yüksəlmişdir.

2006-cı ildə "İsa oglu" MMC-nin direktoru vəzifəsinə təyin olunmuşdur. Həmin MMC-də fəaliyyətini 2011-ci ilin fevral ayına qədər davam etdirmişdir.

2011-ci ilin mart ayından "Akkord" Sənaye Tikinti İnvestisiya Korparasiyasının nəzdində olan "Balaxanı Metal Məmulat-




*"Balaxanı Metal Məmulatları" Zavodunda hazırlanan metal konstruksiya işlərindən görüntülər...*












ları" Zavodunun müdiri vəzifəsinə təyin olunmuşdur. Həmin dövrdən müəssisə bir cox dövlət tədbirləri ilə əlaqədar metal konstruksiya işlərinin hazırlanmasında yaxından iştirak etmişdir. Avropa oyunlarının keçirildiyi dövrdə, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyində, İslam oyunlarının keçirildiyi dövrdə və bir çox başqa tədbirlərdə metal konstruksiya işlərində bir cox layihələrin hazırlanmasını həyata keçirmişdir.

İşlədiyi müddətdə bir cox fəxri fərmanlar, diplomlar almış və rəhbərliyin etimadını qazanaraq 2018-ci ildən "Balaxanı Metal Məmulatları" MMC-nin direktoru vəzifəsinə təyin olunmuşdur.

Hal-hazırda həmin vəzifəni layiqincə icra edir.

Ailəlidir, iki övladı var.



**Vəli-zadə Çingiz Vəli oğlu**

25 may 1944-cü il tarixdə müəllim ailəsində anadan olmuşdur. Atası Vəli-zadə Vəli Abdulla oğlu mühəndis – inşaatçı ixtisası üzrə uzun illər peşəkar texniki təhsil sistemində çalışmışdır. Dəfələrlə SSRİ-nin orden və medalları ilə təltif olunmuşdur. Uzun illər peşəkar texniki təhsil üzrə rəhbər işçilərin ixtisasının artırılması üzrə Ümumittifaq İnstitutunun Bakı filialının direktoru vəzifəsində işləmiş və çoxillik səmərəli fəaliyyətinə görə “Əməkdar müəllim” fəxri adına layiq görülmüşdür.

Anası Məhmudbəyova Nəsibə Seyfulla qızı, ixtisasca müəllim olub, iyirmi ildən artıq müddət ərzində orta məktəbdə işləmişdir. Bacısı Sənubər Vəli-zadə qırx ildən artıqdır ki, Azərbaycan Milli Elmlər Akademiyasının Genetik Ehtiyatları İnstitutunda işləyir.

Ç.V. Vəli-zadə ilk əmək fəaliyyətinə “Orcenikidzeneft” NQÇİ-də operator vəzifəsində başlamışdır. Azərbaycan Politexnik İnstitutunu mühəndis-mexanik ixtisası üzrə bitirmişdir.

Çingiz müəllim1968-ci ildən etibarən Azərbayan SSR Sənaye Tikinti Materialları Nazirliyinin baş mexanika və energetika şöbəsində mühəndis işləmişdir. 1975-ci ildə isə o, Azərbaycan KP MK təşkilat şöbəsində təlimatçı kimi çalışmış və öz ixtisası üzrə işə keçirilməsi ilə bağlı olaraq Azərbayan SSR Sənaye Tikinti Materialları Nazirliyinin baş mexanika və energetika şöbəsinin rəisi təyin olunmuşdur. O, bu vəzifədə on ildən artıq müddətdə çalışaraq bu sahəyə tabe olan 38 müəssisələrin fasiləsiz işi ilə bağlı praktik tədbirlər görmüş, texnoloji və elektrotexniki avadanlıqların düzgün istismarına, eləcə də, sahənin istismar olunan və inşa olunan müəssisələrinin avadanlıq və elektrik materialları ilə vaxtı-vaxtında təmin olunmasına mütəmadi olaraq nəzarət etmiş və yardım göstərmişdir.

Çingiz Vəli-zadə 1985-ci ildə bu sahənin müəssisələrini texnoloji və qeyri – standartlaşdırılmış avadanlıq, ehtiyat hissələri və kəsici alətlər ilə təmin etmək üçün yeganə mexaniki-təmir bazası olan Vorovski adına Bakı Təcrübə – Mexaniki Tökmə Eksperimental zavodunun direktoru təyin olunmuşdur. Bu zavodun məhsullarının əsas istehlakçıları mişar daşının və üzlük materialları istehsalı ilə məşğul olan SSRİ-nin müəssisələri, kərpicin və qeyri-filiz materiallarının istehsalı üzrə ölkə müəssisələri, azbest-şifer kombinatı, sement zavodu və digərləri olmuşdur. Eyni zamanda, Çingiz müəllim direktor vəzifəsində çalışdığı müddət ərzində istehsalat fəaliyyəti ilə də məşğul olmuş və fasiləsiz olaraq işləyən çuğun – tökmə və polad – tökmə sexlərinin məişət otaqlarının əsaslı təmirinə xüsusi diqqət yetirmişdir. Aidiyyəti uşaq bağçası əsaslı təmir olunduqdan sonra yeni mebel ilə tam olaraq təchiz olunmuşdur. 1987-ci ildə istehsal prosesini dayandırmadan kollektivin öz qüvvəsi hesabına qazanxana – dəmirçixana və taxta taralar sexi inşa olunaraq, müasir texnoloji avadanlıq ilə təchiz olunmuşdur.

Əmək intiziamının qorunması üzrə tutulan prinsipial mövqe defisit hesab



*Azərbayan SSR Sənaye Tikinti Materialları Nazirliyinin kollektivi ilə...*

olunan daş kəsən maşınların istehsalını 48 vahiddən 102 vahidə qədər artırmağa, məhsulun keyfiyyətini yaxşılaşdırmağa və çuğun lyukları xarici ölkələrə ixrac etməyə imkan vermişdir. Mürəkkəb siyasi gərginlik şəraitində zavod 1988-1990-cı illər ərzində praktiki olaraq bir gün də fəaliyyətini dayandırmamışdır, kollektiv isə istehsal planını vicdanla yerinə yetirmişdir.

1989-cu ildə respublikada işçi yerlərinin təşkili üçün rəhbər kollektiv tərəfindən Şuşa şəhərində mexaniki sex inşa olunmuş, texnoloji avadanlıq ilə bütünlüklə təchiz olunmuş və istismara buraxılmışdır. Əfsanəvi şair Səməd Vurğunun ev muzeyinin təmirinə, Opera və Balet teatrının yenidən qurulmasına, 1990-cı ildə Azərbaycanın xalq şairi Ə. Vahidin heykəlinin Bakı şəhərinin mərkəzində hazırlanmasına və quraşdırılmasına yardım göstərilmişdir.

O, dövlət idarəetməsi üzrə yüksək rütbəli şəxslər üçün SSRİ Nazirlər Sovetinin nəzdində Xalq Təsərrüffatı Akademiyasını bitirərək iqtisad elmləri namizədi elmi dərəcəsini almaq məqsədilə dissertasiya müdafiə etmişdir.

Çingiz Vəli oğlu Vəlizadə 1995-2001-ci illər ərzində "Qığılcım" zavodunda işlədiyi müddət dövrdə ölkənin hərbi hissələri üçün xüsusi məmulatların keyfiyyətli və qənaətli şəkildə hazırlanması üzrə kollektivin iqtisadi və kommersiya işini təşkil etmiş, 2003 – 2014-cü illər arasında isə əvvəllər elektrik mühərrikləri istehsal olunan "Bakelektromaşın" Səhmdar Cəmiyyətində kollektivin qüvvələri hesabına daş kəsən maşınların və onların ehtiyat hissələrinin istehsalını təşkil etmişdir.

Çingiz Vəli oğlu Vəlizadə 2006-cı ildən təqaüdə çıxmışdır.

"Bizim fikirlər" və "Bizim problemlər", eləcə də, "Bizim ailə" və "Bizim fikirlər" bioqrafik ədəbi nəşrlərinin, o cümlədən də, tarixi "Bizim Qarabağ" nəşrinin müəllifidir. Nəşrlərdə bütün yaş dövrlərində

rast gəlinən çoxsaylı həyat problemlərinin mövcudluğu, ənənələrə riayət olunması zərurəti və insanın sağlam şüurunun, həqiqəti yalandan fərqləndirərək düzgün düşünmək qabiliyyətinin mövcudluğu qeyd olunaraq böyüməkdə olan gənc nəslin rolu, artan problemlərin dəf olunmasında etimadın, səbrin və imanın mövcudluğu zərurəti və hər bir ailədə, kollektivdə və ölkədə mehriban abu-havanın qurulması zərurəti xüsusi olaraq qeyd olunur.

Maraqlı bir ömür yolu keçərək ömrün 75-inə çatmış Çingiz müəllim yaşadığı ömürdən çox məmnundur. Deyir ki, 75 yaşa necə gəldiyini heç özü də bilmir. Başı işə gücə o qədər qarışıb ki, vaxtın, zamanın necə sürətlə keçdiyini hiss etməyib. İllərin necə keçdiyindən bir də 75-də xəbər tutub. Çingiz müəllim bu yaşa şərəfli bir ömür yolu keçərək gəlib. Harda, hansı vəzifədə işləməsindən asılı olmayaraq onun üçün kollektivin, dövləti və xalqın maraqları həmişə birinci olmuşdur. O, heç vaxt ədalətszliyə yol verməmiş, hər bir işçsinin problemlərinin həllinə imkan daxilində çiyin verməyə çalışmışdır.

Çingiz Vəli-zadə belə hesab edir ki, çox da səsli olmayan şüarlar deyil, Azərbaycanın tarixi ərazilərinin tam toxunulmazlığı və qeyri-qanuni şəkildə zəbt olunmuş 20 faiz ərazinin istənilən yolla qeyd – şərtsiz qaytarılması xalqın həyatının aynasıdır.

Çingiz müəllim sadə insandır. O, hansı müəssisədə, hansı vəzifədə çalışmağından asılı olmayaraq həmişə peşəkarlıq nümayiş etdirib, bütün kollektivə örnək olub.

Çingiz müəllim bu gün müdriklik yaşında dönüb arxaya baxanda fəxr edə biləcəyi nailiyyətlərini görür.

O, rəhbərlik elədiyi kollektivin hər bir üzvünün, ehtiyacı olan insanların xeyir-şər məclislərində hər zaman yaxından iştirak etmiş, maddi və mənəvi köməkliyini əsirgəməmişdir.

Çingiz Vəli-zadə hansı vəzifədə çalışıbsa, işə vicdanlı münasibəti və vətəndaşlıq mövqeyi ilə seçilib, kiçikliyindən və yaxud böyüklüyündən asılı olmayaraq çalışdığı vəzifədə məsuliyyətlə işləyib.

Çingiz müəllim ailəlidir. Həyat yoldaşı Yelena Vəli-zadə ixtisasca rus dili müəllimi olub, iyirmi ilə yaxın müddətdə əcnəbi tələbələrə dərs demişdir. Qızı Leyla Vəli-zadə orta məktəbi əla qiymətlərlə bitirərək, qızıl medalın sahibi kimi bir imtahanla Azərbaycan Tibb İnsitituna daxil olmuş, bu ali təhsil ocağını bitrdikdən sonra demək olar ki, on il Mərkəzi Klinik xəstəxanada həkim işləmişdir və hal – hazırda xarici tibb şirkətinin nümayəndəsi vəzifəsində çalışır.

Çingiz müəllimin iki nəvəsi var. Böyük nəvəsi Mikayılın 17 yaşı, kiçik nəvəsi Aylinin isə 10 yaşı var.

Çingiz müəllim 13 ildir ki, təqaüddədir, ancaq bu gün də çalışdığı sahənin mütəxəssisləri ondan məsləhət alırlar və onun çoxillik təcrübəsi, bu sahə üzrə bilikləri bu günkü cavan mütəxəssislərin karına gəlir. Çingiz müəllim də bir ağsaqqal böyüklüyü ilə ona müraciət edən hər kəsə qayğı ilə yanaşır, əlindən gələn köməyi əsirgəmir.

# Y



**Yusifov Nizami Rasim oğlu**

19 avqust 1959-cu ildə Qax rayonunun Qax-Gürcü kəndində müəllim ailəsində anadan olmuşdur. Orta təhsilini 1976-cı ildə Bakı şəhəri 225 saylı məktəbdə müvəffəqiyyətlə başa vurmuşdur.

Orta təhsilini başa vurduqdan sonra əmək fəaliyyətinə "Azərdövlətkəndtikintilayihə" İnstitutunda korrektor vəzifəsində başlamışdır. Bir il keçdikdən sonra 1977-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna (AzİMİ) daxil olmuş və 1982-ci ildə inşaat fakültəsinin "Sənaye və mülki tikinti" ixtisası üzrə təhsilini müvəffəqiyyətlə başa vuraraq inşaatçı-mühəndis diplomuna layiq görülmüşdür. Gənc tələbə Nizaminin institut illəri çox fəal və səmərəli keçmişdir. Elmə həvəs institutun 1-ci kursundan tələbəlik fəaliyyətində özünü büruzə vermişdir. Bunu hiss edən ali təhsil ocağının müəllim və professorları Nizamini institutda kafedralarda təsərrüfat hesabı ilə yerinə yetirilən elmi-tədqiqat işlərinə cəlb edirlər və bu, bir çox sevindirici nəticələr verir. Nizami bir gənc tələbə kimi təhsil illərində Respublika və Ümumittifaq elmi konfranslarında fəal iştirak edərək ən yaxşı tələbə tədqiqatlarına görə dəfələrlə 1-ci dərəcəli diplomlara layiq görülür.

1979-cu ildə, o, tələbələr arasında keçirilən "Ən yaxşı elmi iş" müsabiqəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsis etdiyi medalla təltif edilir.

1981-ci ildə isə Nizami Yusifov "Estetika, texniki və humanitar fənlər üzrə ən yaxşı tələbə elmi işi" Ümumittifaq Müsabiqəsində SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin Diplomu ilə təltif olunur.

Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra təyinatla "Xəzərdənizneftikinti" trestinin 7 saylı Tikinti Quraşdırma İdarəsində əmək fəaliyyətini davam etdirmişdir. 1982-1984-cü illərdə ordu sıralarında qulluq etdikdən sonra 1985-ci ilin ortalarına qədər "Meşəağacsənaye" Nazirliyinin Təmir Tikinti İdarəsində təhlükəsizlik texnikası üzrə mühəndis vəzifəsində çalışmışdır.

O, 1985-ci ildən yeni yaranmış Azərbaycan İnşaat və Memarlıq Elmi Təd-

qiqat İnstitutuna (AzİMETİ) keçmiş və mühəndis, kiçik elmi işçi kimi bilavasitə tikintidə elmi problemlərin təhlil və tədqiqatı ilə məşğul olaraq taleyini bu instituta bağlamışdır.

Nizami Yusifovun rəhbərlik etdiyi "İnşaat materialları və konstruksiyaları" laboratoriyası keçmiş SSRİ-nin Moskva şəhərində yerləşən Ümumittifaq Beton və Dəmirbeton Elmi-Tədqiqat İnstitutunun (NİİJB) 1972-ci ildən fəaliyyət göstərən Bakı laboratoriyası bazasında yaradılmışdır.

1985-ci ildən Nizami Yusifovun Azərbaycan İnşaat və Memarlıq Elmi Tədqiqat İnstitutundakı (AzİMETİ) fəaliyyət illəri başlayır. Elmi fikirlərini daha da təkmilləşdirmək və müəyyən nəticələr əldə etmək məqsədilə o, üç il keçdikdən sonra 1988-ci ildə Moskva şəhərində Ümumittifaq Qiyabi İnşaat Mühəndisləri İnstitutuna uğurla imtahan verərək əyani aspiranturaya daxil olur. Aspirantura illərində tədqiqatlarını və elmi işini "Kimya sənayesinin obyektlərində orta və güclü aqressiv mühitlərdə istifadə olunan polimerbeton inşaat konstruksiyalarının çatadavamlığı" mövzusunda başa vurduqdan və uğurla müdafiə etdikdən sonra 1993-cü ilin mart ayında Ali Attestasiya Komissiyasının qərarına əsasən texnika üzrə fəlsəfə doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının 10 yanvar 1996-cı il tarixli qərarı ilə ona "Konstruksiyalar, binalar və qurğular" ixtisası üzrə Baş Elmi İşçi elmi adı verilmişdir.

İnsitutda fəaliyyət göstərdiyi illər ərzində N.R. Yusifovun iştiraki ilə respublikada istehsal olunan yerli materiallardan istifadə etməklə mühafizə tavalarının (döşlüklərin) tədqiqi və hazırlanması texnologiyasının, yeni çeşidli divar daşlarından hazırlanmış hörgünün yükdaşıma göstəricilərinin tədqiqi, hörgü texnologiyası və hesablanması üçün tövsiyələrin işlənməsi, karkas konstruksiyaları ИИС-04-0 seriyalı binalar üçün adi armaturla layihələndirilmiş uzunluğu 6,36 m olan dəmir-beton örtük tavalarının sınağı, yerli xammaldan istifadə etməklə bir nöqtəyə düşən zərbə yüklərinə davamlı məmulatın hazırlanma texnologiyasının tədqiq edilməsi, sınaq nümunələrinin hazırlanması və kütləvi istehsal üçün tövsiyələrin işlənilməsi, qəza vəziyyətli binaların yükdaşıyan konstruksiyalarının gücləndirilməsi və bərpa üçün tövsiyələrin verilməsi üzrə tədqiqat işləri və bir çox bina və qurğularda inşaat konstruksiyalarının sınağı aparılmışdır.

Nizami Yusifov 1995-ci ildən institutun elmi işlər üzrə direktor müavini, 2008-ci ildən "İnşaat materialları və konstruksiyaları" laboratoriyasının müdiri vəzifəsində çalışır.

2000-2006-cı illərdə Azərbaycan Dövlət Tikinti və Arxitektura Komitəsinin Elmi-Texniki şuralarının, 1994-cü ildən AzİMETİ-nin Elmi Şurasının və 2000-ci ildən etibarən Memarlar İttifaqının üzvüdür.

Onun ümumi iş təcrübəsi 43 il (1976-cı ildən fasiləsiz) o cümlədən 33 ili məhz inşaat sahəsi üzrə elmi-tədqiqat (konstruksiya və inşaat materialları, o cümlədən Daş, metal və dəmir-beton), bina və mühəndisi qurğuların mühəndisi-müayinə, layihələndirmə, Azərbaycan Respublikası normativ sənədlərinin işlənilməsi ilə bağlıdır.

Eyni zamanda Nizami müəllim 1998-2003-cü illərdə "LANDMARK I, II" ("LİBRA" Böyük Britaniya-Azərbaycan birgə müəssisəsində) in-

şaat mühəndisi, layihə müdiri və 2003-2009-cu illərdə 22 mərtəbəli "LANDMARK III" iş mərkəzi binalarının tikintisinin ("MÜDÜROĞLU LTD" Kipr-Azərbaycan birgə müəssisəsində) layihə müdiri kimi işləmişdir.

O, 100-dən çox elmi məqalənin, 6 normativ sənədin müəllifi, 24 müəlliflik şəhadətnaməsinin, 40-dan çox yüksəkmərtəbəli binaların layihələndirilməsi üçün xüsusi Texniki Şərtlərin həmmüəllifi və 59 elmi-tədqiqat işinin rəhbəri və icraçısıdır.

Nizami Yusifovun rəhbərliyi altında Azərbaycan Respublikasının tikinti sahəsində 3 normativ sənədi ("Yüklər və təsirlər", "Dam örtükləri", "Korroziyadan mühafizə") işlənilmişdir.

O, Memarlar İttifaqlarının Beynəlxalq Assosiasiyasının VI Beynəlxalq baxışında iştirak etmiş və müəlliflər kollektivi ilə birlikdə Diploma layiq görülmüşdür.

Niami müəllim respublika və Bakı ərazisində yerləşən 300-dən çox tikili və obyektlərin, o cümlədən Azərbaycan Dövlət Filarmoniyası (həm də layihənin baş mühəndisi kimi), Bakı şəhərində "Göy-Göl" mehmanxanası (hal hazırda LUKOYL Bakı ofisi), AR Elmlər Akademiyası, "İnturist", AR Vergilər Nazirliyinin binaları, Quba şəhərində Hacı Cəfər məscidi, "AzKOMBANK" kommersiya bankının binası, Azərbaycan radiosu və televiziyasının metal teleqülləsi, T.Bəhramov adına Respublika Stadionunun projektor qüllələri, Pirsaat qəsəbəsində ötürücü Radiostansiya, Teleradio İB-nin "Teleqüllə"si, Dövlət Neft Şirkətinin inzibati binası, Respublika Tibbi Klinik Mərkəzinin korpusları, Milli Profilaktika mərkəzinin, İstiqlaliyyət 1, Səbayıl rayonu Nizami küç.81 və Mərdanov qardaşları 18, H.Əliyev adına Respublika Sarayı, Respublika Əl Oyunları sarayı, T.Əliyarbəyov 2 və 4, İstiqlaliyyət 5 və 7 ünvanlarında yaşayış binaları, İ Əfəndiyev adına Elit Gimnaziyası, Bakı şəhərində 132 və 134 saylı beynəlxalq gimnaziya binaları, İçərişəhər Dövlət Tarixi Memarlıq Qoruğu ərazisində "Gileyli" və "Xıdır" məscidləri, A.Zeynallı 63a ünvanında "Məktəb Məscid" binası, Ağa Mikayıl və Qasımbəy hamamları, H.Rzayeva 11 ünvanında "Alban Məbədi kompleksi", M.Maqomayev 20 ünvanda Marioyet teatrının, "İçərişəhər" DTMQ ərazisində B.Qala küçəsində "Turizm İnfrastruktur mərkəzi", İ.Əfəndiyev 16, M.Şəfi 6 və A.Zeynallı 7 ünvanında yaşayış binaları, Gəncə Müalicə Diaqnostika mərkəzi, Sumqayıt şəhəri "Kimyaçılar Mədəniyyən sarayı, Bakı şəhərində S.Orucov 28 ünvanda AR Dövlət Neft şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin İnzibatı Binaları və s. mühəndisi-müayinəsinin tədqiqat rəhbəri olmuşdur.

O, Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ və s. Beynəlxalq Aeroportlarının uçuş-enmə zolaqlarının yükgötürmə qabiliyyətlərinin qiymətləndirilməsi üzrə tədqiqatların rəhbəri və müəllifidir.

Nizami Yusifov AzİMETİ-də həm də çoxillik layihələndirmə təcrübəsinə malikdir. "LUKOYL" ("Göy-göl" mehmanxanası) şirkətinin binasının, İstiqlaliyyət 1 ünvanında memarlıq abidəsi olan 5 mərtəbəli yaşayış binasının (Sadıqov qardaşları binası), Bakı şəhəri Respublika Milli Profilaktika Mərkəzinin binasının, Respublika Tibbi Klinik Mərkəzinin korpuslarının, H.Əliyev adına Respublika sarayının, Respublika Əl Oyunları sarayının, Musiqili komediya teatrının

yenidənqurulması, Bakı şəhərində 132 və 134 saylı beynəlxalq gimnaziya binalarının yenidənqurulması və konstruksiyalarının gücləndirilməsi layihələri, Səbail rayonu Niyazi küçəsi 5 ünvanında Prezident fondunun binasının, Bakı şəh. T.Şıxlinski küç. 14 ünvanda 14 və 16 mərtəbəli və Həsənoğlu küç. 14 mərtəbəli yaşayış binaları (2004), Gəncə şəhəri uşaq əyləncə mərkəzinin (5 mərtəbəli) binası və s. layihələndirilməsi, H.Əliyev adına Respublika sarayının konstruksiyalarının gücləndirilməsi layihələndirilməsi, T.Əliyarbəyov 2 və 4, İstiqlaliyyət 5 və 7, İ.Nəbiyev küçəsində 8 ədəd, Atatürk prospektində 9 mərtəbəli 117-135 və 143-161 saylı ünvanlarda yaşayış binalarının fasadlarının yenidənqurulması, İ Əfəndiyev adına Elitar Gimnaziya binasının fasadlarının yenidənqurulması və s. layihələr Nizami Yusifovun layihələndirmə sahəsində əldə etdiyi uğurlardır.

Nizami müəllimin gördüyü işlərin bir sıra spesifik xüsusiyyətləri, fərqli cəhətləri vardır. Onun rəhbərlik etdiyi labaratoiyanın mütəxəssisləri və o, özü də bina və qurğuların müayinəsi sahəsində fəaliyyət göstərir.

Nizami müəllim bir çox memarlarla əməkdaşlıq etmişdir. Respublikanın əməkdar memarı İlqar İsbatovla müştərək olaraq bir neçə hündür mərtəbəli yaşayış binalarının fasad layihələrinin üzlənməsini həyata keçirib, onlardan iki ədəd 12 mərtəbəli yaşayış binalarının fasadlarının yenidən qurulması layihəsini qeyd edə bilərik ki, onun memarlıq tərəfini İlqar İsbatov, konstruksiya tərəfini isə Nizami müəllim işləyib və onlar yaradıcı insan olaraq bu binaların fasadlarının işlənməsinə fərqli prizmadan yanaşaraq sadəlikdən kənara çıxıblar ki, həmin binalar bu gün öz gözəlliyi ilə seçilir.

Burda bir haşiyə çıxaq ki, 132 və 134 saylı Gimnaziyanın yenidən qurulması zamanı bir sıra çətinliklər ortaya çıxmışdı. Əsas etibarı ılə bu çətinliklər binanın XIX-cu əsrin sonlarında inşa olunması, zəlzələyədavamlılığının məhdud olması, 2000-ci ildə Abşeron ərazisində baş vermiş zəlzələ təsirləri nəticəsində zədələnməsi, bir hissəsinin hətta qəzalı olması və müasir normativ sənədlərin tələblərinə uyğunlaşdırılmasının mürəkkəb və maliyyə baxımından baha başa gəlməsi idi. Bina H.Zeynalabdin Tağıyevin vəsaiti hesabına şərqdə tikilmiş ilk qızlar gimnaziyası olması baxımından tarixi əhəmiyyət kəsb edir. Məhz bu məqam nəzərə alınmaqla möhtərəm Prezidentimiz cənab İlham Əliyev tapşırıq vermişdi: Texniki çətinliklərə baxmadan necə tələb olunursa, o formada da binanın gücləndirilməsi və yenidənqurulması işlənilməlıdır. Çünki bu bina millətin və ölkənin tarixidir. Bina olduğu kimi saxlamalıdır. Bu tapşırığı əsas qəbul edən layihə müəllifləri faktiki olaraq binanı adi daş binadan dəmir-beton örtüklü, zəlzələyədavamlı ikinci tip karkas binaya çevirdilər. Tikintini başqa şirkət aparsa da layihəyə texniki nəzarət və layihənin icrası Nizami Yusifovun rəhbərliyi altında həyata keçirildi.

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində 2000-ci illərin əvvəllərində müyyən proqram hazırlanmışdı və bu proqram əsasında da tarixi binaların bərpa və gücləndirilməsi qarşıya vacib məsələ kimi qoyulmuşdu. İşin maraqlı və xarakterik tərəfi odur ki, məsələn İçərişəhərdə çoxlu sayda tarixi memarlıq abidələri olan

binalar var idi ki, onlardan bir neçəsi çox çətin və mürəkkəb idi və yaradıcı yanaşma tələb edirdi və həm də çox maraqlı işlər idi. Bu binalara bir az başqa səpkidən yanaşmaq lazım idi, çünki burda tarix var idi, memarlıq var idi və hər konstruktiv həlli bu binaların fasadına çıxarmaq düz olmazdı.

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri cənab Samir Nuriyev o zaman "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi vəzifəsində çalışırdı və orada aparılan bərpa-quruculuq işlərinə bir mütəxəssis kimi Nizami müəllimi cəlb etmişdir. Nizami müəllim bu işlərə xüsusi diqqətlə yanaşdı və peşəkarlıqla yerinə yetirməyə müvəffəq oldu. Deyək ki, texniki ədəbiyyatlardan məlum olan və amma tətbiqinə digər mühəndislərin ehtiyatla yanaşdığı bir sıra üsulları bu layihələrdə tətbiq edib müsbət nəticələr əldə etdi.

Nizami müəllimin qrupu bir çox binaların həm mühəndisi müayinəsi, həm də bərpa gücləndirilməsi üçün fərqli layihələr işlədi və bütün bu işlər hamısı həyata keçdi. Bu gün o binalar tarixi memarlıq abidələri kimi yaşayır, ömrü bir az da artmış, dayanıqlığı təmin olunmuşdur.

Həmçinin Nizami Yusifov "İçərişəhər" DTM Qoruğu ərazisində bir çox bina və abidələrin bərpası ilə bağlı təkliflər də vermiş və eyni zamanda bir neçə başqa obyektlərdə aparılan işlərə mütəxssis kimi dəvət olunmuşdu.

2000-ci il Bakı zəlzələsi zamanı İçərişəhər ərazisində bəzi binalar zədələnmişdi ki, o zaman maliyyə vəsaiti az olduğuna görə binalarda yalnız uçma təhlükəsinin qarşısını almaq üçün müəyyən işlər görülmüşdü. Nizami Yusifovun rəhbərlik etdiyi layihələrdə mühəndisi baxımdan tələb olunan işlər başa çatdırıldı.

Bu gün bina və qurğuların layihələndirməsi sahəsində kifayət qədər gənc kadrlarımız vadır. Onlar bu işləri yaxşı görə bilsələr də hündürmərtəbəli binaların layihələndirilməsinə daha çox meyl edirlər. Bu sahədə Nizami müəllim gənclərə yaxından köməklik edir və öz təcrübəsini onlara öyrədir.

Mənzil İnşaatı Dövlət Agentliyinin istər Yasamal, istər Hövsan, istərsə də tikintisinə təzə başlanılmış Sumqayıt layihələrində bir sıra binaların tikintilərində işlədilən inşaat materiallarının keyfiyyəti ilə Nizami müəllimin rəhbərlik etdiyi labaratoriya da məşğul olur. Tikinti-quraşdırma işləri keyfiyyətli görülsün deyə o, laboratoriya rəhbəri kimi həvalə olunmuş bütün işlərə ciddi nəzarət edir.

Nizami Yusifovun fəaliyyətində bir maraqlı istiqamət də aeroportların perron sahəsində və təyyarə dayanacaqlarında örtük konstruksiyalarının yükgötürmə qabiliyyətinin hesablanmasının aparılmasıdır. O, bu işə Azad Əmrahovla bir yerdə başlamış və hal-hazırda da davam etdirirlər.

Deyək ki, keçmiş SSRİ məkanında bu sahədə iki mərkəz fəaliyyət göstərirdi, biri Moskvada, digəri isə Kiyev şəhərində idi. O dövrdə Azərbyacanda bu işlə məşğul olan nə bir mərkəz var idi, nə də bir mütəxəssis. 2005-ci illərdə Nizami müəllim bu işi öz üzərinə götürdü və ötən müddətdə bir sıra aeroportların uçuş-enmə zolaqlarının texniki qiymətləndirilməsi və örtüklərin layihələndirilməsi işlərini uğurla həyata keçirdi.

Bundan başqa Nizami müəllimin laboratoriyası yüksək mərtəbəli yaşayış binalarının fasadlarının üzlənməsi işlərinin layihələndirilməsi üçün texniki şərtlərin işlənməsini də həyata keçirir. Bina-

larin fasadları elə layihələndirilməlidir ki, davamlı olsun, aşınmaya, deformasiyaya məruz qalmasın, ətraf mühit üçün təhlükə yaratmasın. Bu problemin həllində Nizami müəllimin tövsiyyələri əsasında yeni konsepsiya və layihələr işlənilmişdir. Komitənin sifarişi ilə bu istiqamətdə o, bir sıra təhqiqat işləri aparmışdır. Bu tədqiqat işlərinin nəticəsi olaraq üzlük daşlarının işlənilməsi üzrə tövsiyyə xarakterli bir sənəd də hazırlanıb.

2008-ci ildən hal-hazıra qədər laboratoriya müdiri vəzifəsində çalışan Nizami Rasim oğlu özünü bacarıqlı, yüksək idarəetmə qabiliyyətinə malik, peşəkar mütəxəssis kimi göstərmişdir. Onun rəhbərlik etdiyi laboratoriyada cavan elmi kadrların hazırlanmasına da çox ciddi fikir verilir. Onun laboratoriyasında bir nəfər elmi işini başa çatdırıb və doktorluq dissertasiyasını müdafiə etmişdir. Elmi işçi, memar Qasımova Vüsalə Zeynal qızı institutun doktoranturasında təhsilini davam etdirir. Şübhə yoxdur ki, bu yaxınlarda institutda cavan elmi kadrların sayı daha da artacaq və biz Nizami müəllimin daha böyük uğurlarına şahid olacağıq.

Nizami Yusifov məsuliyyətli, tələbkar, təvazökar və ziyalı bir insan kimi kollektivdə nüfuz və hörmət qazanmışdır.

# Z



**Zərbəliyev Fuad İbrahim oğlu**

16 iyul 1951-ci ildə Rusiya Federasiyası Amur Vilayətinin Vozjayevsk qəsəbəsində hərbiçi ailəsində anadan olub. Atası, 1920-ci il təvəllüdlü Zərbəliyev İbrahim Mikayıl oğlu tibb xidməti polkovnik-leytenantı rütbəsində Böyük Vətən Müharibəsi iştirakçısı olmuş və azərbaycanlılardan ibarət 416-cı Taqanqoroq diviziyasının tərkibində şərəfli döyüş yolu keçmiş və 1964-cı ilin dekabrında haqq dünyasına qovuşmuşdur. Anası, 1919-ci il təvəllüdlü, Şərəbanı Rüstəm qızı Zərbəliyeva, ixtisasca həkim olmuş və uzun illər ərzində öz ixtisası üzrə çalışaraq 1993-ci ilin noyabrında vəfat etmişdir. Bacısı – 1947-ci il təvəllüdlü Məmmədova Esmira İbrahim qızı, ixtisasca həkimdir və hazırkı vaxtda təqaüdçüdür.

Fuad Zərbəliyev 1951-ci ildən 1964-ci ilin dekabrına qədər Uzaq Şərqdə – Primorsk diyarının Amur vilayətində yaşamış və 1958-ci ildə orda orta məktəbin birinci sinfinə getmişdir. O, atasının vəfatından sonra 1964-ci ilin dekabrında ailəsi ilə Vətənə - Bakıya gəlmiş və orta təhsilini Tofiq Hüseynov adına 134 saylı məktəbdə davam etdirmişdir.

F.İ. Zərbəliyev 1968-ci ildə orta məktəbi bitirib sənədlərini Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə vermiş və müvəffəq qiymətlərlə sənaye və mülki tikinti ixtisası üzrə qəbul olunmuşdur. O, 1974-ci ildə institutu sənaye və mülki tikinti ixtisası üzrə bitirib təyinatla 9-cu beşilliyin zərbəçi tikintisi elan olunmuş Bakı Məişət Kondisionerləri zavodunun tikintisinə göndərilmişdir. O, burada ilk əvvəl 1974-ci ilin sentyabr ayından zavod müdiriyyətinin Əsaslı Tikinti Şöbəsində mühəndis vəzifəsində işləyib, 1975-ci ilin iyun ayından 1976-cı ilin avqust ayınadək isə bu şöbənin böyük mühəndisi olmuşdur. Zavodun tikintisi başa çatdıqdan sonra Fuad Zərbəliyev 1976-cu ilin avqustunda hərbi xidmətə çağırılıb. O, İxtisaslaşmış quraşdırma batalyonunda manqa komandiri olaraq Zaqafqaziya Hərbi Dairəsi tikinti qoşunlarında xidmət edib və 1978-ci ilin avqust ayında hərbi xidmətini başa vurmuşdur.

F.İ. Zərbəliyev 10 oktyabr 1978-cu ildən Azərbaycan SSR Sənaye Tikinti Nazirliyinin 4 saylı tres-

tində İstehsalat şöbəsinin mühəndisi işləmişdir. O, 1978-ci ilin oktyabrında Tümen vilayətinin Nijnevartovsk şəhərinə ezam olunmuş və dekabrın 28-dək Nijnevartovsk inşaat dəstəsinin tərkibində baş iş icraçısı kimi çalışmış, 2 və 10 mərtəbəli yaşayış evlərinin inşasının başa çatdırılmasında gərgin əmək sərf etmişdir. Ezamiyyət başa çatdıqdan sonra o, 4 saylı trestin istehsalat şöbəsində 21 may 1979-cu ilədək çalışmışdır.

Fuad Zərbəliyev 1979-ci il mayın 21-də köçürmə yolu ilə Sənaye Tikinti Nazirliyinin yenidən təşkil olunmuş "Xüsusisənayequraşdırma" Trestinin Layihə Smeta Qrupunun rəisi vəzifəsinə təyin olunmuşdur.

F.İ. Zərbəliyev 28 iyul 1980-ci ildə "Xüsusisənayequraşdırma" Trestinin 1 saylı Xüsusi Tikinti Quraşdırma İdarəsininin istehsalat məsələləri üzrə rəis müavini vəzifəsinə təyin olunmuş və 1983-cü ilin əvvəlinə kimi burada işləmişdir. O, 3 yanvar 1983-ci ildən 1 saylı Xüsusi Tikinti Quraşdırma İdarəsininin baş mühəndisi vəzifəsinə təyin edilmiş və 1998-ci ilin may ayına qədər bu vəzifədə çalışaraq şərəfli quruculuq yolu keçmişdir.

Fuad müəllim bu müddət ərzində 100-dən çox iri masştablı obyektlərin tikintisinə rəhbərlik etmişdir. Bu obyektlərdən, Neft Maşınqayırma zavodları: Kirov adına zavod, Sərdarov adına zavod, Bakı Fəhləsi zavodu, BEMZ və başqaları, Neft emalı zavodları: Yeni Bakı Neftayırma Zavodu və BNZ, Dərin Özüllər zavodu, Şəki İpək kombinatı, Ələt Ağac Emalı Kombinatı, Əli-Bayramlı Cihazqayırma zavodu, M.F. Axundov adına Opera və Balet Teatrının yenidən qurulması, Mərdəkan qəsəbəsində Makaron fabriki, Şampan şərabları zavodu, "Azəeelektroterm" zavodu, 12-ci Dağüstü ərazidə 10 mərtəbəli yaşayış evləri, Bakıda Tətbiqi Fizika İnstitutunun binası, Elektron Hesablayıcı Maşınlar zavodu, Cihazqayırma zavodu, 2 nömrəli Ayaqqabı fabriki, Səngəçal terminalı və bir çox başqalarını qeyd etmək olar.



*Yeni Bakı Neftayırma Zavodu*

Fuad Zərbəliyev bütün bu illərdə işlə paralel olaraq Azərbaycan SSR Sənaye Tikinti Nazirliyinin nəzdində olan ehtiyat universitetində 2 illik təhsilini və "seysmik zonalarda tikinti" kursunu bitirmişdir. O, həmçinin paralel olaraq Sənaye Tikinti naziri Tofiq Səfərəliyevin tapşırığı ilə BAM-da Ulkan qəsəbəsinin tikintisinə də kömək edirdi.

F.İ. Zərbəliyev 1998-2001-ci illərdə "Nurgin" inşaat şirkətində "Nissan" avtosalonunun tikintisində tikinti rəisi işləmişdir.

O, 2001-ci ildən 2008-ci ilin avqustuna kimi isə özəl bölmədə çalışmış, fərdi yaşayış evlərinin tikintilərini həyata keçirmişdir.

Fuad Zərbəliyev 2008-ci ilin sentyabrından 2015-ci ilin sentyabr ayınadək "Gilan Holding" şirkətində "Grescent Development Project" obyektinin tikinti-

sində layihənin baş meneceri və layihənin texniki nəzarətçisi vəzifəsində çalışıb.

Fuad Zərbəliyev harda hansı vəzifədə çalışıbsa onun əməyi hər zaman rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir. 1980-ci ildə 2 saylı Ayaqqabı fabrikinin tikintisinin uğurla başa çatdırılmasındakı böyük xidmətlərinə görə Sənaye Tikinti Naziri Tofiq Səfərəliyevin tapşırığına əsasən fabrikin Modalar Evinin baş fasadında Fuad Zərbəliyevin Azərbaycan gəncliyi kompozisiya mozaikası təsvir olunmuşdu. Və bu mozaika 1980-2010-cu illər arasında mövcud olmuşdur. Lakin sonralar binada yenidənqurma işləri aparılarkən sökülmüşdür.

Fuad Zərbəliyevin respublikamızda inşaatçı kadrların yetişməsində əməyi böyükdür.

O, bu gün də iş başındadır və "Faktor Qrup-S" MMC-də texiki nəzarətçi vəzifəsində fəaliyyətini uğurla davam etdirir, tikir, qurur, yaradır və çoxillik, zəngin təcrübəsini gənc inşaatçılara həvəslə öyrədir.

F.İ. Zərbəliyev ailəlidir, Fidan adında bir qızı, İbrahim adında bir oğlu var. Həyat yoldaşı 1962-ci il təvəllüdlü Zərbəliyeva Səidə Mir Arif qızı musiqi müəllimidir.



**Zeynalov İbrahim İsmayıl oğlu**

1934-cü il dekabrın 27-də Bakı şəhərində anadan olmuşdur. Hələ kiçik yaşlarından sənətə olan böyük marağı onu natamam orta məktəbi bitirdikdən sonra 1951-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə gətirib çıxarmışdır. 1956-cı ildə məktəbin heykəltəraşlıq şöbəsini qurtaran İbrahim Zeynalov elə həmin ildən təhsilini Xarkov Rəssamlıq institutunda davam etdirmişdir. O, 1962-ci ildə institutun heykəltəraşlıq fakültəsində ali təhsilini başa vuraraq Bakıya qayıtmış və bütün ömrünü heykəltəraşlıq sənətinə həsr etmişdir.

1957-ci ildən etibarən ən müxtəlif respublika, ümumittifaq və beynəlxalq sərgilərin iştirakçısı olan İbrahim Zeynalov özünün sənətkarlıq fəaliyyətini pedaqoji işlə uğurla əlaqələndirmiş, 1971-1973-cü illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində müəllim, 1973-1993-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunda müəllim, baş müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışmışdır. O, 1994-cü ildən 2003-cü ilədək Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin direktoru olmuşdur.

Harada işləməsindən və hansı vəzifəni tutmasından asılı olmayaraq, İbrahim Zeynalov milli mədəni irsin təbliği, tədrisi və qorunmasında qüvvə və bacarığını əsirgəməmiş, özünün zəngin bilik və təcrübəsini gənc sənətkarlar nəslinin yetişdirilməsi işinə sərf etmişdir.

Azərbaycanda milli heykəltəraşlıq məktəbinin inkişaf etdirilməsində İbrahim Zeynalovun böyük xidmətləri olmuşdur. Onun monumental heykəl, büst-portret və digər heykəltəraşlıq janrlarında yaratdığı gözəl sənət əsərləri ölkəmizin zəngin ənənələrə malik heykəltəraşlıq mədəniyyətinin parlaq səhifələrindəndir.

İbrahim Zeynalov tarixi şəxsiyyətlərimizin, o cümlədən Mücirəddin Beylə-

qaninin, Əcəmi Naxçıvaninin, İmadəddin Nəsiminin, Şah İsmayıl Xətainin, İsmayıl bəy Qutqaşınlının, Mirzə Fətəli Axundovun, Mirzə Ələkbər Sabirin, Nəriman Nərimanovun və Hacı Zeynalabdin Tağıyevin unudulmaz obrazlarını gözəl abidələrə çevirərək mədəniyyət tariximizə həmişəlik həkk etmişdir. Yüksək bədii-estetik dəyəri, plastik forma rəngarəngliyi və milli koloriti ilə seçilən bu əsərlər Azərbaycan heykəltəraşlığının kamil nümunələri kimi təqdirəlayiqdir. Azərbaycanın müxtəlif guşələrini bəzəyən həmin abidələr artıq şəhər və rayonlarımızın görkəminin ayrılmaz hissəsi olmuşdur.

İbrahim Zeynalovun Azərbaycan mədəniyyəti qarşısındakı xidmətləri yüksək qiymətləndirilmişdir. O, 1972-ci ildə SSRİ dövlət mükafatı, 1976-cı ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, 1975-ci ildə Azərbaycanın Əməkdar incəsənət xadimi, 1988-ci ildə isə xalq rəssamı adına layiq görülmüşdür. O, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

2008-ci ilin martın 6-da ömrünün 74-cü ilində vəfat etmişdir.

## Diqqət!

Kitab keçmiş Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsində 2003-cü ilin yanvar ayında tərtib və təsdiq edilmiş siyahı, hazırda ölkə tikinti kompleksində təmsil olunan səhmdar cəmiyyətlərinin, MMC-lərin, tikinti yönümlü firma və müəssisələrin rəhbərlərinin təqdim etdikləri siyahı, tanınmış alimlərin, peşəkar inşaatçıların rəyi ilə "İnşaatçı" – "Stroitel" qəzetlərinin arxiv materiallarından və Vikipediyadan istifadə edilməklə hazırlanmışdır.

Kitabın ideya müəllifi 50 ildən çox bir müddətdə "İnşaatçı" qəzetində şöbə müdiri vəzifəsində çalışan tanınmış jurnalist və arxivşünas İbrahimov Bəhram Məhəmməd oğludur.

Ensiklopediyanın əvvəlki 5 cildi Bəhram müəllimin rəhbərliyi və iştirakı ilə nəşr olunmuşdur. Bu gün haqq dünyasında olan Bəhram müəllimin başladığı xeyirxah işi qələm dostları davam etdirir.

Kitab fiziki şəxs
**Allahverdiyev Zərbalı Mirzə oğlu**
tərəfindən çapa hazırlanmış və nəşr olunmuşdur.
**(VÖEN 1002057802)**

## Minnətdarlıq

"Azərbaycan Tiknti Kompleksinin Ensiklopediyası" kitabının IX cildi artıq hazırdır. Və biz materialların toplanmasında yaradıcı kollektivə hərtərəfli dəstək verən inşaatçılarımıza, kitabın çapında xüsusi rolu olan inşaat kollektivlərinin rəhbərlərinə sonsuz minnətdarlığımızı çatdırmaq istərdik. Hansı ki, bu kitab onların sırf vətəndaş təəssübkeşliyi və təmənnasız maddi-mənəvi dəstəkləri ilə çap olunmuşdur.

Biz hər zaman sənətinin fövqündə dayanan, ən xeyirxah peşə sahibləri olan inşaatçı və memarlarımıza güvənmişik və bu gün də güvənirik.

Hər zaman belə olacaq.

*Kompüter səhifələyicisi,*
*üz qabığının dizaynı:* **Niyazi Sadıqov**

*Operator:* **Həmid Allahverdiyev**

*Məsul korrektor:* **Niyazi Sadıqov**

*Korrektor:* **Xalidə Qafarova**

ŞƏRQ-QƏRB

Çapa imzalamışdır: 16.06.2020
Formatı 54x84 1/8. Fiziki çap vərəqi 27
Sifariş № 3370. Tiraj 400

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17
Tel: (+99412) 374 73 84, 374 83 43
Faks: (+99412) 370 18 49